# BAKI UNİVERSİTETİNİN

# XƏBƏRLƏRİ

ВЕСТНИК
БАКИНСКОГО УНИВЕРСИТЕТА

NEWS
OF BAKU UNIVERSITY

HUMANİTAR
*elmlər seriyası*

*серия*
ГУМАНИТАРНЫХ НАУК

*series of*
HUMANITARIAN SCIENCES

№ 1, 2025

Bakı – 2025

*Baş redaksiya heyəti:*

**Babayev E.S.** (baş redaktor), **Kazımzadə A.H.** (baş redaktorun müavini), **Əliyeva İ.N., Məmmədov Y.Ə., Əliyev İ.Ə., Paşayeva N.A., Rəcəbov M.R.** (məsul katib).

*Seriyanın redaksiya heyəti:*

**Zeynalov İ.X.** (redaktor), **İsmayılov X.İ.** (redaktorun müavini), **Quliyeva S.Z.** (məsul katib), **Əliyeva İ.S., Qurbanov A.İ., Əlizadə Y.M., Rzayev A.Ə., Əzizov E.Z., Hacıyev S.T., Vəliyev Ş.Q., Məmmədov C.Ə., Vəliyev M.T., Rüstəmov R.Ə.**

© Bakı Dövlət Universiteti, 2025

BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

№1 Humanitar elmlər seriyası 2025

## ƏDƏBİYYAT

UOT 821.512.161

# TÜRK ƏDƏBİYYATINDA VƏZN VƏ YENİ DİL MÜBAHİSƏLƏRİ

**Xuraman A. QƏDİMOVA**[*]

*İstanbulun Gülhanə parkında 1839-cu ildə "Hatt-ı Şerif"in (Padşah yazısı) oxunması – Tənzimatın elan edilməsi ilə yeni dövrə qədəm qoyan, çoxəsrlik milli və dini dəyərlər zəminində inkişaf etmiş türk ədəbiyyatında qərbləşmə prosesinə təkan verən böyük bir canlanma yarandı. Bəzilərinin "Edebiyat-ı Cedide" adlandırdığı bu prosesə paralel olaraq ədəbi dairələrdə fərqli mübahisələr 1860-cı illərdən sonra daha da geniş vüsət aldı. Ziyalıların böyük coşqu ilə girişdiyi, bir-biriləruinə isbatlamağa çalışdığı və təcrübələrini sərgilədikləri bu mühabisələrin ədəbiyyat tarixində silinməz iz buraxanları heç şübhəsiz ki, "Aruz-Hece" və "Yeni Lisan" mübahisələri olmuşdur.*

*Mübahisələrin başlıca mövzusu klassik ədəbiyyatda istifadə edilən əruz vəzni ilə xalq ədəbiyyatının ölçü vahidi hesab olunan heca vəzni idi. Bu mübahisə eyni zamanda osmanlıcanın ərəb və fars sözlərindən təmizlənməsi, yeni-yeni türk dili yaradılması fikrini də dəstəkləyirdi. Əslində poeziyada sillabik və kvantitativ olçü məsələsi müxtəlif dövrlərdə regionun digər ölkələrində, o cümlədən Azərbaycanda da şiddətli xarakter almışdı. Ancaq araşdırmalar göstərir ki, poeziyaya fərqli baxışların nəticəsi kimi meydana çıxan bu proses Türkiyədə daha kəskin xarakter daşımış, hətta opponentlərin bir-birini bəzən açıq-aydın şəkildə qırıcı həcvlər yazıb təhqir etməsinə belə gətirib çıxarmışdır.*

*Uzun illər davam edən bu mübahisələrə Hüseyin Cahit Yalçın, Rıza Tevfik, Ömer Naci Emin, Fuad Köprülü, Yakup Kadri kimi aydınlar da qoşulmuş, problemdən çıxış üçün fərqli fikirlər irəli sürmüş, bunları əsaslandırmağa çalışmışlar. Məqalədə Türkiyə qaynaqları əsasında həmin prosesin gedişi və xarakteri araşdırılmışdır.*

**Açar sözlər:** Türk ədəbiyyatı, qərbləşmə, heca, əruz, yeni dil, ədəbi mübahisə

**Giriş**. Dövrünün tanınmış yazarı və jurnalisti Hüseyin Cahit Yalçının (1875-1957) ətrafında qərbçiləri toplamış "*Servet-i Fünun*" jurnalının 1901-ci il 553-cü sayında "Fransızcadan" qeydi ilə dərc etdirdiyi "*Edebiyat ve Hukuk*" sərlövhəli məqalədə Fransa inqilabından bəhs edildiyi səbəbilə jur-

[*] Akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun doktorantı, f.ü.f.d.; xuramanqedimova@mail.ru; ORCİD İD: 0000-0002-5710-0139

nalın nəşri II Abdülhamit senzurası tərəfindən dayandırıldı [13, 1-14]. Əslində qərar nəinki mətndə öz əksini tapmamış, hətta nəzərdə belə tutulmayan “siyasi fikirlər”ə əsaslanmışdı. Bu hadisə təkcə populyar nəşrin bağlanmasına deyil, həm də coşqun inkişafda olan ədəbi aləmdə dərin sükuta gətirib çıxardı. Sükutu isə yalnız bir müddətdən sonra Selanikdəki “*Çocuk Bahçesi*” dərgisində dərc olunan “Türkcə şeirlər” pozdu. Türk “*Milli Edebiyat*” cərəyanının görkəmli nümayəndəsi şair Mehmet Emin Yurtakulun (1869-1944) “*Büyük Kardeşim Filosof Rıza Tevfik Beye*” qeydi ilə jurnalda dərc etdirdiyi “*Ölü Kafası*” şeirinə heca vəzninin müdafiəçisi olan və bu vəzndən ustalıqla bəhrələnən Rıza Tevfik Bölükbaşının (1869-1949) cavab məktubunun işıq üzü görməsi ilə ədəbi aləmdə kökü hələ “*Hazine-i Fünun*” jurnalına dayanan “*Aruz-Hece*” mübahisəsi yenidən başlamış oldu. Həmin şeirin ilk bəndi belə idi:

*Bir tarlada geziyordum; ayağıma katı bir şey takıldı;*
*Baktım: Kemik; dikkat ettim: Bir insanın kafasının gemiği.*
*Lakin aç yer, şu parçası kalan başı öyle yiyip emmiş ki,*
*Bilinmiyor kimin başı, bilinmiyor hangi asrın evladı?* [14, 105]

**Əruz, yoxsa heca?** Bir zamanlar əruz, sonralar isə heca vəznində şeirlər yazan, həm də altı dil bilən filosof kimi tanınan Rıza Tevfikin cavab məktubunda “*Anlamışsınız ki, Türkcə şeir yazmaq bu yabançılıqların hamısından qələmini qurtarmaq, zehnini təmizləmək ilə bərabər Türklüyün hashais-i fikriye ve hasail-i vicdaniyesine, zövqünə, keyfine, ehtiyacına, etiqadına görə yazmaqdır*” [5, 111] cümləsi yer almışdı. Onun türk poeziyasını tərifləməsindən sonra Ömer Nacinin (1878-1916) məqaləsi dərc olunmuş və o, heca vəzninə etiraz edərək “əruz ahəngdar, heca dissonantdır” fikrini irəli sürmüşdü. Bu yanaşmaya cavab olaraq Rıza Tevfik vəzni sadəcə bir alət kimi qəbul edir, hər iki vəznin usta əllərdə şah əsərlər yarada biləcəyinə inanır, əgər heca vəzni ilə bu günə qədər şah əsərlər yaradılmayıbsa, bunun günahı bir alət olan heca vəznində deyil, sənətkar olmayanların bacarıqsızlığındadır, deyirdi. O, fikirlərini əsaslandırmaq üçün Mehmet Eminin şeirlərinə istinad edir, onu bu işi yaxşı bacarmış bir şair adlandırırdı. [1, 594]

Ömer Naci isə Eminin şeirlərini tənqid edir və poeziyada harmoniya üçün əruzun daha uyğun olduğunu bildirirdi. Raif Necdet (1881-1937) həftəlik “*Çocuk Bahçesi*” jurnalında heca və əruzun eyni dəyərə malik olduğunu, sənətçinin öz seçiminə uyğun hərəkət edə biləcəyini qeyd edərək müzakirəni fərqli müstəviyə çəkirdi. Amma Ömer Naci ilə Rıza Tevfik arasında mübahisələr şiddətlənərək davam etdiyi bir vaxtda Hüseyin Cahitin öz məktubu ilə müzakirəyə qatılması nəticəsində bu jurnal da bağlandı.

Görkəmli ədəbiyyatşünas və türkoloq Fuad Köprülü (1890-1966) “*Yeni Mecmua*”da dərc etdirdiyi “*Vezin Meselesi*” adlı məqaləsində heca vəzninin əruza görə daha ibtidai olduğunu, əsrlərdən bəri yetişən minlərcə sənət-

kar əlində işlənə-işlənə başlı-başına bir ahəng halına gəldiyini qeyd etməklə yanaşı, bu bəsit ölçünün türk şeirinin milli ölçüsü olduğunu da bildirirdi. Qeyd edirdi ki, bu gün dilimizdə işlənən ərəb və fars sözləri heca vəzninin bəsit və vəsfli səsləri ilə uyuşmur. Ona görə də türk ədəbiyyatndakı böhranın əruz-heca məsələsindən daha çox dil məsələsi olduğunda israr edirdi [8, 105-108]. O haqlı olaraq "*Xalqın yalnız heca vəznini sevdiyini haradan bilirsiniz?*" sualına belə cavab verirdi: "*Haradan olacaq, neçə əsrdən bəri əlimizdə toplanmış, heca vəzni ilə yazılmış əsərlərdən!*" [5, 95-108].

Dil məsələsinin də qatışdırıldığı bu mübahisəyə qoşulan digər ziyalılar da fərqli fikirlərlə çıxış edirdilər. Məsələn, türk ədəbiyyatnda qısa hekayələr ustası və türkçülük cərəyanının banilərindən biri kimi tanınan Ömer Seyfettin (1884-1920) "*Genç Kalemler*" jurnalının ilk sayında dərc olunmuş "*Yeni Lisan*" sərlövhəli məqaləsində dilin sadələşdirilməsindən söhbət açır, amma eyni zamanda əruz vəznini də müdafiə edirdi. M.Masum "*Say ve tetebbü*" (1910-1912) jurnalında əruz və hecadan bəhs edərkən türkcənin özünəməxsus vəzni olmasını iddia etsə də, jurnal indiyədək türkcəyə daxil olmuş fars və ərəbcə sözlərlə şeirin heca vəzni ilə yazıla bilməyəcəyini söyləyirdi. M.Sıdkı isə şeirin həm heca, həm də əruz vəzni ilə yazıla biləcəyini, lakin musiqi üçün əruzun daha uyğun olduğunu düşünürdü [5, 95-112].

Ölkədə milli bir ədəbiyyat yaratmaq üçün milli bir dil siyasəti həyata keçirilməsi düşüncəsində olan Ömer Seyfettinin "*Yeni Lisan*" məqaləsi türk ədəbiyyatında daha bir müzakirənin açılmasına səbəb oldu. Əslində Ömer Seyfettin onunla birlikdə "*Yeni Lisan*" hərəkatına liderlik edən böyük fikir adamı Ziya Gökalp (1876-1924) və tanınmış yazar Ali Canipin (1884-1967) də adından ədəbiyyat camiəsinə bəyan edirdi: "*Yeni lisançılar quru tərəqqi davasında qalmamaq üçün Avropanın ən gözəl ədəbi, fəlsəfi, ictimai, siyasi və hüquqi əsərlərini öz dillərinə köçürmək üçün bir heyət yaratdılar. Çalışırlar, tezliklə kapitulyasiyalardan azad, terminləri və yeni sözləri ilə çox zəngin bir türk dilini görəcəksiniz. Bu səmimi və möhtəşəm dilin mətni və nəfis fonunda əsl Türkiyə ədəbiyyatı yüksələcək*" [12, 62]. O, həmçinin bunu da qeyd edirdi ki, türk dili yaxın gələcəkdə Türkiyə ədəbiyyatının dili olacaq.

Amma bu fikirlərə Fuat Köprülünün "*Edebiyat-ı Milliye*" adlı məqaləsi ilə kəskin etiraz gəldi: "*...Ədəbiyyatımızın Babil qülləsini xatırladan dumanlı və məzlum meydanda boş əsgərlərlə sürüklənən yeni ideya – Milli ədəbiyyat ideyası, şübhəsiz ki, mənim üçün vacib hesab etdiyim bu məhdud mülahizə üslublarından biridir. Hələ öz fikirlərini açıqlaya bilmədiklərinə görə, "Edebiyat-ı Milliye" tərəfdarlarının bu kompozisiya ilə nə demək istədiyini, hansı baxış bucağını mənimsədiklərini anlamıram. Mən ancaq görürəm ki, boş bir səs-küy var, özünü tərəfdar adlandıranlar belə onun mahiyyətini müəyyən edə bilmirlər... Məncə, belə insanların ən böyük günahı XX əsrdə doğulmalarıdır, amma özlərində olmayan bu günaha görə təbiəti*

*günahlandıra bilməzlərmi?*" [6, 3-7].

Fuat Köprülünün "*Yeni Lisan*"a qarşı bu ittihamlarına Ali Canip türk dilinin Türkiyə dili ola biləcəyində israr edir və onun "*Yeni Lisan*"ın ideyalarını bilmədən yazdıqlarının şımarıklık – şıltaqlıq olduğunu qeyd edirdi. Bunun üzərinə Fuat Köprülü də "*Yeni Lisan*" başlıqlı məqaləsində "*Yeni Lisan*" ifadəsini eşidəndə bunun Esperanto* kimi ictimai bir dil yaratmaq istəyən Selanik gənclərinin səyi olduğunu düşündüyünü, lakin bu fərziyyədə yanıldığını qəbul etmiş, "*Genç Kalemler*" jurnalını oxuyanda "*Yeni Lisan*"ıın bizim altı yüz ildir istifadə etdiyimiz türkcədən fərqli olmadığını söyləmişdi. [7, 365]

Fuat Köprülünün dediklərinə Kazım Nami (1875-1967) "Xəstə məntiqin psixologiyası" adlı məqaləsi ilə cavab vermişdi. Bundan başqa, *Genç Kalemler Tahrir Heyeti* də Köprülüyə "*Yeni Lisan ve Müxaliflerindən Bir Nümune*" adlı məqalə ilə cavab vermiş və "*Genç Kalemler*"in necə hərəkət edəcəyini açıqlamışdı.

Yakup Kadri müzakirələrə "*Rübab*" jurnalında yayınladığı "*Netayic*" adlı məqaləsi ilə qatılmış, "*Yeni Lisan*"çıların lazım gəldikdə dilimizi tərsinə çevirəcəklərini, "bəd nəzər" yerinə "diqqət gözü" deyəcəklərini bildirdikdən sonra: "*Biz Osmanlıyıq, bu da Osmanlı dilidir. Çağatay olmağımızı, Çağatayca oxumağımızı istəyirlər. Xeyr, bu mümkün olmayacaq. Xeyr... Zavallı yenilik kasıb bayram paltarları kimi görünür*" [4, 144] – deyə etiraz etmişdi. Yakup Kadrinin məqaləsinə Genç Kalemler Tahrir Heyeti "*Pespaye Bir Hicve Ciddi Bir Cevap*" başlıqlı yazı ilə cavab vermiş və Kadrinin məqaləsinin heç bir elmi dəyərinin olmadığı bildirilmişdi.

"*Servet-i Funun*"çuların öncüllərindən şair və yazar Cenab Şahabettin (1870-1934) "Oğluma ikinci məktub" başlıqlı yazısında bu düşüncənin türkçülüyü parçalayacaq qədər təhlükəli olduğunu bildirib deyirdi: "*Yeni Lisan*"ın dünyasını dəyişdiyi xəbərini aldığım gün təəccüblənmədim".

İngilislərin İstanbulu işğalı zamanı 1920-ci ildə Malta adasına sürgün etdikləri, ancaq türkçü hərəkata aidiyyatı olmayan Süleyman Nazif (1870-1927) isə dillə bağlı müzakirələrdə fərqli bir vəziyyətə diqqət çəkir, "Yeni lisan haqqında" sərlövhəli məqaləsində dilin sadələşdirilməsində kəndlinin başa düşüb-düşməməsinin əsas məsələ olduğunu vurğulayırdı. Süleyman Nazifə görə:

- Üç dilin yer aldığı mürəkkəb bir dil olacaq və bu təbiidir.
- Dil başqa xarici və uzaq dillərdən sözlər kimi, qaydaları da qəbul edə bilər.

---

* Orijinal adı **Lingvo Internacia**. Polşada göz doktoru Ludviq Lejzer Zamenhof tərəfindən 1887-ci ildə yaradılan süni dil. Zamenhofun 1905-ci ildə yayımladığı "Esperantonun təməlləri" kitabında dilin quruluşu və qaydaları izah edilir.

- Dillərin təbii təkamülləri çərcivələri aşır.

Onu da qeyd etməliyik ki, "*Edebiyat-ı Milliye*" dönəmində tənqidlə bağlı nəzəri müzakirələrdən daha çox, əsərlərin tənqidi intensiv xarakter almışdı. Elə buna görə də tanınmış yazıçı və publisist Hüseyin Rahminin (1864-1944) qənaətincə tənqid, onu anlamayan insanlar tərəfindən şər alətinə çevrilməkdədir. O, türk ədəbiyyatında tənqidin nominal olduğunu, ancaq paxıllıq və böhtandan başqa bir şey olmadığını bildirirdi. Türk ədəbiyyatında tənqidin hələ Muallim Naci (1849-1893) dövründə başladığını bildirməklə yanaşı, onun şərtlərini də söyləyir [3, 50]. Bu şərtlərdə şəxsi münasibətlərə üstünlük vermə və müəllifi cəhalətdə ittiham etmənin tənqid deyil, əxlaqsızlıq olduğu, əsas məsələnin əsərin dəyərini göstərmək olduğu fikirləri yer almışdı. Rahmi təəssüflə onu da qeyd edirdi ki, "*ədəbi müzakirələrdə əsəri və müəllifi öldürmək dəbi bizim uydurduğumuz vəhşi üsuldur*" [10, 2].

Hüseyin Rahmi yumoristik üsulda yazdığı yazısında tənqidçinin yazıçını daşqalaq etməklə, acı xatırlatmalar etməklə, ya da məlum və heyran olduğu bir əsəri, hətta əsərdən xəbəri olmasa belə istədiyi şəkildə şərləməklə öz adını gündəmə gətirə biləcəyini bəyan edirdi. Ədəbiyyat aləmində də belə olduğunu dilə gətirən Rahmi ədəbi mübahisələrdə üç mühitin olduğunu göstərirdi: keçmişin ədəbiyyatı, dünənkilər və bugünkü ədəbiyyat. Dünənkilər ortadadır, indikilər çox səs-küy saldılar, amma az iş gördülər. O, yazıçıların əkəriyyətinin güclü qələmə ciddi cavab verəcək biliyi olmadığını, "*Edebiyat-i cədidə*"çilərin* köhnə fikirli və yorğun olduqlarını bildirirdi. O deyirdi ki, "*indiki tənqidçilər keçmişlə müqayisədə yeddi dəfə zəmzəmlə yuyulmuş kimi günahsızdırlar*" [11, 3].

Dövrünün görkəmli qələm ustası Reşat Nuri Güntekin (1889-1956) "*Milli Edebiyat Mecmuası*" jurnalında dərc edilmiş məqaləsində ədəbi çevrələrdə öncəki müzakirələrin klassik və yeni ədəbiyyat arasında olduğunu, indiki mübahisələrin isə milli ədəbiyyat çərçivəsində aparıldığını ifadə edir:

– Mübahisələrdən biri "vəzn və dil məsələsi"dir. Heca uzaq keçmişin əruz isə daha yaxın keçmişin vəznidir. Əruz türk ədəbiyatına zorla gətirilib deyilsə də, nəticə olaraq altı yüz il ədəbiyyatı təsiri altında saxlamışdır.

Reşat Nuri yazırdı: "*Əruz kəlmələrin, hərflərin quruluşuna nüfuz edərək onları xəfif, ağır, sürüklənən, çırpınan, nəfəs alan nəhayət hərəkətlərlə canlandırarak, qəlbimizin atışları və ahəngi arasında uyum yaradaraq bir növ musiqi yaratmışdır. Hətta onun ahəngi, danışıq dilimizə təsir etmişdir. Gözəl türkcəni ən gözəl söyləyənlər, onun kəlimələrin və cümlələrin axışına daxil etdiyi gizli musiqinin fərqində olmayaraq bu yolu izləməkdədir. Heca da zamanla ustadların əlində işlənərək bəlirli bir ahənk qazana bilir*" [2, 134].

**Nəticə**. Türk ədəbiyyatı camiəsində aparılan fərqli ədəbi müzakirələ-

---

*"Servet-i Fünun" jurnalı ətrafında toplanan ədəbi cərəyanın nümayəndələri.

rin içərisində bir çox ədəbi şəxsiyyətin qatıldığı və uzun müddət, hətta bu günə qədər də davam edən "*Yeni Lisan*" və "*Aruz-Hece*" mübahisələrinin xüsusi yeri var. "*Genc Kalemler*"in başlattığı, türk dilinin sadələşdirilməsini – ərəb və fars sözlərindən təmizlənməsini nəzərdə tutan "*Yeni Lisan*" problemi həm də dünyada və regionda meydana çıxan ciddi çağrışlara cavab verə biləcək yeni, millətçi türk gəncliyinin yetişdirilməsinə yönəlik strateji bir milli məsələ idi. Uzun illər boyu dilin lüğət fonduna daxil olan və klassik ədəbiyyatda aktiv şəkildə istifadə olunan bu sözlərin ədəbi dövriyyədən çıxarılması bir çoxları üçün həm də poeziyada əruzdan imtinanı, milli şeirin doğma vəzni hesab edilən hecaya dönməni nəzərdə tuturdu. Əslində tarix boyu türk poeziyasında paralel şəkildə işlənmiş bu iki vəznin qarşı-qarşıya qoyulması bəziləri üçün osmanlıcadan imtina kimi başa düşülürdü ki, bu da Cümhuriyyət dönəmində məlum dil islahatının bazasını təşkil etdi. Araşdırmalar göstərir ki:

– Selanikdə "*Genç Kalemler*"in 1911-ci ildə başlattığı "*Yeni Lisan*" hərəkatı əslində türk dilini sadələşdirmə hərəkat olmuşdur.

– "*Genç Kalemler*"in düşüncəsinə görə milli ədəbiyyat yalnz millli dillə yaradıla bilər, ona görə də milli dil bəzi istisnalarla ərəb və fars sözlərindən təmizlənməli, şeirdə hecaya üstünlük tanınmaldır.

– Hərəkatın liderləri Ömer Seyfettin, Ziya Gökalp və Ali Canip olmuşdur.

– "*Aruz-Hece*" mübahisələrini əhatə edən "*Yeni Lisan*" hərəkatının tərəfləri Hüseyin Cahit, Mehmet Emin Yurtakul, Rıza Tevfik, Ömər Naci, Raif Necdet, Fuad Köprülü kimi tanınmış şəxsiyyətlər olmuşdur.

– "*Aruz-Hece*" mübahisələrində bu fikirlər ortaya çıxmışdır: poeziyada əruzdan imtina etmək, milli dəyər olan hecaya qayıtmaq lazmdır; heca ibtidaidir, əruz nizamlıdır, klassik ədəbiyyata arxa çevirmək olmaz; hər iki vəzn yenə də paralel işlənə bilər.

**ƏDƏBİYYAT**


1. Alptekin L. Rıza Tevfik ve Aruz Hakkında Bir Yazısı. //Divan Edebiyatı Araştırmaları Dergisi 24, 2020, - s. 589-604.
2. Ercilasun B. İkinci Meşrutiyet Devrinde Tenkit. – İstanbul: Deragah, - 2013, - 491 s.
3. Gülşen H. Milli Mücadele Dönemi Edebiyatında Edebi Tenkit. //Kafkas Üniversitesi İlahiyat Fakültesi Dergisi, C. 50, - 2018, - s. 177-193.
4. Karaosmanoğlu Y.K. "Netayiç", // Rübab, S. 14, 19 Nisan 1912, - s. 144.
5. Kolcu H. Türk Edebiyatında Hece-Aruz Tartışmaları. - Ankara: Akçağ, - 1993, - 417 s.
6. Köprülüzade M.F. Edebiyat-ı Milliye. //Servet-i Fünun, C. 41, 5 Mayıs 1911, - s. 3-7.
7. Köprülüzade M.F. Yeni Lisan. //Servet-i Fünun, C. 42, 29 Şubat 1912, - s. 365-370.
8. Köprülüzade M.F. Edebiyat Müsahabeleri.Vezin Meselesi. //Yeni Mecmua, №11, 20 Eylul, 1917, - s. 213-217.
9. Mehmed Emin Yurdakul'un Eserleri – Şiirler (Haz.Fevziye Abdullah Tansel), Ankara: Türk Tarih Kurumu (2. Baskı), - 1998, - 473 s.
10. Rahmi H.G. İş Kıtlığında Münekkitlik. //İkdam, №8419, 2 Ağustos 1920, - s. 2-10.

11.Rahmi H.G. Tenkit Kavgaları. //İkdam, №8426, 9 Agustos 1920, - s. 2-12.
12.Seyfettin Ö. “Ruzname” - Bütün Eserleri. – Ankara: Bilgi, - 1998, - 420 s.
13.Topuzkanamış E. Dergi Kapatan Yazı: “Edebiyat ve Hukuk”. //Hukuk Kuramı, C. 1, S.6, Kasım-Aralık 2014, - s. 1-14.
14.Yurdakul M.E. Bütün Şiirleri. - İstanbul: Ötüken Neşriyat, - 2023, - s. 354.

## МЕТР В ТУРЕЦКОЙ ЛИТЕРАТУРЕ И СПОРЫ О НОВОМ ЯЗЫКЕ

**Хураман А.ГАДИМОВА**

### РЕЗЮМЕ

В 1839 году чтение «Hatt-ı Şerif» («Фирмана султана») в стамбульском парке Гюльхане, ознаменовавшее начало эпохи Танзимата, стало толчком к великому возрождению турецкой литературы, развивавшейся на основе многовековых национальных и религиозных ценностей. Параллельно с этим процессом, который позднее получил название «Edebiyat-ı Cedide» («Новая литература»), начиная с 1860-х годов в литературных кругах стали активно обсуждаться различные вопросы и вести полемики.

Одним из самых заметных направлений этих дебатов была дискуссия между сторонниками метра аруз, использовавшегося в классической поэзии, и сторонниками силлабического (слогового) стихосложения, характерного для народной поэзии. Дискуссии по поводу hece-aruz (слог против аруза), оставившие глубокий след в истории литературы, были одними из самых оживлённых — интеллектуалы вступали в них с энтузиазмом, стараясь доказать друг другу свою правоту и продемонстрировать литературное мастерство. Подобные споры о силлабической и количественной поэтике в разные периоды имели место и в других странах региона, включая Азербайджан. Однако исследования показывают, что именно в Турции эти дискуссии носили особенно острый характер, порой доходя до взаимных оскорблений в форме язвительных сатир. В этих многолетних дебатах принимали участие такие видные деятели, как Хюсеин Джахит Ялчын, Рыза Тевфик, Омер Наджи Эмин, Фуад Кёпрюлю и Якуп Кадри. Данная статья, основанная на турецких источниках, анализирует ход и содержание этих литературных споров.

**Ключевые слова**: турецкая литература, вестернизация, ритм слога, ритм аруз, новый язык, литературные дебаты

## METER AND NEW LANGUAGE DEBATES IN TURKISH LITERATURE

**Khuraman A.GADİMOVA**

### SUMMARY

The reading of the “Hatt-ı Şerif” (the Sultan’s Edict) in Istanbul’s Gülhane Park in 1839 — marking the proclamation of the Tanzimat — ushered in a new era and gave impetus to the westernization process in Turkish literature, which had until then developed on the foundation of centuries-old national and religious values. In parallel with this process — which some referred to as Edebiyat-ı Cedide (“New Literature”) — various debates that had emerged in literary circles became even more widespread after the 1860s.

One of the most prominent and enduring debates, in which intellectuals participated with great enthusiasm — striving to prove themselves and demonstrate their literary expertise — was undoubtedly the "Hece–Aruz" debate. At the heart of the debate was the use of the aruz meter, prominent in classical literature, versus the syllabic meter (hece), considered the fundamental structure of folk poetry. In fact, the question of syllabic versus quantitative meter in poetry had, at different times, sparked fierce debates in other countries of the region as well, including Azerbaijan. However, research shows that such disputes — rooted in differing perceptions of poetry — were particularly intense in Turkey, sometimes escalating into personal attacks and biting satirical writings. Intellectuals such as Hüseyin Cahit Yalçın, Rıza Tevfik, Ömer Naci Emin, Fuad Köprülü, and Yakup Kadri actively participated in these long-running debates. They proposed various solutions to the issue and sought to justify their positions. This article explores the course and character of this literary process based on Turkish sources.

**Keywords**: Turkish literature, westernization, eruz meter, syllable meter, new language, literary debate

BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№1 Humanitar elmlər seriyası 2025*

**UOT 82 (091)**

# TÜRK XALQLARI ƏDƏBİYYATINDA “YUSİF VƏ ZÜLEYXA” MÖVZUSU, MƏHƏMMƏD FÜZULİ NƏSRİNDƏ ONUN YERİ

**Lalə S.ƏLİYEVA***

*Yaxın Şərq xalqlarının şifahi ədəbiyyatında geniş yayılmış “Yusif və Züleyxa” məhəbbət dastanının mövzusu böyük klassiklərdən Firdovsinin, Caminin yaradıcılığında ölməzlik qazanmışdır. Əlyazmaları içərisində yüzə yaxın müəllifin qələmə aldığı mövzunun zaman və məkan sərhədlərini tanımadığının şahidi oluruq. Müsəlman Şərq ədəbiyyatında Qurani-Kərim və onun təfsirləri (xüsusilə Məhəmməd peyğəmbərin əmisi oğlu Abdullah ibn Abbasın) əsas qaynaq rolunu oynamış və mövzunun yazılı ədəbiyyata gəlişinə yol açmışdır. Suli Fəqih (XIV), Mustafa Zərir (XIV), Qul Əli (XIV), Şəms (XV), Xətayi Təbrizi, Füzuli (XVI), Azər (XVIII) məşhur mövzunu həm nəzm, həm nəsrlə qələmə almışlar. Xalq ədəbiyyatında dastan, klassik ədəbiyyatda məsnəvi (Əlinin “Qisseyi-Yusif”i istisna olmaqla) ömrünü yaşayan qissənin ilk nümunələri Tövrat, İncil və Qurani-Kərimdə yer almışdır.*

*Məhəmməd Füzuli sələflərindən fərqli olaraq, mövzuya özünəməxsus şəkildə yanaşmış, təsəvvüfi-fəlsəfi, bədii keyfiyyətlərinə görə orijinal bir əsər yaratmışdır. Sənətkar ənənəvi süjeti əsrinin mənəvi, bədii-estetik prinsiplərinə uyğunlaşdıraraq məzmun və formaca yeni və fərqli təsir bağışlayan qissə – hekayə səviyyəsinə yüksəltmişdir.*

*Füzulinin peyğəmbər hekayələri içərisində xüsusi yeri olan “Yusif və Züleyxa” qissəsində ilahi eşq, ideal gözəllik mənəvi-ruhi təkamülün ən yüksək zirvəsi kimi göstərilir.*

**Açar sözlər:** Füzuli, “Hədiqətüs-süəda”, “Yusif və Züleyxa”, peyğəmbər, qissə, nəsr

**Giriş.** Uzun əsrlər boyunca müxtəlif coğrafi ərazilərdə məskunlaşan, vahid dildə danışan türklərin yaratdığı abidələr türk xalqlarının müştərək ədəbi fondunu zənginləşdirir. Min illər boyu davam etmiş tarixdən gələn ortaq əlamətlərdən yaranan əsərlər hər bir türk xalqının özünün yaradıcılıq məhsulu olsa da, türk xalqlarının ümumi xəzinəsinə məxsusdur. Osmanlı, Azərbaycan, özbək, uyğur, qazax, tatar, başqırd, türkmən, qırğız, Altay türklərinin yaratdığı ədəbiyyatın əsas mövzusu türk insanının həyatı, ictimai-siyasi düşüncəsi, onu əhatə edən mühiti anlama cəhdi, arzu, qayə – idealları-

* Bakı Dövlət Universitetinin dosenti; lalaaliyeva1959@gmail.com,
ORCİD İD: 0009-0001-0534-8394

dır. Ənənəvi mövzularda yazılan epik əsərlərdə türk nağılçılıq və dastançılıq elementləri bariz şəkildə özünü göstərir. Folklor yaradıcılığında müşahidə olunan aydın, sadə danışıq tərzi, təbiilik türk epik ədəbiyyatında yaranan məsnəvi-dastanların əsas səciyyəvi xüsusiyyəti kimi diqqəti cəlb edir.

Ənənəvi mövzular içərisində "Yusif və Züleyxa" hekayəsi müxtəlif dövrlərdə, fərqli məkanlarda yüzlərlə əsərin baş mövzusu olaraq yazılı ədəbiyyatın ən məşhur nümunəsinə çevrilir. Mövzunun yaranma tarixi ilə bağlı böyük fikir ayrılığı olmasa belə, bəzi fərqli baxışlar da yox deyildir. Mövzu ilə bağlı Türkiyədə ciddi araşdırmalar aparan Dr. Zəhra Göre, Dr. Şərifə Akpinar Yusif qissəsinin qaynağının müqəddəs səmavi kitablardan aldığını qeyd edirlər. Yusif qissəsinin yazılı ədəbiyyatda ilk dəfə Tövrat, İncil, Quranda yer aldığını göstərən prof. Yaqub Babayev diqqəti belə bir fikrə çəkir ki, *"...əhvalata bu qədər diqqət yetirilirsə, (Tövratda – L.Ə.) və o, mükəmməl süjetə malik bitkin hekayətdirsə, onun daha əvvəllər yarandığını söyləmək mümkündür"* [1, 26].

**Əsas hissə.** XIII-XVI əsrlər anadilli epik şeir sahəsində dəyərli tədqiqat işləri aparan f.e.d. Ataəmi Mirzəyev qissənin öncə semit tayfaları arasında şifahi şəkildə mövcud olduğunu, "daha sonralar Tövrat, İncil, Quranda öz əksini taparaq dünya ədəbiyyatında işlək mövzulardan birinə çevrildiyini" yazır [9, 16].

Mərhum alim, görkəmli ədəbiyyatşünas Əlyar Səfərlinin "XVII-XVIII əsrlər Azərbaycan epik şeiri" monoqrafiyasında "Yusif və Züleyxa" mövzusunda əsər yazan sənətkarların Quranda verilən ayələrə diqqət etdiklərini qeyd edir. Müəllif improvizasiyası, qədim süjetin yeni ictimai-siyasi fonda verilməsi, bəzən orta əsrlər feodal-ruhani münasibətlərinin hökm sürdüyü zamanda təqdir olunmur.

"*XV əsr şairi Liqayi II Bəyazidə ithaf etdiyi "Yusif və Züleyxa" poemasında Quranda verilən ayəyə zidd getdiyinə və müqəddəs adamların həyatını təhrif etdiyinə görə"* [10, 90] kitabı yandırılır.

Qurani-Kərimdə "əhsən-ül qisəs" (yəni "qissələrin ən gözəli", "ən gözəl qissə") adlandırılan hekayənin məşhurlaşması, folklorda dildən-dilə düşməsi, yazılı ədəbiyyatda dönə-dönə müraciət olunmasının əsas səbəbi onun mövzu, məzmun və qayəsindədir. İlk baxışdan məhəbbət və gözəllik dastanı kimi görünən mövzunun əsasında gözəllik nümunəsi, Yaradana itaət edən Yusiflə günahkar, eyni zamanda, eşqi yolunda özünü fəda edən Züleyxanın qissəsi dayanır. Lakin ümumtürk ədəbiyyatında bu mövzuda yazılan 70-ə yaxın nümunənin hər biri iki əsas xətt üzərində qurulur: I Yusifin ata və qardaşları ilə olan münasibətini əks etdirən başlıca xətt, II Yusif-Züleyxa xətti.

Azərbaycan türkcəsində yazılan "Yusif və Züleyxa"ların hamısında birinci xətt üstünlük təşkil edir [9, 51]. Divan ədəbiyyatının əsas ana xəttini təşkil edən "təqdiri-xuda", yəni Yaradanın hökmünə, "qəzavü-qədərə" inam

bəhs olunan mövzunun ana xəttini təşkil edir.

Beləliklə, müsəlman Şərqində "Yusif və Züleyxa" mövzusuna müraciət edən sənətkarlar Quranı əsas qaynaq kimi götürüb, Allahın Hz. Peyğəmbər vasitəsilə ibrət alınmaq üçün göndərdiyi surəni bədii təxəyyül süzgəcindən keçirərək qələmə alırlar.

Türk tədqiqatçılarından Zəhra Göre (Tövrat, İncil, Quran), Şərifə Akpinar (Tövrat, İncil, Zəbur, Quran) müqəddəs səmavi kitablarda yer alan Yusif qissəsini qarşılaşdıraraq maraqlı nəticələr əldə edir. Araşdırmalardan aydın olur ki, məlum hekayə müxtəsər şəkildə verilir, Zəburda "Mezmur" fəslinin 10-24-cü, İncildə isə 8-18-ci cümlələrlə məhdudlaşır. Tədqiqatçılar əsasən Tövrat və Quranda yer alan qissəni müqayisə edərək oxşar və fərqli məqamlara diqqət çəkirlər.

Tövratda geniş şəkildə əksini tapan hekayə Quranda qısa, yığcam verilərək divan ədəbiyyatının ideya-mövzu qaynağından birinə çevrilir.

Dr. Zəhra Göre qaynaqlarda Oflu Bilal kimi (Trabzonun Of ilçəsi) tanınan şairin eyniadlı əsərini tədqiq edərkən bu problemə geniş bir fəsil ayırır. Onun müşahidələrindən aydın olur ki, Bilal əfəndi şairliklə yanaşı, Ofda müfti vəzifəsində çalışmışdır. Bədii yaradıcılığından "Qisseyi-Yusif" əsərindən [2] əlavə, qəsidə və dini risaləsi də qorunub saxlanmaqdadır.

Məsnəvi müəllifi qissənin qaynağı ilə bağlı rəvayətləri yada salır. Belə ki, bir gün insanlar Yusif qissəsini eşitdiklərini, lakin dərindən bilmədiklərini söyləyirlər. Bundan sonra Cəbrayıl vasitəsilə "nahnü nukuss" ayəti gəlir və camaat bu ayətin mənasından gərəkli rəmzi anlayır. Digər bir rəvayətdə isə Hz. Peyğəmbərin hicrətindən sonra Ayişənin ondan bir qissə dinləmək istəməsi, bundan sonra Cəbrayılın Allahdan insanlara ibrət olacaq qissəni gətirməsi göstərilir. Tövrat və Quranda yer alan qissənin qarşılaşdırılmasından əldə edilən nəticələr maraq doğurur:

1. Hekayə Tövratda daha geniş yer alır, Quranda isə 111 ayədə əksini tapır.

2. Tövratda adı çəkilən, Yaqub peyğəmbərin oğluna hədiyyə etdiyi uzun, rəngli köynəkdən Quranda söz edilmir.

3. Tövratda Yusif iki yuxu görür, Quranda Yusifin günəşin, ayın və ulduzların ona səcdə etdiyini gördüyü bir yuxudan söhbət gedir.

4. Tövratda Yusifi qardaşlarından xəbər almaq üçün Yaqub göndərir, Quranda isə qardaşları ondan qurtulmaq üçün atalarından izin istəyirlər.

5. Quranda Yusifə aid qanlı köynəyi Yaquba göstərib onu qurdun yediyini bildirirlər, Tövratda isə qanlı köynəyi görən ata oğlunun vəhşi bir heyvan tərəfindən parçalandığını düşünür.

6. Yusif Tövratda quyuya atılana qədər ərköyün, nazlı, özünü qardaşlarından üstün tutan bir uşaq kimi təqdim edilir. Quyudan çıxandan sonra müsbət əxlaqi dəyərlər qazanır. Quranda isə Yusif məsumdur, qardaşları tə-

rəfindən haqsız yerə qısqanılır.

7. Tövratda Yusifin quyuya atılmasına etiraz edən Ruben adlı qardaşından Quranda söz edilmir.

8. Quranda suyu az olan, Tövratda isə içi ilanlarla dolu olan quyudan bəhs edilir.

9. Quranda Yusifin quyudan kimlər tərəfindən çıxarıldığı açıqlanmır, Tövratda o, qardaşları tərəfindən çıxarılıb Midyanlı İsmayıloğullarına satılır. Tövratda onu satın alan Potifarın adı Quranda "Əziz" kimi verilir.

10. Quranda Yusif qapıya doğru qaçarkən köynəyi yırtılır, Tövratda isə Yusifin köynəyi qadının əlində qalır.

11. Quranda qadınların Yusifi görərkən əllərini kəsməsi epizodu Tövratda yoxdur.

12. Tövratda Yusifin iki il zindanda qalması göstərilir, Quranda neçə il qalması məlum deyil.

13. Yusif Tövratda yuxunu yozmaq üçün saraya çağırılır. Quranda isə zindanda tanıdığı yoldaşı yanına gəlib yuxunu yozmağı xahiş edir.

14. Tövratda Yusif Misiri idarə edirsə, Quranda xəzinənin başına keçir.

15. Tövratda Yusifin farxon tərəfindən evləndirilib iki oğul sahibi olması epizodu da Quranda yoxdur.

16. Quranda Yusif ərzaq üçün Misirə gələn qardaşlarına comərd davranır. Tövratda isə onları casusluqda suçlayaraq Benyamini gətirmələrini tələb edir.

17. Quranda torbada aşkar edilən su qabı Tövratda Yusifin fala baxdığı gümüş şərab kasası kimi verilir.

18. Yaqubun ağlamaqdan kor olan gözləri Yusifin köynəyi sürtüldükdən sonra açılır, lakin bu epizod Tövratda yer almır.

19. Tövratda hekayə Yaqubla Yusifin ölümü, onların mumyalanması ilə bitir. Quranda isə Yusifin valideynlərinin Misirə gəlib taxta oturmaları epizodu ilə tamamlanır.

Dövrümüzə qədər gəlib çatan ilk anadilli örnəklər içərisində bu mövzuda yazılan əsərlər həm məzmun, həm quruluş, həm də obrazlar aləmi ilə diqqəti cəlb edir. Anadilli epik şeirimizin təşəkkül dövründə qələmə alınan "Qisseyi-Yusif" (Qul Əli), "Yusif və Züleyxa" (Suli Fəqih), "Yusif və Züleyxa" (Mustafa Zərir) əsərlərində klassik-kitab üslubundan çox folklor üslubu üstünlük təşkil edirdi. Mövzu və məzmun baxımından xalq arasında çox sevilən bu əsərlər uzun əsrlər Azərbaycan ədəbiyyatının inkişafında mühüm rol oynamışdır.

XV əsrdə məlum mövzu Şəms və Xətayi Təbrizi tərəfindən yenidən qələmə alınsa da, onları bir-birindən fərqləndirən özünəməxsus xüsusiyyətləri vardır.

Müsəlman Şərq ədəbiyyatında Əbülqasım Firdovsi eyniadlı poemasını

1014-cü ildə qələmə almış, Əbdürrəhman Cami isə “Həft əvrəng” adlı yeddi romantik poemasından birini məlum əfsanənin əsasında yenidən işləmişdir.

Müşahidələr göstərir ki, “Yusif və Züleyxa” qissəsi nəsr əsərlərində də yer alır. Belə ki, “Yusif və Züleyxa” mövzusu dahi Məhəmməd Füzulinin də diqqətindən kənarda qalmamış, eşq və gözəlliyin təcəssümü onun bədii nəsrində, peyğəmbər qissələrində xüsusi sənətkarlıqla qələmə alınmışdır [Bax: 4, 24-27].

Yeri düşmüşkən, qeyd etmək lazımdır ki, sovet dönəmində M.Füzulinin “Hədiqətüs-süəda” əsərindən bəhs edərkən onu tam şəkildə deyil, yalnız “Yusif və Züleyxa” hekayəsini tədqiqata cəlb etmişlər. “Hədiqətüs-süəda” əsərinə birtərəfli mövqe bəsləmiş, onu dini-mövhumi əsər kimi dəyərləndirmiş və “görməzlikdən gəlmişlər”.

*“...M.S.Sultanovun “Füzulinin “Hədiqətüs-süəda” əsəri” adlı məqaləsi (“Azərbaycan” məcmuəsi, 1958, № 7) barədə bir dənə də olsun, geniş, ətraflı və qənaətbəxş məqalə yazılmamışdır. Halbuki bütün qətiyyəti ilə demək lazımdır ki, bu əsəri hesaba almadan böyük sənətkarı olduğu kimi dərk etmək və onun yaradıcılığındakı və dünyagörüşündəki ziddiyyətləri anlamaq mümkün deyildir”* [3, 8].

Mərhum ədəbiyyatşünas alim H.Əfəndiyevin tədqiqatçıların nəzərlərini “Hədiqətüs-süəda”ya yönəltməsi üçün dahi sənətkarı “yaradıcılığında və dünyagörüşündə ziddiyyətli şair” kimi təqdim etməsi də sovet dövründə dini mövzuda yazılan əsərlərə yanlış münasibətlərin təzahürü kimi dəyərləndirilməlidir.

M.Füzulinin bütün yaradıcılığında ana xətt kimi inkişaf etdirilən Eşq konsepsiyası “Hədiqətüs-süəda” əsərinin də əsas ideya, qayəsini təşkil edir. Əsərin I fəsli peyğəmbər hekayələrinə həsr olunmuş və böyük sənətkar bütün sələflərindən fərqlənərək bu müqəddəs şəxsiyyətlərin ilahi məhəbbətini – Allaha olan eşqini, Yaradana qovuşma yolundakı canlarından belə keçməyə hazır olmalarını yarımbaşlıqlar altında geniş şəkildə qələmə almışdır.

M.Füzuli insan övladına örnək olacaq peyğəmbərlərin daha çox müsbət insani hisslərini, həyəcanlarını qabarıq şəkildə təqdim edərək onların yaddaqalan obrazlarını yaradır. Dini əhvalatları olduğu kimi, konkret şəkildə deyil, yaradıcılıq süzgəcindən keçirərək yeni çalarları, əlvan bədii lövhələri ilə canlandırır.

M.Füzulinin həyata, dünyaya baxışı, insana, mühitə münasibəti, inam və etiqadı, təsəvvüfi görüşləri “Hədiqətüs-süəda”nın ana xəttində olduğu kimi, peyğəmbər hekayələrində də sənətkarlıqla diqqətə çatdırılır. Böyük sənətkar məfkurə yolunda fədakarlığı, Allaha olan eşqi həm nəsrdə, həm də lirik ricətlərdə ustalıqla təqdim edir. Qəm-kədərlə yoğrulmuş beytlər, ələmqüssə ilə süslənmiş sətirlər M.Füzulinin Böyük Eşqinin ürfani ifadəsidir. Təsəvvüfdə müsibət, bəla, fəlakət, əzab-əziyyət Yaradanın öz bəndələrini – sa-

diq qullarını sınaqdan çıxarmaq, yoxlamaq yöntəmidir. Həqiqi aşiqin – qulun Tanrı sevgisini qəlbində gəzdirərək düçar olduğu müsibət və bəlalara, ağrı-acılara tab gətirməsi, yəni mənəvi sabitliyi – sabitqədəm olması onu Yaradana yaxınlaşdırır.

M.Füzulinin bütün qəhrəmanlarını birləşdirən amil dərddir. Onların hamısı dərd əhlidir, dərd əhli olanlar üçün müsibət və bəlalar şərəfdir, dərdlərinin dərmanı can atdıqları ali məqamdır, imtahandır.

Mövzusu Kərbəla vaqiəsindən alınan əsərinə peyğəmbər qissələri daxil edən sənətkar bəla əhli (peyğəmbərlərlə – L.Ə.) Hüseynin faciəsi arasında yaxınlıq görür. Onları birləşdirən, yaxınlaşdıran əsas amil hidayət yolunun yolçuları kimi əzab-əziyyətlərə, müsibətlərə sinə gərərək mənəvi qələbə qazanmaları, Eşqin əzəmətini canlandırmalarıdır. Füzulişünas Mir Cəlal yazır: *"Yusif həqiqi insanın, təmiz bəşər hisslərinin təcəssümüdür. O, Füzulinin fikrincə insanlığın özü kimi fəlakətlərə mübtəladır. Lakin onun paklıq, saflıq, sədaqət və gözəllik xüsusiyyətləri buludlarla örtülən günəş kimidir. Bu, qətiyyən sönməyəcəkdir. Vaxt gələcək ki, bütün qüdrəti, əzəməti ilə parlayacaqdır. Doğrudan da elə olur. Yusif parlayır, səadətə çatır, düşmənlər məğlub olurlar"* [8, 191].

Təsəvvüfdə eşq ariflərə görə varlığın əslidir. M.Füzuli eşqin ortaya çıxma səbəbini Yaradanın gözəlliyi ilə əlaqələndirir və onun eşqi ilə "varlıq binasının qorunub" saxlanıldığını ifadə edir. Yusif həm kamal, həm də camalına görə Haqqın görüləcəyi bir aynadır. Onu görən Haqqı görür, iman gətirir.

"Tanrı tanınmağı sevdiyi üçün kainatı yaratdı. Kainat insan üçün, insani-kamilin varlığı üçün yaradılmışdır... Kainatda təcəlli edən hər gözəllik ilahi gözəlliyin təzahürüdür. Aşiq kainatda ilahiliyin hər təcəllisini görməli və sevməlidir. Aşiq məcazi eşqdən keçərək həqiqi eşqi tapır" [5, 110].

Bütün bədii yaradıcılıq boyu həqiqi eşqin axtarışında olan M.Füzuli "Hədiqətüs-süəda" əsərindəki peyğəmbər hekayələrində, xüsusilə də "Yusif və Züleyxa" qissəsində əlçatmaz sevgili olan Allahı sevməyi, düşkün ehtiraslardan uzaq olmaq üçün ilahi nurla qəlbi paklandırmağı təbliğ edir.

M.Füzuliyə görə, Allah insanı öz surətində yaratdığı üçün Haqq bütün isim və sifətləri ilə insanda təcəlla edir. Kərimullah həzrəti-Yusif*də olduğu kimi. "Hədiqətüs-süəda" əsərində Kərbəla mövzusu fonunda böyük sənətkar əxlaqi-mənəvi saflığı, ürfani eşqi və gözəlliyi, etiqad bütövlüyünü, iman sabitliyini təqdim edir.

**Nəticə və elmi yenilik.** Müsəlman Şərq ədəbiyyatı istər forma, istərsə

---

* Yusif peyğəmbər dörd nəsil peyğəmbər övladı (Hz. İbrahim (ə), Hz. İsmayıl (ə), Həzrəti İshaq (ə), Hz. Yaqub (ə)) olduğu üçün "Allahın lütfkar adamı, Tanrının alicənab adamı" – "Kərimullah" titulu ilə mükafatlandırılır.

də məzmun baxımından yüksək inkişaf yolu keçmişdir. Bu inkişaf türk xalqları ədəbiyyatında elmi-əxlaqi, didaktik və məhəbbət mövzularında yazılan əsərlərlə daha çox diqqəti cəlb edir. “Yusif və Züleyxa” mövzusu da bu baxımdan xüsusilə əhəmiyyətlidir. Mövzunun Quranla bağlı olması ona marağı daha da artırmış və yayılmasına şərait yaratmışdır. Kökləri qədim tarixə malik olan Azərbaycan-Türkiyə mədəni-ədəbi münasibətləri və onların müştərək mövzulara müraciət etməsi bu baxımdan maraq doğurur. Belə ki, sənətkarlar bəzən eyni mövzunu həm nəzm, həm də nəsrlə qələmə alır. “Yusif-Züleyxa” mövzusuna müraciət edən sənətkarlar onun dini, irfani, dünyəvi, mənəvi çalarlarını öz təfəkkürlərinə və zamanın tələbinə uyğun şəkildə qələmə alırlar. Dahi sənətkar M.Füzulinin mövzuya münasibəti isə xüsusilə fərqlənir. Bu fərq M.Füzulinin mövzunu qissə – hekayə şəklində qələmə alaraq nəinki Azərbaycan, Şərq ədəbiyyatında nəsr qolunun inkişafına xüsusi xidmətini göstərmiş olur.

Beləliklə, aparılan araşdırmalardan aydın olur ki, türk xalqları ədəbiyyatında “Yusif və Züleyxa” mövzusunda 100-ə yaxın əsər yazılmış, bunlardan 20-si ana dilimizdə qələmə alınmışdır. Mövzuya müraciət edən sənətkarlar Qurandan qaynaq kimi istifadə edərək folklor nümunəsindən bəhrələnmiş və qissəni yaradıcılıq təxəyyülü süzgəcindən keçirərək yazılı bədii ədəbiyyat nümunəsinə çevirmişlər.

İstər dini kitablarda, istər şifahi, istərsə də yazılı ədəbiyyatda xüsusi yeri olan “Yusif və Züleyxa” qissəsi M.Füzuli qələmi ilə yüksək mərtəbəyə ucalaraq özündən sonra yaranan əsərlər üçün ideya-mövzu, dil-üslub xüsusiyyətləri baxımından dəyərli sənət örnəyinə çevrilmişdir.

Türkiyə-Azərbaycan ədəbiyyat tarixinin öyrənilməsi baxımından orta çağlar ədəbiyyatında müraciət olunan mövzulara nəzər yetirmək, onları elmi cəhətdən araşdırmaq dövrün tələblərindən biridir. Bu gün artıq biz həmin əsərləri nəzərdən keçirərkən müsəlman-Şərq mədəniyyəti kontekstində tədqiqinə səy göstəririk. Türkiyə-Azərbaycan ədəbiyyat tarixinin öyrənilməsi istiqamətində “Yusif və Züleyxa” mövzusunun elmi cəhətdən araşdırılmasının böyük əhəmiyyəti var. Bu əhəmiyyət ondan ibarətdir ki, orta çağlar ədəbiyyatında Anadolu və Azərbaycan türkcəsinin zəngin leksik və qrammatik xüsusiyyətlərinin müqayisəsi və tədqiqi, mövzuya münasibət hər iki ədəbiyyatın eyni dil xüsusiyyətlərinə malik olduğunu təsdiq edir. Bu gün bu dillər arasında nə qədər fərq varsa, orta çağlar ədəbiyyatı bir daha sübut edir ki, həm Anadolu, həm də Azərbaycan türkləri, əslində, eyni dildə, ortaq türk dilində əsərlər yaradıblar. Bu baxımdan, həm Türkiyə, həm də Azərbaycan türkcəsində yaranan bu tipli əsərlərin araşdırılması aktual məsələlərdən biridir.

## ƏDƏBİYYAT

1. Babayev, Y. Azərbaycan ədəbiyyatı tarixi (XIII-XVIII əsrlər). – Bakı: Elm və təhsil, – 2014. – 758 s.
2. Bilal. Kıssa-i Yusif (İnceleme-Metin Dr. Zehra Göre). – Ankara: Öncü Kitab, – 2009. – 431 s.
3. Əfəndiyev, H. Azərbaycan bədii nəsrinin tarixindən. – Bakı: Azərnəşr, – 1963. – 236 s.
4. Əliyeva, L. Məhəmməd Füzulinin "Hədiqətüs-süəda" əsərində peyğəmbər hekayələri // – Bakı: Bakı Universiteti Xəbərləri. Humanitar elmlər seriyası, – 2012. № 3. – s. 22-27.
5. Kılıç, M.E. Sufi və şeir. – Bakı: Elm və təhsil, – 2020. – 220 s.
6. Qul Əli. Qisseyi-Yusif. – Bakı,:– 2005. – 216 s.
7. Məhəmməd Füzuli – 500 (məqalələr toplusu). – Bakı: Bakı Universiteti, – 2000. – 257 s.
8. Mir Cəlal. Füzuli sənətkarlığı. – Bakı: Çaşıoğlu, – 2018. – 348 s.
9. Mirzəyev, A. XIII-XVI əsrlər anadilli Azərbaycan epik şeiri. – Bakı: Avropa, – 2017. – 192 s.
10. Səfərli, Ə. XVII-XVIII əsrlər Azərbaycan epik şeiri. – Bakı: Yazıçı, – 1982. – 568 s.
11. Taib. Kıssa-i Yusuf (İnceleme-Metin. Dr. Şerife Akpınar). – Konya: – 2016. – 412 s.
12. Zərir, M. Yusif və Züleyxa. – Bakı: – 2006. – 128 s.

## THE THEME OF "YUSUF AND ZULEIKHA" IN THE LITERATURE OF THE TURKIC PEOPLES AND ITS PLACE IN THE PROSE OF MAHAMMAD FUZULI

**Lala S.ALİYEVA**

### SUMMARY

The theme of the love epic "Yusuf and Zuleikha", widely known in the verbal traditions of the peoples of the Near East, achieved literary immortality through the works of great classical authors such as Ferdowsi and Jami. We observe that this story, retold by nearly a hundred authors in manuscript form, transcends the boundaries of both time and space.

In the literature of the Muslim East, the Holy Quran and its interpretations—especially those by Abdullah ibn Abbas, a cousin of the Prophet Muhammad—served as the primary source, paving the way for the theme's inclusion in written literature. Authors such as Suli Faqih (14th century), Mustafa Zarir (14th), Gul Ali (14th), Shams (15th), Khatai Tabrizi, Fuzuli (16th), and Azer (18th) explored this renowned subject in both verse and prose. In folk literature, the story is regarded as an epic, while in classical literature, it is typically presented as masnavi (with the exception of Ali's "Story of Yusuf"). The earliest versions of the story can be found in the Torah, the Bible, and the Holy Quran.

Unlike his predecessors, Mahammad Fuzuli approached the theme in a distinct and original manner, infusing his work with deep mystical and philosophical meaning as well as artistic elegance. He adapted the traditional plot in line with the spiritual and aesthetic principles of his era, elevating it to a narrative that brought fresh impact to both content and form.

In Fuzuli's rendition of "Yusuf and Zuleikha", which holds a special place among his prophetic narratives, divine love and ideal beauty are portrayed as the ultimate pinnacle of spiritual and moral evolution.

**Keywords:** Fuzuli, "Hadiqat-us Suado", "Yusuf and Zuleikha", prophet, story, prose

## ТЕМА «ЮСУФ И ЗУЛЕЙХА» В ЛИТЕРАТУРЕ ТЮРКСКИХ НАРОДОВ И ЕЕ МЕСТО В ПРОЗЕ МАХАММАДА ФУЗУЛИ

**Лала С.А.АЛИЕВА**


### РЕЗЮМЕ

Тема любовного эпоса «Юсуф и Зулейха», широко распространённая в устной литературе народов Ближнего Востока, обрела бессмертие в произведениях великих классиков — Фирдоуси и Джами. Мы видим, что этот сюжет, представленный более чем в ста различных рукописных версиях, не признаёт границ ни во времени, ни в пространстве.

В литературе мусульманского Востока Священный Коран и его толкования (в особенности комментарии Абдуллы ибн Аббаса, двоюродного брата пророка Мухаммеда) стали основным источником, положившим начало проникновению этого сюжета в письменную литературу. Такие авторы, как Сули Факих (XIV век), Мустафа Зарир (XIV), Гюль Али (XIV), Шамс (XV), Хатаи Табризи, Фузули (XVI), Азер (XVIII) обращались к этой теме как в поэтической, так и в прозаической форме. В народной литературе произведение рассматривается как эпос, а в классической традиции — как маснави (за исключением «Истории Юсуфа» Али). Самые ранние версии этого сюжета можно найти в Торе, Библии и Священном Коране.

В отличие от своих предшественников, Мухаммад Фузули подошёл к теме по-новому и создал оригинальное произведение, в котором объединил мистико-философское содержание с высоким художественным стилем. Он адаптировал традиционный сюжет к духовным и эстетическим принципам своего времени, превратив его в произведение, оказавшее новое и глубокое влияние как на форму, так и на содержание.

В истории «Юсуф и Зулейха», занимающей особое место среди пророческих повествований Фузули, божественная любовь и идеальная красота представлены как высшая ступень духовного и нравственного совершенствования.


**Ключевые слова:** Фузули, «Хадикатус-Суэда», «Юсуф и Зулейха», Пророк, история, проза

BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

№1 Humanitar elmlər seriyası 2025

TARİX

UOT 94 (479.24)

# ВОПРОС ГОСУДАРСТВЕННОГО ЯЗЫКА В АЗЕРБАЙДЖАНЕ В 50-Х ГОДАХ ХХ ВЕКА

**Ибрагим Х.ЗЕЙНАЛОВ***

*В настоящей научной статье рассматривается вопрос государственного языка в Азербайджанской ССР в 1950-х годах. Особое внимание уделяется внесению изменений в Конституцию 1937 года, касающихся статуса азербайджанского языка в республике, его использованию в государственных структурах и последствиям данной языковой политики.Анализируется реакция Центрального Комитета Коммунистической партии Советского Союза на происходящие в республике процессы, в частности — расследование деятельности Первого секретаря ЦК Коммунистической партии Азербайджана И.Д. Мустафаева. Рассматриваются обвинения в национализме, выдвинутые в адрес руководства республики, а также отстранение И.Д.Мустафаева от занимаемой должности. В статье поднимаются и другие вопросы, связанные с языковой политикой, межнациональными отношениями и идеологическим контролем в условиях советской системы управления.*

**Ключевые слова:** конституционный год, конституция 1937 года, азербайджанский язык, применение государственного языка, тоталитарный режим, И.Мустафаев, пленум

**Введение.** Президент Азербайджанской Республики, принимая во внимание полное восстановление территориальной целостности и суверенитета, 30-летие принятия Конституции независимой Азербайджанской Республики и 5-ю годовщину Победы в Отечественной войне, своим Указом от 28 декабря 2024 года объявлял 2025 год в Азербайджанской Республике «Годом Конституции и суверенитета». Научная статья также посвящена объявлению 2025 года «Годом Конституции и суверенитета».

* Профессор Бакинского Государственного Университета;
İbrahimzeynalov@bsu.edu.az; ORCİD İD: 00000-0002-5503-4801

В советское время, особенно в 20-е, 30-е, 40-е и 50-е годы, несмотря на то, что большинство населения составляли азербайджанцы, азербайджанский язык не был доминирующим языком в нашей республике. Только 21 августа 1956 года был принят закон о дополнении Конституции Азербайджанской ССР 1937 года статьёй о государственном языке, объявившей азербайджанский язык на уровне конституции государственным языком Республики.

В Азербайджане в июне 1959 года было принято постановление об обязательном изучении государственными служащими азербайджанского языка с последующей обязательной же сдачей экзаменов. За это 1959 году партийное руководство Азербайджанской ССР подверглось чистке.

**Актуальность.** Официальное принятие азербайджанского языка в качестве специальной статьи в Конституции республики в 1978 году по инициативе Гейдара Алиева обеспечило его развитие во всех сферах. Когда в 1995 году разрабатывалась Конституция Азербайджанской Республики, общенациональный лидер предпочел принять предложение назвать государственный язык азербайджанским. В статье 21 Конституции, принятой всенародным голосованием в 1995 году, указано, что государственным языком Азербайджанской Республики является азербайджанский.

Глава государства Ильхам Алиев с большой щепетильностью относится к нашему родному языку, национальным обычаям и традициям, древней культуре. Наш долг как граждан Азербайджана — относиться к своему языку с уважением и почтением, оправдывать любовь и доверие народа к нему.

1. Konstitusiyanın ümumi məsələləri üzrə yardımçı komissiya; 2. İqtisadi yarımkomissiya; 3. Maliyyə yardımçı komissiyası; 4. Hüquq üzrə; 5. Seçki sistemi üzrə; 6. Məhkəmə orqanları üzrə; 7. Mərkəzi və yerli orqanlar üzrə; 8. Xalq təhsili üzrə; 9. Əmək üzrə; 10. Müdafiə üzrə; 11. Xarici işlər üzrə; 12. Redaksiya məsələləri üzrə [13, 293].

Müzakirələr zamanı diqqəti cəlb edən məqamlardan biri Konstitusiya layihəsində əks etdirilən bir sıra termin və anlayışlarla bağlı bəzi təkliflərin edilməsi ilə bağlı idi. Belə ki, *"kəndli"* sözünün *"kolxozçu"* və ya *"sosialist əkinçiliyinin zəhmətkeşi"* sözləri ilə əvəz olunması təklifinə münasibətdə bunun yolverilməz olduğu qeyd edilmiş və bu mövqe onunla əsaslandırılmışdı ki, kəndlilərin içərisində kolxozçulardan başqa xeyli sayda qeyri-kolxozçular da vardır. Digər tərəfdən, kəndlilərin əksəriyyətinin kolxoz təsərrüfatına cəlb olunması onları kəndlilikdən çıxarmırdı. Onların həm şəxsi təsərrüfatı, həm də şəxsi həyati və s. qalmaqda davam edirdi. Üçüncü bir tərəfdən, bu ifadə dəyişdirildiyi təqdirdə, o zaman *"fəhlə"* termini də *"sosialist sənayesinin zəhmətkeşi*" ifadəsi ilə dəyişdirilməli olardı [14, 68-69].

Digər maraq doğuran bir təklif Konstitusiya layihəsinin 17-ci maddəsinin mətninə edilən düzəlişlə bağlı idi. Burada müttəfiq respublikaların İttifaqın tərkibindən çıxmaq hüququnun "köhnəlməsi" və ya praktiki baxımdan tətbiq olunmaması nöqteyi-nəzərindən layihədən onun çıxarılması təklif olunmuşdu ki, həmin təklifin qəbul olunmaması ilə bağlı mövqe bu maddənin SSR İttifaqının əsl könüllü xarakterə malik olmasını açıb göstərməsi ilə

əsaslandırılırdı. Təkliflərin içərisində muxtar respublikaların statusu ilə bağlı məsələ də mütəmadi qaldırılırdı. Belə ki, muxtar respublikaların tədricən təsərrüfat və mədəni inkişaf səviyyəsinə çatdıqca onların da müttəfiq respublikalara çevrilməsi müzakirə obyektinə çevrilmiş, lakin bir sıra səbəblərlə əlaqədar (məsələn, coğrafi baxımdan kənarda, sərhəd hüdudlarında yerləşməmə, əhalinin sayı, müvafiq respublikanın adını daşıyan millətin həmin ərazidə kompakt halında yaşaması və s.) ondan imtina edilmişdi. Ali Sovetin Rəyasət heyətinə müvəqqəti qanunvericilik aktlarının qəbul edilməsi hüququnun verilməsi ilə bağlı təklif də geniş müzakirəyə səbəb olmuş, lakin qanunvericilik hakimiyyətinin (baxmayaraq ki, bu dövrdə hakimiyyətlərin bölünməsi prinsipi tanınmırdı) Ali Sovetə məxsus olması, həmin əlavənin Konstitusiyanın 40-cı maddəsi ilə ziddiyyət təşkil etməsi qeyd olunmuş, bir orqanın deyil, bir neçə orqanın qanunvericiliklə məşğul olması praktikasına son verilməsinin vacibliyi vurğulanmışdı.

Ümumən götürdükdə, İttifaq Konstitusiyasının müzakirəsində ölkənin yetkin əhalisinin yarıdan çoxu iştirak etmişdi və müzakirələr zamanı irəli sürülən çoxsaylı təkliflərin, düzəlişlərin və əlavələrin əksər hissəsi ictimai quruluş, vətəndaşların əsas hüquq və azadlıqları, seçki sistemi kimi məsələlərlə bağlı idi. Azərbaycan vətəndaşları da həmin müzakirələrdə fəal iştirak etmiş, Sovetlər, onların icraiyyə komitələri, deputat qruplarında, həmçinin də bilavasitə özlərinin yığıncaqlarında Konstitusiya layihəsinin müxtəlif maddələri üzrə üç mindən artıq təklif irəli sürmüşdülər [3, 120-121].

1936-cı il İttifaq Konstitusiyası və onun əsasında qəbul edilmiş müttəfiq respublikaların əsas qanunları üçün ilkin ümumxalq müzakirəsinin xüsusi prosedurunun tətbiqini əslində Sovet dövlətinin gerçək siyasi mifi hesab etmək olar. Çünki mütləqiyyət dövrünün siyasi quruluşu üçün ənənəvi olan "xalqa – rəy bildirmək gücü", "monarxa – hakimiyyət gücü" kimi siyasi iştirak formasını burada əyani olaraq müşahidə etmək olardı. Lakin baxılan dövrdə bu formuladakı kollektiv monarxın yerini xalqın adından çıxış edən və cəmiyyətin dəyişdirilməsinin başlıca dövlət vasitələrini özünün ixtiyarında saxlayan hakim siyasi partiya tuturdu.

Konstitusiya sosializmin qələbəsinin təsbiti və bununla əlaqədar bir çox məsələlərlə yanaşı, ZSFSR-in ləğvini və bu federasiyanın tərkibinə daxil olmuş üç respublikanın – Azərbaycan, Gürcüstan və Ermənistanın bilavasitə SSRİ-nin tərkibinə daxil olmasını müəyyən edirdi. Cənubi Qafqazın siyasi və iqtisadi həyatında Zaqafqaziya Federasiyasının mühüm rolu qeyd olunmaqla yanaşı, onun diyarda məskunlaşan xalqlar arasında milli sülhün bərqərar edilməsi və əməkdaşlığın möhkəmləndirilməsində, həmçinin üç respublikanın ərazisində sosialist quruculuğu sahəsində mühüm nailiyyətlərin əldə olunmasındakı tarixi missiyasına diqqət çəkilmişdi. Sovetlər birliyinin tərkibinə artıq 7 deyil, 11 müttəfiq respublikanın daxil olması rəsmiləş-

dirildi. Beynəlxalq əlaqələr və xarici ticarət, dövlət təhlükəsizliyinin mühafizəsi, planlaşdırma, maliyyə, inzibati-ərazi bölgüsünün dəyişdirilməsi, ümumittifaq əhəmiyyətli müəssisə və idarələrin, nəqliyyat və rabitənin, bank, pul və kredit sisteminin idarəçiliyi, torpaqdan istifadənin, təhsilin və səhiyyənin əsas başlanğıclarının müəyyən edilməsi, İttifaq vətəndaşlığı, əmək, ailə və nikah, mülki, cinayət, prosessual qanunvericilik, məhkəmə quruluşu, amnistiya haqqında ümumi aktların qəbulu sahəsində İttifaqın səlahiyyəti genişləndirildi. Siyasi üstqurum sosializm iqtisadi bazisinə uyğunlaşdırıldı.

1936-cı il Konstitusiyası Sovetlər Birliyinin və eləcə də onun tərkibində olan federasiya subyektlərinin əvvəllər qəbul edilmiş konstitusiyalarında əks etdirilən prinsipləri özündə əks etdirir və bir qədər də inkişaf etdirirdi. Həmin prinsiplərə aşağıdakılar aid idi: sosializmin qurulması faktının bəyan edilməsi; sosialist demokratizmi; fəhlə sinfinin aparıcı rolu və onların əməkçi kəndli təbəqəsi ilə ittifaqı; cəmiyyətin siyasi sistemində kommunist partiyasının rəhbər rolu; xüsusi mülkiyyətin ləğvi və ölkənin vahid iqtisadi əsası qismində sosialist xalq təsərrüfatı sisteminin bərqərar olmasının vacib zəmini kimi istehsal vasitələri və alətləri üzərində ictimai sosialist mülkiyyətin təsdiqlənməsi; vətəndaşların seçki hüquqlarının bərabərliyi, birbaşa seçkilərin keçirilməsi qaydasının və gizli səsvermənin müəyyən edilməsi; çoxmillətli ittifaq dövlətinin formalaşması və inkişafının əsası kimi qəbul edilən proletar beynəlmiləlçiliyi; ali hakimiyyət orqanı qismində əvvəllər fəaliyyət göstərən Sovetlər Qurultayının əvəzinə Ali Sovetin elan edilməsi; dövlət orqanlarının aşağıdan yuxarıyadək bütün sisteminin təşkili və fəaliyyətinin özülündə duran demokratik mərkəziyyət; sosialist qanunçuluğu və humanizm.

İttifaq münasibətləri sferasında Konstitusiya İttifaqın və respublikaların səlahiyyət çərçivələrini müəyyənləşdirirdi ki, bu da partiya mərkəziyyətçiliyi şəraitində olduqca şərti səciyyə daşıyırdı.

İkinci Sovet Konstitusiyası bir tərəfdən inzibati-amirlik sistemini təsbitləyir, digər tərəfdən isə Qərb ölkələrinin gözündə demokratik dövlət imicini yaratmaq üçün çoxsaylı hüquq və azadlıqları, xüsusən də ümumi və bərabər seçki hüququnu, bütün vətəndaşların qanun qarşısında bərabərliyini, yazışma gizliliyini, dini ayinlərin sərbəst icra olunması, söz və yığıncaq azadlığı və s. nəzərdə tuturdu ki, bu da bir partiyanın diktatından xalq demokratiyasına keçidi ehtiva edirdi. Bəzi Avropa tədqiqatçıları da bu Konstitusiyanın mətnini qərbdəki oxşar mətnlərlə müqayisədə daha qabaqcıl hesab edirdilər və əsas qismində onu göstərirdilər ki, "*Konstitusiyanın mətnində yalnız dövlətin deyil, həm də cəmiyyətin əsaslandığı prinsiplər əks etdirilir və hakimiyyətin bütün səviyyələrdə təşkili ətraflı şəkildə müəyyənləşdirilir... Öz mahiyyəti etibarilə rejim əvvəlki Konstitusiyada müəyyən edildiyi kimi təsbitlənsə də, yeni cəhətlər də mövcuddur. Düşmən siniflər haqqında heç bir ifadə yoxdur, şəhər və kənd arasında ayrı-seçkiliyi ehtiva edən fərqlərə*

*rast gəlinmir, bu tarixi qarşıqoymanın izləri formal da olsa yoxa çıxmışdır*" [8, 199].

Lakin həmin dövrdə həyata keçirilən ölçüyəgəlməz repressiyalar bəyan edilən hüquq və azadlıqları fiksiyaya çevirirdi. Xüsusən də dünyada ən demokratik Konstitusiya kimi qələmə verilən bu ali qanunun vicdan azadlığı haqqındakı müddəaları özünün riyakarlığı ilə bütün pozitiv səciyyəli məsələləri arxada qoyurdu. Məsələ bundadır ki, Konstitusiyanın qəbulundan sonra başlanılan və cəmiyyətin müxtəlif təbəqələrini, ələlxüsus da ziyalıları, din xadimlərini, özünün ümumbəşəri dəyərlərlə səsləşən fikirlərini bildirmək niyyətində olan hər kəsi əhatə edən qanlı repressiyalar həmin müddəaların nə dərəcədə "işləməsini" əyani olaraq nümayiş etdirirdi.

Qanunçuluq görüntüsü mövcud olsa da, praktikada qanunçuluğun məqsədəuyğunluqla əvəzlənməsi baş verirdi. Hətta vətəndaşların şəxsi hüquqlarının sıxışdırılması və pozulmasına mütəşəkkil formada, qanunvericilik aktlarında da rast gəlinirdi. Nümunə qismində göstərmək olar ki, kollektivləşdirilmənin gedişatında milyonlarla kəndli qolçomaqlarla mübarizə adı altında məhv edilmiş və sürgünə məruz qalmışdı. Azərbaycanın 1927-ci il Cinayət Məcəlləsinə "əksinqilabi təbliğat və təşviqatla" və "cinayətkar birliklərlə" mübarizə ilə əlaqədar bir sıra maddələr əlavə edilmiş və bu ad altında söz, mətbuat, yığıncaqlar, mitinqlər və nümayişlər azadlığı ləğv edilmişdi. İri şəhərlərdə qeydiyyat sisteminin tətbiqi insanları öz seçimi əsasında yaşayış yerini müəyyən etmək imkanlarından məhrum edirdi. Əcnəbi vətəndaşlarla nikaha daxil olmaq və ölkə hüdudlarından sərbəst surətdə çıxmaq qadağan olunmuşdu. Konstitusiyanın normalarının pozulmasını göstərən amillərdən biri də nəinki sıravi vətəndaşların, həm də yüksək çinli məmurların, hərbçilərin prokurorun sanksiyası (Konstitusiyaya uyğun olaraq belə sanksiyanın alınması məcburi idi) olmadan həbs olunması idi.

Eyni zamanda qeyd edilməlidir ki, Konstitusiyada təsbit edilən hüquqlardan istifadə olunması cəmiyyətin və onun üzvlərinin siyasi mədəniyyətindən də asılıdır. Bir sıra hüquqlar, məsələn, müttəfiq respublikanın İttifaqın tərkibindən çıxa bilmək hüququ bəyan edilsə də, "məqsədəmüvafiq" hesab olunmurdu. Pulsuz səhiyyə xidmətlərindən istifadə etmək hüququnun pozulması o dövrdə hiddət yaradan hal olsa da, söz azadlığından istifadəyə cəhd etmə hamını heyrətləndirə bilərdi. Konstitusiyada milli quruluş xəttinin müəyyən edilməsi ilə bağlı məsələ də prinsipial məqamlardan biri hesab olunurdu. Konstitusiyanın layihəsinin işlənib hazırlanması zamanı millətlərin "dövlətsizləşdirilməsi" ilə bağlı mövqe sərgilənsə də, bunun mənfi nəticələri nəzərə alınaraq əvvəlki qaydanın saxlanılması məqbul hesab edilmişdi. Bu bir tərəfdən, millət, xalq, etnos problemlərinin ümumnəzəri tərəflərinin işlənib hazırlanmaması ilə bağlı idisə, digər tərəfdən, mərkəzi hakimiyyətin və İttifaqın möhkəm birliyinin həmişəlik təmin olunması

mövqeyinə inamla bağlı idi.

Konstitusiya həmkarlar ittifaqlarının, komsomolun, digər ictimai təşkilatların hüquqi statusunu müəyyənləşdirsə də, onların hamısı dövlətin inzibati-bürokratik aparatının ciddi nəzarəti altında çalışmalı idilər. Hakimiyyət praktiki olaraq nəzarətsiz fəaliyyət göstərirdi. Tarixin də dönə-dönə təsdiqlədiyi kimi, nəzarətsiz və yaxud da bütövlükdə cəmiyyət tərəfindən deyil, hansısa insanlar qrupu tərəfindən nəzarət olunan hakimiyyət istənilən şəxsiyyətə, onun fəaliyyətinə dağıdıcı təsir göstərir.

**Azərbaycanın 1937-ci il Konstitusiyası və respublikanın siyasi-hüquqi həyatında dəyişikliklər.** SSRİ Konstitusiyasının qəbulu ərəfəsində Azərbaycanın hələ 1936-cı ilin avqustunda ümumittifaq Konstitusiyasının müzakirə edilən müddəalarına müvafiq surətdə hazırlanmış yeni Konstitusiyasının qəbul edilməsi məqsədilə 17 noyabr 1936-cı il tarixdə IX Fövqəladə Ümumazərbaycan Sovetlər qurultayı işə başladı. Qurultayın gündəliyinə 5 məsələ – SSRİ Konstitusiyasının layihəsinin ümumxalq müzakirəsinin nəticələri haqqında; XVIII Fövqəladə Ümumittifaq Sovetlər qurultayına nümayəndələrin seçilməsi barədə; ZSFSR-in ləğvi haqqında; Azərbaycan Konstitusiyasının təsdiq edilməsi haqqında və Azərbaycanın Ali Sovetinə seçkilər barədə məsələlər daxil edilmişdi. Lakin qurultay birinci iki məsələni həll etdikdən sonra SSRİ Konstitusiyasının qəbulundan sonra yenidən yığışmaq üçün işini dayandırmış oldu.

1937-ci il martın 10-da üç aylıq fasilədən sonra yenidən işini bərpa edən IX Ümumazərbaycan Sovetlər qurultayı martın 12-də Konstitusiya komissiyasının məruzəsini və Konstitusiyanın layihəsini müzakirə edərək 71 nəfərdən ibarət redaksiya komissiyasını yaratdı və iki gün ərzində bütün müzakirələrin nəticələri nəzərə alınaraq Konstitusiyanın son mətninin təsdiqi üçün qurultaya təqdim etməsini ona həvalə etdi. Nəticədə 14 mart 1937-ci il tarixdə qurultay Azərbaycanın növbəti Kontitusiyasını qəbul etdi. Qurultay tərəfindən “tarixi missiyasını başa çatdırması”nın qeyd olunduğu Zaqafqaziya Federasiyasının ləğvi burada bir daha təsdiq edildi və ittifaq Konstitusiyasının 13-cü maddəsinə müvafiq surətdə Azərbaycanın digər iki qonşu respublika ilə birlikdə SSRİ-nin tərkibinə bilavasitə daxil olması haqqında qərar qəbul olundu.

14 fəsil və 155 maddədən ibarət olan Konstitusiya çoxsaylı yenilikləri nəzərdə tuturdu. Xüsusən də sosialist demokratiyası prinsipinə uyğun surətdə dövlət orqanları sistemində və seçki hüququ prinsipində bir sıra yeni müddəlar təsbit edildi. Hakimiyyət orqanlarının hamısı gizli səsvermə yolu ilə ümumi, müstəqim və bərabər seçki hüququ əsasında seçilməyə başladı. Əvvəlki konstitusiyalardan fərqli olaraq Azərbaycanın 1937-ci il Konstitusiyası bir sıra yeni fəsilləri – “ictimai quruluş”, “vətəndaşların əsas hüquq və vəzifələri”, “Naxçıvan MSSR-in ali dövlət hakimiyyəti orqanları”, “DQMV-

nin dövlət hakimiyyəti orqanları”, “məhkəmə və prokurorluq” adlanan fəsilləri ehtiva edirdi [2, 421-422].

1937-ci il Azərbaycan Konstitusiyasının xüsusiyyətləri içərisində konstitusion tənzimləmə çərçivəsinin mühüm dərəcədə genişləndirilməsini, cəmiyyətin kütləvi statikləşdirilməsini, yəni bütün fəaliyyət sferalarının dövlətə tabe etdirilməsini, cəmiyyətin və dövlətin vahid rəhbərverici qüvvəsi kimi marksist-leninçi partiyanın genişləndirilmiş formada institusionallaşdırılmasını göstərmək olar.

Əsas Qanun sosialist mülkiyyətinin iki formasını – dövlət mülkiyyətini (ümumxalq malı) və kooperativ-kolxoz mülkiyyətini nəzərdə tuturdu. Ölkənin təsərrüfat həyatı dövlət xalq təsərrüfatı planı ilə müəyyən edilirdi. Əməyə vəzifə kimi baxılırdı. Sosialist təsərrüfat sisteminin respublikamızda hakim təsərrüfat forması olması vətəndaşların şəxsi mülkiyyətə malik olmasını istisna etmirdi. Vətəndaşların öz əməyi ilə qazandığı gəlirə və vəsait yığımına, yaşayış evinə və yardımçı ev təsərrüfatına, ev təsərrüfatı və məişət avadanlığına, şəxsi istehlak əşyalarına malik olmaq hüququ, habelə, vətəndaşların şəxsi mülkiyyətə varislik hüququ qanunla mühafizə olunurdu.

Sosialist federasiyasının tam hüquqlu üzvü kimi Azərbaycan SSR-in “dövlət suverenliyi” formal da olsa, onun Konstitusiyasının aşağıdakı müddəalarında ifadə olunmuşdu: 1) respublikanın özünün dövlət hakimiyyət orqanlarının yaradılmasında, habelə bu orqanların müstəqil surətdə ümumittifaq orqanlarının təsdiqinə ehtiyac olmadan respublikanın Konstitusiyasını qəbul etmək və onu dəyişdirmək hüququna malik olmasında; 2) müəyyən əraziyə malik olmada ifadə olunan ərazi üstünlüyünün olmasında, yəni respublikanın ali hakimiyyət orqanlarının öz hakimiyyətini həyata keçirdiyi həmin ərazi hüdudlarının Azərbaycanın razılığı olmadan dəyişdirilə bilməməsində; 3) Azərbaycan SSR-in digər respublikalarla vahid çoxmillətli ittifaq dövlətində könüllü olaraq birləşməsində və onun SSRİ-nin tərkibindən azad surətdə çıxmaq hüququnda; 4) respublika vətəndaşlığının mövcud olmasında və Azərbaycan SSR vətəndaşlığına qəbul etmək hüququnda; 5) respublikanın özünün dövlət, təsərrüfat və mədəni həyatının müxtəlif sahələrinə dair qanunvericilik hüququnun olmasında; 6) Azərbaycan SSR-in xarici dövlətlərlə bilavasitə əlaqəyə girmək, onlarla saziş bağlamaq, diplomatik və konsul nümayəndələri göndərmək və qəbul etmək hüququna malik olmasında; 7) respublikanın öz qoşun birləşmələrinin olmasında; 8) əfvetmə hüququnda; 9) respublikanın özünün dövlət dili, gerbi, bayrağı və paytaxtının olmasında [5, 94; 2, 422].

İttifaqın dövlət quruluşu respublikaların federativ birliyi kimi müəyyən edilsə də, Azərbaycan tərkibində iki muxtar qurumun olmasına baxmayaraq, unitar quruluşa malik idi. Sovetlər birliyinin ali hakimiyyət orqanı olan Ali Sovet iki palatadan ibarət olduğu halda, Azərbaycanın Ali Soveti

bir palatalı idi. SSRİ Ali Sovetinin birinci palatası – İttifaq Şurası ərazi dairələri üzrə formalaşdırılırdısa, ikinci palata – Millətlər Şurası müttəfiq, muxtar respublikalar, muxtar vilayət və muxtar mahallar üzrə seçilirdi. Hər iki palatada eyni sayda deputatın olması nəzərdə tutulurdu ki, bu da palataların hüquq bərabərliyinin təmin edilməsi məqsədilə atılmış addım idi. Azərbaycan sovet respublikasının səlahiyyətləri məcmusu iki qrup səlahiyyətlərdən formalaşırdı. Birinci qrupa Sovetlər İttifaqı və müttəfiq respublikaların birgə səlahiyyətləri məcmusunu təşkil edən səlahiyyətlər, ikinci qrupa isə Azərbaycanın müstəsna səlahiyyəti aid edilirdi.

Sovetlər birliyi ilə müttəfiq respublikalar, o cümlədən Azərbaycan arasında səlahiyyətlərin bu cür bölgüsü onların suverenliyi arasındakı üzvü bağlılıq, demokratik mərkəziyyət prinsipinin həyata keçirilməsi, Azərbaycanın digər müttəfiq respublikalar kimi hüquqlarının bir hissəsini "könüllü olaraq" İttifaqa ötürməsi, SSRİ-nin yaradılması haqqında müttəfiq respublikalar arasındakı müqavilə razılaşması, iqtisadi və siyasi sistemin vahid sosialist mahiyyəti və sosialist mülkiyyət formalarının Sovetlər birliyinin təsərrüfat həyatının bütün sferalarında şəriksiz hökmranlığı, sosializmin iqtisadi qanunlarına müvafiq olaraq bu və ya digər sənaye sahələrinin ümumfederal əhəmiyyəti və s. kimi amillərlə şərtləndirilirdi.

Konstitusiyanın vətəndaşların hüquq və vəzifələrinə həsr edilmiş XI fəslində sosial iqtisadi hüquqlar, siyasi hüquq və azadlıqlar, şəxsi hüquq və azadlıqlar əks etdirilmişdi. Bütün bu sadalanan hüquq və azadlıqlar deklarativ səciyyə daşıyırdı. Əslində fərqli baxışlarına görə vətəndaşlar ciddi surətdə təqib olunurdular. Konstitusiya vətəndaşların yalnız hüquqlarını deyil, həm də vəzifələrini müəyyən edirdi. Orduda xidmət göstərilməsi, vətənin müdafiəsi, Konstitusiyanın gözlənilməsi, qanunların yerinə yetirilməsi, əmək intizamına riayət olunması, ictimai vəzifəyə vicdanla yanaşılması, sosialist birgəyaşayış qaydalarına hörmət edilməsi, ictimai sosialist mülkiyyətinin qorunması və möhkəmləndirilməsi hər bir vətəndaşın borcu sayılırdı.

Seçki sistemini əks etdirən Konstitusion müddəalara uyğun olaraq 18 yaşına çatmış hər bir Azərbaycan vətəndaşları (qanunla fəaliyyət qabiliyyətsiz hesab edilmiş şəxslərdən istisna olmaqla) üçün heç bir əlavə senz qoyulmadan seçkilərdə iştirak etmək hüququ müəyyən edilmişdi. 21 yaşına çatmış şəxslərin respublikanın Ali Sovetinə deputat seçilmək hüququ təsbit olunurdu. Seçki hüququnda olan məhdudiyyətlər, o cümlədən səs hüququ ilə məşğul olan yerli komissiyalar ləğv edildi və ümumi, bərabər və gizli səsvermə hüququ təsbit edildi.

Yeni Konstitusiyanın qəbul olunması ilə Sovetlər müəyyən dəyişikliklərə məruz qaldı. Əvvəllər "fəhlə, kəndli, qızıl əsgər və matros deputatları soveti" adlanan qurumlar Konstitusiyada "zəhmətkeş deputatları soveti" adlandırıldı. Sovetlərin təşkilati quruluşu sadələşdirildi. Rayon qurultayları

əvəzinə rayon sovetinin sessiyalarının çağırılması müəyyən olundu. Sovetlərin bölmələri daimi komissiyalar adlandırıldı və onlar bütün kənd sovetlərində təşkil edildi. Bölmələrə münasibətdə sovetlər inzibati hüquqa malik olsalar da, bu komissiyalara şamil olunmurdu. Konstitusiyanın qəbulundan sonra sovetlərin deputat qrupları ləğv olundu. Sovetlərin hüquq və qanunvericilik vəzifələri, təsərrüfat quruculuğuna rəhbərliyi müəyyən dərəcədə məhdudlaşdırıldı. İnzibati-amirlik rejimi, bütün hakimiyyətin rəsmi məmurların əlində cəmləşməsi şəraitində sovetlərin hüquqları tədricən daha da məhdudlaşdırılaraq partiya orqanları tərəfindən mənimsənilirdi. Sovetlərə yalnız sosial-məişət problemlərinin həlli həvalə olunurdu.

Konstitusiyaya görə dövlət orqanları sistemində dəyişikliklər yalnız hakimiyyət orqanlarının yeni adlarının müəyyən olunması ilə kifayətlənmirdi, həm də onların strukturu və səlahiyyət dairəsi ilə bağlı yenilikləri də əhatə edirdi. Belə ki, Əsas Qanun formal olaraq hakimiyyət və idarəetmə orqanlarını ali və yerli kateqoriyalara ayırdı. Bununla belə, bütövlükdə aparatın mərkəzləşdirilməyə doğru yenidən qurulması prosesi gedirdi. Sovetlər qurultayları ləğv edilmiş, dövlət hakimiyyətinin qanunvericilik funksiyalarına malik ali ümumi orqanı kimi Ali Sovetin formalaşdırılması nəzərdə tutulmuşdu. Hökumət qanunvericilik funksiyalarını itirmiş və tərkibinə xalq komissarlıqları ilə yanaşı, dövlət komitələrinin və komissiyalarının da daxil olduğu ali kollegial icraedici-sərəncamverici orqana çevrilmişdi.

Respublikanın Ali Soveti əhalinin hər 10 min nəfərə bir nəfər deputat olmaqla dörd il müddətinə formalaşdırılırdı. Digər müttəfiq respublikalarda bu rəqəm müxtəlif idi. Belə ki, RF-də hər 150 min nəfərə bir nəfər, Ukraynada hər 100 min nəfərə, Qazaxıstanda və Belarusiyada hər 20 min nəfərə, Özbəkistanda və Gürcüstanda hər 15 min nəfərə, Qırğızıstanda, Türkmənistanda, Tacikistanda və Ermənistanda hər 5 min nəfərə bir nəfər deputat olmaqla həmin respublikaların ali nümayəndəli orqanları təşkil olunurdu. Bir növ respublikanın parlamenti sayılan Ali Sovetin formalaşdırılması seçki hüququ sahəsində ümumdünyəvi standartların əsasında həyata keçirilirdi. Strukturuna görə birpalatalı orqan olan bu hakimiyyət orqanının iş qaydası sessiyalı xarakter daşıyırdı. Ali Sovet tərəfindən formalaşdırılan və sədrdən, sədrin iki müavinindən (biri Naxçıvanı, digəri isə Dağlıq Qarabağı təmsil edirdi və bu qayda digər müttəfiq respublikaların Konstitusiyalarında nəzərdə tutulmamışdı), katibdən və on üzvdən (bir qədər sonra 11 üzv) ibarət olan Rəyasət heyəti daimi fəaliyyət göstərən kollegial hakimiyyət orqanı idi.

Konstitusiyada öz təsdiqini tapmış dövlət orqanlarının səlahiyyətləri bölgüsü prinsipinə uyğun olaraq Ali Sovetin Rəyasət heyəti, hətta sessiyalararası dövrdə də Azərbaycan Ali Sovetinin hüquqlarına malik deyildi. Buna görə də, Rəyasət heyəti Ali Soveti əvəz edən orqan deyil, ona tabe olan bir orqan idi. Ali Sovetin Rəyasət heyətinin səlahiyyət dairəsinə Ali Sovetin

özündən fərqli olaraq qanunvericilik fəaliyyəti ilə məşğul olmaq, qanunlar qəbul etmək hüququ daxil deyildi. O, artıq qeyd olunduğu kimi, yalnız qanunları təfsir edə və fərmanlar qəbul edə bilərdi. Rəyasət heyəti tərəfindən qəbul edilən və qanun qüvvəli ali idarəetmə aktı olan fərmanlar Ali Sovet tərəfindən qəbul edilən qanunlara zidd olmamalı idi.

Öz fəaliyyətinin əsas sahələri üzrə Ali Sovetin səkkiz daimi komissiyasının və müəyyən tapşırıqların yerinə yetirilməsi məqsədilə müvəqqəti komissiyaların təşkili nəzərdə tutulurdu. Daimi komissiyalardan fərqli olaraq müvəqqəti komissiyalar onların üzərinə qoyulan vəzifələrin icrası başa çatdıqdan sonra öz fəaliyyətlərini dayandırırdılar.

O dövrdə hakimiyyətlərin bölünməsi prinsipi tanınmasa da, qanunvericilik hakimiyyətinin Ali Sovetin, icra funksiyalarının Xalq Komissarları Sovetinin, ali məhkəmə hakimiyyətinin isə Ali Məhkəmənin əlində cəmləşdirilməsi müəyyən mənada bu Konstitusiyada təsbit olunurdu.

Respublikanın ali icraedici və sərəncamverici orqanı olan Xalq Komissarları Soveti Konstitusiyanın 43-cü maddəsinə müvafiq olaraq Azərbaycanın Ali Soveti, sessiyalararası dövrdə isə Ali Sovetin Rəyasət heyəti qarşısında məsul idi və onlara hesabat verirdi. XKS-nin qərar və sərəncamlarının icrası bütün respublika ərazisində məcburi sayılırdı.

Həmin dövrdə sənayenin idarə olunmasında bir sıra yeni proseslər müşahidə etmək olardı. İri sənaye sahələri respublikanın nəzarətindən çıxarılır və ittifaq orqanlarının idarəçiliyi altına keçirilirdi. Vahid ümumittifaq xalq təsərrüfatı kompleksi yaradılırdı. Sahəvi idarəetmə gücləndirilir və funksional sistem, yəni maliyyə, kadr və s. məsələlər sadələşdirilirdi. Trestlər və onların funksiyaları ixtisara salınır, xalq komissarlıqlarının müəssisələrlə birbaşa əlaqələri gücləndirilirdi. Xalq komissarlıqlarının baş idarələrinin strukturu onların istehsalat şöbələrinin möhkəmləndirilməsi yolu ilə yenidən qurulurdu. Baş idarələr, həmçinin təsərrüfat hesabı əsasında satış və təchizat funksiyalarını yerinə yetirirdilər. Xalq komissarlıqları iriləşdirilir və onların sayı artırılırdı. 1940-cı ilin aprelində mərkəzi icraedici orqanlara rəhbərliyin səmərəliliyinin artırılması məqsədi ilə İttifaqın XKS-nin nəzdində xalq komissarlıqlarına məcburi göstərişlər vermək hüququna malik olan altı təsərrüfat şurası təşkil olunmuşdu. Onların tərkibi həmin qurumları formalaşdıran ali icraedici və sərəncamverici orqan tərəfindən 3-5 nəfər olmaqla təsdiq olunurdu və təsərrüfat şuralarına rəhbərliyi XKS-nin sədr müavinləri həyata keçirirdi. XKS-nin daimi komissiyası hüquqlarında Əmək və müdafiə şurasının əvəzinə İqtisadi şura yaradılmışdı.

Xalq komissarlıqları respublikanın Ali Soveti tərəfindən yaradılır və ləğv edilirdilər. Komissarların təyinatı da həmin orqan tərəfindən, sessiyalar arası dövrdə isə respublika XKS-nin sədrinin təqdimatı ilə Ali Sovetin Rəyasət heyəti tərəfindən (sonradan Ali Sovet tərəfindən təsdiq olunmaqla) hə-

yata keçirilirdi. İttifaq Konstitusiyasına görə 8 ümumittifaq və 10 ittifaq-respublika xalq komissarlığının yaradılması müəyyən edilmişdi. Azərbaycanda isə 13 xalq komissarlığı fəaliyyət göstərirdi. Onlardan 9-u ittifaq respublika – yeyinti, yerli və meşə sənayesi, torpaq, maliyyə, daxili ticarət, ədliyyə və səhiyyə xalq komissarlığı, 4-ü isə respublika tabeli – maarif, yerli sənaye, kommunal təsərrüfatı və sosial-təminat xalq komissarlıqları idi. Xalq təsərrüfatının yeni sahələri meydana gəldikcə və əvvəlki sahələr genişləndikcə ittifaq respublika və respublika tabeli xalq komissarlıqlarının sayının artırılması nəzərdə tutulurdu.

Azərbaycanın 1937-ci il Konstitusiyasına görə respublikanın dövlət hakimiyyətinin yerlərdəki təmsilçiləri rayon, şəhər, qəsəbə və kənd zəhmətkeş deputatları sovetləri sayılırdı. Müvafiq rayon, şəhər, qəsəbə və kənd əməkçiləri tərəfindən iki il müddətinə seçilən bu orqanlar Konstitusiya, habelə ittifaq və respublika qanunları ilə onlara verilmiş səlahiyyətlər çərçivəsində qərarlar qəbul edir və sərəncamlar verir, özlərinə tabe olan idarəetmə orqanlarının fəaliyyətinə rəhbərlik edir, yerli təsərrüfat və mədəni quruculuq işlərinə rəhbərliyi həyata keçirir, yerli büdcəni müəyyən edirdilər. Yerli sovetlərin icraiyyə və binagüzarlıq orqanları onlar tərəfindən seçilən icraiyyə komitələri idi. Rayon, şəhər, şəhərdə rayon, qəsəbə və kənd zəhmətkeş deputatları sovetlərinin sessiyaları ildə 6 dəfədən az olmayaraq, rayon bölgülü şəhərlərdə şəhər sovetlərinin sessiyaları isə ildə 4 dəfədən az olmayaraq müvafiq icraiyyə komitələri tərəfindən çağırılırdı.

Konstitusiya müddəalarında “sovet demokratiyası”nın bəyan edilməsinə, ümumi seçki hüququnun formal olaraq 18 yaşdan tətbiq olunmasına, nümayəndəli orqanların səlahiyyətlərinin genişləndirilməsinə və s. kimi təsbitlərə baxmayaraq, Sovetlərin konstitusion “təsviri” hakimiyyətin gerçək fəaliyyətini əks etdirmirdi. Onların praktiki fəaliyyətinə nüfuz etdikdə müəyyən ziddiyyətləri sezmək o qədər də çətin deyildir. Belə ki, əksər hallarda partiya orqanlarının direktivlərini yerinə yetirən, onların hakimi-mütləqliyini pərdələməklə “kamuflyaj” qismində çıxış edən yerli Sovetlər yerli həyatın müxtəlif sahələri üzrə məsələlərin həllində müstəqillik də nümayiş etdirirdilər. Bu müstəqillik daha çox yerli Sovetlərin malik olduqları kifayət edəcək səviyyədə olmasa da, lakin müstəqil surətdə onlara məxsus büdcə təxsisatlarından istifadə zamanı müşahidə olunurdu.

Baxılan dövrdə hakimiyyət təmsilçilərinin nəzəri işlərinin və onların praktiki fəaliyyətinin nəticələrinə diqqət yetirdikdə onlar tərəfindən cəmiyyətə təqdim olunan hakimiyyət konstruksiyasını dərk etmək imkanı yaranır. Həmin hakimiyyət konstruksiyası aşağıdakıları özündə ehtiva edirdi: hakimiyyətin subyekti – cəmiyyət, sosial toplum, birlik, ittifaq; hakimiyyətin daşıyıcısı – orqanlar, aparat; hakimi-mütləqlik – hakimiyyət münasibətləri; hakimiyyətin obyekti – cəmiyyət, sosial toplum, birlik, fərd.

Bu quruluşda xalq hakimiyyətinin ən mühüm həlqəsi hakimiyyətin sinfi mahiyyət kəsb etməsi idi. Müxtəlif siyasi qüvvələr arasında baş verən qaçılmaz qarşıdurmalar şəraitində inqilabdan əvvəlki hadisələrin təsiri ilə yaranmış, lümpenləşdirilmiş geniş xalq kütlələrinə arxalanmaqla hakimiyyətin qorunub saxlanmasına nail olmaq ilk sosialist ölkəsinin rəhbərlərinin qarşısında duran ən vacib məsələ idi. Onların mövqeyincə, belə şəraitdə xalq hakimiyyəti prinsipinin həyata keçirilməsinə nail olma hakimiyyətlərin bölgüsünün tətbiqi zamanı deyil, yalnız əks proses olan mərkəzləşmənin mövcudluğu halında mümkündür. Mərkəzləşmənin qorunub saxlanılması isə hakimiyyətin bir qrup şəxslərin məhdud dairəsinin nəzarətində olduğu zaman mümkün ola bilər. Bunun üçün cəmiyyətin son dərəcədə ideolojiləşdirilməsi, hakimiyyətin və bolşevizm ideologiyasının daşıyıcısı olan partiyanın (daha dəqiq desək, partiya aparatının) ilişgilərinin möhkəmləndirilməsi zəruri idi [3, 141].

Yeni dünya savaşının başlanması ilə bütün ölkə ərazisində yeni hərbi-siyasi, sosial-iqtisadi və hüquqi mühit yaranmış oldu. İlk növbədə qeyd olunmalıdır ki, bu müharibəyə gətirib çıxaran faşizm ideologiyasının meydana gəlməsi kəskin anti-burjua frazeologiyası və öz sıralarına fəhlələrin geniş surətdə cəlb olunmaları ilə müşayiət olunurdu. Buna rəğmən faşizm iri kapitalla dərin və sıx qarşılıqlı əlaqədə formalaşmağa başlamışdı. Hitler və Veymar Respublikasının rəhbərliyi arasında hakimiyyətin faşistlərə təhvil verilməsi haqqında danışıqlar “Ağalar klubu” adlanan və tərkibinə iri sənaye sahibkarlarının və maliyyəçilərin daxil olduğu qurum vasitəsilə aparılırdı. İri kapital üçün faşizm yeni tipli ideologiyanın köməyi ilə sinfi mübarizəni “söndürmək”, anti-burjua ritorikasını və “sosialist” fikirləri qabartmaq vasitəsi olaraq seçilmişdi. Burada kapitalizm və sosializmə münasibətdə sovet dövləti ilə faşist dövləti arasında hər hansı bir oxşarlığın aparılmasından söhbət gedə bilməz, çünki bunlar fərqli qütblər idilər. Sosializm anlayışına bu dövlətlərin baxış bucağını çözməli olsaq, SSR İttifaqının bunu normal, dinc həyata nail olmaq üsulu kimi qəbul etdiyinə rəğmən, faşist dövləti üçün bu, yeni yaşayış məkanları uğrunda böyük müharibəyə başlamaq üçün birləşmək naminə millətin siniflərə bölgüsünün aradan qaldırılması üsulu idi. Sosializm ilk başlanğıcdan faşistlərin müharibə layihəsi kimi istifadə olunduğu halda, Sovetlər ölkəsi sosializmdə yer üzündəki bütün insanların arzu etdikləri həyat tərzini, qardaşlıq telləri ilə bütün insanların birləşdirilməsi vasitəsini görürdü [3, 142-143].

Sovetlər Birliyi dönəmində formalaşan siyasi ədliyyə siyasi rəqiblərin aradan çıxarılması üçün yaradılan dövlət orqanları sistemini ehtiva edirdi. Bu təsisat özünün rəhbər aparatına, tam əlahiddə şəkildə fəaliyyət göstərən struktura malik deyildi, operativ işi həyata keçirən istintaq, məhkəmə və cəzaların icrası orqanlarının ümumi strukturuna daxil idi. Siyasi ədliyyənin ilk

təzahürləri hələ sosialist dövlətinin qurulmasının ilk vaxtlarında meydana çıxmışdı və buna nümunə olaraq Fövqəladə Komissiyanı, onun ləğvindən sonra Daxili işlər xalq komissarlığının nəzdində komissarın və ya onun müavinin sədrliyi ilə yaradılan Dövlət Siyasi İdarəsini göstərmək olar. 30-cu illərin sonlarında siyasi ədliyyənin əhatə dairəsinə artıq bir neçə strukturun daxil olması bu institutun baxılan dövrdə geniş intişar tapmasını təsdiqləyir. Daxili işlər xalq komissarlığının nəzdində Xüsusi müşavirlik yaradılmış və ona inzibati qaydada beş ilədək müddətə islah əmək düşərgəsinə salınma, sürgünə göndərmə, eləcə də İttifaqın hüdudlarından kənara sürgün etmə kimi cəza tədbirlərini tətbiq etmək hüququ verilmişdi. Buradan da aydın olur ki, inzibati orqan kimi fəaliyyət göstərməli olan bu qurum əvvəllər fəaliyyət göstərən Məhkəmə kollegiyası kimi geniş olmasa da, məhdud şəkildə məhkəmə səlahiyyətlərinə malik idi. Tərkibinə İttifaq prokurorunun və onun müavininin də daxil olduğu Xüsusi müşavirliyin səlahiyyətləri sonradan bir qədər də genişləndirilmiş və ona siyahıda olan işlərin məhkəmə baxışını həyata keçirmək, güllələnmə cəzasına məhkum etmək hüquqları da verilmişdi [3, 151].

**Konstitusiyanın qəbulundan sonra hüquq sistemindəki yeniliklər.** XX əsrin 30-cu illərində hüquq sovet cəmiyyətinin sosial-siyasi və ideoloji təzahürlərinin normativ təcəssümü kimi formalaşırdı. Həmin dövrdə hüququn məzmununa bir-birilə qarşılıqlı əlaqədə olan üç proses – kollektivləşdirmə, sənayeləşdirmə və hakimiyyətin mərkəzləşdirilməsi prosesləri böyük təsir göstərirdi. Geniş əhali kütlələrinin həyat tərzini dəyişən urbanizasiya prosesi, yəni şəhərlərin sürətli şəkildə böyüməsi də dolayısı ilə sosial-hüquqi proseslərin axarına yön verirdi. Digər tərəfdən, 30-cu illərin sonlarında böyük müharibə təhlükəsinin artması və bununla əlaqədar səfərbərlik layihələrinin “işə salınması” yeni normativ hüquqi aktların qəbulunu şərtləndirmişdi. Hüquqi sferada baş verən dəyişikliklər sosializmin həyati quruluşunun bütün sistemlərinin möhkəmləndirilməsinə istiqamətləndirilmişdi və bunların içərisində ölkənin müdafiə qabiliyyətinin lazımi səviyyəyə çatdırılması üçün bütün resursların sürətli olaraq səfərbər olunmasının təmini xüsus yer tuturdu.

Hüququn tədricən sıradan çıxacağı ilə bağlı marksizm müddəasının kənara qoyulduğu bu illərdə nəinki onun aradan çıxması, əksinə xüsusi bir tarixi növ kimi sovet hüququnun möhkəmləndirilməsinin vacibliyi qeyd olunurdu. Həmin dövrdə formalaşmış və marksist-leninçi ideologiyaya əsaslanan “sosialist qanunçuluğu” doktrinası hüquq haqqında normativist baxışları əks etdirirdi. 20-ci illərdəki ilkin psixoloji və sosioloji hüquq nəzəriyyələrindən imtina edilmişdi. Lakin normativizmin qələbəsi hələ də qanunun aliliyinin bərqərar olmasına dəlalət etmirdi. Məqsədəmüvafiqlik, analogiya və qərəzsiz yanaşma prinsipləri saxlanılırdı. Təcrübədə qanunçuluqla bağlı çoxsaylı pozuntulara rast gəlinirdi. Bununla yanaşı, sovet hüququ həm də impe-

rativ xarakterə malik olmaqla, qanunun müəlliflərinin niyyətləri ilə ciddi surətdə uzlaşdırmaq şərti ilə onun təfsirini (qərb hüququnda mövcud olan sərbəst və hərfi izahdan fərqli olaraq) tələb edirdi [2, 420].

Ali qanun olan Konstitusiyaya görə bütün hakimiyyət Ali Sovetin əlində cəmləşdirildi. Hakimiyyətlərin bölgüsü prinsipindən "burjua prinsipi" kimi imtina edildi. Konstitusiya hüququn başlıca mənbəyi kimi Ali Sovet tərəfindən qəbul edilən qanunu göstərirdi. Bütün digər aktlar qanunqüvvəli aktlar hesab olunurdular. Formal mənada qanun dedikdə nümayəndəli orqan tərəfindən qəbul edilən hər hansı akt, maddi mənada isə – qanunvericilik orqanı tərəfindən verilməsi məcburi olmasa da, hansısa davranış qaydalarını müəyyən edən ümumi əhəmiyyətli normalar başa düşülür. Qanunun özü isə dövlətin bir aləti kimi təsəvvürə gətirilir, hüquqla bağlılığına rəğmən dövlətin mütləqiyyəti təsdiqlənirdi. Belə yanaşma istənilən dövləti özbaşınalığa və qəddarlığa hüquqi forma verilməsini ehtiva edirdi.

Konstitusion müddəaların mahiyyətinə görə bu dövrdə qanunların formal və maddi aspektləri üst-üstə düşürdü. Ali Sovet təcrübədə özünün funksiyalarını sessiyalararası dövrdə Rəyasət heyətinə verirdi. Xalq Komissarları Soveti də fəaliyyətdə olan qanunların əsasında və onların icrası üçün qərarlar qəbul edirdi. Dövlət hakimiyyət strukturlarının partiya-siyasi birliyinin təmin olunması qanunvericilik funksiyasının bir orqandan digərinə ötürülməsi prosesini asanlaşdırırdı. Partiyanın rəhbər orqanları qanunların formalaşdırılmasında fəal iştirak edirdilər. Bu dövrdə hökumətin qərarlarının rəhbər partiya orqanı ilə birlikdə qəbul edilməsi prosesi geniş vüsət almışdı. Partiya qərarları faktiki olaraq normativ akt səciyyəsi kəsb edirdi. Belə transformasiya həm də hüquq haqqında dövlət siyasəti aləti kimi baxışlarla şərtləndirilirdi.

Partiya və dövlət məmurlarının məhdud dairəsi içərisində siyasi hakimiyyətin təmərküzləşdirilməsi prosesləri əhalinin əsas kütlələri üçün hüququn ayrı-ayrı sahələri üzrə "fövqəladə" normaların qəbuluna gətirib çıxarmışdı ki, bu da bir sıra hüquq və azadlıqların məhdudlaşdırılması, "təhkimçilik" hüququnun normalarının "müasirləşdirilərək" dirçəldilməsi ilə müşayiət olunurdu. Əmək, kolxoz və cinayət hüququ sahələrində bu hal, xüsusilə nəzərə çarpırdı. Hələ 1923-cü ildə ləğv edilmiş əmək kitabçalarının, pasport-qeydiyyat institutunun tətbiqi, əhali üzərində inzibati nəzarəti gücləndirdi. Əksər hallarda pasport almayan kənd sakinləri faktiki olaraq yaşayış yerinə "bağlanır" və onların ölkə üzrə hərəkət etmək hüquqları məhdudlaşdırılırdı. İş yerinin dəyişdirilməsinin qadağan edilməsi, kolxozlarda məcburi əməkgünlərinin tətbiqi, əmək ehtiyatlarının yaradılması, ən mürəkkəb iş şəraiti olan sahələrə göndərilməli olan işçilərin böyük kontingentinin müəyyənləşdirilməsi və bu əsaslarla da cinayət hüquq normalarının sərtləşdirilməsi həmin dövrün hüququnu səciyyələndirən cəhətlərdəndir [3, 154].

Müharibə ərəfəsində formalaşmış hüquq sistemi müharibə dövründə də saxlanılırdı. Lakin fövqəladə orqanların, institutların və münasibətlərin formalaşdırılması hüququn sistemində və hüquqi tənzimləmədə təzahür etməyə bilməzdi. Müqavilə münasibətləri sahəsi nəzərəçarpacaq dərəcədə daraldıldı, mərkəzləşməyə doğru tendensiya gücləndi, mülki-hüquqi metodlar öz yerini təsərrüfat və inzibati-hüquqi metodlara güzəştə getdi, yəni təsərrüfat münasibətləri və məhsulun bölüşdürülməsi sahəsində inzibati-hüquqi başlanğıclar möhkəmləndirildi. Cinayət repressiyası sərtləşdirildi, yeni cinayət tərkibləri üzə çıxdı, əmək, kolxoz və hüququn digər sahələrində cinayət sanksiyaları tətbiq olundu. Məhkəmə baxışının sürətləndirilmiş qaydası müəyyənləşdirildi, əmək münasibətləri sahəsində hərbi-səfərbərlik prinsipləri tətbiq edilməyə başlanıldı. Kolxoz və kooperativ istehsalı sferasında plan göstərişləri və məcburi normativlər möhkəmləndirildi. Vərəsəlik, ailə-nikah, mənzil hüquqları sahəsində mühüm dəyişikliklər baş verdi. Bu sahələr üzrə yeni yaradılan hüquq normaları hərbçilər və onların ailələri üçün xüsusi güzəştləri nəzərdə tuturdu. Həmin subyektlərin digər əmlak hüquqlarının xüsusi müdafiəsi qanunvericilikdə təsbit olunurdu. Təsərrüfat təşəbbüskarlığı sahəsindəki dəyişikliklər müəssisənin daxili təsərrüfat hesablaşmasının genişləndirilməsini, podrat tikintisi qaydasının sadələşdirilməsini, sahibsiz qalmış əmlak və torpaqdan istifadənin mümkünlüyünü, qeydiyyat aktlarının rolunun artırılmasını əhatə edirdi.

**Nəticə.** Dövlətin hüquq üzərində üstünlüyü konsepsiyasına əsaslanmaqla təkmil hüquq sisteminin yaradılmasına olan cəhdlər nəticə etibarilə sovet hüququnun ideoloji degenerasiyasına gətirib çıxarmışdı.

Konstitusiya qanunvericiliyində (İttifaq Konstitusiyasının 131-ci, Azərbaycan Konstitusiyasının 138-ci maddələrində) "xalq düşməni" ifadəsinin yer alması sosialist mülkiyyətinin qorunması və möhkəmləndirilməsi kimi konstitusion vəzifənin yerinə yetirilməməsinə görə istənilən vətəndaşın "xalq düşməni" elan edilməsini qaçılmaz edirdi. Sosialist mülkiyyəti həm də sovet dövləti ilə mahiyyət etibarilə sıx bağlı olduğundan dövlət qarşı qəsd, ona xəyanət etmə, onun qüdrətini sarsıdan zərərli hərəkətlər, əmək vəzifələrindən yayınma və s. vətəndaşın "xalq düşməni" elan olunması ilə nəticələnə bilərdi. Bu dövrün qanunvericiliyinin fərqli cəhətlərindən biri də ondan ibarət idi ki, repressiya ideyası qanun səviyyəsinə qaldırılırdı. Belə ki, hüququn funksiyalarından biri kimi (onun ən mühüm əlaməti olmasa da) mahiyyəti yalnız törədilən hüquq pozuntularına görə cəzanın təyin edilməsindən ibarət olan cəzalandırma funksiyası təhrif olunurdu.

Məlumdur ki, hüquqa ilk növbədə yaradıcı rol xasdır. Lakin bu dövrün qanunvericiliyində yer alan hüququn cəzalandırıcı funksiyası qabaqlayıcı tədbir səciyyəsinə malik idi. Yəni cəza hüquq pozuntusunun törədilməsi faktına və yaxud, hətta onun törədilmə niyyətinə görə deyil, əksfikirliliyə və

etibarsız hesab olunmağa görə təyin olunurdu ki, sonuncular da cinayət və ya inzibati hüquq pozuntusunun tərkibinin struktur elementləri sırasına daxil deyildi və hüquqi baxımdan daxil ola da bilməzdi.

Ötən əsrin 30-cu illərinin sonu – 40-cı illərinin birinci yarısında konstitusiya qanunvericiliyinin səciyyəvi cəhətləri nöqteyi-nəzərindən qanunvericilik səlahiyyətinin ali nümayəndəli orqanlardan tərkib etibarilə daha məhdud orqanlara deleqe edilməsi (məsələn, Ali Sovetin Rəyasət heyətinə); dövlətin konstitusion orqanlarının və strukturlarının partiya orqanları ilə çulğalaşması; vətəndaşların konstitusion hüquqlarının məhdudlaşdırılmasına doğru tendensiyanın mövcudluğu kimi tendensiyalar müşahidə olunurdu.

Konstitusiyanın qəbulundan ötən ilk 10 illikdə dövlət hüququ sistemində formalaşan normaların blokları: respublikanın ictimai quruluşunu tənzimləyən normaların məcmusunu (özündə iqtisadi əsasını, sinfi strukturunu, eləcə də Sovetlərin timsalında siyasi əsaslarını birləşdirirdi); vətəndaşların əsas hüquq və vəzifələri institutunu təşikl edən normaların məcmusunu; dövlət quruluşunu, respublikanın və onun tərkibinə daxil olan muxtar subyektlərin hüquqi vəziyyətini, inzibati-ərazi quruluşunu, dövlətin simvollarını – gerb, bayraq və paytaxtla bağlı normaların məcmusu; dövlət orqanlarının təşikli və fəaliyyətini tənzimləyən normaların məcmusunu (özündə dövlət təsisatlarının təşkili və fəaliyyətinin əsas prinsiplərini, seçki sistemini, ali və yerli hakimiyyət və idarəetmə orqanlarının formalaşma qaydasını və səlahiyyətlərini, ədalət mühakiməsi və prokurorluq orqanları sistemini və s. əks etdiridi) əhatə edirdi.

## ƏDƏBİYYAT


1. Azərbaycan SSR Qanunları və Azərb. SSR Ali Soveti Rəyasət heyətinin Fərmanları məcmuəsi (1968-1985-ci illər). - Bakı: 1986.
2. İsmayılov X.C. Azərbaycanın hüquq tarixi. - Bakı: Elm və Təhsil, - 2023 (2015). - 588 s.
3. İsmayılov X.C. Azərbaycan Respublikasının konstitusion inkişafı. - Bakı: Elm və Təhsil, - 2024. - 416 s.
4. Антология памятников права народов Кавказа. Правовые памятники Азербайджана. Т.19. (сост.. М.Ф.Меликова. Х.Д.Исмайлов. Т.К.Зейналова). Учебное пособие. - Баку: Elm və Təhsil, - 2021. - 824 с.
5. Алиев А. Конституционное развитие Азербайджанской ССР. – Баку, 1976. - 126 s.
6. Алиев Ш.М. Научно-практический комментарий к Конституции Азербайджанской Республики. - Баку: Юридическая литература, - 2000. - 736 с.
7. Алиев Ш.М. Грамматика конституционализма. - Баку: Bestpack, - 2016. - 894 с.
8. Арон Р. Демократия и тоталитаризм. - Москва, 1993 (1965), - 303 с.
9. Баев В.Г. Конституционализм как понятие и научная проблема// Юридический журнал. - 2018. - №3, - с.44-63.
10. Вагабов А.А. Конституция Азербайджанской ССР 1937 г. и ее развитие. – Баку, 1968.
11. Верт Н. История Советского государства. Перевод с французского. - Москва: Инфра-Москва, - 2001. - 544 с.

12. Ешков Г.С. Укрепление политических основ советского государства. - Москва: Мысль, - 1983. - 296 с.
13. История Советской Конституции: сборник документов: 1917-1957 / АН СССР, Ин-т права им. А.Я.Вышинского; [отв. ред. Д.А.Гайдуков, В.Ф.Коток, С.Л.Ронин]. - Москва: АН СССР, - 1957. - 550 с.
14. Ронин С.Л. К истории разработки, утверждения и развития Сталинской Конституции. - Москва: Акад. Наук СССР, - 1951, - 144 с.
15. Шабанов Ф.Ш. Развитие советской государственности в Азербайджане. - Москва, 1959, - 173 с.

## ОСОБЕННОСТИ ОБНОВЛЕНИЯ КОНСТИТУЦИОННОГО ЗАКОНОДАТЕЛЬСТВА В 30-е ГОДЫ XX ВЕКА

**Хайям Дж.ИСМАЙЛОВ**

### РЕЗЮМЕ

Современные процессы, происходящие в общественно-политической жизни Азербайджана, актуализируют необходимость всестороннего изучения возникновения и эволюции идей конституционализма и суверенитета, а также особенностей формирования и содержания основных законов, разработанных и принятых в недавнем историческом прошлом нашего государства.

Значительную часть конституционно-правового регулирования в Азербайджане в советский период составляли союзные и республиканские конституции, которые обеспечивали определённую преемственность политико-правового развития страны и формировали нормативную основу для развития отдельных отраслей права. Эти конституции базировались на принципах социалистического правосознания и отражали идеалы социалистической системы. Однако ключевые идеи правового государства и гражданского общества зачастую отодвигались на второй план.

В настоящей статье, с использованием методов сравнительно-исторического и документального анализа, исследуются государственно-правовые процессы 1930-х годов XX века и их влияние на формирование и развитие конституционного законодательства. Особое внимание уделяется роли положений, зафиксированных в союзных и республиканских конституциях того времени, в процессе модернизации правовой системы Азербайджана и формировании её современного облика.

**Ключевые слова:** конституционно-правовое регулирование в Азербайджане, государственный суверенитет, административно-командная система, принцип демократической централизации, политическая юстиция.

## PECULIARITIES OF UPDATING CONSTITUTIONAL LEGISLATION IN THE 30$^{s}$ OF THE 20$^{th}$ CENTURY

**Khayyam J. ISMAYILOV**

### SUMMARY

Modern processes taking place in the socio-political life of Azerbaijan highlight the necessity of studying the origins and development of the ideas of constitutionalism and sovereignty, as well as the specific features of the fundamental laws developed and adopted in the recent historical past of the country.A significant part of Azerbaijan's constitutional and legal regulation during the Soviet era was shaped by both union-wide and republican constitutions. These documents established a certain continuity in the political and legal development of the state and served as the normative foundation for various branches of law. Although all of these constitutions were grounded in socialist legal consciousness and reflected the values of socialism, many principles underlying the rule of law and civil society were marginalized or relegated to the background. This article, employing methods of comparative-historical and documentary analysis, examines the state and legal processes that took place in the 1930s and assesses their impact on the evolution of constitutional legislation. In addition, it explores the role of the provisions enshrined in the union and republican constitutions of that period in the broader process of renewing and modernizing Azerbaijan's legal system.

**Keywords:** constitutional and legal regulation in Azerbaijan, state sovereignty, administrative-command system, principle of democratic centralization, political justice.

BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№1* *Humanitar elmlər seriyası* *2025*

UOT 94 (479.24)

# XV-XVIII ƏSRLƏRDƏ ÜÇKİLSƏ KATALİKOSLARININ GƏLİR MƏNBƏLƏRİ (VERGİ VƏ İANƏLƏR)

**Bəymirzə Ş.ŞABIYEV***

*1441-ci ildə Baharlı (Qaraqoyunlu) hökmdarı Cahanşahın icazəsi ilə erməni katalikosluğunun iqamətgahının Kilikiyanın Sis şəhərindən İrəvan yaxınlığındakı Üçkilsəyə köçürülməsindən sonra erməni din xadimlərinin bölgədə dini-ideoloji, sosial-iqtisadi və siyasi fəaliyyətinin başlanğıcı qoyuldu. XV-XVIII əsrlərdə erməni din xadimləri, dünyəvi feodalları və tacirləri yerli türk-müsəlman sakinlərdən zəbetmə və satınalma yolu ilə əldə etdikləri daşınmaz və daşınan əmlakları İrəvan vilayətində olan kilsə və monastrların, o cümlədən Üçkilsə katalikosluğunun vəqf əmlakına çevirərək toxunulmazlıq statusu əldə etməklə yanaşı, vergi immuniteti hüququna da nail olurdular. Bütün XV-XVIII əsrlər boyu bu yönlü siyasəti ardıcıl həyata keçirən erməni din xadimləri zəngin sərvət sahibinə çevrilirək bu sərvəti öz məkrli siyasətlərinin reallaşdırılması, əzəli Azərbaycan torpaqlarında erməni dövlətinin yaradılması uğrunda mübarizəyə sərf edirdilər.*

*Məqalə Üçkilsə katalikosluğunun çoxsaylı gəlir mənbələrinin bir istiqaməti-dini vergilər və ianələr əsas araşdırma obyektinə çevrilmişdir.*

**Açar sözlər:** Çuxur-Səəd, İrəvan, Üçkilsə, katalikos, vergilər

**Giriş.** XV-XVIII əsrlərdə Üçkilsə katalikosluğunun gəlir qaynaqlarının mühüm bir hissəsini dini vergilər və dünyanın müxtəlif bölgələrində yaşayan ermənilərin katalikosluğa ödədikləri ianələrdən toplanılan vəsaitlər təşkil edirdi. XV əsrə qədər ermənilər üzərində ali dini nəzarət uğrunda müxtəlif erməni dini mərkəzləri arasında ciddi rəqabət gedirdi. Erməni tarixçilərinin iddiasına görə bu mübarizə əsasən Üçkilsə, Axtamar (Vanda), Sis (Kilikiyada), Konstantinopol və Gəncəsər monastrları arasında getmiş və əksər hallarda Üçkilsə katalikosluğunun qələbəsi ilə yekunlaşmışdı [1, 51-52]. Maraqlıdır ki, erməni tarixçiləri Gəncəsər katalikosluğunun "Alban katalikosluğu" adı ilə tanındığını etiraf etsələr də, ənənəvi erməni saxtakarlığına sadiq qalaraq onu "Şərqi Ermənistan"da yerləşən erməni katalikosluğu kimi qələmə verməyə çalışırlar [1, 51]. Gəncəsər monastrı əvvəllər Ağdərə rayonunun Vəngli kəndində yerləşmiş, sonralar həmin rayonun ləvği ilə əlaqədar Ağdərə rayonunun bəzi əraziləri, o cümlədən Gəncəsər monastrının yer-

* Bakı Dövlət Universitetinin dosenti; shabiyevbeymirze@gmail.com;
ORCİD İD: 0009-0009-6954-1482

ləşdiyi Vəngli kəndi də inzibati baxımdan Kəlbəcər rayonunun tərkibinə daxil edilmişdir. Arsax-Xaçın knyazı Həsən Cəlalın hakimiyyəti dövründə (1215-1261) 1216-1238-ci illərdə alban patriarxı Nersesin məsləhəti ilə qədim məbəd üzərində yenidənqurma və bərpa işləri nəticəsində həmin məbəd kompleksinə yeni həyat verilmiş və möhtəşəm memarlıq kompleksinə çevrilmişdi. Maraqlıdır ki, Həsən Cəlal özü bu kilsəni "Albaniyanın taxt-tac" kilsəsi adlandırmış və kilsədə olan daşüstü yazılarda kilsənin açıq-aydın albanlar üçün inşa edildiyi göstərilmişdir [13, 40]. Ümumiyyətlə, erməni tarixçilərinin İrəvan, Naxçıvan, Qarabağ və Azərbaycanın digər ərazilərindəki kilsə və monastrların hamısını erməni dini idarələri kimi təqdim etmələri kökündən yanlışdır. Xristian türklərə məxsus olan bu kilsə və monastrların böyük bir hissəsinin zaman-zaman erməniləşmə və qriqorianlaşma prosesinə məruz qalması heç bir şübhə doğurmur [2, 284-286]. Ən azından bu kilsə və monastrların bir çoxunun adlarının, o çümlədən Üçkilsə, Muğni, Qıpçaq, Qızılvəng və s. türkcə olması belə bu faktı bir daha təsdiq edir. XV əsrdən etibarən bütün dünya ermənilərі üzərində ali dini rəhbərliyi ələ keçirməyə müvəffəq olan Üçkilsə katalikosluğu əhalidən toplanılan dini vergi və ianələri də öz nəzarəti altına almaqla çox zəngin sərvət bazası yaratmağa nail olmuşdu.

**Dini vergilər.** Erməni tarixçilərinin araşdırmalarına əsasən bəhs olunan dövrdə xristian kilsəsinin nəfinə toplanılan vergilər üç qrupdan ibarət olmuşdur.

1.Patriarx vergiləri;

2.Yepiskop vergiləri;

3.İyerey vergiləri [1, 52; 3, 244].

M.K.Zulalyanın araşdırmalarına görə patriarx vergiləri qrupuna aşağıda göstərilən vergilər daxil idi.

1.Nvirakank vergisi-işıqlandırıcı vasitələr (şam nəzərdə tutulur – B.Ş.);

2.Qaqzaqakink vergisi-erməni kilsəsinin inkişafı məqsədi ilə toplanılan vergilər;

3.Oqedbajnik vergisi – sağlığında və yaxud ölümündən sonra şəxsin və ya varislərinin mərhumun ruhunu xilas etmək üçün ödədikləri vergi;

4.Xostmunk vergisi- müqəddəs taxt-tac üçün edilən vədlər;

5.Karasnakan vergisi- mərhumun qırx mərasimində oxunan dualar və liturgiya xərcləri üçün alınan vergilər;

6.Ktak vergisi – Üçkilsə katalikosluğunun xeyrinə edilmiş vəsiyyətlər [1, 52].

M.K.Zulalyanın yazdığına görə, göstərilənlərlə yanaşı birinci qrupa daxil olan vergilərin siyahısına dindar əhali tərəfindən kilsələrə ödənilən qızıl və gümüş əşyalar, ipək və kətandan toxunmuş kilsə geyimləri, kəl, inək, qoyun, at, odun, şam, yağ və s. kimi məhsullrın ödənilməsi də şamil olunurdu [1, 52].

Yepiskop vergiləri qrupuna hər bir yepiskopluğun ərazisinə daxil olan dini icmaların əhalisi tərəfindən birinci qrupa şamil olunan vergilərin, demək olar ki, hamısı ödənilirdi (B.Ş.425). Uşaqların xaç suyuna salınmasına görə toplanılan vergilər, həmçinin şəhərlərdə yaşayan tacirlərdən alınan rüsumlar da ikinci qrupa daxil olan vergilər qisminə aid olunurdu [1, 52].

Üçüncu qrup kilsə vergilərinə isə toy mərasimləri, xaç suyuna salmaq, dəfn mərasimləri, qəbiristanlıq və evlərin işıqlandırılması, nigahın kəsilməsi və s. müqabilində alınan vergilər daxil idi [1, 52; 3, 244]. Hüquqi baxımdan dini vergilərin ödənilməsi könüllülük prinsipi əsasında olsa da, praktiki baxımdan dövlət vergiləri kimi məcburi qaydada toplanılırdı. Dini vergilərin yığılması Üçkilsə katalikosları tərəfindən təyin olunmuş nviraklar vasitəsi ilə həyata keçirilirdi [4, 195]. Üçkilsə katalikosları yalnız Azərbaycan Səfəvilər dövlətinin ərazisində deyil, həmçinin digər dövlətlərin ərazilərində yaşayan ermənilərdən də dini vergilərin toplanılması səlahiyyətlərinə malik idilər. Dövrün erməni qaynaqlarında əksini tapmış məlumatlar da bunu təsdiq edir. XVII əsr erməni salnaməçisi Kənəkirli Zəkəriyyə Şah I Abbasın hakimiyyəti dövründə İrəvan bəylərbəyi Səfiqulu xanla Üçkilsə katalikosu arasındakı münaqişədən bəhs edərkən yazır ki, harada, Osmanlı, Frank, Hindistan, Moskva ölkəsində yaşamasından asılı olmayaraq bütün ermənilər vergiləri Üçkilsəyə ödəyirdilər [5, 175-176]. XVIII əsr salnaməçisi və eyni zamanda Üçkilsə katalikosu vəzifəsində çalışmış İrəvanlı Simeon Üçkilsə katalikosluğuna vergi verən ölkələri nvirak dairələrinə bölərək, həmin ölkələrdən hər üç ildə bir dəfə yığılan vergilərin Üçkilsəyə daxil olduğunu göstərmişdir [6, 114]. Salnaməçinin məlumatına əsasən, Osmanlı ərazisində yaşayan ermənilər Qərb, Səfəvi ərazisində yaşayanlar Şərq, Rusiya və Gürcüstan ərazisində yaşayan ermənilər isə ayrıca nvirak dairəsinə aid olunurdu və hətta uzaq Hindistan və Çin ərazisində yaşayan ermənilərdən yığılan vergilər də Üçkilsə katalikosluğunun xəzinəsinə toplanılırdı [6, 114-121].

Səfəvilər dövrünə aid rəsmi sənədlərdə kilsə vergiləri "talibanə" istilahı ilə ifadə olunurdu. Şah I Səfinin 1644-cü il tarixli fərmanında göstərilir ki, Arranın Quştəsfi ölkəsinin erməni rəiyyəti Üçkilsənin talibi olduqları üçün qədimdən kilsə vergilərini – talibanəni Üçkilsəyə verirlər və Xaçın katalikosunun onlardan bu vergiləri toplamağa ixtiyarı yoxdur [11, 399].

Araşdırmalar göstərir ki, çoxsaylı dini vergilərin bir hissəsi pulla, bir hissəsi isə natura ilə ödənilirdi. Kilsə vergilərinin əksəriyyətinin miqdarı haqqında dəqiq məlumat olmasa da, bəzilərinin həcmi ilə bağlı qaynaqlarda konkret rəqəmlərə rast gəlmək mümkündür. XVII əsr müəllifi Əylisli Zəkəriyyə yazır ki, 1669-cu ilin avqustunda nvirak toplamaq üçün katalikosun müavini vardapet Mikayıl Üçkilsədən Əylisə gəlmişdi. Nvirak vergisinin məbləği adambaşına 20 dinar təşkil edirdi. Üçkilsə katalikosluğu üç il ərzində burada vergi toplamadığına görə adambaşına 60 dinar vergi toplandı [8, 74-103]. B.M.Arutyunyan qeyd edir ki, dini vergilər içərisində daha çox gəlir gətirən nvirak, ruhu xilas etmək məqsədi ilə alınan və vəsiyyət əsasında alınan vergilər olmuşdur. Ən çox nvirak vergisinin Hindistandan gəldiyini vurğulayan müəllif yazır ki, varlı Hindistan ermənilərindən biri olan Qriqor Çakikents Üçkilsədə tipoqrafiya açmaq üçün 7800 tümən vəsiyyət etmişdi [9, 104].

Kilsə ayin və mərasimlərinin, müxtəlif dini ritualların icrasına görə yığılan vergilər də böyük məbləğ təşkil edirdi. Erməni kilsə qaydalarına əsasən kil-

sə ayinlərini "miro"suz (ağ rəngli yağ-B.Ş.) həyata keçirmək mümkün deyildi. Mironun istehsal edilməsi hüququ isə istisnasız olaraq Üçkilsə katalikosluğunun birbaşa inhisarında idi. Hər 3, 5, 7 ildən bir istehsal olunan mironu erməni katalikosları nviraklar vasitəsi ilə bütün erməni kilsələrinə satırdılar. XVII əsrin fransız səyyah J.Şarden yazır ki, erməni ruhanilərinin ən baha qiymətə satdıqları yunanların miro adlandırdıqları ağ rəngli yağdır. Şərqin bütün xristianları bu yağı ruhun bütün xəstəliklərinin dərmanı hesab edirlər və ruhanilər bu inancı xalq arasında geniş yaymaqla böyük gəlirlər əldə edirlər [2, 427]. 1665-ci ildə Üçkilsə ziyarətində olmuş digər bir fransız səyyah J.B.Tavernye də kilsəyə ödənilən böyük miqdarda vergi və ianələr haqqında maraqlı məlumatlar vermişdir. Səyyahın yazdığına əsasən yemək mərasimindən sonra bir yepiskop kağız və qələm götürərək hər kəsin kilsəyə verəcəyi məbləğin miqdarını yazmağa başladı. Varlı bir tacir hamıdan çox – 2 tümən, balaca bir uşaq isə bir altun verdi [10, 70]. Növbəti gün Tavernye özü də Fransa kralı və xidmətində olduğu senyor Orleanlı Duka üçün dua etmək müqabilində Üçkilsəyə 4 tümən verdiyini qeyd etmişdir [10,70-71]. Bütün bunlar onu göstərir ki, Üçkilsə katalikosluğunun gəlir qaynaqlarının mühüm bir qismini dini vergilərlə yanaşı, ermənilərin kilsəyə verdikləri ianələr təşkil edirdi. XVII əsrdə Üçkilsə katalikosluğunun zəngin sərvətlərə malik olmasının şahidi olan J.B.Tavernye heyrətə gələrək yazırdı: "Müsəlmanların hakimiyyəti altında xristian kilsələrindəki bu qədər zənginliyin olmasına əsla inanmazdım. Bu zənginlik Şah Abbasın erməniləri ticarətə yönəltməsindən sonra yaranmışdı... Bu kilsədə (Üçkilsə nəzərdə tutulur – B.Ş.) xristian dünyasının heç birində olmayan zəngin bəzəklər var" [10, 72-73].

Maraqlı məqamlardan biri də ondan ibarətdir ki, müsəlmanlarda olduğu kimi kilsənin xeyrinə xristianlardan da zəkat vergisinin toplanılması faktlarına təsadüf olunur. Şah I Abbasın 1621-ci il tarixli fərmanında Əylis, Azad-Ciran və Naxçıvanda yaşayan ermənilərin Əylisdə yerləşən Foma (Tovma) monastrına zəkat-lillah və haqq-lillah adlı kilsə vergilərinin ödənilməsi göstərilmişdir [7, 332-333]. Erməni dilində "karasniç" (qırxda bir) istilahına uyğun gələn zəkat lillah"allah naminə", "allah adına", haqq lillah isə hərfi mənada "haqq allaha məxsusdur" anlamında olmuş və əhalidən katalikosluğun xeyrinə toplanılmışdır [7, 443, 456-457].

**İanələr**. Erməni kilsə və monastrlarının, o cümlədən Üçkilsənin zəngin var-dövlət sahibinə çevrilməsində XV-XVIII əsr Azərbaycan hökmdarlarının, xüsusilə də Səfəvi şahlarının Üçkilsə katalikoslarına verdikləri müxtəlif güzəşt və imtiyazlar önəmli rol oynayırdı. A.D.Papazyan tərəfindən nəşr olunan Matenadaran seriyasına daxil olunmuş şah fərmanları bunun bariz nümunəsidir. Bu seriyadan olan şah fərmanlarının mütləq əksəriyyəti Üçkilsə katalikosluğuna verilmiş maaf hüququ və müxtəlif imtiyazları əks etdirir.

Üçkilsə katalikosluğunun vergi toplayan məmurları Azərbaycan Səfəvi dövlətinin bütün ərazisində sərbəst, maneəsiz fəaliyyət göstərmək hüququna malik idilər. Bəzi hallarda ayrı-ayrı vilayət hakimlərinin onların fəaliyyətinə mane olmaq cəhdlərinin qarşısı da dövlət miqyasında qətiyyətlə alı-

nırdı. Erməni katalikosu Filippin xahişi ilə Şah I Səfinin 1638-ci il tarixli fərmanı ilə Üçkilsə üçün pul və natural vergi toplayan nvirakların bütün imperatorluq ərazisində sərbəst hərəkət etməsinə icazə verilməsi bu faktı bir daha təsdiq edir [12, 9; 2, 428].

Bütün bu güzəşt və imtiyazlara rəğmən dövrün erməni qaynaqları və müasir erməni tarixçiləri Səfəvi hökmdarlarını ciddi cəhdlə ermənilərə düşmən münasibətdə günahlandırmağa çalışırlar. Onlar şahın əmrini pozduğuna görə I Abbas tərəfindən Üçkilsə katalikosluğunun 1617-ci ciddə 100 tümən cərimə olunmasını katalikosluğun müflisləşməsinə, borca düşməsinə səbəb olduğunu göstərirlər [7, 323-325]. Halbuki yuxarıda göstərilən faktlar 100 tümən cərimənin Üçkilsə katalikosluğu üçün elə də böyük bir məbləğ olmadığını göstərir. Onu da qeyd etmək lazımdır ki, Şah I Abbasın vəfatından dərhal sonra varlı erməni taciri Xoca Nəzərin xahişi ilə Şah I Səfi 1629-cu ildə Üçkilsə üzərinə qoyulmuş 100 tümən cəriməni ləvğ etmişdi [7, 334-335].

**Nəticə.** Beləliklə, araşdırmalar göstərir ki, çoxlu sayda əkin sahələri, üzümlüklər, meyvə bağları, emal müəssisələri, ticarət köşkləri və s. kimi daşınar daşınmaz əmlakla yanaşı, Üçkilsə katalikosluğu dini vergilər və ianələr hesabına da külli miqdarda gəlirlər əldə edirdi. Bu vergi və ianələrin həcmi haqqında dövrün qaynaqlarında dəqiq məlumatlar göstərilməsə də, bu sahədən gələn gəlirlərin az məbləğ təşkil etməməsi heç bir şübhə doğurmur.

**ƏDƏBİYYAT**


1. Зулалян М.К. Армения в первой половине XVI в. - Москва: Наука, Главная редакция восточной литературы, 1971, - 175 с.
2. Şabiyev B.Ş. Azərbaycan Səfəvi dövlətinin İrəvan vilayəti. “Mingəçevir Poliqirafiya Müəsisəsi” MMC, 2019, - 542 s.
3. Папазян А. Д. Аграрные отношения в Восточной Армении в XVI-XVII веках. - Ереван: АН Арм. ССР, - 1972, - 303 с.
4. Аракел Даврижеци. «Книга Историй». Пер. с армянского, предисловие и комментарий Л.А.Ханларян. - Москва: Наука. Главная редакция Восточной литературы, 1973, - 623 с.
5. Закарий Канакерци. Хроника. Перевод с армянского. Предисловие и комментарии М.О. Дарбинян-Меликян. - Москва: Наука, 1969, - 320 с.
6.Симеон Ереванци. Джамбр. Памятная книга, зерцало и сборник всех обстоятельств св. престола Эчмиадзина и окрестных монастырей. Пер. С.Малхасянца. Под ред. и с предисловием П.Т.Артюнян. - Москва: Восточная литература, 1958, - 399 с.
7.Персидские документы Матенадарана. I, Указы. — Вып. II. (1601-1650 гг). Составил А.Д.Папазян. - Ереван: АН.Арм.ССР, 1959, - 593 с.
8. Закария Акулийский. Дневник. - Ереван: Арм Фан лит-ра, 1939, - 159 с.
9 Арутюнян Б. М. Крупное монастырское хозяйство в Армении в XVII-XVIII вв. - Ереван: Армфан, 1940, - 126 с.
10.Tavernier J. B. Tavernier Seyahetnamesi. Hazırlayan: Ali Berktay, çev. Teoman Tunçdoğan. - İstanbul: Kitap Yayınları, 2010, - 343 s.
11. Персидские документы Матенадарана. I, Указы. — Вып. I. (XV-XVI вв). Составил А. Д. Папазян. - Ереван: АН Арм.ССР, 1956, - 315 с.
12. Персидские документы Матенадарана. II. Купчие, вып.I. (XIV-XVI вв). Составил А. Д. Папазян. - Ереван: Арм. ССР, 1968, - 640 с.
13.Azərbaycan tarixi. Yeddi cilddə. III cild. (XIII-XVIII əsrlər). - Bakı: Elm, 1999, - 584 s.

## ИСТОЧНИКИ ДОХОДА КАТАЛИКОСОВ УЧКИЛСЫ (НАЛОГИ И ПОЖЕРТВОВАНИЕ)

**Баймирза Ш.ШАБИЕВ**

**РЕЗЮМЕ**

В 1441 году по велению Джаханшаха Каракоюнлу центр армянского патриархского престола было перенесено из города Сис в село Валаршабад, в окрестностъях города Иревана. Это стало поворотным моментом в истории всего этого региона. С тех пор армянские духовные и светские феодалы, а так же богатые купцы различными способами, в том числе путем купли-продажи начали приобретатъ у местного тюрко-мусулъманского населения движимое и недвижимое имущество. Этот процесс продолжался на протяжении XV-XVIII вв. Часть приобретённого имущества передавалась армянскому патриаршему престолу на правах мюлька и вакуфа, становясь одним из основных источников дохода католикосов Учкильсы. В данной статье по материалам документальных и нарративных армянских источников исследуется один из ключевых видов доходных поступлений католикосата Учкильсы — религиозные налоги и пожертвования.

**Ключевые слова:** Чухур-Саад, Иреван, Учкилса, каталикос, налоги

## SOURCES OF INCOME OF UCHKILSA CATHOLICOS (TAXETS AND DONATIONS)

**Baymirza S. SHABIYEV**

**SUMMARY**

In 1441, with the permission of Jahanshah of the Karakoyunlu dynasty, the center of the Armenian patriarchal throne was moved from the city of Sis to the village of Valarshabad near the city of Erevan. This event marked a turning point in the history of the entire region. From that time on, Armenian clerical and secular feudal lords, as well as wealthy merchants, began acquiring movable and immovable property from the local Turkic-Muslim population through various means, including purchase and sale. This process continued throughout the 15th to 18th centuries. A portion of the acquired property was transferred to the Armenian patriarchal throne as mulk (private property) or waqf (religious endowment), forming a major source of income for the Catholicos of Uchkilsa.This article examines religious taxes and donations as one of the primary sources of income for the Catholicosate of Uchkilsa, based on documentary and narrative Armenian sources.

**Keywoods:** Chukhur-Saad, Irevan, Uchkilse, catholicos. taxets

**UOT 94"19/...**

# TÜRKİYƏNİN CƏNUBİ QAFQAZ SİYASƏTİNDƏ GÜRCÜSTANLA MƏDƏNİ VƏ HUMANİTAR ƏLAQƏLƏR: 2002–2021-Cİ İLLƏR ÜZRƏ TƏHLİL

**Hüseyn A.HÜSEYNLİ***

*Məqalədə 2002–2021-ci illər ərzində Türkiyənin Gürcüstanla mədəni və humanitar əlaqələrinin inkişafı təhlil edilir. Türkiyənin bu müddət ərzində Cənubi Qafqazın strateji əhəmiyyətli ölkəsi olan Gürcüstanla mədəniyyət, təhsil və humanitar sahələrdə müxtəlif təşəbbüsləri vurğulanır. Xüsusilə türk dili, mədəniyyət və sənət sahəsindəki layihələr, iki ölkə arasında strateji tərəfdaşlığın güclənməsinə, həmçinin regionda sabitlik və qarşılıqlı anlaşma mühitinin formalaşmasına töhfə vermişdir. Məqalədə bu əməkdaşlıqların təhsil sahəsindəki inkişafı, Gürcüstanda türk dili tədrisi, həmçinin Yunus Əmrə İnstitutunun və digər dövlət qurumlarının rolu araşdırılmaqla, həmçinin mədəni irsin qorunması sahəsindəki birgə layihələrə də toxunulur. Türkiyə ilə Gürcüstan arasında həyata keçirilən mədəniyyət və humanitar əməkdaşlıq, qarşılıqlı anlayışın artmasına və iki ölkə arasındakı münasibətlərin dərinləşməsinə əhəmiyyətli təsir göstərmişdir.*

**Açar sözlər:** Türkiyə, Gürcüstan, Cənubi Qafqaz, mədəni əlaqələr, Batumi

**Giriş.** Cənubi Qafqaz bölgəsi geosiyasi baxımdan strateji əhəmiyyətə malik olmaqla yanaşı, tarixi, mədəni və etnik baxımdan da zəngin bir mozaikanı əks etdirir. Bu regionda yerləşən Gürcüstan, müstəqillik əldə etdikdən sonra regional və beynəlxalq siyasətdə mühüm tərəfdaşlıqlar qurmağa çalışırdı, xüsusilə Qara dəniz və Xəzər dənizi hövzələri arasında körpü rolunu oynayan Türkiyə ilə münasibətlərini inkişaf etdirməyə xüsusi önəm verirdi. 2002-ci ildən etibarən Türkiyənin xarici siyasətində "yumşaq güc" elementləri – mədəni, humanitar və təhsil sahələrində əməkdaşlıq – ön plana çıxmağa başladı, bu çərçivədə Gürcüstanla əlaqələr də daha da dərinləşdi.

Türkiyə, Gürcüstanla mədəni və humanitar münasibətlərini gücləndirmək məqsədilə dövlət və qeyri-dövlət qurumları vasitəsilə müxtəlif təşəbbüslər irəli sürdü. Təhsil, mədəniyyət, incəsənət, dil və irs sahələrində çoxsaylı layihələr həyata keçirdi. Bu fəaliyyətlər bir tərəfdən iki ölkə arasında strateji tərəfdaşlığı dərinləşdirdi, digər tərəfdən isə regionda sabitlik və

* Bakı Dövlət Universitetinin dosenti, tarix üzrə fəlsəfə doktoru;
huseyn.huseynli@bsu.edu.az; ORCİD İD: 0009-0008-1660-6417

qarşılıqlı anlaşma mühitinin formalaşmasına töhfə verdi. Eyni zamanda, Gürcüstanda yaşayan türkdilli və azərbaycanlı icmalarla mədəni əlaqələrin gücləndirilməsi Türkiyə üçün xüsusi önəm daşıyan istiqamətlərdən biri idi.

Məqalədə 2002–2021-ci illər ərzində Türkiyənin Gürcüstanla mədəni və humanitar əlaqələri sistemli şəkildə təhlil olunaraq, bu əlaqələrin inkişaf dinamikası, həyata keçirilən əsas proqram və təşəbbüslər, həmçinin bu proseslərin ikitərəfli münasibətlərə və regiondakı ümumi siyasi kontekstə təsiri araşdırılır. Məqsəd, Türkiyənin Cənubi Qafqaz siyasətində mədəni və humanitar sahənin oynadığı rolu müəyyənləşdirmək və bu çərçivədə Gürcüstanla münasibətlərin spesifik xüsusiyyətlərini ortaya qoymaqdır.

**Əsas hissə.** XXI əsrin əvvəllərindən Türkiyə Gürcüstanla mədəni əlaqələri inkişaf etdirmək üçün bir sıra layihələr həyata keçirdi. Bu dövrdən başlayaraq bir çox türk sənətkarları və mədəniyyət nümayəndələri Gürcüstanda müxtəlif mədəniyyət tədbirlərinə mütəşəkkil şəkildə qatılmağa başladılar. Məhz bu tədbirlər tarixən qonşuluq münasibətlərinə malik olan türk və gürcü xalqlarının mədəni əlaqələrinin inkişafına, bu əlaqələrin hərtəfəli tərəqqisinə, hər iki ölkənin malik olduğu mültikultural dəyərlərin daha da inkişafı və möhkəmlənməsinə əhəmiyyətli töhfələr verdi. Xüsusilə Gürcüstanda yaşayan yarım milyondan çox azərbaycanlının bu mütərəqqi münasibətlərdən faydalandığını da qeyd etmək lazımdır. Bu mədəni fəaliyyətlər təkcə incəsənət sahəsində deyil, həm də təhsil müstəvisində öz əksini tapmaqda idi. Bu baxımdan, türk dilinin Gürcüstanda tədrisi və bu sahədə həyata keçirilən təşəbbüslər mühüm əhəmiyyət kəsb edirdi.

Türkiyənin Tbilisidəki Səfriliyinin Təhsil Müşavirliyinin qeydiyyatına əsasən, Gürcüstan üzrə səkkiz universitetdə Şərq Dilləri fakültəsi daxilində türk dili bölmələri mövcuddur. Bunlardan beşi Tbilisidə, digərləri isə Kutaisi, Ahıska və Batumidə yerləşir. Orta təhsil səviyyəsində isə Tbilisidə doqquz dövlət məktəbində türk dili seçmə fənn kimi tədris olunur və türk dili klubu fəaliyyət göstərir [7, 50]. Türkiyənin Tbilisidəki Səfriliyinin Təhsil Müşavirliyi nəzdində iki (Tbilisi və Batumi) türk dili kursu, Türkiyə Respublikası Milli Təhsil Nazirliyinə bağlı Batumi Türk Məktəbi, Yunus Əmrə İnstitutu və Beynəlxalq Maarif Məktəblərində də türk dili tədris olunur.

Türkiyənin digər ölkələrlə mədəni əlaqələrində Yunus Əmrə İnstitutu böyük rol oynayır. 2009-cu ildə fəaliyyətə başlayan Yunus Əmrə İnstitutunun 66 ölkədə 90 mədəniyyət mərkəzi mövcuddur. İlk xarici mərkəz tarixi və strateji əhəmiyyətə malik Bosniya və Herseqovinada açılıb. 2012-ci ildə İvane Cavaxişvili adına Tbilisi Dövlət Universitetinin nəzdində açılan Tbilisi şöbəsi sayca 22-ci mərkəz idi [10]. Burada türk dilinin tədrisi ilə yanaşı, türk dilinə və türk mədəniyyətinə maraq göstərən gürcülərin müxtəlif tədbirləri də həyata keçirilir. İvane Cavaxişvili adına Tbilisi Dövlət Universitetinin Türkologiya kafedrasının müdiri Prof. Dr. Marika Jikiaya görə Yunus

Əmrə İnstitutu sayəsində gürcü tələbələrin Türkologiya bölməsinə marağı getdikcə artmaqdadır.

Yunus Əmrə İnstitutu, Gürcüstanda artan türk sahibkarların və şirkətlərin türkcə danışan işçi qüvvəsinə ehtiyacı, eyni zamanda türk dilinə olan tələbatın artması fonunda sosial və mədəni fəaliyyətlərini sürətlə davam etdirir. İnstitutda yalnız Gürcüstan Milli Kitabxanası, Gürcüstan Milli Əlyazmalar Mərkəzi, Gürcüstan Daxili İşlər Nazirliyinin Sərhəd Polisi, Gürcüstan Gənclər Sarayı və Gürcüstan Müdafiə Nazirliyi kimi rəsmi dövlət qurumlarının əməkdaşları üçün deyil, eyni zamanda "Şişecam" kimi türk şirkətlərində çalışan gürcülər üçün də türk dili tədris olunur [6, 12].

İki ölkə arasında təhsil və mədəniyyət sahəsində əməkdaşlıq olduqca yüksək səviyyədədir. Təhsil sahəsində hal-hazırda təxminən üç yüzə yaxın türk tələbə Gürcüstan universitetlərində təhsil alır. Hər il "Türkiyə Bursları (Təqaüdləri)" çərçivəsində təxminən qırx gürcü tələbəyə Türkiyədə ali təhsil və türk dili üzrə təqaüd verilir. Bu çərçivədə Türkiyə Respublikasının Diasporla İş üzrə İdarəsi Gürcüstanla daha genişmiqyaslı fəaliyyətlər həyata keçirir. Türkiyə və Gürcüstan arasında təhsil və mədəniyyət sahələrindəki əməkdaşlıq, iki ölkə arasında dostluq münasibətlərinin dərinləşməsinə və qarşılıqlı anlaşmanın güclənməsinə mühüm töhfə verir. Bu əməkdaşlıq, həmçinin mədəni irsin qorunması və bərpası sahəsindəki birgə səylərlə daha da genişləndi. Bu istiqamətdə atılan addımlar, təkcə təhsil sahəsindəki uğurlar deyil, həm də mədəni irsin qarşılıqlı olaraq bərpasını da əhatə edən önəmli layihələrin həyata keçirilməsini təmin etdi.

Bu baxımdan Türkiyə ilə Gürcüstan arasında mədəni irs nümunələrinin qarşılıqlı bərpasını da əhatə edən "Türkiyə Respublikası Hökuməti ilə Gürcüstan Respublikası Hökuməti arasında 2017–2021-ci illər üçün Mədəni Əməkdaşlıq Proqramı" 2017-ci il mayın 23-də Tbilisidə keçirilmiş II Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurası iclasında imzalandı. Bu proqram çərçivəsində, Türkiyə tərəfi müasir və ən son texnologiyalardan istifadə etməklə, İşxan kilsəsinin yenidən inşası üçün 4 milyon dollardan artıq büdcə ayırdı, həmçinin Oşki və Parkhali monastırlarının bərpasını həyata keçirdi [5]. Bu əməkdaşlıqlar, həmçinin mədəniyyət sahəsindəki müştərək layihələrin həyata keçirilməsi və ölkələr arasında qarşılıqlı anlayışın möhkəmləndirilməsi üçün əlavə imkanlar yaratdı.

Bildiyimiz kimi Türkiyənin Tbilisidəki Səfirliyi TİKA və Tbilisi Türk Əməkdaşlıq və Koordinasiya Mərkəzi (YETKM) ilə əməkdaşlıq çərçivəsində fəaliyyət göstərir. Adıçəkilən qurumlar ilə birgə və ya fərqli layihələr həyata keçirməklə Gürcüstanda ictimai diplomatiya və yumşaq güc fəaliyyətlərini icra edir. Məsələn, Gürcüstan Xarici İşlər Nazirliyi tərəfindən 2014-cü ildə təşkil edilən proqramda iştirak edən gürcü uşaqlarla tədbirdən sonra Səfirliyin binasında görüş keçirilmiş, burada Türkiyə-Gürcüstan münasibətləri

barədə müzakirə aparılmış və sual-cavab sessiyası təşkil olunmuşdur. Səfirlik tərəfindən təşkil edilən digər tədbir isə 2018-ci ildə Müqəddəs Andria Gürcü Universitetində keçirilmiş mühazirədir. Bu tədbirdə Tbilisidəki Səfir Fatma Ceren Yazgan Türkiyə və Gürcüstan arasındakı münasibətlər barədə çıxış etdi. Elmi tədbirlər çərçivəsində universitet tələbələri və akademik heyətlə görüşən Səfir Türkiyənin xarici siyasəti və siyasi mədəniyyəti barədə iştirakçılara məlumat verdi.

Tbilisidəki Səfirlik, həmçinin kitab ianələri və tərcümə layihələri də həyata keçirir. Məsələn, 2015-ci ildə Gürcüstan Kitab Sənəti Mərkəzi tərəfindən yaradılmış Beynəlxalq İllüstrasiyalı Kitabxanaya türk dilində nəşr olunmuş nağıl və hekayə kitabları hədiyyə edildi. 2020-ci ildə isə Səfirliyin təşəbbüsü ilə "Türk Əsərlərinin Gürcü dilinə Tərcümə Müsabiqəsi" təşkil olundu. Bu müsabiqə çərçivəsində, yazıçı Səbahattin Əliyə məxsus "Birdənbirə Sönən Qətran Lampasının Hekayəsi" adlı əsər gürcü dilinə tərcümə edildi [4, 339].

2016-cı ilin 3–6 fevral tarixlərində Batumi Baş Konsulluğunun təşəbbüsü ilə Batumi Acarıstan İncəsənət Muzeyində rəssam Kemal Çelikin əsərlərindən ibarət rəsm sərgisi təşkil olundu. Baş Konsulluq tərəfindən həyata keçirilmiş digər mədəniyyət və incəsənət tədbiri isə "İstanbul-Batumi İncəsənət Görüşü" adlı tədbir idi. 26 may 2016-cı ildə təşkil olunan bu tədbir çərçivəsində "Batumili Rəssamların Fırçalarından İstanbul" mövzusunda rəsm sərgisi, həmçinin "Dörd Fəsil İstanbul" və "İstanbulun Simvolları" adlı foto sərgilər təqdim edildi. Sərgilərin açılış mərasimindən sonra türk və gürcü rəssamların birgə çıxış etdiyi "Gürcüstan–Türkiyə Dostluq Konserti" baş tutdu.

Avrasiya Universiteti və Batumi Baş Konsulluğunun birgə əməkdaşlığı ilə 6 may 2016-cı ildə Batumi İncəsənət Mərkəzində "Çalıquşu Baleti" adlı mədəniyyət və incəsənət tədbiri səhnələşdirildi. Batumi Baş Konsulluğu ənənəvi Türk dekorativ sənətlərinin Batumidə tanıdılması məqsədilə sənətkarlıq kursları da təşkil etdi. O vaxtki Türkiyə Cümhuriyyəti İnkişaf Nazirliyi (indiki Türkiyə Prezidentliyi yanında Strategiya və Büdcə İdarəsi-red. H.H) və Yunus Əmrə İnstitutunun əməkdaşlığı ilə Batumi Arxeologiya Muzeyində çini sənəti üzrə kurs həyata keçirildi. 29 fevral 2016-cı ildə başlayan kurs üç ay yarım davam etdi.

Bundan başqa, 10 mart 2016-cı il tarixində Batumi Şota Rustaveli Dövlət Universitetində "Yenidən Doğuşun Şeiri və Şairi: İstiqlal Marşı və Mehmet Akif Ersoy" mövzusunda konfrans təşkil olundu. Konfransda əsas məruzəçi kimi Qara dəniz Texniki Universitetinin Türk Dili və Ədəbiyyatı kafedrasının müdiri professor Ülkü Eliuz çıxış etdi. Eyni zamanda, ev sahibi universitetin Türkologiya Bölməsinin tələbələri tərəfindən İstiqlal Marşının 10 bəndi səsləndirildi.

Bədii tədbirlərlə yanaşı, beynəlxalq idman yarışları da ictimai diplomatiya fəaliyyətlərinin bir hissəsini təşkil edirdi. Bu çərçivədə, 2016-cı il

fevralın 24-də Batumi Baş Konsulluğu tərəfindən Batumidə "Acarıstan–şərqi Qara dəniz idman seminarı" həyata keçirildi. Seminarda Şərqi Qara dəniz bölgəsinə daxil olan vilayətlərin Gənclər və İdman İdarələri, Şərqi Qara dəniz Bələdiyyələr Birliyi, Şərqi Qara dəniz İnkişaf Agentliyi, Acarıstan Muxtar Respublikası Təhsil, Mədəniyyət və İdman Nazirliyi, eləcə də Batum Bələdiyyəsinin İdman İdarəsinin nümayəndələri iştirak edirdi. Bu tədbir vasitəsilə iki ölkə arasında idman sahəsində əməkdaşlığın gücləndirilməsi qərara alındı. Acarıstan Muxtar Respublikası Təhsil, Mədəniyyət və İdman nazirinin müavini Valeri Beradze bu tədbirlə bağlı gözləntilərini belə ifadə edirdi: *"İdman və mədəni tədbirlər nəticəsində gənclərimiz və cəmiyyətlərimiz bir-birinə daha da yaxınlaşacaq. Daha sıx əməkdaşlıq edəcəyimiz barədə razılığa gəldik. Bu əməkdaşlıqdan böyük nəticələr gözləyirik. Bu ikitərəfli əməkdaşlıq çox faydalı olacaq"* [8]. Bu istiqamətdə davam etdirilən fəaliyyətlər çərçivəsində, 10–12 iyun 2016-cı il tarixlərində Batum Baş Konsulluğunun dəstəyi və Batum Bələdiyyəsinin ev sahibliyi ilə "Batum Bələdiyyəsi Gənclər arasında Basketbol Turniri" keçirildi.

Türkiyə Mədəniyyət və Turizm Nazirliyi, Gürcüstanda türk mədəniyyətini tanıtmaq məqsədilə nümayiş sənətləri, musiqi və rəqs kimi vasitələrdən istifadə edir. Məsələn, hər il Trabzon şəhərində təşkil olunan "Qara dəniz sahili ölkələrin beynəlxalq Teatr Festivalı"nda Gürcüstan da iştirak edir. 2–16 may 2019-cu il tarixlərində keçirilən və 20-cisi olan bu festivala Şota Rustaveli Dövlət Dram Teatrı "Ev sahibi və qonaq" adlı tamaşa ilə qoşuldu. Digər bir festival isə "Antalya Beynəlxalq Teatr Festivalı"dır. 17–30 may 2010-cu il tarixlərində birincisi təşkil edilən bu festivalda Gürcüstanın Rustaveli Milli Teatrı "Düşmənin maskası" adlı tamaşanı nümayiş etdirdi. Eyni festivalın 17–27 may 2019-cu il tarixlərində keçirilmiş onuncu buraxılışında isə Tbilisi Dövlət Musiqi və Dram Teatrı "Karmen" adlı tamaşa ilə çıxış etdi. Nazirliyin təşkil etdiyi digər beynəlxalq tədbir isə "Beynəlxalq Bodrum Balet Festivalı"dır. 3–21 avqust 2019-cu il tarixlərində keçirilmiş XVII festivalda Suxişvili Milli Balet Ansamblı səhnə aldı.

Çoxtərəfli beynəlxalq tədbirlərlə yanaşı, ikitərəfli mədəni tədbirlər də həyata keçirən nazirlik, nəzdində fəaliyyət göstərən Həvəskar Gənclər Xalq Rəqsləri Ansamblı ilə 20–23 oktyabr 2009-cu il tarixlərində Batumi şəhərində xalq rəqslərini təqdim etdi. Bu çərçivədə Dövlət Xalq Rəqsləri Ansamblı tərəfindən də 9–12 dekabr 2011-ci il tarixlərində Tbilisidə rəqs tamaşası təşkil olunmuşdu.

Mədəniyyətin mühüm ünsürlərindən biri olan musiqi, Türkiyə Mədəniyyət və Turizm Nazirliyinin türk mədəniyyətinin tanıdılmasında istifadə etdiyi əsas vasitələrdən biridir. Nazirliyin tərkibində fəaliyyət göstərən İstanbul Dövlət Türk Musiqisi Ansamblının ney ifaçısı Arif Ərdəbil 24 may və 4 iyun 2006-cı il tarixlərində Tbilisidə ney konsertləri təqdim etdi. Eyni

şəkildə, nazirlik nəzdində fəaliyyət göstərən İstanbul Tarixi Türk Musiqisi Ansamblının mehter qrupları 19–23 sentyabr 2006-cı il tarixlərində Tbilisidə konsertlər verdi. Bu ansambl tərəfindən təqdim olunan musiqi tədbirləri yalnız 2006-cı illə məhdudlaşmadı, 13–15 iyun 2013 və 13–15 noyabr 2014-cü il tarixlərində də yenidən Tbilisidə konsert proqramları təşkil etdi. Gürcüstanda keçirilmiş başqa bir konsert isə Mədəniyyət və Turizm Nazirliyinin Gözəl Sənətlər Baş İdarəsinin nəzdində fəaliyyət göstərən Ankara Dövlət Türk Xalq Musiqisi Xoru tərəfindən 9–12 dekabr 2011-ci il tarixlərində Tbilisidə baş tutdu [1].

Mədəniyyət və Turizm Nazirliyi Gürcüstanda, həmçinin ictimai diplomatiya fəaliyyəti də həyata keçirirdi. Bu fəaliyyətlər içərisində reklamçılıq, Türkiyənin düzgün şəkildə tanıdılması baxımından xüsusi əhəmiyyətə malikdir. Bununla yanaşı, müxtəlif mədəni tədbirlər də bu məqsədə xidmət edir. İki ölkə arasında mədəni əlaqələrin inkişaf etdirilməsi baxımından Mədəniyyət və Turizm Nazirliyi mühüm rol oynayır. İki ölkənin mədəni və ticarət əlaqələrinin inkişaf etdirilməsi məqsədilə qarşılıqlı razılıq əsasında Türkiyə və Gürcüstan şəhərlərinin bir çoxu qardaş şəhərlər statusu alıb. Türkiyənin Gürcüstanla qardaş şəhər münasibətləri qurması hələ SSRİ dövründən başlasa da, ƏİP hökuməti hakimiyyətə gəldikdən sonra bu sayıda əhəmiyyətli artım oldu. Bunu aşağıdakı cədvəldən də müşahidə etmək mümkündür:

Cədvəl 1

**Türkiyə və Gürcüstanın qardaşlaşmış şəhərləri**

| Təsdiq olunduğu tarix | Türkiyə | Gürcüstan |
|---|---|---|
| 06.09.2004 | İzmit / Kocaeli | Vake-Saburtalo / Tbilisi |
| 20.12.2004 | Ürgüp/Nevşehir | Mtsxeta |
| 08.06.2011 | Karşıyaka/İzmir | Kutaisi |
| 26.10.2011 | Yalova | Batumi |
| 07.11.2011 | Fındıklı/Rize | Mtsxeta |
| 14.12.2012 | Kemalpaşa/İzmir | Zuqdidi |
| 29.03.2013 | Bursa | Batumi |
| 09.07.2015 | İznik/Bursa | Xulo |
| 13.05.2016 | Beypazarı/Ankara | Ahıska |
| 22.06.2016 | Gemlik/Bursa | Ahıska |
| 22.06.2016 | Pazar/Rize | Poti |
| 31.10.2016 | Ərzurum | Batumi |
| 11.04.2019 | Akçaabat/Trabzon | Batumi |
| 05.07.2019 | Sinop | Batumi |
| 28.08.2019 | Ortahisar/Nevşehir | Siqnaqi |
| 06.09.2019 | Ərdahan | Ahıska |

***Mənbə:*** *Türkiyə Respublikası Ətraf Mühit və Şəhərsalma Nazirliyi, Yerli Özünüidarəetmə Baş İdarəsinin, "Bələdiyyələrə aid qardaş şəhər statistikaları" adlı sənəd əsasında hazırlanmışdır* [2].

Türkiyənin Gürcüstanda yumşaq diplomatiyasına heç şübhəsiz ki qeyri-hökumət təşkilatları mühüm töhfələr verir. Bunlardan "Türkiyə Qızıl Aypara Cəmiyyəti", "İnsan Hüquq və Azadlıqları ilə Humanitar Yardım Fondu" (İHH), "GÜRTİAD", "Gürcüstan Dostluq Dərnəyi və Türk-Gürcü Təhsil və Mədəniyyət Fondu" qeyd edilə bilər. Xüsusilə də Türkiyə Qızıl Aypara Cəmiyyətinin Gürcüstana etdiyi "humanitar yardım"lar olduqca əhəmiyyətlidir. Məsələn, Gürcüstan hökuməti 26 aprel 2005-ci ildə baş vermiş sel fəlakəti zamanı Acarıstan, İmereti, Svaneti, Raça, Şida Kartli, Kaxetiya və Mtsxeta bölgələrində ciddi maddi itkilər baş verən zaman beynəlxalq qurumlardan yardım istədi. Türkiyə Qızıl Aypara Cəmiyyəti təbii fəlakətdən zərərçəkmiş 800 ailəyə 17,6 ton ərzaq yardımı göstərdi. Daha sonra bu yardımları davam etdirən Qızıl Aypara, 1 avqust 2007-ci il tarixində Gürcüstana ümumi dəyəri 55200 Türk lirəsi olan 2300 ədəd ərzaq paketi göndərdi. Gürcüstanda baş vermiş digər sel fəlakəti isə 13 iyun 2015-ci ildə paytaxt Tbilisidə Vere çayının daşması nəticəsində oldu. Bu dəfə də Türkiyə Qızıl Aypara Cəmiyyəti dərhal müdaxilə edərək 125 min ABŞ dolları dəyərində ərzaq və geyim yardımı etdi. Gürcüstan xalqının Türkiyədən edilən yardımlardan məmnunluğunu Gürcüstan Qızıl Xaç Cəmiyyətinin sədri Natia Loladze aşağıdakı sözlərlə ifadə edirdi:

*"2008-ci ildə Rusiya ilə Gürcüstan arasında baş verən müharibə dövründə ölkəmizə yardım gətirən ilk təşkilat Türk Qızıl Ayparası olmuşdu. İndi isə Tbilisidə baş verən selə görə bizə yardım gətirdilər. Bu vəsaitləri ən qısa zamanda zərərçəkimşlərə paylayacağıq"* [9].

Təbii fəlakətlər zamanı baş verən maddi zərərlərin aradan qaldırılması məqsədilə göstərilən yardımlardan əlavə, iqtisadi çətinlik çəkən ailələr də Türkiyə Qızılaypara Cəmiyyəti tərəfindən dəstəkləndi. Məsələn, Türkiyə Qızılaypara Cəmiyyəti tərəfindən 2019-cu ildə qurban kəsilən 50 ölkə arasında Gürcüstan da var idi. Həmçinin Türkiyə Qızılaypara Cəmiyyəti həmin il Rustavi şəhərindəki yetim və kasıb uşaqlar üçün iftar yeməyi təşkil etdi. Bundan başqa, Türkiyə Qızılaypara Cəmiyyəti 2019-cu ildə Rustavi şəhərində inşa olunan "Bölgə Fəlakət Müdaxiləsi Mərkəzi"nin tikintisi üçün 400 min ABŞ dolları yardım etdi. Digər tərəfdən, Türkiyə, Gürcüstana Türkiyə Qızılaypara Cəmiyyəti vasitəsilə 2020-ci ildə koronavirus pandemiyası səbəbindən tibbi avadanlıq yardımı göndərdi. Göndərilən paketdə 50 min maska, 2 min FFP2 tipli maska, 50 min əlcək, 500 tulum və iki ədəd şişmə çadır var idi [3, 111].

**Nəticə.** Göründüyü kimi, Türkiyə-Gürcüstan əlaqələri iki xalq arasında mədəni əlaqələrin gücləndirilməsi baxımından da əhəmiyyətli rol oynayırdı. Təşkil olunan tədbirlər, həmçinin Gürcüstanda yaşayan türkdilli icmalar üçün də böyük əhəmiyyət daşıyırdı. Mədəniyyət və təhsil sahəsindəki əməkdaşlıqların inkişafı yalnız iki ölkə arasındakı münasibətləri möhkəm-

ləndirmək məqsədini daşımırdı, eyni zamanda Cənubi Qafqaz regionunun ümumi sabitliyinə və əməkdaşlıq mühitinin yaranmasına müsbət təsir göstərirdi. Bu əlaqələr, hər iki ölkənin mədəni və tarixi mirasının qorunmasına və qarşılıqlı anlaşma zemininin möhkəmlənməsinə şərait yaradırdı.

Nəticədə, 2002–2021-ci illər ərzində Türkiyə və Gürcüstan arasında mədəni və humanitar əlaqələr davamlı olaraq inkişaf edir, müxtəlif layihələr və təşəbbüslər sayəsində iki ölkə arasında dostluq münasibətləri möhkəmlənirdi. Bu əlaqələr yalnız mədəniyyət və humanitar sahələrdə deyil, həm də regionda sabitlik və qarşılıqlı anlaşma mühitinin formalaşmasında mühüm rol oynayırdı. Gələcəkdə bu əlaqələrin daha da güclənməsi və genişlənməsi, yalnız iki ölkə deyil, həm də Cənubi Qafqazın ümumi inkişafı üçün faydalı olacaqdır.

**ƏDƏBİYYAT**


1. Ankara Devlet Türk Halk Müziği Korosu. https://guzelsanatlar.ktb.gov.tr/TR-6564/09-aralik-2011.html
2. Belediyelere Ait Kardeş Kent İstatistiki Verileri belediyelere--8230-53440-20210701123252.xlsx (Müraciət tarixi: 14.01.2025)
3. Fatih Bardak. Kamu Diplomasisi Çerçevesinde Türkiyenin Gürcistan Politikası. Paradigma Akademi Yayınları, Ankara, 2023, 187 s.
4. Öztürk, G. M. (2019). Çeviride Erek Odaklı Yaklaşım: Sabahattin Ali'nin "Kürk Mantolu Madonna" Adlı Romanının Gürcüce Çevirisi Üzerine. International Journal of Languages' Education and Teaching, 7(2), 337-343.
5. Murat Genç. Gürcistan ve Türkiye hükümetleri arasında kültür alanında iş birliği programı yenilendi. https://baskentpostasi.com/gurcistan-ve-turkiye-hukumetleri-arasinda-kultur-alaninda-is-birligi-programi-yenilendi (Müraciət tarixi: 11.01.2024)
6. Salduz, H. Gürcistan'da Türkçeyi Yabancı Dil Olarak Öğrenenlerin Öğrenme Amaçları, Tutumları ve Becerileri. Bolu, 2017: Abant İzzet Baysal Üniversitesi, Eğitim Bilimleri Enstitüsü, Yüksek Lisans Tezi, 158 s.
7. Salih UÇAK, Serpil YAZICI ŞAHİN. Gürcistan'da Türk Dili Çalışmaları. Yurt Dışında Türkoloji ve Türkçe Öğretimi 3: Dünyada Türkçe Öğretimi / RumeliYA Yayıncılık & Publishing House, Kırklareli, 2023, s.48-66
8. Türkiye'nin Batum Başkonsolosu Yasin Temizkan, Acara Özerk Cumhuriyeti ile "Uluslararası Doğu Karadeniz Spor Oyunları" düzenlemeyi planladıklarını söyledi. https://www.haberler.com/acara-dogu-karadeniz-spor-calisma-grubu-toplantisi-8355230-haberi/
9. Trabzon Şubesi'nden Gürcistan'a Sel Desteği. https://www.kizilay.org.tr/Haber/HaberArsiviDetay/2169
10. Yunus Emre Enstitüsü ziyareti. https://gurtiad.ge/9292-2/ (Müraciət tarixi: 11.01.2024)

## КУЛЬТУРНЫЕ И ГУМАНИТАРНЫЕ ОТНОШЕНИЯ С ГРУЗИЕЙ В ПОЛИТИКЕ ТУРЦИИ НА ЮЖНОМ КАВКАЗЕ: АНАЛИЗ ЗА ПЕРИОД 2002–2021 ГГ.

**Г.А.ГУСЕЙНЛИ**

### РЕЗЮМЕ

В статье анализируется развитие культурных и гуманитарных отношений Турции с Грузией в период с 2002 по 2021 год. Особое внимание уделяется различным инициативам Турции в сферах культуры, образования и гуманитарного сотрудничества с Грузией — страной стратегического значения на Южном Кавказе. Проекты в области турецкого языка, культуры и искусства способствовали укреплению стратегического партнёрства между двумя странами, а также формированию атмосферы стабильности и взаимопонимания в регионе. В исследовании рассматривается развитие сотрудничества в образовательной сфере, преподавание турецкого языка в Грузии, роль Института Юнуса Эмре и других государственных учреждений, а также совместные проекты по охране культурного наследия. Культурное и гуманитарное сотрудничество между Турцией и Грузией оказало значительное влияние на углубление двусторонних отношений и рост взаимопонимания между народами.

**Ключевые слова:** Турция, Грузия, Южный Кавказ, культурные отношения, Батуми

## CULTURAL AND HUMANITARIAN RELATIONS WITH GEORGIA IN TURKEY'S SOUTH CAUCASUS POLICY: AN ANALYSIS FOR THE PERIOD 2002–2021

### SUMMARY

This article analyzes the development of Turkey's cultural and humanitarian relations with Georgia during the period of 2002–2021. It highlights Turkey's various initiatives in the fields of culture, education, and humanitarian affairs with Georgia, a country of strategic importance in the South Caucasus. In particular, projects related to the Turkish language, culture, and arts have contributed significantly to strengthening the strategic partnership between the two countries and fostering an environment of regional stability and mutual understanding. The article explores the progress made in educational cooperation, the teaching of the Turkish language in Georgia, and the roles played by institutions such as the Yunus Emre Institute and other state organizations. It also touches upon joint projects aimed at preserving cultural heritage. The cultural and humanitarian cooperation between Turkey and Georgia has played a vital role in enhancing mutual understanding and deepening bilateral relations.

**Keywords:** Turkey, Georgia, South Caucasus, cultural relations, Batumi

BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№1 Humanitar elmlər seriyası 2025*

**UOT 902/903.2 (903.21)**

# YASTITƏPƏ YAŞAYIŞ MƏSKƏNİNİN QƏDİM SAKİNLƏRİNİN DAŞ ƏMƏK ALƏTLƏRİ

**Şamil N. NƏCƏFOV***

*Azərbaycanın qərb bölgəsinin son tunc-erkən dəmir dövrü (e.ə. II minilliyin II yarısı-I minilliyin əvvəli) abidələri içərisində Ağstafa rayonunun Dağ Kəsəmən kəndi ərazisindəki Yastıtəpə yaşayış məskəni mühüm yer tutur. 2010-2014-cü illərdə aparılan mövsümü arxeoloji qazıntılar və 2023-cü ildə aparılmış yekun arxeoloji tədqiqatlar (müəllifin rəhbərliyi ilə) nəticəsində 2,2-2,4 metrlik mədəni təbəqə yatımına malik olan yaşayış məskəninin 325 $m^2$-lik sahəsi təbəqənin sonunadək qazılaraq tədqiq edilmiş və son tunc-erkən dəmir dövrünün zəngin maddi qalıqları üzə çıxarılmışdır. Abidənin ərazisindən çiy kərpicdən tikilimiş ev qalıqları və yarımqazmalar, ocaq yerləri, daş alətlər və müxtəlif məzmunlu gil qabların hissələri, manqallar, gil möhürlər, metal məişət əşyaları, bəzək nümunələri və s. tapılmışdır. Daş alətlərin çoxluğu Yastıtəpənin qədim sakinlərinin təsərrüfat fəaliyyətində əkinçiliyin xüsusi önəm daşımasının göstəricisidir. Məqalədə Yastıtəpənin qədim sakinlərinin məişət və təsərrüfat həyatında işlətdikləri daş əmək alətləri, onların forma və məzmunu barədə danışılır.*

**Açar sözlər*:*** Qazax arxeoloji ekspedisiyası, Yastıtəpə yaşayış məskəni, arxeoloji qazıntılar, son tunc-ilk dəmir dövrü, daş alətlər

**Giriş.** Yastıtəpə yaşayış məskəni (inv. 772) Ağstafa rayonunun Dağ Kəsəmən kəndi ərazisində - Ağstafa şəhərinə yaxın bir sahədə, çox da hündür olmayan təbii təpə üzərində yerləşir. Yaşayış məskəninin yerləşdiyi ərazi əvvəllər otlaq və biçənək sahəsi kimi istifadə olunmuş, hazırda isə yeni salınmış yaşayış evlərinin əhatəsində qalmışdır. Yaşayış məskəninin sahəsi vaxtilə çox böyük olmuşdur. 2-3 ha-a yaxın bir sahəni əhatə edən yaşayış yeri müxtəlif vaxtlarda dağıntıya məruz qalmışdır. Zaman-zaman əhali bu yaşayış yeri yerləşən təpənin ətəklərini texnika ilə kəsərək torpaq daşımış, müxtəlif tikililəri onun üstündə inşa etmişdir. Yaşayış məskəninin hazırda uzunluğu (şərq-qərb istiqamətində) 120 m, eni (şimal-cənub istiqamətində)

* AMEA Arxeologiya və Antropologiya İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru, dosent; shamil_necefov@mail.ru; ORCİD İD: 0000-0001-8834-7188

80 m, hündürlüyü (mərkəzdən, hazırkı qərb və şimal-qərb tərəfdən) 3,5 m-dir. Abidənin qərb və şimal ətəkləri təxminən 3 m hündürlüyündə və 80 m uzunluğunda kəsilib götürülmüşdür. Ona görə də yaşayış məskəninin cənub və şərq tərəfləri enişə doğru istiqamətlənir [1, 46].

Abidə ilk dəfə M.M.Hüseynov və T.Ə.Bünyadov tərəfindən qeydə alınmış və 1957-1961-ci illərdə burada aparılan kiçikmiqyaslı arxeoloji tədqiqatlar zamanı xeyli miqdarda gil qab parçaları, dən daşları, gil möhürlər və təsərrüfat küplərinin qalıqları əldə edilmişdir. Aşkar olunmuş arxeoloji materiallar Azərbaycanın bu bölgəsi üçün xarakterik olan Xocalı-Gədəbəy arxeoloji mədəniyyətinə (e.ə. II minilliyin II yarısı-I minlliyin əvvəli) aid edilmişdir [1, 52-53].

Məqalə müəllifinin rəhbərliyi ilə Qazax arxeoloji ekspedisiyasının 2010-2014-cü illərdə və 2023-cü ildə apardığı tədqiqatlar zamanı Ağstafa rayonu ərazisindəki Yastıtəpə yaşayış məskənində 325 $m^2$-lik sahə qazılaraq tədqiq edilmiş və 2,2-2,4 m-lik mədəni təbəqə yatımı öyrənilmişdir [2; 3; 4].

Arxeoloji qazıntılar zamanı Yastıtəpə yaşayış məskənindən tapılan artefaktların böyük qrupunu daş məmulatı təşkil edir. Daş məmulatı əsasən alt və üst dən daşları, sürtgəclər, döyüm alətləri, həvəng və dəstələr, bülövlər, sapand və çəki daşları, iy başlıqları, obsidiandan hazırlanmış kəsicilər və s.-dən ibarətdir. Yastıtəpədən tapılan maddi mədəniyyət qalıqlarının böyük qismini təşkil edən daşdan düzəldilmiş əmək alətləri əsas etibarilə əkinçilik təsərrüfatının əsas göstəricisi hesab edilir [2].

Yastıtəpə yaşayış məskənindən tapılmış daş alətlərin böyük əksəriyyəti çaxmaq, obsidian (dəvəgözü), bazalt, roqovik, tuf və s. daş materiallarından hazırlanmışdır.

**Daş əmək alətlərinin təyinatı və funksiyaları.** *Dən daşlarının* hissələrinə qazıntı sahəsinin hər kvadratında rast gəlinmişdir (şəkil 1.1-5; şəkil 2). Dən daşlarının xeyli hissəsi çay daşlarından, az hissəsi isə bərk cinsli tuf daşından hazırlanmışdır. Formasına görə üç qrupa bölünür: oval, düzbucaqlı, qayıqvarı. Onların, demək olar ki, hamısı qırıq vəziyyətdə olub, formaca fərqli, məzmunca isə bir birini təkrarlayırlar. 12 ədəd bütöv vəziyyətdə olan dən daşı aşkar edilmişdi. Alt dən daşlarının əksəriyyəti qayıqvari formadadır (şəkil 1.1-5; şəkil 2). Üst dən daşları isə bir tərəfi düz, digəri isə qabarıq formalıdır. Qazıntı sahəsində daha mükəmməl, daha çox işlənməyə məruz qalan dən daşları 0,8-1,6 m dərinlikdən aşkar edilmişdir. Bunlar əsasən çay daşından hazırlanmış qayıqvarı formalı dən daşları idilər. Çox nadir hallarda ağ rəngli əhəngdaşından hazırlanmış düzbucaqlı və oval dən daşlarına rast gəlinmişdir. Az sayda tuf daşından hazırlanan oval dən daşlarına rast gəlinir [2, 196]. Onların müvafiq uzunluqları (qırıq vəziyyətdə) 15-25 sm-ya çatır. Bəzi üst dən daşlarının (sürtgəclərin), hətta daha kiçik hissələri (10 sm) tapılmışdır. Daha çox ocaq yerləri ətrafından və təsərrüfat quyularından tapı-

lan dən daşları təsərrüfatda uzun müddət istifadə olunmuşdur. Qayıqvarı dən daşlarının bəziləri ağ rəngli tuf daşından hazırlanmışdır. Bəziləri məsaməli, bəziləri isə məsaməsizdir. Onların hamısına fraqment halında rast gəlinmişdir. Üst dən daşları nisbətən az tapılmışdır. Onlar da fraqmentlərlə müşayiət olunurlar. Üst dən daşlarının əksəriyyəti qara, boz-göyümsov rəngli bazalt cinsli daşdan hazırlanmışdır.




**Şəkil 1.** Yastıtəpədən tapılmış daş alətlər:
1-5-dən daşları; 6-sürtgəc; 7-8-daşdan hazırlanmış iy başlıqları




**Şəkil 2.** Yastıtəpədən tapılmış qayıqvarı formalı alt dən daşları

Mədəni təbəqə yatımının 0,6-2 m dərinliyindən tapılan müxtəlif formalı və ölçülü dən daşları böyük maraq doğurur. III qazıntı kvadratından tapılmış eni 62 sm, uzunluğu 65 sm olan dən daşı düzbucaqlı formada olmuşdur [2]. Onun kənarları qalın (15 sm), ortası isə nazik divarlıdır (5 sm). Ehtimal ki, çox işləndiyindən kənarlarının ağırlığını saxlaya bilməyərək ortasından 4 hissəyə qırılmışdır (şəkil 2.3). Belə formalı alt dən daşlarına nadir hallarda rast gəlinir. Üzərini ərp örtmüşdür.

Dən daşlarınn bəzilərinin alt hissəsi nahamar olub, girintili-çıxıntılıdır. N.Ə.Müseyibli belə dən daşlarının altının qeyri-hamar olmasını onların bir yerdə bərkidilərək uzun müddət istifadə olumması ilə izah edir [5, 41; 6, 166].

Yastıtəpədən aşkar edilmiş dən daşlarının əksəriyyətinin məzmun və forma baxımından oxşarları aid olduğu bölgənin daha erkən əkinçilik mədəniyyətinə məxsus Leylatəpə mədəniyyətinə xas olan abidələrindən də aşkar edilmişdir [7, 163-173].

Dən daşlarından təkcə taxılın üyüdülməsində deyil, digər dənli bitkilərin məhsulları üçün də istifadə olunmuşdur. Alt və üst daşlarından ibarət olan bu alətlər, formaca son tunc-erkən dəmir dövrünün əvvəlki mərhələlərində istifadə olunan alətlərdən fərqlənmirlər.

Alt dən daşlarının işlək tərəfi qayıqşəkilli, üst dən daşlarının isə işlək tərəfi düz olan Yastıtəpə yaşayış məskəninin tapıntıları bölgənin Sarvantəpə, Mollamey, Şomutəpə, Qanlı Töyrə, Qiyaməttəpə, Töyrətəpə, I və II Poylu, Qarahəsənli, Sarıtəpə, Daş Salahlı, Nadirbəy təpəsi və s. yaşayış məskənlərinin tapıntıları ilə eynidir (1; 3; 5; 8; 9; 10; 11; 12; 13; 14; 15; 16; 17; 18].

Analoji dən daşları Azərbaycan da daxil olmaqla bütün Qafqaz ərazisində tunc dövrü abidələrindən məlumdur. T.Ə.Bünyadov öz tədqiqatlarında dən daşlarını Azərbaycanda oturaq əkinçilik mədəniyyətinin ən vacib atributlarından biri saymış, onları düzgün olaraq qruplaşdırmış və ətraflı təsvirlərini vermişdir [11, 54]. Oxşar nümunələrinin Kültəpənin 1-ci təbəqəsindən də tapıldığını qeyd edən Q.S.İsmayılzadə oval formalı dən daşlarını bu sinifdən olan alətlərin ən ibtidai nümunəsi sayır. Oval formalı dən daşları Böyük Kəsik, Baba Dərviş və Töyrətəpə yaşayış yerlərindən çox tapılmışdır [8, 142; 9, 29-32].

*Sürtgəclər* uzunsov və oval formalıdır (şəkil 4.1-3). Əksəriyyətində işlənmə izləri müşahidə olunur. Yastıtəpə yaşayış məskənindən tapılan bu daş alətlər Gəncə-Qazax bölgəsinin son tunc-erkən dəmir dövrü sakinlərinin əkinçilik mədəniyyətini öyrənmək üçün böyük əhəmiyyət kəsb edirlər. Müxtəlif dərinlikdən tapılan iriölçülü sürtgəclər bəzən bütöv, bəzən isə fraqmentlərlə müşayiət olunurlar. Alt dən daşlarının bəzən yanından tapılan sürtgəclərin əksəriyyəti adi boz rəngli çay daşından hazırlanmışdır, əksəriyyəti məsaməlidir [3, 187-189]. Yəqin ki, alt dən daşları kimi, sürtgəclərin seçilməsində də məqsəd onların məsamələri arasında bitki dənlərinin (buğda, arpa) asanlıqla ilişib qalması və sürtmə prosesində onların əzilərək una çevrilməsini asanlaşdırmaq olmuşdur. Uzunsov və oval formalı sürtgəclərin orta hissələri nisbətən enli, ucları getdikcə nazilir. Uzunluqları 15-35 sm arasında, enləri isə 5-10 sm arasında dəyişir [2; 3].

*Döyüm alətləri* uzunsov və şar şəkilli olub çay daşlarından düzəldilmişdir (şəkil 3.1-7). Material olaraq səliqəli daşlar seçilmiş, səthləri müəyyən dərəcədə hamarlanmışdır. Əksəriyyətinin uc hissələrində dərin işlənmə izi müşahidə olunur. Uzunluqları 10-20 sm, diametrləri isə 5-10 sm-dır. Şar şəklindəki dəstələrin diametrləri isə 5-10 sm-dır. Bütöv halda dəstələr tapılsa da çox azdır. Döyüm alətləri nisbətən daha çox olub, müxtəlif formalı (yumru, uzunsov, nahamar, lakin bir tərəfi işlənmiş və s.) idilər [2; 3; 4, 78]. Döyüm alətlərinin əksər hallarda hər iki sonluğundan istifadə edilmişdir. N.Ə.Müseyibli bunu əmək prosesində daşın bir tərəfinin sürtülüb ovulması nəticəsində əldə rahat tutulması üçün digər tərəfindən istifadə edilməsi ilə

izah edir [7, 166].




**Şəkil 3.** Yastıtəpədən tapılmış daş alətlər:
1-7-döyüm alətləri və dəstələr; 8-qaşov; 9-bülöv

Ölçülərinə görə kiçik və orta ölçülü *həvənglərə* ən çox parçalanmış formada rast gəlinir. Əsasən məsaməli tuf daşlarından hazırlanmış həvənglərin içərisi döymə prosesində hamarlanmışdır. Tapılmış 31 ədəd həvəngin ölçüləri təxminən eyni olub, diametrləri 25-45 sm arasında, hündürlükləri isə 20-35 sm arasındadır. Ağız kənarları yaxşı işlənərək hamarlanmış həvənglərin içinin dərinliyi 10-15 sm arasında dəyişir. Həvənglərin oturacaqları azca qabarıqdır. Bu isə onu göstərir ki, həvənglər əsasən yerdə, yəni torpaq üzərinə qoyularaq istifadə edilmişdir [10, 21-24]. Tapılmış həvəng alətlərinin heç birində hamar, düz oturacaqlılıq müşahidə edilmir. Dairəvi və uzunsov formalı həvənglərin oyuq yerləri adətən çox dayazdır. Onların hündürlükləri 15-25 sm, diametrləri isə 25-30 sm arasında dəyişir. Ortasındakı

oyuqların diametrləri 8-16 sm arasındadır. Nisbətən iriölçülü həvənglər parçalanmış vəziyyətdədir. Həvənglərin *dəstələri* onların oyuqlarının ölçüsündə hazırlanmışdır [3, 188-189]. Həvənglərə məxsus dəstələr əsasən boz və qara rəngli uzunsov çay daşlarından seçilmişdir. Onların yuxarı hissələri əldə rahat tutmaq üçün uzunsov, döymək üçün istifadə edilən hissələri isə nisbətən yumru və enlidir. Həvənglərin və çay daşından düzəldilən dəstələrin tapılması məişətdə bu alətlərin geniş şəkildə istifadə edilməsinin göstəricisidir. Əzmədə və döymədə istifadə edilən dəstələr əsasən həvənglərin ölçüsünə uygun olaraq seçilib hazırlanmışdır.

*Bülövlər* nisbətən çox aşkar edilmiş arxeoloji materiallar sırasındadır (şəkil 3.9). Uzunsov formalı bülövlərin hər iki tərəfləri yaxşı sürtülmüş və işlənmişdir. En kəsiyi lentvari quruluşlu olan bülöv daşlarından kəsici və deşici alətlərin itilənməsində istifadə edilmişdir. Bülöv məqsədilə istifadə olunacaq daş alətin seçilməsində məhz uzunsov, yastı və lentvari en kəsiyə malik daşlara üstünlük verilmişdir. Qazıntı sahəsindən çay daşından hazırlanmış xeyli sayda kiçik və orta ölçülü bülövlər tapılmışdır. Onların bəzisi zəif, bəzisi isə kobud formada işlənmişdir. Bülövlər müxtəlif böyüklükdə olub, boz və göy rəngli məsaməsiz çay daşından hazırlanmışlar. Uzunsov və qövsvari formalı bülövlərin hər iki üzü yastıdır. Əksəriyyətinin üzərində işlənmə izləri vardır. Uzunluqları 6-12 sm, qalınlıqları isə 3-4 sm arasındadır. Onlar daha çox mədəni təbəqə yatımının 1-1,5 m dərinliyində aşkar edilmişdir. Tapılmış 50-dək bülöv daşlarının əksəriyyəti bütöv haldadır. Bəzilərinin üzərini ərp örtmüşdür [2; 3].

*Qaşov* təyinatlı daş alətlərin üzərində dərin və uzunmüddətli işlənmənin izləri aydın görünür. Bir nümunə üçbucaq formalı olub, ağız hissə içəriyə doğru dərin batıqdır (şəkil 3.8). Bu onu sübut edir ki, həmin alət qaşıma prosesində uzun müddət istifadə edilmişdir. Alət çarpanaq daşından hazırlanmışdır.

*Sapand daşlarının* sayı 62 ədəddir (şəkil 4.5-8). Sapand daşlarının say azlığı onu göstərir ki, ovçuluqda dövrün tələbinə uyğun olaraq əsasən metaldan hazırlanan mükəmməl silah nümunələrindən istifadə sapand daşlarını artıq primitiv ov silahlarının sırasına keçirmişdir. Hamısı bütöv formada tapılan sapand daşları əsasən boz və ağ rəngli kiçik, yumru formalı çay daşlarından hazırlanmışdır. Diametrləri 3-5 sm arasında dəyişən bu daşların üzərini ərp örtmüş, bəziləri isə güclü yanmanın təsirindən qaralmışlar. Ölçü və görkəminə görə yüngül olan və əldə rahat tutulan sapand daşları ov zamanı hansısa dəri materialının arasına qoymaqla atılırmış və uzaqvuran ov silahı kimi istifadə edilirmiş. Analoji sapand daşları Qazax rayonunda Sarvantəpə yaşayış yerindən də tapılmışdır [10, 23]. Xüsusi texniki atış qaydasına riayət etməklə qədim ovçuların öldürücü silahına çevrilən sapand daşlarından insanlar çox qədim zamanlardan istifadə etmişlər. Müasir dövrü-

müzdə hələ də bəzi xalaqların ov silahı kimi istifadə etdikləri sapand daşları ovçular tərəfindən seçilir və əsasən quşların ovlanmasında istifadə edilir.




**Şəkil 4.** Yastıtəpədən tapılmış daş alətlər: 1-3-sürtgəclər;
4 bumeranq formalı qaşıyıcı alət; 5-8 sapand daşları

Qazıntı sahəsindən xeyli *çəki daşları* da tapılmışdır. Onlar kiçikhəcmli olub, formaca yumru və uzunsovdur. Bəzilərinin orta hissəsi dairəvi yonularaq oyuq formasına salınmışdır. Çəki daşlarından məişətdə uzun müddət istidadə edilməsi şübhəsizdir [2].

Yaşayış məskəninin II qazıntı kvadratından, 1,8 m dərinlikdən tapılmış *bumeranq formalı alətin* orta hissəsi dərin işlənməyə məruz qalmışdır (şəkil 4.4). Bu onu göstərir ki, həmin alət qaşıma funksiyası daşımışdır.

Materialı kiçikölçülü əhəngdaşından seçilərək hazırlanmış *iy başlıqları* (əyircəklər) ibtidai insanların məişətində uzun müddət istifadə olunmuşdur (şəkil 1.7-8). İy başlıqları əhalinin toxuculuq sənəti ilə tanışlığının və bu sahədə nailiyyətlərinin göstəricisidir. Yastı və piramida formasında hazırlanan daş əyircəklərin diametrləri 3-6 sm arasındadır.

*Obsidiandan* hazırlanan əmək alətlərinin sayı azdır. Tapılmış 122 ədəd obsidian qəlpəsinin 36-sı yaxşı işlənmişdir. Qara rəngli obsidian daşları

formaca sadə, həcmcə kiçikdirlər. Obsidiandan hazırlanan kəsici alətlər çox kiçikölçülü olub (3x2 sm; 4x2 sm; 1x2 sm) əsasən qəlpələrlə müşayiət edilirlər. Qara rəngli şəffaf obsidiandan hazırlanan bu qəlpələr əsasən üçtilli və çoxtilli olub, bir tərəfləri kəsmək üçün çox yaxşı formalaşdırılmışdır. Obsidiandan hazırlanan kəsicilər ən çox ocaq yerləri ətrafından tapılmışdır. Bunlardan yəqin ki, ətin doğranması məqsədilə istifadə olunurmuş. Bir ədəd obsidiandan hazırlanmış ox ucluğu isə çox maraqlıdır. Qəlpələmə yolu ilə alınan ox ucluğunun ucu çox iti və bizdir. Onun ölçüsü kiçik olub (2 sm) üçbucaq formalıdır. Sonluğu çox ehtimal ki, ağac saplağa ya keçirilmiş, ya da sarınırmış. Obsidiandan hazırlanan bıçaq və kəsicilərin uzunluğu 4-7 sm olub, üçtillidirlər. Hər iki tərəfləri yaxşı işlənmiş, dişəklənmişdir. Artıq sübut olunmuşur ki, bölgənin əksər yaşayış yerlərinə obsidian cinsli daşlar xam mal kimi yaşayış yerindən müəyyən məsafədə yerləşən Kəlbəcər-Daşkəsən yataqlarından gətirilmişdir. Maraqlıır ki, Kürboyu ərazilər və Ağstafaçayın yuxarı axarı çaxmaqdaşı yataqları ilə zəngindir. Lakin bölgə əhalisi və Yastıtəpə yaşayış yerinin sakinləri qeyd edilən dövrdə məişət və təssərrüfatda əsasən obsidiandan hazırlanmış kəsicilərə və digər alətlərə üstünlük vermişlər. Obsidiandan hazırlanmış alətlərdə arxaiklik özünü saxlamışdır. Belə ki, neolit və xalkolit dövrünün osidian alətlərinin dişəklənməsi formaları və qəlpələmə son tunc dövrü materiallarında da müşahidə olunur [3; 12].

*Çaxmaq daşından* hazırlanan məmulat forma və hazırlanma texnikasına görə müxtəlifdir. Mədəni təbəqə yatımının daha çox alt qatında rast gəlinən çaxmaq daşı məmulatı əsasən nazik və uzunsov qəlpələrdən düzəldilmişdir. Qəlpələr üçbucaq, dördkünclü, ucları yarımdairəvi və s. formadadır. Maraqlı burasındadır ki, bu qəlpələrin içərisində bəzən bərabəryanlı, üzərində paralel tillərə malik olan lövhələr və lövhəciklərə də təsadüf edilir. Bu materiallar forma xüsusiyyətləri baxımından neolit və xalkolit məmulatının işlənmə xüusiyyətlərini xatırladır [13].

Yastıtəpə yaşayış məskəninin daş məmulatı içərisində dəstək formalı iki daş əşya da işlənmə izlərinə görə diqqəti cəlb edir. Onların hər iki ucları və bir yan tərəfləri başdan-başa sürtülüb yeyilmişdir. F.M.Muradova və İ.H.Nərimanov bu daş alətlərin məişətdə vacib bir alət kimi uzun müddət istifadə edilməsini qeyd edirdilər [1, 48].

Əldə edilən daş məmulatının təhlili və mədəni təbəqənin stratiqrafik göstəriciləri Yastıtəpə yaşayış məskənini e.ə. XII-IX əsrlərə aid etməyə imkan verir. Bu isə o deməkdir ki, arxeoloji dəlillər burada yaşayışın daha çox son tunc-erkən dəmir dövrünün inkişaf etmiş və son mərhələlərində mövcudluğunu əks etdirir.

**Nəticə.** Çoxçeşidli və müxtəlif formalı daş alətlər onu sübut edir ki, Azərbaycanda, xüsusilə də Gəncə-Qazax zonasının digər qədim yaşayış yerlərində olduğu kimi tunc dövrünün sonları və xüsusilə də dəmir dövrünün

əvvəllərində Yastıtəpə sakinlərinin təsərrüfat həyatında bu alətlər öz əhəmiyyətini itirməmişdir.

Yastıtəpə yaşayış məskənində aparılan arxeoloji qazıntılar zamanı aşkar edilən daş əmək alətlərinin xüsusiyyətləri, hazırlanma texnologiyasının spesifikliyi, forma və funksional baxımından müxtəlifliyi bölgənin digər həmdövr abidələrinin tapıntılarından kəskin fərqlənməsə də, müəyyən elementləri ilə daha mükəmməldirlər [4, 77-78].

Yastıtəpə yaşayış məskənindən tapılmış daş əmək alətlərinin ən yaxın analoqları bölgənin tunc və erkən dəmir dövrü yaşayış yerlərindən – Qazax rayonunda Babadərviş, Sarvantəpə, Daş Salahlı, Qiyaməttəpə, Anqutətpə, Sarıtəpə, Murovul, Ağstafaçay yaşayış yeri, Ocaqtəpə (Qurbantəpə), Göl yeri, Ağstafa rayonunda isə Durnatəpə, Darağza, Poylu, Nadirbəytəpə, Ağalıqtəpə, Arançı təpələri və s. yerlərdən tapılmışdır [8, 131-133; 14, 53-56; 15; 16, 93-98; 17, 95-99; 18].

Yastıtəpə yaşayış məskəninin sakinləri bu təpədə fasiləsiz olaraq uzunmüddətli həyat sürmüşlər. Yaşayış məskəninin əhatə sahəsi və mədəni təbəqənin qalınlığı bunu deməyə əsas verir. Yaşayış məskəninin ərazisi indiki sərhədləri daxilində olmamış, daha böyük bir sahəni, təxminən 2-3 ha-a yaxın sahəni əhatə etmişdir. Yaylaq-qışlaq maldarlığı ilə məşğul olan Yastıtəpə sakinləri burada kompleks tayfa və yaxın ailələr olaraq yaşam tərzi keçirmişdir. Təxminən 20-30, bəlkə də daha çox iri ailə birliyindən ibarət olan təpə sakinlərinin əsas məşğuliyyəti maldarlıq və əkinçilik olmuşdur. Onlar yayda heyvanlarını dağa (yaylağa) qaldırmış, qışda isə yenə də öz yerlərinə qayıtmışdılar. Şübhəsiz ki, daha yaxın və əlverişli olduğundan onlar yaylaq yerlərini Kiçik Qafqazın ətəklərinə salmışlar. Çünki bura onlara həm yaxın, həm də maneəsiz keçidli olmuşdur. Yaylaq-qışlaq maldarlığı ilə yanaşı Yastıtəpə sakinlərinin əsas təsərrüfat məşğuliyyəti əkinçilik olmuşdur. Daş alətlərin bu qədər çox tapılması əkinçilik təsərrüfatının geniş intişar tapmasının göstəricisidir. Dənli bitkilərin əkilməsi nəticəsində əldə olunan buğda dən daşları vasitəsilə əzilir, üyüdülür və ehtiyacların ödənilməsinə sərf olunurdu. Əkinəyararlı torpaqların mənimsənilməsi, yaşayış üçün təbii qorunan sahələrdən daha çox əlverişli münbit sahələrə yaxın yerlərin seçilməsi, maldarlığın inkişafı üçün otlaq sahələrinin əldə edilməsi və s. bu kimi amillər izafi məhsul və ərzaq artığının yaranmasına səbəb olurdu. İzafi məhsulun çoxalması və ərzaq artığı isə öz növbəsində mübadilənin, bütövlükdə isə iqtisadi-mədəni əlaqələrin genişlənməsinə gətirib çıxartmışdır.

Yastıtəpə yaşayış məskənindən tapılmış bir çox artefaktlarla yanaşı zəngin və çoxçeşidli daş məmulatı da ərazinin yerli sakinlərinin həyat tərzini, məişətini, iqtisadi və mədəni inkişaf səviyyəsini ətraflı öyrənməyə imkan yaradır.

## ƏDƏBİYYAT


1. Muradova F.M., Nərimanov İ.H. Yastıtəpə qədim yaşayış yeri haqqında // Azərbaycanın Maddi Mədəniyyəti, - cild 7. - Bakı, - Elm, - 1973, - s. 46-55.
2. Nəcəfov Ş.N., Əhmədova G.R., Hacıyeva G.N. Yastıtəpə yaşayış yerində 2013-2014-cü illərdə aparılmış yekun arxeoloji qazıntılar // Azərbaycanda arxeoloji tədqiqatlar 2013-2014. - Bakı, - Xəzər Universiteti, - 2015, - s. 194-201.
3. Nəcəfov Ş.N. Yastıtəpə yaşayış yerində arxeoloji qazıntılar (Ağstafa rayonu) // Azərbaycanda arxeoloji tədqiqatlar 2012. - Bakı, - Xəzər Universiteti, - 2013, - s. 186-193.
4. Наджафов Ш.Н. Об итогах археологических исследований на поселении Ястытепе // Новые материалы и методы археологического исследования (материалы VI международный конференции молодых ученых). 16-19 марта 2021 г. ИА РАН. - Москва, - 2021, - Изд-во РАН, - с. 77-79.
5. Müseyibli N.Ə. Eneolit dövrü II Poylu yaşayış yerinin daş məmulatı // Azərbaycan arxeologiyası, - № 1, - 2009, - s. 41-52.
6. Müseyibli N.Ə. Gəncə-Qazax bölgəsindəki Leylatəpə mədəniyyəti abidələrinin daş məmulatı // AMEA-nın Xəbərləri (tarix, fəlsəfə, hüquq seriyası), - № 1-2, - 2010, - s. 165-186.
7. Müseyibli N.Ə. Leylatəpə mədəniyyəti. - Bakı, - Elm və təhsil, - 2020, - 576 s.
8. Исмаилов Г.С. Каменные орудия древнего населения Азербайджана (на основе материалов поселения Бабадервиш) // Материальная культура Азербайджана, - том VII. - Баку, - Элм, - 1973, - с. 131-145.
9. Hüseynov M.M. Böyük Kəsik yaşayış yerindən aşkar olunmuş daş məmulatı // Azərbaycan arxeologiyası və etnoqrafiyası, - № 1, - 2007, - s. 28-41.
10. Nəcəfov Ş.N. Sarvantəpə yaşayış yerinin daş məmulatı // Azərbaycan arxeologiyası və etnoqrafiyası, - № 1, - 2015, - s. 20-26.
11. Бунятов Т.А. Земледелие и скотоводство в Азербайджане в эпоху бронзы. – Баку, - Изд-во АН Аз. ССР, - 1957, - 138 с.
12. Нариманов И.Г. Древнейшие серпы Азербайджана // Советская археология, - № 1, - 1964, - с. 282-287
13. Бунятов Т.А., Гусейнов М.М. Результаты археологических поездок в Акстафинский и Казахский районы в 1955 году // Труды Музея истории Азербайджана, - том 2, - 1957, - с. 184-188.
14. Muradova F.M. Qazax rayonunda tunc dövrü abidəsi (Nadirbəy təpəsi) // Azərbaycanın Maddi Mədəniyyəti, - cild 6. - Bakı, - Elm, - 1965, - s. 51-58.
15. Nərimanov İ.H. 1960-cı ildə Sarıtəpədə arxeoloji qazıntılar // Tarix İnstitutunun Əsərləri, - cild 16. - Bakı, - Elm, - 1963, - s. 81-98.
16. Исмаилов Г.С. Разведочно-археологические работы в Казахском районе // Доклады АН Азерб. ССР, - № 1. - Баку, - Элм, - 1962, - с. 93-98.
17. Нариманов И.Г. Археологические материалы из сел. Даш-салахлы Казахского района // Доклады АН Азерб. ССР, - том 18, - № 3. - Баку, - Элм, - 1962, - с. 95-99.
18. Нариманов И.Г., Исмаилов Г.С. Акстафачайское поселение близ г. Казаха // Советская археология, - № 4, - 1962, - с. 149-156.

## КАМЕННЫЕ ОРУДИЯ ТРУДА ДРЕВНИХ ЖИТЕЛЕЙ ПОСЕЛЕНИЯ ЯСТЫТЕПЕ

**Шамиль Н. НАДЖАФОВ**

### РЕЗЮМЕ

Поселение Ястытепе находитя на территории села Даг Кесемен Агстафинского района, занимает важное место среди памятников позднего бронзового и раннего железного века (II половина II тыс. до н.э. - начало I тыс. до н.э.) западного региона Азербайджана. В результате сезонных археологических раскопок, проведенных в 2010-2014 гг., и заключительных археологических раскопок, проведенных в 2023 г. (под руководством автора), была раскопана и изучена до конца слоя площадь поселения 325 кв.м., имеющая культурный слой 2,2-2,4 м, и выявлены богатые материальные остатки эпохи позднего бронзового и раннего железного века. На территории памятника обнаружены остатки домов, сложенных из сырцового кирпича и полуземлянок, очаги, каменные орудия и части глиняных сосудов различного содержания, жаровни, глиняные печати, металлические предметы быта, образцы декора и т.д. Обилие каменных орудий труда является показателем особой значимости земледелия в хозяйственной деятельности древних жителей Ястытепе. В статье рассматриваются каменные орудия труда, используемые древними жителями Ястытепе в повседневной и хозяйственной жизни, их форма и содержание.

**Ключевые слова:** Казахская археологическая экспедиция, поселения Ястытепе, археологические раскопки, период поздней бронзы-раннего железа, каменные орудия.

## STONE TOOLS OF THE ANCIENT INHABITANTS OF YASTITEPE SETTLEMENT

**Shamil N.NAJAFOV**

### SUMMARY

The Yastitepe settlement in the territory of the Dagh Kesemen village of the Agstafa district occupies an important place among the Late Bronze-Early Iron Age (2nd half of the 2nd millennium BC-early 1st millennium BC) monuments of the western region of Azerbaijan. As a result of seasonal archaeological excavations conducted in 2010-2014 and final archaeological explorations conducted in 2023 (under the leadership of the author), an area of 325 sq/m of the settlement, which has a cultural layer of 2.2-2.4 m, was excavated and studied to the end of the layer, and rich material remains of the Late Bronze-Early Iron Age were revealed. The remains of houses built of mud brick and semi-dugouts, hearths, stone tools and parts of clay vessels of various contents, braziers, clay seals, metal household items, decorative samples, etc. were discovered in the territory of the monument. The abundance of stone tools is an indicator of the special importance of agriculture in the farming activities of the ancient inhabitants of Yastitepe. The article deals with the stone tools used by the ancient inhabitants of Yastitepe in their daily and economic life, their form and content.

**Keywords:** Gazakh archaeological expedition, Yastitepe settlement, archaeological excavations, Late Bronze-Early Iron Age, stone tools.

BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№1 Humanitar elmlər seriyası 2025*

**UOT 94 (479.24)**

# QIZILBAŞ TÜRKMANLARIN SƏFƏVİYYƏ TƏRİQƏTİNDƏKİ FƏALİYYƏTLƏRİ

**Günel Ə.RƏHİMLİ***

*Səfəviyyə təriqəti şeyxlərinin siyasi hakimiyyət uğrunda apardıqları uzun mübarizənin uğurla nəticələnməsinin əsas səbəblərindən biri ona inanan qüvvələrin mövcudluğu olmuşdur. Şah İsmayıl kimi bir liderin rəhbərliyi və qızılbaş ideologiyasına sadiq qüvvələrin birliyi nəticəsində Səfəvilərin şeyxlikdən başlayaraq apardıqları mübarizə şahlığın qurulması ilə yekunlaşmışdır. Bu qələbədə xüsusi rol oynamış Qızılbaş türkman tayfalarının fəaliyyətinin araşdırılması isə Azərbaycan tarixinin az tədqiq edilmiş bir mövzusuna işıq salacaqdır. Məqaləmizdə Qızılbaş türkman tayfalarının fəaliyyəti, mənbələrin və tarixşünaslıq əsərlərinin analizi, təhlili və müqayisəsi əsasında tədqiq edilmişdir.*

**Açar sözlər**: Səfəviyyə təriqəti, Şeyx Cüneyd, Şeyx Heydər, Qızılbaş türkmanlar, Anadolu

**Giriş.** Orta əsrlər dövründə İslamda təriqətləşmənin genişləndiyi bir vaxtda, Azərbaycan tarixində həm dini istiqamət olaraq, həm siyasi fəaliyyət olaraq dərin izlər qoymuş Səfəviyyə təriqətinin əsası qoyulmuşdur. İlk Səfəvi şeyxləri dövründə sufi dərviş təriqəti kimi tanınan təriqət, sonralar Şeyx Cüneydin (1447-1460) Səfəvi şeyxi olması ilə siyasi mübarizəyə qoşulmuş eyni zamanda, təriqət daxilində dini istiqamət olaraq şiə meylləri ortaya çıxmışdır. Şeyx Cüneyd, siyasi maraqları səbəbilə bölgənin hökmdarı Qaraqoyunlu Cahanşahın (1435-1467) tələbi ilə Ərdəbili tərk edərək Anadoluya gəlmişdir. Bu qərar, Anadolu türkman tayfalarının əksəriyyətini təriqətə birləşdirmək üçün geniş imkanlar yaratmışdır.

Şeyx Cüneyddən sonra, təriqətin rəhbəri olan oğlu Şeyx Heydər (1460-1488) müridlərinin başına 12 imamı simvolizə edən 12 qırmızı dilimli papaq qoymalarını tələb etmişdir. Bu dəyişiklik, təriqət tərəfdarlarının "qızılbaş" adını almasına səbəb olmuşdur. Təriqətə xidmət edən türkmanlar da "qızılbaş" adlan-

* Qərbi Kaspi Universiteti və Bakı Dövlət Universitetinin müəllimi; tarix üzrə fəlsəfə doktoru; rahimli.gunel.ashraf@bsu.edu.az; ORCİD İD: 0000-0002-5946-2969

dırılmış və təriqətin siyasi uğurlarında əhəmiyyətli rol oynamışlar.

Səfəviyyə təriqəti dini ideoloji istiqamətini siyasi məqsədlərlə birləşdirərək, Azərbaycanın siyasi tarixində əhəmiyyətili mövqe tutması, Səfəviyyə təriqətinin ideoloji əsasları, cəmiyyət içindəki mövqeyi və siyasi fəaliyyətləri müasir dövrdə tədqiqatçıların diqqətini cəlb edən mühüm məsələlərdəndir. Səfəviyyə təriqətini qələbəyə aparan tərəfdarlarının mövqeyini öyrənmək Azərbaycan tarixi üçün vacib məsələlərdən biridir. Ona görə də məqaləmizdə tarixi mənbələri və müasir yanaşmaları da nəzərə alaraq Səfəviyyə təriqətinə xidmət edərək onun siyasi qələbəsində mühüm rol oynamış Qızılbaş türkman tayfalarının rolu və təsiri məsələsi təhlil edilmişdir.

**Türkman tayflarının Səfəviyyə təriqətini dəstəkləməsi.** İlk öncə qeyd edək ki, "türkman" adının ortaya çıxması IX-X əsrlərə təsadüf edir. Bu ad Mavərinnəhrdə yerli əhali arasında İslamı qəbul edən oğuzları digər oğuzlardan ayırmaq üçün istifadə edilmişdir [1, 607]. Yerlilər tərəfindən "müsəlman türk" mənasında istifadə olunurdu. Türkman sözünün kökünün hardan qaynaqlandığı haqqında əsas iki fikir mövcuddur. Birinci fikrə görə, türkman sözü türkcə "türk" və farsca "man" (manənd) adlarından yaranıb və türkə bəzəyən mənasına gəlir. İkinci fikirə görə isə türkman sözünün kökü "türk-ül iman"dan gəlir. R. Ağayev yazır ki, türkman adına Mahmud Kaşğarinin "Lüğətində"də rast gəlinir və Kaşğari bu sözü "Türk mən", yəni "mən türkəm" kimi izah edir [2, 15]. Müasir dövrdə türkman sözünün mübaliğə bildirən şəkilçi olduğu və öztürk mənalarına gəldiyi haqqında fikirlər də söylənməkdədir [1, 608].

Əvvəllər Orta Asiyada, Azərbaycan və İraqda yaşayan türkmanlar Səlcuqluların Anadolunu fəthi ilə bu ərazilərdə məskunlaşmağa başlamışlar. Bura köçən türkman ailələrin əksəriyəti yaylaq-qışlaq təsərrüfatı ilə məşğul olan tayfaları olmuşdur. Daim yeni ərazilər axtarışında olan bu türkman ailələri təsərrüfat və maldarlıq üçün əlverişli ərazi olan Anadoluya doğru hərəkət etmişlər. Digər tərəfdən ərazilərinə qatdıqları Andoluda müsəlman türklərin yerləşməsində maraqlı olan Səlcuqlu dövləti onların köçməsi üçün şərait yaratamaqda idi. Türkmanlar təkcə Anadoluda deyil, həmçinin Səlcuqlunun təsir dairəsinə daxil olan digər ərazilərdə də yerləşdirilirdilər. Bu türkman ailələrin bir hissəsi tam oturaq həyata keçsə də, bir qismi Səlcuqlulardan sonra Osmanlı hakimiyyəti dövründə də yaylaq-qışlaq təsərrüfatı ilə məşğul olmağa davam edirdilər.

Fateh Mehmetin İstanbulu fəth etməsindən sonra (1453) Osmanlı ərazisində müstəqil fəaliyyət göstərən ayrı-ayrı bəyliklərin mərkəzləşmiş dövlətə birləşdirilməsi prosesi gücləndirildi. Buna tam nail olmaq üçün isə əhalini tam oturaq həyata keçirmək lazım gəlirdi. Bu isə uzun illərdir yaylaq-qışlaq təsərrüfatı ilə məşğul olmağa alışmış türkman ailələrinin narazılığına səbəb olurdu. Osmanlının yürütdüyü bu mərkəzləşdirmə siyasətinə uy-

ğun olaraq belə tayfaların tam oturaq həyata keçməyə məcbur edilməsi və qəbul etməyənlərin üzərlərinə vergilər qoyulması, onların Osmanlıdan soyumalarına və Səfəvilərə daha çox meyl etmələrinə təsir edən əsas amil olmuşdur.

Beləliklə, özlərinə yeni bir dayaq axtarışında olan türkmanlar onlara yeni imkanlar vəd edən Ərdəbil dərgahına yönəlirlər. **Anadoluya gələn Səfəvi Şeyxi Cüneyd (1447-1460) burada öz məqsədlərinə çatmaq üçün bəlkə də ümid etmədiyi dərəcədə əlverişli zəmin tapmış olur** [3, 10]. Həmin dövr Osmanlı tarixçisi Aşiq Paşazade yazır ki, fikirlərini qəbul etdirmək qabiliyyətinə sahib olan və eyni zamanda da fəal insan olduğu məlum olan Səfəvi Şeyxi gəzdiyi kəndli və türklər arasında sayı heç də az olmayan topluluğu özünün müridinə çevirə bildi [4, 265].

Osmanlının II Bəyazid dövründə (1481-1512) yürütdüyü siyasət Anadolu türkmanlarının Səfəvilərə yönəlməsi prosesini daha da sürətləndirmişdir. Faruk Sümer yazır ki, təriqətin Anadoluda yayılmasında II Bəyazidin möhkəm olmayan siyasətinin də mühüm rolu olmuşdur. Onun dövründə Anadoludakı Şiə meylli xalqla yanaşı, Sünni əhaliyə qarşı da təqiblər olmuşdur. Təriqətin Anadoluda yayılmağında və Səfəvilər dövlətinin qurulmasında II Bəyazid də məsuliyyət daşıyır [3, 13].

**Türkman tayfalarını Səfəviyyə təriqətinə yönəldən bir digər səbəb onların İslamı anlama və yaşama şəklinin Səfəvilərlə yaxınlıq təşkil etməsi idi. Türkman tayfaları İslamı qəbul etdikləri halda, öz keçmiş dini inanclarını tam olaraq unutmamış, İslami fikirlərini keçmiş inancları ilə sanki sintez etmişdilər. Anadolunun türkman ailələri də şifahi İslamın nümayəndələri olaraq qəbul olunmuşlar.**

Anton İosef Dierl isə Türküstandan şərqə köçən türkmanlar haqqında yazır ki, onların İslamı seçmələri uzun sürmədi. Ancaq onların qəbul etdiyi qatı və cansız ortodoks İslam deyildi. Onların mənimsədiyi İslamiyyət araik-şamanist ünsürləri özündə qoruyub saxlayan, fantaziyalarla zəngin, canlı, elastik bir dərvişlik idi. [5, 32-33]. Belə ki, türkmanlar həyat tərzləri ilə bağlı olaraq İslamı mədrəsədə öyrənmək imkanına malik deyildilər ona görə də həmin türkman ailələri İslamı gəzərti dərvişlərdən eşidərək öyrənmişdilər və öz adət-ənənələrini də qoruyaraq İslamı qəbul edir və yaşadırdılar. Onlar İslamdan öncə şamanizm dininə sitayiş etdikləri üçün şamalığın bir sıra ritualları da onların adətlərinə çevrilmişdi. İslamı qəbul etdikləri halda bu adətləri yaşatmağa davam edirdilər. M. Eröz bunu belə ifadə edir ki, şamanlıqdan ayrılaraq İslamı qəbul edən türklər arasında bu yeni din fərqli şəkildə mənimsənilirdi. Şəhər mərkəzlərində bütün şərtləri ilə mənimsənilib yerinə yetirilən İslam dini keçmiş adət və ənənələrini hələ də tam tərk etməmiş olan yaylaq-qışlaq təsərrüfatı ilə məşğul olan türk tayfaları tərəfindən isə keçmiş dini inancları ilə birlikdə yoğrularaq qəbul edilirdi” [6, 141]. Ahmet Yaşar Ocak isə yazır ki, bu türklərin keçmiş tarixinə baxdığımız zaman onların

bütün zamanlarda yeni dinə keçdiklərində keçmiş inanclarını da yeninin daxilinə qatdıqlarını və bu şəkildə İslama qədər gəlib çatdıqlarını görürük [7, 81]. X əsrdə türkman tayfaları İslamı mövcud həyat tərzinə uyğun olaraq şifahi bir mədəniyyətlə uyğunlaşdırmaq məcburiyyəti qarşısında qalırlar. Köhnə qamlar yeni ozanlar, dərviş və şeyxlər olurlar. İslamı bu şəkildə anlayan türkmanlar, onların bu yaşayış tərzinə bənzərliyi ilə seçilən Səfəviyyə təriqətinə meyl edirlər.

**Qızılbaş Türkmanların Təriqətin Təbliğində Xidmətləri.** Qızılbaş olaraq yetişən türkmanlar, Səfəvi ideologiyasının yayılmasında mühüm rol oynayırdılar. Səfəvi şeyxləri təriqətin təbliği üçün əsasən türkman xəlifələri vəzifələndirirdilər. Bu xəlifələrə, göndərildikləri ərazilərdə təriqətin ideologiyasını yaymaq vəzifəsi verilirdi. Müneccimbaşı yazır ki, Anadoluda Səfəviyyə təriqətinə aid xüsusi xəlifələr fəaliyyət göstərirdi. Səfəvi dövlətinin qurulmasında əhəmiyyətli faktorlardan biri bu xəlifələr idi [8, 428]. Onlar, təriqətin güclü təməl üzərində durmasını təmin etmək üçün maddi vəsait toplamaqla da məşğul idilər. Toplanan vəsaitlər gizli şəkildə Ərdəbil dərgahına göndərilirdi. Bu cür sərvətin Ərdəbilə axması o həddə çatmışdı ki, bu Səfəvilərin əsas maliyyə qaynağına çevilmişdi.

Təriqətə bağlı olanlar təkçə nəzir və yardım göndərməklə kifayətlənmir. Həm də Səfəvi şeyxlərinin istəyi ilə üsyanlara başladır və etiraz səslərini ucalda bilirdilər. Səfəvi xəlifələrindən biri olan Həsən Xəlifə, Anadolunun Təkəli oymağından idi və Osmanlıya qarşı üsyan qaldıran Şahqulunun (Osmanlıda daha çox Şeytanqulu ləqəbi ilə tanınmışdır) atası idi. Həsən Xəlifə Təkəli oymağında Səfəvi xəlifəsi olaraq fəaliyyət göstərirdi və Şeyx Cüneydin Anadolu səfəri zamanı oymağı ilə birlikdə Səfəvi şeyxinə tabe olmuşdu. O, Şeyx Cüneydin ölümündən sonra oğlu Şeyx Heydərin də əsas xəlifələrindən biri olmuşdur. Həsən Xəlifənin ölümündən sonra isə Təkəli oymağının başına oğlu Şahqulu keçdi [9, 321]. Bu əlaqə, Şahqulu üsyanında Səfəvilərin də təsirini göstərir. Hətta bəzi mənbələrə görə, Səfəvi xəlifələrinin bir vəzifəsi də Osmanlı əleyhinə təbliğat apararaq bu cür üsyanları təşviq etmək idi. Türkiyə tarixşünaslığında 1512-ci ildə baş verən Nurəli Xəlifə üsyanının Səfəvilərin təşviqi ilə olduğu qeyd olunur [10, 127].

Anadolu türkman əhalisinin Ərdəbil təkkəsinə simpatiyasını artırmaq və təriqət haqqında məlumatlandırmaq Səfəvi xəlifələrinin əsas vəzifəsi idi. Bu məqsədlə, xəlifələr Ərdəbildən Anadoluya Şiə məzhəbinə aid kitablar gətirir və bu kitabları əhaliyə paylayırdılar. Həmçinin xəlifələr Anadolunun müxtəlif yerlərindən insanların cəm halda Ərdəbilə köç etməsi üçün şərait yaradırdılar. Bu köçlər, Səfəvilərin dövlət qurmaq üçün lazım olan hərbi gücü təmin etməsinə kömək edirdi. Anadolu türkman ailələrinin bu köçləri, Səfəvi dövlətinin qurulmasından sonra da davam etmiş və iki əsr boyunca sürmüşdür [3, 4]. Aşiq Paşazadə bu köç dalğasını belə təsvir etmişdir:

*Türklər tərk edib diyarlarını,*
*Satdılar yox bahasına davarlarını* [4, 198].

Türkman tayfalarının qızılbaşlaşan hissəsi, Səfəvi dövlətinin qurulması ilə Osmanlı torpaqlarını tərk edib Səfəvi ərazilərinə yerləşməyə başlamışdır. Vladimir Minorski, Kiçik Asiyadan İran platformasına üç böyük köç dalğasının baş verdiyini qeyd edir: bunlardan birincisi Qaraqoyunlu, ikincisi Ağqoyunlu, üçüncüsü isə Səfəvilər dövründə olmuşdur [11, 12]. Osmanlının türkmanların bu köçünə qarşı aldığı tədbirlər nəticəsiz qalmışdır və Anadoludan çoxlu sayda Səfəvi müridi köç etmişdir. II Bəyazidin sərhədləri bağlamaq üçün verdiyi fərmanlar belə, reallıqda tətbiq edilməmişdir.

II Bəyazid Qızılbaş türkmanlara qarşı xüsusi tədbirlər görməmişdir, ta ki, 1496-cı ildə ona qarşı sui-qəsd edilənə qədər. Bu hadisə, Sultan Bəyazidin qızılbaşlara qarşı tədbir görməyə başlamasına səbəb olmuşdur [12, 412]. Ancaq buna baxmayaraq, Səfəvi təbliğatı davam etmişdir. Şahqulu üsyanı buna bariz nümunədir. 1511-ci ildə Anadoluda baş verən bu üsyan Osmanlı qüvvələri tərəfindən zorla yatırılmışdır və üsyandan sonra 15 minə qədər türkman Səfəvi ərazisinə köçmüşdür [3, 33].

Osmanlı dövləti türkmanlar və Səfəvilər arasındakı əlaqələri kəsmək üçün tədbirlər görmüşdür. Sultan Bəyazid Səfəvilərə qarşı yumşaq davranmış, lakin Sultan Səlimin taxta çıxması ilə türkmanların sərhədi keçməsi tam qadağan edilmişdir. Türkmanların Səfəvi eşqi ilə hərəkət etməsi, Pir Sultan Abdal kimi ozanların şeirlərində də əksini tapmışdır:

*Dost əlindən dolu içmiş dəliyim,*
*Üstü qan köpüklü meşə seliyim,*
*Bən bir yol oğluyum yol səfiliyim,*
*Bən də bu yayladan Şaha gedərim* [13, 14].

Səfəvi rəhbərlərinin bacarığı və xəlifələrin təbliğatı sayəsində Anadolunun müxtəlif yerlərində yaşayan türkmanlar, qızılbaş ideologiyasına bağlanan digər tayfalar Azərbaycan və ətraf ərazilərdə Səfəvi dövlətini yaratmağa nail oldular.

**Səfəvi Ordusunda Təmsil Olunan Qızılbaş Türkman Tayfaları.** Mənbələrdə Səfəvilər dövlətinin qurulmasında mühüm rol oynayan Qızılbaş türkman tayfalar haqqında geniş məlumatlar var. Oruc bəy Bayat 32 tayfa və oymağın adını çəkmiş və dövlətin bütün vəzifələrinin onların əlində olduğunu göstərmişdi. Onun adlarını qeyd etdiyi bu 32 oymaq tayfa və el arasında əhalinin sayısına görə ən iriləri ustaclı, şamlı, əfşar, türkman, qacar, zülqədər, təkəli və bayat tayfaları idi [14, 90]. Səfəvi dövlətinin güclü əmirləri bu tayfalardan çıxmışdır. Əslində bu türk boyları Qaraqoyunlu və Ağqoyunluların dövründə dövlətin qurulmasında və idarəsində birinci dərəcəli mövqe-

yə sahib olmasalar da, Səfəvilərin əsas hərbi siyasi dayağı olmuşdurlar.

Şahin Fərzəliyev **şamlı, rumlu, ustaclı, təkəli, əfşar, qacar, zülqədər kimi** Səfəvilərin arxalandıqları yeddi tayfanın **adını çəkərək yazır ki, bu tayfalar "müqəddəs" Səfəvi şeyxlərinin itaətinə girərək özlərini mürid, sufi, dərviş adlandırsalar da, həqiqətdə Səfəvilərə xidmət edən qoşun funksiyasını daşıyırdılar** [15, 65].

Müəllifi məlum olmayan Səfəvi dövrü mənbəsi hesab edilən "Tarix-i Qızılbaşan" əsərinə görə qızılbaş boyları sağda və solda olmaq üzrə iki qismə bölünür: Sağ cinahda yerləşənlər və sol cinahda yerləşənlər [16].

Qızılbaş tayfalarının belə ayrılması görünür onların ordudakı yerləşdikləri cinahlara görə verilmişdir. "Tarix-i Qızılbaşan" əsərinin Şah Abbas dövründə yazıldığını nəzərə alsaq [17, 157]. , onun dövründə qızılbaşların hakimiyyətdən kənarlaşdırılması fikrinin real olmadığını görərik. Səfəvilər dövründə qızılbaşların cəmiyyətdə xüsusi yerləri olduğu üçün onlar haqqında belə bir kitabın yazılmasına ehtiyac hiss olunmuşdur.

Əsərdə sağ cinahda şamlı və rumlu tayfasının, həmçinin ağacəri, bayramlı, əkrəmli, ördəkli və qaraçarlu boyların adı çəkilir [16, 9]. Lakin onlar haqqında geniş məlumat verilmir. Belə düşünürük ki, bu qruplar qızılbaşlar içərisində yer almış ilk boylardan olsalar da, kiçik qruplar olduqları üçün müəllif sadəcə onların adını çəkməklə kifayətlənmişdir. Əsərdə qızlbaşların sol cinahı olaraq isə ustaclı, zülqədər (zülqədərli), əfşar və qacarların adı çəkilmişdir [16, 75-94].

Digər bir mənbə olan İsgəndər bəy Münşinin "Tarixi-aləmara-yi Abbasi" adlı əsərində də Səfəvi tarixində vacib rol oynamış on yeddi boy və onların əmirləri haqqında məlumatlara yer verilmişdir. Bunlar şamlu, ustaclu, türkman, rumlu, zülqədər, əfşar, qacar, təkəli, hinisli (xınıslı), talış, alpəvud, çəpüslü, kürd, baruki, çəkənli, çağatay və şeyxoğullarıdır [18, 244].

Z.Bayramlı İsgəndər bəy Münşinin "Tarixi-aləmara-yi Abbasi", Əhməd Yusif Qəzvinin "Xolde-bərin" adlı əsərlərində qızılbaş-türk tayfaları haqqında materialları təhlil edərək onların 1576 və 1628-ci il siyahıları üzrə hakimiyyətdə təmsil olunan əmirlərinin sayını dəqiqləşdirmişdir. O, eyni zamanda qızılbaşlığı qəbul etməmiş türk tayfaları və onların əmirləri haqqında da məlumat vermişdir. Z. Bayramlının hesablamalarına görə, 1576-cı il siyahısı üzrə hakimiyyətdə təmsil olunan türk əmirlərinin sayı 72, 1628-ci il siyahısı üzrə isə 54 nəfər olmuşdur [19, 61-65].

Ayrı-ayrılıqda bu tayfalardan bəhs edərkən ilk öncə şamlı tayfasının adını çəkməliyik. "Qızılbaşlar tarixi"nə görə, Qızılbaş boylarının sağ cinahına aid olan şamlıların kökü adından da məlum olduğu kimi Hələb, Şam və Suriyanın digər bölgələrinə aiddir. Şamlılar Şimali Suriyada yaşayan və Osmanlıda Hələb türkləri deyə adlandırılan geniş türkman əhalisindən ayrılaraq Səfəvilərə birləşən qruplara verilən ümumi addır [16, 21]. "Tarixi-alə-

mara-yi Abbasi”də deyilir ki, onlar (şamlılar) Şah İsmayılın dövründə də oymaqların ən böyüyü sayılırdılar və ən məşhur boylardan idilər [18, 138]. Şamlı tayfası Səfəvilərin ideologiyasını qəbul edən ilk türkman tayfalarından biridir.

“Tarixi-aləmara-yi Əmini” də qeyd edilir ki, Şeyx Heydər 1488-ildə Dağıstana səfər edərkən iki aya qədər dayandığı Kür çayı sahilində onun ordusuna qatılan boylar içərisində şamlıların da adı çəkilir [20, 71-72]. Şah İsmayıl gizlədərək onu Ağqoyunlu təqiblərindən qoruyan “7 böyük sufi” qızılbaş nümayəndəsinin içərisində də şamlıların təmsilçisi var idi.

Səfəvilər dövlətinin qurulmasından əvvəl təriqətin ən vacib kadrları sayılan bu yeddi şəxs tarixdə “Lahican sufiləri” deyə adlandırılır. Bunun səbəbi onların bir müddət Lahicanda İsmayıl Mirzə və qardaşının yanında qalıb təriqətin işlərini idarə etmiş olmalarıdır. Lahicandan böyük qayə ilə ayrılan Mirzə İsmayılın ordusunda da şamlı tayfası önəmli mövqedə təmsil olunurdu.

Şah İsmayıl Təbrizə daxil olduqdan sonra idarəçilik vəzifələrini qələbəsində xüsusi əməyi olan tayfalar arasında bölür. O, vəkil, əmürül-üməra, tavaçıbaşı vəzifələrini şamlılara vermişdir. Faruk Sümer yazır ki, əmirül-ümərа vəzifəsi Hüseyn bəyə həvalə edildi. O, Şeyx Heydərin ən önəmli xəlifələrindən olmuş və “lələ” ləqəbi daşımışdır [3, 47]. Lələ adı Səfəvilərdə tərbiyəçilərə verilən ad idi. Hüseyn bəy də Şeyx Heydərin oğlanlarının tərbiyəçisi olduğu üçün o, tarixə Hüseyn bəy Lələ olaraq düşmüşdür. Şah İsmayıl lələsinə çox güvəndiyi üçün dövlətin ən mühüm vəzifələrindən birini ona tapşırmışdır. Daha sonra isə Xorasanın fəthi ilə Hüseyn bəy Şamlı Şah İsmayıl tərəfindən Hələbə əmir olaraq göndərilmişdir.

“Tarix-i Qızılbaşan”da adı keçən görkəmli şamlı nümayəndələrindən biri də Əbdi bəydir. Onun ilk dəfə Sarıtərcanda iki yüz əsgərlə İsmayıl Mirzənin dəstələrinə qatıldığı haqqında məlumat verilir [16, 22]. Həmçinin İsmayıl Səfəvinin Gülüstan qalasının mühasirəsini yarımçıq qoyub, Naxçıvana doğru hərəkət etmək barəsində düşündüyü zaman Əbdi bəylə məsləhətləşməsi ona nə qədər dəyər verdiyini göstərir. Əbdi bəy Məkri bölgəsində kürdlərlə döyüş zamanı öldürülür. Onun oğlanları Durmuş bəy və Hüseyn bəy də Şamlıların tanınmış nümayəndələrindən olmuşdur [3, 47-48]. Şah İsmayılın çox sevdiyi Durmuş bəy ona çox sadiq biri idi. Şah İsmayıl İsfahanın idarəsini ona tapşırdığı zaman Durmuş bəy Hüseyn İsfahanini özünə vəzir təyin edərək İsfahanın idarəsini ona tapşırmış, özü isə daim qızılbaş ordusunda vuruşmuş, Şahın yanında yer almışdır. Durmuş bəy Çaldıran döyüşü zamanı Şah İsmayılın məsləhətləşdiyi ilk şəxslərdən olmuşdur. Bu döyüşdən əvvəl ustaclıların döyüş taktıkasını qəbul etməyən Şah İsmayıl Durmuş bəyin məsləhəti ilə hərəkət etmişdir. Ona görə də bəzən çaldıran məğlubiyyətinin səbəbkarının Durmuş bəy olduğu deyilir. “Aləmara-yi Şah İsmayıl” əsərində qeyd edilir ki, Şah İsmayıl Çaldıran döyüşündən sonra yoxa çı-

xan xanımı Taclı Bəyimi axtarmaq işini də Durmuş bəyə tapşırmış və bu iş üçün 300 nəfəri də onun himayəsinə vermişdir [21, 401]. Bu da onun Şahın ən güvəndiyi şəxslərdən olduğunu deməyə əsas verən faktlardan biridir. Durmuş bəy təxminən 1526-cı ildə xəstələnərək vəfat etməşdir.

Səfəvilərin qələbəsində mühüm rol oynamış digər bir qızılbaş tayfası rumlu tayfası idi. "Tarix-i Qızılbaşan"da yer alan məlumata görə, bu tayfa Tokat, Sivas, Amasya və Rumun digər bölgələrindəndir [16, 27]. Onlar da Anadoludan gələrək Səfəvilərə qoşulan, dövlətin yaranması uğrunda gedən mübarizədə fəal iştirak edən və İsmayılın qələbəsində xüsusi xidmətləri olan məşhur türk tayfalarındandır. Rumluların bir hissəsi yaylaq-qışlaq təsərrüfatı ilə məşğul olsa da, bir qismin də isə şəhərlər mədəniyyəti formalaşmışdır. Onların "rumlu" olaraq adlandırılmasının səbəbi Rum ölkəsindən gəlmiş olmaları idi.

Rumlu tayfasının Səfəvilərə meyl etməsinin Şeyx Xoca Əli dövründə (1391-1429) baş vermişdir. Əmir Teymurun Osmanlını məğlub etdikdən sonra əsir götürdüyü rumluları Səfəvi şeyxi Şeyx Xoca Əlinin istəyi ilə sərbəst buraxmasının ardından rumlular təriqətə bağlanmışdılar. Səfəvilərin qələbəsində onların da böyük xidmətləri olmuşdur.

Rumluların ən məşhur nümayəndəsi olan Həsən bəy Rumlunun adını xüsusi qeyd etmək lazımdır. Şah İsmayıla dəstək olan məşhur rumlu sərkərdəsi və Səfəvi dövlətində əmir əl-üməra olan Div Sultanın (vəfatı 1527) nəvəsi, dövrün məşhur tarixçisi Həsən bəy Rumlu bizə Səfəvilər dövlətinin tarixini öyrənmək üçün mötəbər mənbə miras qoymuşdur. Demək ki, rumluların Səfəvilərə hakimiyyəti ələ almaqda arxa-dayaq olmaqla bərabər onların tarixinin gələcək nəsillərə çatdırılması işində də xüsusi xidmətləri olmuşdur. Həsən bəy Rumlu əldə etdiyi bilgilərlə yazdığı "Əhsənüt-təvarix" əsəri ilə bir rumlu nümayəndəsi olaraq təkcə Səfəvilər üçün yox, ümumilikdə Azərbaycan tarixi üçün xüsusi xidmət göstərmişdir [22, 24].

Osmanlı ərazisində Səfəvi tərəfdarı olan rumluların üsyanı baş vermişdir. Belə ki, Sultan Səlimin dövründə Şah İsmayılın istəyi ilə Səfəvi ərazilərinə köçmək istəyən rumlular ayağa qalxmışlar. Həsən Bəy Rumlu yazır ki, Rumlu nümayəndəsi Nurəli Xəlifə üsyanı nəticəsində Osmanlının Malatya valisi təyin etdiyi Faiq bəy öldürülmüş, hətta rumlular Tokat ərazisində Şah İsmayıl adına xütbə oxudaraq bu ərazinin Səfəvi ərazisi olduğunu elan etmişlər [23, 256]. Bu üsyanda xeyli sayda Osmanlı əsgəri də öldürülmüşdür. Hadisə Səfəvi təbliğatının Osmanlının daxilində nə qədər güclü olduğunu göstərmişdir.

Səfəvi hökmdarı Şah Təhmasibin dövründə (1524-1576) rumlu tayfasının idarəçilikdəki mövqeyi zəifləyir əsas idarəçilik təkəli tayfasının əlinə keçir. Bəs təkəlilər kimlər idi?

Tarix-i Qızılbaşan"da verilən məlumata görə, Menteşe, Kermiyan, Ay-

dın, Sərxan, Həmid, Ədasya illərinə (il- ərazi vahididir) Təkə ili (Təkə eli) deyilirdi [16, 51]. Bu ərazi indiki Türkiyənin Antalya ərazisinə uyğun gəlir. Müasir dövrümüzdə də İran ərazisində şahsevən birlikləri daxilində təklə və ya təhlə adını daşıyan boylar var. Ehtimal ki, bunlar da tarix mətnlərində qarşılaşdığımız təkəlilərin nəslillərinin davamçılarıdır. Təkcə İran ərazisində deyil, Şimali Azərbaycanın ərazisində Masallı, Cəlilabad, Ağsu, Kürdəmir, Bərdə, Goranboy rayonlarında yerləşən Təklə, Təhlə kəndləri vardır.

Təkəlilərin Səfəvilərə meyl etməsi Həsən baba Təkəli ilə başlayır. O, Şeyx Cüneydin (1447-1460), daha sonra isə Şeyx Heydərin (1460-1488) yanına gələrək xəlifəlik vəzifəsinin ona tapşırılmasını xahiş edir. Həsən baba Təkəli Təkə elinə getmək üçün mürşidi kamildən (Şeyx Heydərdən) icazə alır [25, 41]. Onun təbliğatlarının nəticəsində təkəlilər Səfəviyyə təriqətinə yönəlir. Hətta 1511-ci ildə onun oğlu Şahqulunun başçılığı ilə Antalya bölgəsində Osmanlı əleyhinə təkəlilərin üsyanı baş verir. Üsyan nəticəsində on beş min təkəlinin Səfəvi ərazisinə köçdüyü məlumdur. Belə ki, üsyanın məğlubiyyətindən sonra Osmanlı ərazisində artıq qala bilməyəcəklərini düşünən təkəlilər Səfəvilərə üz tutdular. Bu köç hadisəsindən sonra Səfəvilər dövlətində təkəlilərin mövqeyi daha da möhkəmlənmişdir.

Şah İsmayılın Səfəvilər dövlətini qurmasında təkəlilərin böyük xidmətləri olmuşdur. O, dövlətin möhürdarlıq işlərini təkəlilərə tapşırmışdır. Ustaclı-rumlu rəqabətindən sonra da daha çox önə çıxan qövm təkəlilər olmuşdur. Hətta Bağdadın ikinci dəfə Səfəvilərin idarəsinə keçməsindən sonra Şah Təhmasib şəhərin idarəsini təkəlilərə həvalə edir [19, 37].

Təkəlilərin dövlətdə yüksək mövqeyi davamlı olmamış, 1531-ci ildə Səfəvi tarixində şamlılarla təkəlilər arasında ixtişaşlar baş verir. Şah Təhmasibi də çətin vəziyyətdə qoyan bu hadisə nəticəsində uduzan və hökmdarın qəzəbinə tuş gələn təkəlilər olmuşdur. On səkkiz yaşlı Şah Təhmasib bu işdə günahkar olan təkəliləri aradan qaldıraraq hakimiyyəti öz əlində cəmləşdirmişdir. Beləliklə, təkəlilər dövlət idarəçiliyindən uzaqlaşdırılmışdır.

Səfəvilərə arxa-dayaq olan digər bir türk boyu ustaclılar idi. Qızılbaş tayfalarının sol cinahında yer alan ustaclıların Şah İsmayıl Ərzincanda olarkən Səfəvilərə birləşdiyi haqqında "Tarix-i Qızılbaşan" əsərində məlumat verilmişdir [16, 75]. Oruc bəy Bayat da öz siyahısında onları ən önəmli boy olaraq qeyd etmişdir [15, 78]. Anadolunun Sivas, Amasya, Tokat ətrafı ərazilərində yaşayan, bəzi oymaqları Kırşehirə yayılan, Ulu Yörük adlı böyük bir cəmiyyətə aid olan ustaclılar Şeyx Cüneyd və Şeyx Heydərin Anadoludakı müridləri idilər.

Ustaclılar da Şah İsmayılı Mehdi olaraq görür, onun ifadələrini ilahi ifadə kimi qəbul edir və onunla birlikdə canla-başla vuruşurdular. Şah İsmayıl bu dəstəyin qarşılığında II Bəyazidə məktub yazaraq Ərzincanda ona qoşulan ustaclıların yaşlı nümayəndələrinin uşaq və qadınlarının qorunmasını

xahiş etmişdir [3, 19]. İsmayıl Mirzə Bakı qalasının və qalanın xəzinəsinin ələ keçirilməsi işini ustaclılara tapşırmışdı. Dövlət qurulduqdan sonra ustaclıların Şahın yanında mövqeyi daha da güclənir. Diyərbəkirin idarəsi onlara həvalə olunur. 1510-cu ildə isə Şah Hüseyn bəy Ləlәni əmirül-ümәra vəzifəsindən uzaqlaşdıraraq yerinə Məhəmməd Ustaclını təyin edir və ona xan ünvanı verir [24, 178]. Bu da dövlət daxilində ustaclıların nə qədər güclü mövqe əldə etdiklərini göstərir. Dövlətin qurulmasından sonra Anadoluda qalan ustaclıların Səfəvilər ərazisinə köçməsi prosesi davam edir və bu da dövlətdə ustaclıların təsirinin artması ilə nəticələnir. Tayfalar arasında hakimiyyət uğrunda mübarizələr başladıqda ustaclılar da bu prosesə qatılırlar. 1523-1524-cü illərdə ustaclılarla rumlu tayfası arasında əmirül-ümәra və vəkillik vəzifəsi uğrunda mübarizə başlayır və nəticədə iki tayfa arasında döyüşlər olur. Sonda Şah Təhmasib ustaclıları bağışlayır və bundan sonra onlar dövlət işlərində yaxından iştirak edirlər.

Böyük qızılbaş boylarında olan zülqədərlərin də Səfəvi tarixində xüsusi yeri olmuşdur. Onlar oğuzların boz ox qolundan idilər [3 48]. Qızılbaşların sol cinahında yer alan bu tayfalar Anadolunun Elbistan və Maraş bölgəsində məskunlaşmışdılar. Bəzən isə onların Diyərbəkirdə yaşadıqları deyilir. Şeyx Cüneydin Ərdəbilə qayıdarkən onunla birlikdə zülqədərlərin də bura gəldiyi və Ərdəbil təkkəsinə xidmət etdikləri deyilir. Onların məşhur nümayəndələrindən biri Dədə Abdal bəy olmuş [3, 48] və o, Şeyx Heydərin Şirvan yürüşündə iştirak etmişdir. Səfəvi tarixində adı xüsusi yeri olan Üba xatun da zülqədərlərin nümayəndəsi olmuşdur. O, Ərdəbildə İsmayıl Mirzəni Ağqoyunlulardan gizlədib saxlayan şəxs idi. İsmayıl Mirzəni Lahicana aparanlar arasında da zülqədərlərin nümayəndəsi Dədə Abdal bəy də var idi. İsmayılın qələbəsində onların xüsusi rolu olmuş və onun ordusunda beş minə qədər zülqədər əsgəri xidmət etmişdir [16, 81]. Şah İsmayılın qələbəsindən sonra zülqədər tayfası Səfəvi torpaqlarında yerləşmişdir.

Şah İsmayıl Təbrizə daxil olduqdan sonra dövlət vəzifələrini tayfalar arasında bölərkən Dədə Abdal bəy Zülqədərə qorçubaşı vəzifəsini verir. Bununla da dövlətdə qorçubaşı vəzifəsi zülqədərlərin əlinə keçmiş olur. Şirazın idarəsi də onlara həvalə edilir. Z. Bayramlının məlumatına görə, Tabasaranda Şeyx Heydərin ölümü hadisəsinin tədqiqi işi də qorçubaşı Dədə bəyə tapşırılır [19, 94]. Beləliklə, Şeyx Cüneydlə qızılbaş ideologiyasına bağlanan zülqədərlər Şah İsmayılın rəhbərliyi altında Səfəvilər dövlətinin qurulmasına köməklik göstərərək, qızılbaş ideologiyasına bağlı olan tayfalar kimi tarixə adlarını həkk etdirmişlər.

Qızılbaş ideologiyasını qəbul edib, ona xidmət edən tayfalardan biri də əfşar tayfasıdır. "Əfşar" sözünün mənası "ovda məharəti olan" deməkdir [16, 84]. Əfşarlar qədimdən bəri Azərbaycan ərazisində yaşayan türk tayfalarından olub Səlcuqlular dövründə bu ərazilərdə məskunlaşmışlar. Bu tay-

fanın əsas yerləşdiyi ərazi Xuzistan idi.

Əfşarların bir hissəsi Şamdan gələrək İsmayıl Mirzəyə qoşulmuş, onun yürüşlərində iştirak edərək Səfəviləri qələbəyə aparan əsas tayfalardan biri olmuşdular. Bəzi mənbələrə görə, yeddi min [24, 95], bəzilərinə görə isə on iki minlik [25, 38] əfşar əsgəri İsmayıl Mirzə Ərzincana gəldiyi zaman onun qoşununa qatılmışdır.

Mənbələrə görə, Çaldıran döyüşü zamanı Şah İsmayılın atı bataqlığa düşür və Osmanlı əsgərləri dərhal ona doğru hücuma keçir. Bu məqamda əfşar soyundan olan sərkərdə Sultanəli Mirzə Əfşar Şah İsmayıla oxşarlığı səbəbilə qabağa keçərək özünü Şah İsmayıl kimi tanıdır [24, 241-243]. Osmanlı əsgərləri onu ələ keçirərək Sultan Səlimin hüzuruna gətirirlər. Ancaq onun hiyləsi anlaşıldıqdan sonra o, Sultan Səlimin əmri ilə öldürülür [18, 43]. Bu hadisənin tarixi mənbələrdə yer alan həqiqət, ya da rəvayət olduğunu dəqiq bilmədiyimizi qeyd etmək istəyirik.

Qızılbaş ideologiyasını qəbul edib, Səfəvilərin qələbəsinə köməklik göstərən digər bir türk tayfası qacarlar idi. "Tarixi Qızılbaşan"da qədimdən bəri Azərbaycanın Gəncə və Bərdə ərazisində yaşadıqları qeyd edilən bu tayfanın bir qismi isə Şamdan gəlmişdir [16, 91]. Qacar tayfaları Şah İsmayılı canla-başla qoruduqları üçün onların Səfəvi xanədanında yeri başqa idi. Onlar daha çox hörmət görən tayfalardan idilər. Səfəvi şahlarına hərbi təlim keçmək üçün yuxarı baş qacarlarından tez-tez sipahilər, ordu rəhbərləri və hakimlər təyin olunmuşdur. Onlar digər qızılbaş boylarından fərqli olaraq möhkəm hərbi bacarıqlara sahib olduqlarına görə, hərbi məsələlərdə ən yüksək vəzifələr qacarlara həvalə edilirdi.

"Tarixi-aləmara-yi Əmini"də qeyd edilir ki, Şeyx Heydər Ağqoyunlu və Şirvan ordusunun xəbərlərini də qacarlar vasitəsi ilə öyrənirdi [20, 77]. Bu onu göstərir ki, Ağqoyunlu və Şirvan ordusunun daxilində Şeyx Heydərin qacar tayfasından olan xəfiyələri var idi. Qacarlar bu dövrdə hərbi bacarıqları sayəsində Ağqoyunlu və Şirvan qoşunun tərkibində də önəmli mövqelərə sahib idilər.

İsmayıl Mirzə Ərdəbilə doğru hərəkət etdiyi vaxt yeddi nümayəndə, o cümlədən qacarların nümayəndəsi onun yanında idi və İsmayıl Mirzə daim onlarla məsləhətləşirdi. İsmayıl Mirzə Ərzincana çatdığı zaman burada ona qoşulan tayfalar arasında qacarlar var idi. Onu da qeyd edək ki, qacarların hamısı deyil, bir qismi Şah İsmayılla birləşmişdir [3, 53-54]. Ancaq İsmayılın bütün qələbələrində qacarların xidmətləri böyük idi.

Qızılbaş ideologiyasına arxa-dayaq olan bu böyük türk tayfalarından əlavə ideolgiyanı qəbul edən və dövlətin qurulmasında xidməti olan kiçik tayfalar da var idi. "Tarix-i Qızılbaşan" əsərində bu tayfalar haqqında qısa da olsa məlumat verilir. Bəzilərinin isə sadəcə adları çəkilməklə kifayətlənilir [16; 110]. Faruk Sümer isə əsərində bu tayfaları böyük və kiçik tayfalar yarım-

başlığı ilə ayrı-ayrılıqda araşdırmışdır. O, kiçik tayfalar yarımbaşlığı adı altında varsaq, çəpni, ərəbgirni, turqutlu, bozcalı, əcirli, xınıslı, sədli, alpavud, bayat, qaramanlı, bayburtlu, baharlı, ispirli tayfalarının adını çəkir [3].

Bu kiçik tayfalardan varsaqların əsli Anadolu torpağı olan Karanmandandır və onlar Qaraqoyunluya (Baharlılara) bağlı olan boylardandırlar [16, 68]**.** "Tarix-i Qızılbaşan" da Qaraqoyunlu qövmləri bölməsinin daxilidə varsaqlardan əlavə aplavut, baharlı, cəgirli, qaranmalı, sədli, bayburtlu, hacılı, qaracadağlı və evoğlularının da adı çəkilir. Əsərdə bayandurlu, ərəbgirli, xınıslı, mosullu, purnak və şeyxavənd tayfaları Ağqoyunlu qövmləri daxilində verilir [16, 68].

Şah İsmayılı qorumaq, ona hərbi və dini təlim keçməklə vəzifələndirilən inanılmış yeddi qızılbaş tayfa nümayəndəsinin arasında xınıslıların da nümayəndəsi vardı. Şeyx Heydərin arxalandığı müridlərindən biri olan Ayqut oğlu İlyas bəy də xınıslı tayfasından idi. Beləliklə, deyə bilərik ki, bu tayfalar kiçik olsalar da hər biri müəyyən mənada Səfəvilər dövlətinin qurulmasında iştirak etmişdir.

**Nəticə.** Nəticə etibarilə, türkmanlar İslamı qəbul etsələr də, öz qədim inanclarını və adət-ənənələrini qorumağa davam etmiş, İslamı keçmiş dinləri ilə birləşdirərək yaşatmışlar. Dini təhsil vəsaitlərinə çıxışlarının məhdud olması səbəbindən, İslamı dərvişlərdən və gəzəri şeyxlərdən öyrənmiş, onu "Quran" və sünnətə tam uyğun şəkildə deyil, daha çox öz yaşam tərzinə uyğun olaraq qəbul etmişlər. Bu həyat tərzi, onların Səfəviyyə təriqətinə meyl etməsinə səbəb olmuşdur, çünki təriqətin ideologiyası türkmanların dini və mədəni baxışlarına yaxın idi.

Bundan əlavə, Osmanlı imperiyasının mərkəzləşdirmə siyasəti nəticəsində köçəri təsərrüfatın məhdudlaşdırılması, həmin vaxta qədər belə təsərrüfatla məşğul olmağa alışmış türkmanları dövlətdən narazı salmışdır. Bu narazılıq, türkmanların Səfəviyyə təriqətinə yönəlməsinə və Ərdəbil dərgahına dəstək verməsinə səbəb olmuşdur.

Türkmanların bir qızılbaş olaraq Səfəvi dövlətinin qurulmasına verdikləri dəstək yalnız üsyanlar və köçlərlə kifayətlənməmiş, həm də Səfəvi dövlətinin davamlı olaraq güclənməsinə səbəb olan əsas qüvvə olmuşdur. Səfəvilər dövləti, qızılbaş tayfalarının gücündən həm hərbi, həm də ideoloji məqsədlər üçün geniş şəkildə istifadə etmiş və onları dövlətin dayağına çevirmişdir.

Beləliklə, türkmanların Səfəviyyə təriqətinin ideoloji istiqamətinin və Səfəvi dövlətinin formalaşmasındakı rolu, yalnız hərbi və siyasi müstəvidə deyil, həm də mədəni və dini müstəvidə özünü göstərmişdir. Onlar, Səfəvilərin ideoloji və sosial bazasının formalaşmasında mühüm rol oynamış, dövlətin legitimliyi və dayanıqlığını artırmışdır. Bu tarixi proseslər, türkmanların mədəniyyətinin və dini inancının qızılbaş ideologiyası ilə sintezini təmin

etmişdir ki, bu da onların uzunmüddətli mübarizəsini və qələbəsini mümkün etmişdir.

Bu nəticələr, həmçinin tarixşünaslıqda Səfəvilərin siyasi strategiyalarını və mədəni mühitini, qızılbaşlığı anlamağa kömək edir, beləliklə, türkmanların bu dövrdəki rolunun əhəmiyyətini vurğulayır.

**ƏDƏBİYYAT**


1. Sümer F. Türkmenler / İslam Ansiklopedisi. - Ankara: TDV yayınları, - 2012, IV c., - s. 607-611.
2. Ağayev R. "Türkman" anlayışı və onun etimologiyası ərəb və farsdilli müəlliflərin əsərlərində //- Bakı: Qarapapaqlar, - 2015. № 8, (96). - s.12-18.
3. Sümer F. Safevi devletinin kuruluşu ve gelişmesinde Anadolu türklerinin rolü (Şah İsmail ile Halefleri ve Anadolu Türkleri). - Ankara: Güven matbaası, - 1976. - 265 s.
4. Paşazade A. Osmanoğulları`nın tarihi. çev. ve günümüz dil. Ak. K.Yavuz - İstanbul: MAS matbaacılık, - 2003. - 615 s.
5. Dierl A.J. Anadolu Aleviliği / alman. terc. F.Yiğit - İstanbul: ANT yayınları, - 1991. - 157 s.
6. Eröz M. Türkiye'de Alevilik ve Bektaşilik. - İstanbul: Ötüken neşriyat, - 2014. - 479 s.
7. Ocak A.Y. Babailer isyanı (Aleviliğin tarihsel altyapısı). - İstanbul: Dergah, - 2016. - 284 s.
8. Müneccimbaşı A. D. Sehaif ül Ahbar fi Vekayi ül Asar / arap. terc. İ. Erünsal. - İstanbul: Kervan Kitapçılık, - 1979. I c. - 300 s.
9. Yıldırım R. Anadolu'da İslâmiyet: Gaziler Çağında (XII-XIV Asırlar) Türkmen İslam Yorumunun Sünni-Alevi Niteliği Üzerine Bazı Değerlendirmeler // - Ankara: Osmanlı Araştırmaları. - 2014. S. XLIII, - s. 93-124.
10. Akyel S. Klassik kaynaklara göre XVI yüzyılda Osmanlı devletinde meydana gelen Kızılbaş ayaklanmaları // - İstanbul: Tarih Okulu Dergisi, - 2014. S. XIX, - s.111-148.
11. Tadhkirat al-Mulûk: A Manual of Safavid Administration (circa 1137-1725) / trans. V. Minorsky. - London: Kieth Co., - 1943. - 130 p.
12. Karaca B. *Safavi Devleti'nin Ortaya Çıkışı* ve *II. Bayezid Dönemi Osmanlı Safevi* İlişkileri // - Ankara: Türkler, Yeni Türkiye yayınları, - 2002. IX c., - s. 409-418.
13. Gölpınarlı A. Pir Sultan Abdal. - İstanbul: Derin, - 2010. - 194 s.
14. Üç Osmanlı Tarihi: Oruç Beğ Tarihi / hazır. N. Atsız. - Ankara: Ötüken, - 1968. - s.11-131.
15. Fərzəlibəyli Ş.F. Azərbaycan və Osmanlı imperiyası (XV - XVI əsrlər). - Bakı: Azərbaycan, - 1995. - 145 s.
16. Kızılbaşlar tarihi: Tarihi Kızılbaşan / türk. çev. T. Gündüz. - İstanbul: Yeditepe yayınevi, - 2015. - 136 s.
17. Aydoğmuşoğlu C. Safevi Tarih Yazıcılığı ve Safevi Çağı Kronikleri // - Ankara: Türk Tarihi Araştırmaları Dergisi – S. 1, - s. 143-164
18. İskəndər bəy Türkmən. Aləm Ara-yi Abbasi /red. Ağa Sühəyli Xansari – Tehran: İslamiya çapxanası, - 1317/1939. - 320 s.
19. Bayramlı Z.H. Azərbaycan Səfəvilər dövlətinin quruluşu və idarə olunmasında türk qızılbaş əyanlarının rolu. - Bakı: Avropa nəşriyyatı, - 2015. - 348 s.
20. Фазлуллах ибн Рузбихан Хунджи. Тарих-и алам-ара-йи Амини / пер. с английского Т.А. Минорской - Баку: Елм, - 1987. - 170 с.
21. Musalı N. S. I Şah İsmayılın hakimiyyəti ("Tarixi-aləmara-yi Şah İsmayıl" əsəri əsasında). - Bakı: Elm və təhsil, - 2011. - 482 s.

22. Həsən bəy Rumlu. Əhsənüt-təvarix (Tarixlərin ən yaxşısı) / Fars dil. tərc. və şərh. t.e.d. O.Əfəndiyev, t.ü.f.d. N. Musalı - Kastamonu: Uzanlar, - 2017. – 661 s.
23. Uzunçarşılı İ.H. Osmanlı tarihi. - Ankara: Türk Tarih Kurumu Basınevi, - 2011. c. 2, - 756 s.
24. Aləm Ara-yi Səfəvi: anonim Səfəvi tarixi / tərtib. Yədullah Şükri. - Tehran: İntişarat İttila-'at, -1363/1985. - 688 s.
25. Xacə Zeynəlabidin Əli Əbdi bəy Şirazi. Təkmilətül-əxbar (Səfəvi dövrü-Təhmasib dövrü-nün tarixi) / Fars dil. tərc., müq. və şərh. Ə. H. Rəhimli - Bakı: Elm, - 1996. - 200 s.

## ДЕЯТЕЛЬНОСТЬ КЫЗЫЛБАШСКИХ ТЮРКМЕН В СЕФЕВИДСКОМ ОРДЕНЕ

**Гюнел А.РАХИМЛИ**

### РЕЗЮМЕ

Одной из ключевых причин успеха длительной борьбы шейхов Сефевидского ордена за политическую власть было наличие преданных и организованных сил. Под руководством такой выдающейся фигуры, как шах Исмаил, и благодаря единству сторонников кызылбашской идеологии, борьба Сефевидов, начавшаяся с религиозного шейхства, завершилась созданием централизованного государства. Изучение деятельности кызылбашских тюркских племён, сыгравших значительную роль в этой победе, позволяет осветить малоизученную тему в истории Азербайджана. В настоящей статье анализируется роль кызылбашских тюркменских племён на основе сопоставления исторических источников и историографических трудов, а также проводится их оценка в контексте становления Сефевидской державы.

**Ключевые слова:** Сефевидский орден**,** Шейх Джунейд, Шейх Гейдар, Кызылбаши тюркмены, Анатолия

## THE ACTİVİTİES OF QIZILBASH TURKMENS IN THE SAFAVID ORDER

**Gunel A. RAHIMLI**

### SUMMARY

One of the key reasons behind the success of the protracted struggle for political power by the sheikhs of the Safavid Order was the presence of loyal and committed forces. Under the leadership of a figure such as Shah Ismail, and through the unity of groups devoted to Qizilbash ideology, the Safavid movement — which began as a religious sheikhdom — ultimately culminated in the establishment of a centralized state.The study of the role and activities of the Qizilbash Turkmen tribes, who played a decisive role in this success, offers valuable insights into a relatively underexplored aspect of Azerbaijani history. This article explores the activities of these tribes through the analysis, comparison, and critical evaluation of historical sources and historiographical works.

**Keywords:** Safavid order, Sheikh Junaid, Sheikh Haydar, Qizilbash turkmens, Anatolia

BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

№1 Humanitar elmlər seriyası 2025

UOT 94 (479.24)

# XII-XIII ƏSRLƏRDƏ ŞİRVANŞAHLAR DÖVLƏTİ ƏRAZİSİNDƏ ELM, MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT

**Səadət C.ƏLƏKBƏROVA***

*XII-XIII əsrlər Azərbaycan tarixində memarlığın, ədəbiyyatın, incəsənətin, dövlətçiliyin inkişafının qızıl dövrü hesab edilir. Məqalədə göstərilən zaman kəsiyində artıq mövcud olan Şirvanşahlar dövləti ərazisində memarlığın, elmin, mədəniyyətin və incəsənətin inkişafı araşdırılmışdır. Azərbaycandakı, paytaxt Şamaxı şəhərində, Abşeronda, eləcə də "İçərişəhər" Qoruğu Dövlət Tarix-Memarlıq Qoruğu ərazisindəki dünya, ölkə və yerli əhəmiyyətli abidələrin, dünya ölkələrinə səpələnmiş maddi-mədəniyyət nümunələrinin, əlyazma və s. haqqında ən son tədqiqatın nəticələri şərh edilmişdir.*

**Açar sözlər:** Şirvanşahlar dövləti, kitabxana, memarlıq, elm, tətbiqi-sənət

**Giriş.** Azərbaycan tarixinin qızıl dövrü kimi tanınmış XII-XIII əsrlərdə Cənubi Qafqazda Atabəylər, Şirvanşahlar kimi dövlətlər artıq mövcud idi. Sərhədlər daxilində öz təsərrüfatını, ticarətini, sənətkarlığını inkişaf etdirən, eləcə də nizamlı ordusu, donanması, qala-istehkamları ilə xalqını, dövlətini qorumaq iqtidarında olan bu dövlətlərin ərazisində mədəniyyət, elm və ədəbiyyat da ən yüksək zirvədə idi.

XII əsrdə Azərbaycandan dünyaya yayılmağa başlamış mədəniyyət, artıq xalqımızın XXI əsrdə dünyada ən yüksək mədəniyyətə, ədəbiyyata, mənəviyyata sahib olacaq, qalib bir xalq kimi tanınmasının nişanəsi idi. Yüzillər ərzində bu mədəniyyət şeir, qəzəl, divan, musiqi, elm, (tibb, fəlsəfə, hüquq, riyaziyyat, astronomiya) memarlıq, tətbiqi-sənət, xalçaçılıq, kitabçılıq və onlarla yaradıcılıq və sənətkarlıq nümunələri şəklində minlərlə nüsxələrdə dünyanın dörd bir tərəfinə yayılmışdır. Yayıldıqca da, yeni mədəniyyət, yeni düşüncə, yeni maraq formalaşdırmışdır.

XI əsrdən başlayaraq Şirvanşahların həyatında, siyasi sahədə canlanma baş vermiş, XII əsrdə isə dövlət artıq hərtərəfli çiçəklənmə dövrünü ya-

* "İçərişəhər" Muzey Mərkəzinin elmi katibi; seadet.elekberova@icherisheher.gov.az; ORCİD İD: 0009-0006-1941-140X

şamışdı. Məsud ibn Namdar II Fəribürzün (1200-1204) hakimiyəti dövründə Şirvandan çiçəklənən bir diyar kimi bəhs edirdi. Onun torpaqlarına göylərin belə həsəd apardığını, o dövrün təhsilli adamlarına göstərilən qayğı və himayəni tərifləyirdi.

**Şirvanda elm və mədəniyyət.** XIX əsr mütəfəkkiri, Azərbaycanın ilk tarixşünas alimi A.Bakıxanov "Gülüstani-İrəm" əsərində bu zaman kəsiyində bütün Şərqdə tanınmış Şeyx Əbuabdullah Bakuyi, Xaqani Şirvani, Məhsəti Gəncəvi, Nizami Gəncəvi, Əcəmi Naxçıvani, Fələki Şirvani, Seyid Zülfüqar Şirvani, Əbusəid Abdal Bakuyi və s. dahi şəxsiyyətlərin adını çəkmiş, onlar haqqında məlumat vermişdir.

XI əsrdə Şirvanşahlar dövlətinin paytaxtı olmuş Şamaxının Məlhəm kəndində Kafiəddin Ömər Şirvani tərəfindən müsəlman Şərqində ilk dəfə "Dar əl-ədəb" – müasir dildə desək - Elmlər Akademiyası yaradılmışdı. Zəngin kitabxanası olmuş akademiyada tibb, anatomiya, əczaçılıq elmləri ilə yanaşı, riyaziyyat, məntiq, ilahiyyat, astronomiya və sair fənlər də tədris olunurdu. Burada fəaliyyət göstərən astronom alim Fəridəddin Şirvani (?-1146) ilk dəfə olaraq ulduzların hərəkətini açıqlayan cədvəli tərtib edərək tamamlamışdı [1. 55-56].

XII əsr şeirində istər sarayda, istərsə də sadə xalqın arasında həqiqəti deyən, bunu şeir və qəsidələrində məharətlə əks etdirən dahi söz cahangirlərindən biri Xaqani Şirvani (1126-1199) idi. O, Şirvanşah III Mənuçöhr ibn I Əfiriduna (1120-1160) həsr etdiyi şeirində onu xeyirxah, dərin ağıl və kamala sahib insan, adil və böyük səxavət sahibi bir hökmdar olaraq tərənnüm edir, eyni zamanda pəhləvan cüssəli, qoçaq və igid sultan olduğunu da vəsf edirdi:

*O elə bir padşahdır, mələk tək şüarı var,*
*Əməldə bir mələkdir, döyüşdə aslandır o,*
*Turanı fəth eyləyən Rüstəmi-dastandır o.* [2, 131]

Xaqani əsərlərində Şirvan ölkəsində şeirin, musiqinin sənətin inkişafını, bu sahələrə olan sevgi və hörməti də göstərir. Xaqaninin əsərlərində dəfələrlə "kitabxana", "kitab" sözlərinin xüsusi olaraq vurğulanması heç də təsadüfi deyildir. Saray ziyafətlərində çalınmış cəng, tütək, dəf, bərbət, rübab kimi musiqi alətlərinin adını deməklə yanaşı, həm də onların quruluşunu da açıqlamaqla yüzillər sonrakı nəsillərə çatdıra bilmişdir:

*Bərbət düşüb cansız qalar, bir ölçüdə dörd rükn var,*
*Bir boydadır səkkiz damar, Zöhrəylə Mizan onda gör!*
*Bir körpə zəncidir tütək, on dayəsi var ağ, qəşəng,*
*Doqquz gözüysə şux-şəng, yüz gözsə heyran, onda gör!* [2, 138].

Bərbət simli bir musiqi aləti olub səkkiz simdən, dörd rükndən, yəni bərbə-

tin üstündəki dörd parlaq düymədən ibarət olmasına işarə edilir. Tütək isə balaca və qaradır; üstündə on barmaq hərəkətdədir, "doqquz göz" - tütəyin doqquz dəliyi, "yüz göz"sə tütəyin gözəl səsinə uyub, mat-mat baxan adamları bildirir [2, 605].

Bəhs edilən dövrün ən tanınmış dühası Nizami Gəncəvinin "Xəmsə"si, ora daxil olmuş "Leyli və Məcnun" poeması idi. Şirvanşah I Axsitanın sifarişi ilə yazılmış poemada şirvanşah tərif edilmiş, onun elmə, biliyə rəğbəti, ordusu, ədaləti, səxavəti tərif edilmişdir:

*Ey dünya xaqanı, boyük padişah!*
*Şöhrətin tutmuşdur bütün mahalı,*
*Dinin və dövlətin sənsən cəlalı.*
*Şahların tacısan, Əbülmüzəffər*
*Yeddi məmləkətə sən oldun zivər.*
*Yalnız Şirvan deyil, dünya şahısan"* deyirdi [3, 38].

Nizami Gəncəvinin və Dünyanın, demək olar ki, bütün dillərinə tərcümə edilmiş, minlərlə üzü köçürülmüş "Leyli və Məcnun"un ilk nüsxəsi də məhz Şirvanşahlar saray kitabxanası üçün hazırlanmış, nəfis miniatürlə bəzədilmiş əlyazma şəklində olmuşdur. Sankt-Peterburq Dövlət Universitetinin kitabxanasında Nizami Gəncəvinin çox nəfis tərtibatlı "Xəmsə"nin əlyazması saxlanılır. Bu əlyazmanın XIII əsrdə - Nizaminin yaşadığı dövrdə yazıldığı ehtimal edilir. Əlyazmadakı miniatürlərin birində şairin portreti verilmiş, altında *"Şeyx Nizaminin surəti. Rəhmətullah*" yazılmışdır [4, No-63.2013, 17]. Yəqindir ki, bu əlyazmanı Xəmsənin ilk nüsxələrindən hesab etmək olar.



**Şəkil 1.** Nizami Gəncəvinin portreti. XIII əsr. Xəmsə. Sankt-Peterburq

Əlyazmadakı bu portretin özü hələ XIII əsrdə Azərbaycanda insan surətinin rəsmə köçürülməsi texnikasının, Nizaminin simasının bir şeyx,

şair, filosof kimi təqdimatının yüksək sənətkarlıqla yerinə yetirilməsinin ən gözəl nümunəsidir.

Gəncə və Şirvan mütəfəkkirləri Yaxın Şərqin əsas elm və mədəniyyət mərkəzi olub, ədəbi mühitin formalaşmasında mühüm rol oynamışdılar. M.Ə.Rəsulzadə "Azərbaycan şairi Nizami" adlı əsərində yazırdı: *"Gəncə ilə Şamaxı bu dövrdə Yaxın Doğunun birər kültür mərkəzi idilər. Bilxassə, şeirin ən parlaq müməssisləri və İran ədəbiyyatında önəmli birər yer tutan ustadlar burada vücuda gələn okuldan yetişmişlər"* [5, 129].

Fəlsəfə, astronomiya və tibb elmləri sahələrində hərtərəfli biliklərə sahib olmuş Əbül-Üla Gəncəvi Şamaxıda, Şirvanşah I Mənuçöhrün (1120-1149) sarayında yaşayıb yaratmışdı. Saray alimləri, şairləri arasında kamilliyi ilə seçildiyinə görə, "məlik-əş-şüəra", yəni "şairlərin padşahı" adını qazanmışdı [6, 48]. Sözü gedən dövrün daha bir mütəfəkkiri Fələki təxəllüsü ilə yazıb-yaratmış Cəlaləddin Məhəmməd Şirvani olmuşdur. O, qəsidələrində Şirvanşah Mənuçöhrdən ölkəsini qoruyan, onu ədalətlə idarə edən hökmdar kimi bəhs edir, əzəmət və qudrətini məhəbbətlə tərənnüm edirdi:

*O qədər səndə var ayıqlıq, diqqət.*
*Ki, şahin kəkliyə verməz əziyyət.*
*Himayətin olmuş elə bir dayaq,*
*Ki, şir ata bilməz ceyrana dırnaq* [6, 50]

Azərbaycanın XII əsrdə inkişafından bəhs edən daha bir şair İzzətdin Şirvani idi. İ.Şirvani də Şirvanşah III Mənuçöhrün sarayında yaşamışdır. O qəsidə və şeirlərində hakimiyyətin ədalətindən, dövlətin qüdrətindən bəhs edirdi:

*And ola düşməni pamal edən hümmətinə,*
*And ola nizənə, ondan ki, cəhənnəm od ala* [6, 52].

XII-XIII əsrlərdə Şirvanşahlar dövləti ərazisində, eləcə də bütün Azərbaycanda şeyriyyatla yanaşı digər sənətkarlıq sahələri – xalçaçılıq, metal işi, silahsazlıq və memarlıq inkişaf etmişdi.

**Şirvanda tətbiqi-sənət.** Arxeoloji qazıntılar nəticəsində XII-XIII əsrlərdə Şirvanda – Bakı, Bərdə, Şabran, Şəki, Şamaxı ərazisində usta sənətkarlar tərəfindən hazırlanmış incə tətbiqi-sənət nümunələri aşkar edilmişdir. Belə əşyaların arasında metal və keramikadan hazırlanmış çıraq və şamdanlar, dekorativ qablar, kaşılar, zinət əşyaları, daşoyma sənəti nümunələri üstünlük təşkil edir. Tapılmış hər bir əşya bu dövrdəki intibahın, xalqın yüksək zövqünün və mədəniyyətinin nişanəsidir. Məsələn, Azərbaycan Milli Tarix Muzeyinin fondundan olan iki maraqlı şamdan burada saraylara layiq çox nəfis sənət əsərlərinin yaradılmasından xəbər verir. Bürüncdən düzəldilmiş şamdanlar Şamaxıdan, Gülüstan qalası ərazisindən aşkar edilmişdir. 47 və 48 sm hündürlüyü olan şamdanlar üçayaqlıdırlar. Oturacaqdan və boruşəkilli

hissədən ibarət olub, tökmə üsulu ilə hazırlanmışdır. Birinin həm gövdəsi, həm də boru hissəsi nəbati ornament şəklində şəbəkəli formadadır. Digər şamdanın isə aşağı hissəsində hündürlükdən asılması üçün qarmaqları vardır.



**Şəkil 2.** Şamdanlar. XI-XII əsrlər. Şamaxı

Şirvanşahlar Sarayı ərazisindən aşkar edilmiş nəfis saray əşyalarından biri də üzərində həcmli zoomorf fiqurlar olan bürünc çıraqdır. Bədii cəhətdən çox zəngin tərtibatlı çırağın uzunluğu 18 sm-dir. Əşyanın üzərində vəhşi heyvana hücum edən atlı, 2 öküz başı, 12 vəhşi pişik başı, 2 insan başı təsvirləri və s. kiçik detallar vardır [7, 79].



**Şəkil 3.** Çıraq. Şirvanşahlar Sarayı. XII əsr

Rusiyanın Sankt-Peterburq şəhərindəki Ermitaj muzeyində mühafizə edilən, XIII əsrə aid "Şirvan lüləyini" adlı bürünc əşya artıq yüz ildən artıqdır ki, dünya sənətsevərlərinin diqqəti mərkəzindədir. Bu unikal əşya üç fiqurlu heykəltəraşlıq kompozisiyasıdır [7, 78]. Lüləyin 1206-cı ildə şirvanlı usta Əli ibn Məhəmməd ibn Əbülqasım tərəfindən Şirvanşah I Quştəsb ibn I Fərruxzadın (1204-1225) dövründə hazırlanmışdır. Əşyanın üzərində nəbati

ornamentlər içərisində “Bu inək, buzov və şir ədalətli və hər şeyi bilən Allahın köməkliyi ilə birdəfəyə tökülmüşdür” yazılmışdır. Bu tip zoomorf təsvirli orta əsrlərə aid lüləyinlər Mingəçevir və Ağsuda da tapılmışdır. Yuxarıda adı çəkilmiş əşyalar formasına, materialına, hazırlanma texnikasına və zəngin tərtibatına görə böyük sənətkarlıq və incə zövq tələb edirdi.



**Şəkil 4.** Şirvan lüləyini. XIII əsr

**Şirvanda memarlıq.** XII-XIII əsrlərdə Şirvanın bütün ərazisində hərtərəfli inkişaf vüsət almışdı. Bura memarlığın inşaat sənəti, şəhərsalma və şəhər mədəniyyəti də daxil idi. Bakı, Şamaxı, Gəncə, Naxçıvan, Dərbənd, Bərdə və digər şəhərlərdə bir-birindən gözəl memarlıq abidələri inşa edilmişdi. Onların bəzisi bu günümüzədək qalmaqdadır. XIII əsrdə monqolların Azərbaycana iki dəfə yürüş etməsinə, şəhərləri, qalaları dağıtmasına baxmayaraq torpaq da, xalq da özündə yenidən dirçəlməyə, inkişaf etməyə güc tapa bilmişdi. Naxçıvanda Əlincə qalası, Xocavənd, Xocalı, Kəlbəcər, Tovuz rayonları ərazisində XII əsrə aid alban məbədləri, Cəbrayıl rayonu ərazisində, Araz çayı üzərindəki 11 tağlı Xudafərin körpüsü, Şərur rayonu, Qarabağlar kəndində Qarabağlar Tarix-Mədəniyyət Kompleksi, Möminə Xatun türbəsi, Qazax rayonunda Sınıq-körpü və s. tikililər yüzillər boyu düşmən hücumlarına məruz qalaraq dağıdılsa da xalqın gücü sayəsində bərpa edilərək ayaqda qala bilmişdir.

XII əsrdə Şamaxı şəhəri Şirvanşahların paytaxtı və Qafqazın ən çox inkişaf etmiş şəhərlərindən biri idi. Şamaxı varlı və gözəl paytaxt şəhər kimi şöhrət tapmış, bol sərvəti, ipəyi, eləcə də alim və şairləri ilə bütün Şərqdə mühüm rol oynamışdı. Bu sərvəti, zənginliyi bu günümüzədək qismən qorunub saxlamış qalalar, türbələr, binalar sübut edir.

Mütəxəssislər tərəfindən VI-IX əsrlərə aid edilən möhtəşəm Gülüstan qalası Şamaxı şəhərinin şimal-şərqində, yerdən 200 metr hündürlükdə olan sıldırım qayanın üzərində tikilmişdir. Qala ərazisində aparılmış arxeoloji

qazıntılar nəticəsində aşkar edilmiş, nəfis tərtibatlı kaşı parçası Gülüstandakı tikilinin adi qala deyil, saray tikilisi olduğunu bir daha təsdiq edir.



**Şəkil 5.** Gülüstan qalasından kaşı fraqmenti. XII əsr

Şamaxı şəhərindən bir az aralıda yerləşən Buğurt qalası həm Şirvanşahların təhlükəli zamanlarda sığınacaq yeri, həm də əlçatmaz olduğuna görə dövlətin ənənəvi xəzinəsinin saxlanıldığı yer olmuşdur. Qala ərazisində bəzi divar və bürclərin, yaşayış məntəqələrinin xarabalıqları, kəhriz su xətlərinin qalıqları qalmışdır. XIII əsrdə yaşamış fars alimi Zəkəriyyə əl-Qəzvini əsərində Buğurt qalasını belə təsvir etmişdir: “Bu qalada daş təsvirlər və heykəllər var. Onlar çox qədim olduqlarından mənaları aydın deyil. Qalada hökumət evi -- dar əl-imarə var. Onun qapısında yazılmışdır: "Bu evdə on bir otaq var. Lakin buraya girən çox cəhd göstərsə, onlardan yalnız onunu görə bilər. On birincinin yerini isə heç kim bilə bilməz, çünki hökmdarın xəzinəsi oradadır” [8, 230]. Burdan da aydın olur ki, Şirvanşahlar xəzinələrini Şamaxı şəhərindən aralı, qayalar başındakı əlçatmaz Buğurt qalasında saxlayırmışlar.

Bəhs edilən dövrün ən möhtəşəm memarlıq abidələri sırasında 2000-ci ildə UNESCO-nun Dünya İrs Siyahısına daxil edilmiş Bakı Qala Divarları (XII əsr), Qız Qalası (e.ə.VII-VI əsrlər – eramızın XII əsri) və Şirvanşahlar Sarayı (XII-XV əsrlər) da vardır.

Qədim Bakı XII əsrdə Şirvanşahlar dövlətinin strateji əhəmiyyət daşıyan şəhərlərindən biri idi. XII əsrdə Şirvanşah III Mənuçöhr şəhərin həm qurudan, həm də dəniz tərəfdən müdafiəsinin daha da möhkəmləndirilməsi məqsədi ilə, qala divarlarını bərpa etdirərək daha da möhkəmləndirmişdi. Bakı şəhəri qurudan ikiqat, dəniz tərəfdən isə tək divarla dövrələnmişdi. Divarlar dənizin içərisinədək davam edərək, sahilə yan alan gəmilərin təhlükəsiz dayana bilməsi üçün sakit bir körfəz yaradırdı. Qala divarlarının hündürlüyü 10-16 m arasında dəyişirdi. Divar boyunca, qalanın altı ilə

çəkilmiş yeraltı yollar əsrlər boyunca şəhərin və əhalisinin düşmənə qarşı müdafiəsində mühüm rol oynamışdır. 8 mərtəbəsi, 31 metr hündürlüyü, divarlarının qalınlığı isə 4-5 metr olan Qız Qalasının da Bakı qala divarları ilə eyni dövrdə inşa edildiyinə görə şəhərin ümumi müdafiə sisteminə xidmət edən istehкam tipli qüllə olduğu ehtimal edilir. Qız Qalası antik dövrə aid olsa da, gövdəsindəki kufi xətti ilə yazılmış "Qubbe-ye Məsud ibn Davud" kitabəsinə görə, onun üst hissəsi XII əsrdə ucaldılmışdır.

Şirvanşahlar Sarayının inşası XII əsrdə başlanılmışdır, XIV--XV əsrlərdə isə, Şirvanşah I İbrahimin, I Xəlilullah və I Fərrux Yəsarın dövrlərində ərazisi daha da genişləndirilmişdi. Saray kompleksi ikimərtəbəli Yaşayış binasından, Divanxanadan, XV əsr saray alimi Seyid Yəhya Bakuvinin türbəsindən, Key Qubad Məscidinin qalıqlarından, Murad darvazasından, Şirvanşahların Ailə türbəsindən, Şah Məscidindən, saray hamamından ibarətdir. Arxeoloji qazıntılar zamanı saray ərazisindən ən çox göy və firuzəyi rəhglə işlənmiş, bəzəkli və saya kaşı fraqmentləri aşkar edilmişdir. Saray hamamındakı yuyunma hücrələrinin birində döşəmə və divarlardakı kaşı üzləmələr hələ də qalmaqdadır.



**Şəkil 6**. Şirvanşahlar Sarayından kaşı nümunələri

Orta əsrlərdə Abşeronun müdafiə sisteminin təmini üçün sahilboyunca yerləşmiş bütün kəndlərdə müdafiə qalaları, qəsrlər inşa edilmişdir. Bunu XVI əsrdə Xəzər dənizi ilə səyahətdə olmuş ingilis səyyahları da öz gündəliklərində qeyd etmişdilər. Abşeronun zəngin memarlıq abidələrindən biri XII-XIV əsrlərdə inşa edilmiş Ramana qalasıdır. Əzəmətli həyətin mərkəzində dördbucaqlı formada qüllə yerləşir. Qala dördmərtəbəli olub, 15 metr hündürlüklü qala divarları ilə əhatə olunmuşdur. İnşaat texnikasına və plan quruluşuna görə, sal qayanın üzərində tikilmiş qalanın inşa tarixi XII-XIV əsrlərə aid edilir. Qala-qəsr Bakı şəhərinin müdafiə sistemində vaxtilə mühüm rol oynamış, müdafiə baxımından çox əlverişli olmuşdur.

**Nəticə.** XII-XII əsrlərdə Azərbaycan ərazisində mövcud olmuş mədəniyyət artaraq, genişlənərək, daha da təkmilləşərək bu günümüzədək qoru-

nub saxlanılmış, dünyanın hər yerində bu incəsənətdən, şeiriyyatdan, fəlsəfədən, miniatürlərdən ilhamlanan bir mədəniyyət formalaşmağa başlamışdır. Məqalədən belə nəticəyə gəlmək olur ki, XII-XII əsrlərdə yurdumuzun hərtərəfli intibahı dövründə yaranmış əsərlər bu gün də gündəmdədir. Bu sənət nümunələrinin vasitəsi ilə dövrün tarixi, mədəniyyəti, elmi və fəlsəfi fikri, eləcə də gündəlik həyatı haqqında məlumat almaq olur. Əsrlər öncə torpağın təsiri, bu torpaqda yaşayan xalqın ağlı, zəkası, zövqü ilə formalaşmış elm və mədəniyyət zaman keçdikcə dünya xalqlarının elm və mədəniyyətinin formalaşmasına, inkişafına da təsir etmişdir.

### ƏDƏBİYYAT


1. Mehrəliyev.E. Şirvan Elmlər Akademiyası. - Bakı: Çaşıoğlu, 2000. – 72 s.
2. Şirvani Xaqani. Seçilmiş əsərləri. - Bakı: Lider Nəşriyyat, 2004. - 672 s.
3. Gəncəvi Nizami. Leyli və Məcnun. - Bakı: Lider Nəşriyyat, 2004. - 288 s.
4. Фарзалиев Акиф. Рукопись «Хамсы» Низами Гянджеви XIII века с уникальным портретом поэта. "İrs" jurnalı. No-63.2013. https://irs-az.com/new/pdf/201307/1373024390233947292.pdf
5. Yaqublu N. Nizami Gəncəvi. Unudulmuş nəşrlər. - Bakı: TEAS Press Nəşriyyat evi, 2021.- 564 s.
6. Müxtəsər Azərbaycan ədəbiyyatı tarixi. I cild. M.Arif və H.Hüseynovun redaktəsi ilə. - Bakı: EAAzF, 1943.- 290 s.
7. Əfəndiyev R. Azərbaycan incəsənəti. - Bakı: Şərq-Qərb, 2007, - 397 s.
8. Aşurbəyli S. Şirvanşahlar dövləti. - Bakı: Azərnəşr, 1997,- 408 s.


## НАУКА, КУЛЬТУРА И ИСКУССТВО НА ТЕРРИТОРИИ ГОСУДАРСТВА ШИРВАНШАХОВ В XII-XIII ВЕКАХ


**Саадат Дж. АЛЕКПЕРОВА**


### РЕЗЮМЕ


XII–XIII века считаются «золотым веком» в истории Азербайджана — периодом расцвета государственности, архитектуры, литературы и искусства. В данной статье рассматривается развитие архитектуры, науки и культуры на территории государства Ширваншахов, существовавшего в этот выдающийся исторический период. Особое внимание уделяется анализу результатов последних исследований памятников мирового, республиканского и местного значения, расположенных в Шемахе, на Абшеронском полуострове, а также на территории Государственного историко-архитектурного заповедника «Ичеришехер». Исследуются материальные и культурные артефакты, рукописи и иные памятники, связанные с этим наследием, включая те, что находятся за пределами Азербайджана.



**Ключевые слова:** Государство Ширваншахов, библиотека, архитектура, наука, прикладное-искусство

## SCIENCE, CULTURE AND ART IN THE TERRITORY OF SHIRVANSHAHS' STATE IN THE XII-XIII CENTURIES

**Saadat J. ALAKBAROVA**

**SUMMARY**

The 12th–13th centuries are considered the golden age in the history of Azerbaijan — a period marked by the flourishing of architecture, literature, art, and statehood. This article explores the development of architecture, science, culture, and art within the Shirvanshah state, which was already well established during this remarkable era.It presents the findings of recent research on monuments of global, national, and local significance, as well as material and cultural artifacts — including manuscripts — found throughout Azerbaijan. Particular attention is given to heritage sites located in Shamakhi, on the Absheron Peninsula, and within the territory of the Icherisheher State Historical and Architectural Reserve.

**Keywords**: Shirvanshah state, library, architecture, science, applied arts

BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№1* *Humanitar elmlər seriyası* *2025*

**UOT 94; 94 (479.24)**

# AZƏRBAYCAN-FRANSA MÜNASİBƏTLƏRİ (1991-2025): VƏTƏN TARİXŞÜNASLIĞI PRİZMASINDAN TƏHLİL

**Balamirzə A.MƏMMƏDLİ***

*Azərbaycan Respublikası öz dövlət müstəqilliyini bərpa etdikdən sonra onun xarici siyasət kursunun prioritet istiqamətlərindən birini beynəlxalq münasibətlər sistemində mühüm yer tutan və Qərbi Avropanın əsas dövlətlərindən biri olan Fransa Respublikası ilə münasibətlər təşkil etməyə başladı. Zəngin tarixə, inkişaf etmiş iqtisadiyyata malik olan Fransa müasir dövrdə dünyanın böyük güclərindən biri kimi təsnif olunur. Avropa İttifaqı, G7 və NATO-nun, habelə BMT Təhlükəsizlik Şurasının 5 daimi üzvündən biri olan Fransa Avropada nüvə silahına sahib olan iki ölkədən biri (digəri Böyük Britaniyadır) kimi güclü hərbi-siyasi potensiala malik dövlətdir. Müasir dövrdə Fransanın iştirakı olmadan Avropa məkanında hər hansısa mühüm bir siyasi, yaxud geosiyasi problemin həlli mümkünsüzdür. Bu səbəbdən, Fransa ilə siyasi, iqtisadi, mədəni, humanitar və s. sahələrdə uğurlu münasibətlər yaratmaq elə ilk dönəmlərdən Azərbaycan Respublikasının xarici siyasət prioretlərindən birini təşkil edir. Vətən tarixşünaslığında Azərbaycan-Fransa münasibətləri problemi bir çox müəlliflərin əsərlərində tədqiqat obyekti olmuş və müxtəlif aspektlərdə araşdırılmışdır. Problemin tədqiqatçıları sırasında M.Qasımlı, Ə.Abdullayev, Ə.Həsənov, V.Abdullayev, Ə.Əliyev, X.Hacıyeva, Z.Adıgözəlov, S.Quliyeva, Ş.Mustafayeva, İ.Musa, R.Dadaşova kimi tarixçi və politoloqların adlarını qeyd etmək olar.*

*Məqalədə Azərbaycan-Fransa münasibətləri 1991-2025-ci illər xronoloji çərçivəsində, Vətən tarixşünaslığı prizmasından təhlil edilmişdir. Bu, iki ölkə arasındakı münasibətlərin keçdiyi tarixi inkişaf dinamikasını daha dəqiq izləmək, habelə onun gələcək perspektivlərini müəyyənləşdirə bilmək baxımından mühüm elmi və siyasi əhəmiyyət kəsb edir.*

**Açar sözlər:** Azərbaycan Respublikası, Fransa, xarici siyasət, beynəlxalq münasibətlər, Vətən tarixşünaslığı

**Giriş.** Azərbaycanın Fransa ilə münasibətlərinin tarixi kökləri orta əsrlər dövrünə gedib çıxır. Vətən tarixşünaslığında əksər tədqiqatçıların gəldiyi qənaətə görə, hələ XII-XIV əsrlərdən etibarən iki ölkə arasında siyasi, mədəni və ticarət əlaqələri mövcud olmuşdur. Orta əsrlərdə, xüsusilə

* Bakı Dövlət Universitetinin doktorantı; balamirzamammadli@gmail.com;
ORCİD İD:0009-0007-4506-4840

Səfəvilər dövründə ölkəmizin Avropanın böyük dövlətləri, eləcə də Fransa ilə münasibətləri genişlənmişdi. Məsələn, "günəş kral" kimi tanınan fransız kralı XIV Lüdovik (1643-1715) ticarət əlaqələrinin genişlənməsinə böyük önəm vermiş, öz nümayəndələrini Azərbaycana – Səfəvi sarayına göndərmişdi. Hətta 1708-ci ildə iki ölkə arasında 31 maddədən ibarət ticarət müqaviləsi də imzalanmışdı. Səfəvi-Fransa münasibətləri Vətən tarixşünaslığında Zeynəb Hatamzad tərəfindən ayrıca tədqiq edilmişdir [18; 19]. Lakin bütövlükdə ikitərəfli münasibətlər sözügedən dövrdə qeyri-ardıcıl və pərakəndə xarakter daşımışdır. XIX əsrin əvvəllərindən başlayaraq isə hər iki xalqın ziyalıları, siyasətçiləri bu münasibətləri şüurlu surətdə inkişaf etdirməyə səy göstərmiş, mədəni əlaqələr əhəmiyyətli dərəcədə güclənmişdi. Bu dövrdə M.F.Axundov, İ.Qutqaşınlı kimi ədiblərimizin əsərlərində Fransa mövzusuna geniş yer verilmişdi. 1858-1859-cu illərdə Qafqaza səyahət edən fransız yazıçısı A.Düma bir çox Azərbaycan şəhərlərində olmuş, xan qızı Xurşudbanu Natəvanla görüşmüş sonradan fransızları öz qeydləri vasitəsilə Azərbaycanın tarixi və mədəniyyəti ilə tanış etmişdi [31, 59]. Fransa və Azərbaycan arasında tarixən mövcud olmuş ədəbi əlaqələr tədqiqatçı Rauf İsmayılov tərəfindən ayrıca araşdırılmışdır [25]. XX əsr boyunca da Azərbaycan-Fransa əlaqələrinin qorunub saxlanılması ənənəsi davam etmişdi. Təsadüfi deyildir ki, Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyinin beynəlxalq aləmdə tanınması Paris şəhərindəki Versal sarayında baş vermişdi. Vətən tarixşünaslığında Azərbaycan-Fransa münasibətlərinin keçdiyi tarixi inkişaf yoluna nəzər salınarkən bu fakta xüsusi diqqət yetirilir [24, s.58; 22, s.62]. İkinci Dünya müharibəsinin gedişində (1944-cü ildə) Fransanın antifaşist müqavimət hərəkatının başçısı Şarl de Qollun Bakıya gəlməsi də ikitərəfli münasibətlər tarixinin diqqətçəkən səhifələrindən biridir. Lakin ümumilikdə sovet dövründə Azərbaycanın Fransa ilə əlaqələri məhdud çərçivədə olmuşdur.

**Azərbaycan Respublikası və Fransa arasında ilk siyasi-diplomatik münasibətlər.** Vətən tarixşünaslığında Fransa Azərbaycan Respublikasının müstəqilliyini tanıyan ilk dünya dövlətlərindən biri kimi xarakterizə edilir. 3 yanvar 1992-ci ildə ölkəmizin müstəqilliyini rəsmi olaraq tanıyan Fransa diplomatik əlaqələrin qurulması məqsədilə tezliklə konkret addımlar atdı: 1992-ci ilin fevralında Bernar Kuşner başda olmaqla fransız nümayəndə heyəti Bakıya rəsmi səfər etdi, Fransanın Azərbaycanla iqtisadi əməkdaşlığa, habelə Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllində vasitəçilik etməyə hazır olduğunu bildirdi. Tədqiqatçı N.Əsədova səfər zamanı Gülüstan sarayında ikitərəfli diplomatik münasibətlərin yaradılması barədə protokolun imzalanmasına diqqət çəkir [15, 24]. Bu baxımdan, Kuşnerin səfəri Vətən tarixşünaslığında Azərbaycan və Fransa arasında diplomatik əlaqələrin başlanğıcını qoyan hadisə kimi nəzərdən keçirilir. Qeyd edək ki, səfər-

dən bir ay sonra, 1992-ci ilin martında Bakıda Fransa səfirliyi açılmışdı.

Müstəqilliyin bərpasının ilk vaxtlarından Fransanın Azərbaycana olan fəal marağı heç də təsadüfi deyildi. Vətən tarixşünaslığında əksər tarixçilər bunu ilk növbədə ölkəmizin zəngin iqtisadi imkanlara və mühüm geostrateji mövqeyə malik olması faktı ilə izah edirlər [2, 31; 33, 491-492]. Rusiyalı tədqiqatçı P.P.Timofeyev də məsələyə oxşar prizmadan yanaşır: "*Azərbaycanın Fransa üçün dəyəri ilk növbədə onun əhəmiyyətli enerji resurslarına malik olması ilə əlaqədardır*" [42, s.94]. Amma buna baxmayaraq, Azərbaycan-Fransa münasibətləri ilk mərhələdə heç də ürəkaçan səviyyədə deyildi. Məsələn, 1992-ci ilin noyabrında Fransanın Bakıdakı səfiri J.Perren ölkəsinin müxtəlif sahələrdə Azərbaycanla əməkdaşlıq etmək barədə təklifini hökumətə çatdırmış, lakin Vətən tarixşünaslığındakı bir çox tədqiqatçının (Ə.Həsənov, M.Qasımlı) yazdığı kimi, Azərbaycan tərəfi bu təkliflərin həyata keçirilməsi üçün ciddi əməli tədbirlər görməmişdi [21, s.79; 27, s.54]. Halbuki Ermənistanın artan hərbi aqressiyası fonunda Azərbaycanın belə bir nüfuzlu dövlətin dəstəyinə ciddi ehtiyacı var idi.

Ümumiyyətlə, 1993-cü ilin ikinci yarısına qədər Azərbaycan hökumətinin həyata keçirdiyi xarici siyasət kursu çərçivəsində Fransa ilə əlaqələrin yüksəldilməsi istiqamətində zəruri addımlar atılmamışdı. Elə buna görədir ki, Vətən tarixşünaslığında 1991-1993-cü illər Azərbaycan-Fransa münasibətlərinin "soyuq dövrü" kimi qiymətləndirilir. Burada belə bir sual meydana gəlir: nə üçün o dövrdə Azərbaycan hökuməti Fransa ilə geniş əməkdaşlığa meyil etmirdi? M.Qasımlının fikrincə, bunun səbəbi Fransanın ermənipərəst mövqe tutması ilə bağlı idi [27, 55]. Müəllif Fransa dövlətinin bu cür mövqeyinin qarşılıqlı münasibətlərdə vakuum yaratması və bunun hər iki tərəf üçün ziyanverici olması qənaətinə gəlir. Z.Adıgözəlov da problemə eyni mövqedən yanaşaraq vurğulayır ki, Azərbaycan ictimaiyyətində Fransanın Ermənistanla intensiv əməkdaşlıq edən dövlət kimi tanınması amilini inkar etmək mümkün deyil: "*Fransa həmişə Ermənistana münasibətdə xüsusi qayğıkeşlik göstərmiş, onu müdafiə etməyə çalışmışdır*" [4, 51]. Yaxud E.Arif yazır: "*Fransa aparıcı dünya dövlətləri arasında yeganə ölkədir ki, erməni lobbisinin maraqlarını ən yüksək səviyyədə təmin edir*" [6, 237]. Digər tərəfdən, Vətən tarixşünaslığında bir sıra tarixçilər Azərbaycan-Fransa münasibətlərinin soyuq olmasını Azərbaycan hökumətinin apardığı qeyri-konstruktiv xarici siyasət xətti ilə izah edirlər. Ə.Həsənov yazır ki, dostluq və əməkdaşlıq əlaqələrinin yaradılması üçün tərəflərin hər ikisi, xüsusilə də buna daha çox ehtiyacı olan Azərbaycan ardıcıl və düşünülmüş diplomatik addımlar atmalı idi: "*Lakin Fransa kimi nüfuzlu Avropa dövlətinə "soyuq müharibə" elan edildi*" [21, 80-81]. Müəllifin fikrincə, Azərbaycan rəhbərliyi Fransa ilə konfliktə, qarşıdurmaya meyil edirdi ki, bu da siyasi və diplomatik cəhalətdən irəli gəlirdi. Tarixçi E.Qasımov eyni mövqedən çıxış edə-

rək yazır ki, rəsmi Bakı ardıcıl və düşünülmüş diplomatik addımlar atmaq əvəzinə Fransanı "Azərbaycanın düşməni, Ermənistanın dostu" kimi qələmə vermək və təlqin etməkdən uzağa getmədi [28, 23-24]. X.Hacıyeva bunun səbəbini Fransanın dünya birliyindəki yerinin, ümumavropa təhlükəsizliyi sistemindəki həlledici rolunun Azərbaycan hökuməti tərəfindən düzgün qiymətləndirilməməsində görür [17, 48]. İ.Musa isə münasibətlərin soyuqlaşmasına iki amilin təsirini paralel olaraq qeyd edərək yazır ki, siyasi münasibətlərin inkişafında maneə və çətinliklərin yaranması bir tərəfdən Fransada güclü mövqeləri olan erməni diasporu və lobbisinin antiazərbaycan fəaliyyəti, digər tərəfdən Azərbaycan hökumətinin diplomatik təcrübəsinin yetərsizliyi və maddi imkansızlıq kimi amillərlə bağlı idi [33, 492].

Beləliklə, Vətən tarixşünaslığında Azərbaycan-Fransa münasibətlərinin ilk mərhələsindəki (1991-1993-cü illər) soyuqluq və qarşılıqlı etimadsızlığın səbəbləri müxtəlif prizmalardan izah edilir. Fikrimizcə, problemi yalnız Fransa tərəfdə, yaxud yalnız Azərbaycan tərəfdə görmək məsələyə birtərəfli yanaşma olardı. Bu mənada, Vətən tarixşünaslığındakı müxtəlif mövqelərin müqayisəli təhlilindən belə nəticə çıxarmaq olar ki, Azərbaycan və Fransa arasında sözügedən vəziyyətin yaranması aşağıdakı iki əsas səbəblə bağlı olmuşdur:

***Birincisi,*** Fransadakı güclü erməni lobbisi və diasporunun (350-750 min nəfər) fəaliyyəti. Biznes sektorunda, KİV və dövlət orqanlarında özlərinə vəzifələr tutan ermənilər müntəzəm təbliğat işi apararaq Fransada Azərbaycanın mənfi imicini formalaşdırmağa çalışırlar. Onlardan fərqli olaraq, sözügedən Qərbi Avropa dövlətində azərbaycanlıların sayı həm xeyli azdır (təqribən 70 min nəfər), həm də ictimai-siyasi fikrə kifayət qədər güclü təsirləri yoxdur.

***İkincisi,*** o dövrkü Azərbaycan hökumətinin Fransa və Ermənistan arasındakı dostluq münasibətləri faktını əsas gətirərək Fransa ilə münasibətlərə lazımi diqqət yetirməməsi və passiv xarici siyasət yürütməsi. Dövlətlərarası münasibətlərdə bu cür mövqe heç də işə yaramır. Çünki hələ XIX əsrdə ingilis dövlət xadimi lord Palmerstonun səsləndirdiyi "*daimi dostlar və düşmənlər yoxdur, daimi maraqlar var*" prinsipi indi də beynəlxalq münasibətlərdə öz aktuallığını saxlayır. Sözügedən dönəmdə Azərbaycan hökumətinin bu prinsipi nəzərə almaması Fransa kimi nüfuzlu dünya dövlətinə qarşı münasibətdə qeyri-adekvat xarici siyasət xəttinin yürüdülməsinə səbəb olmuş, bu da ikitərəfli münasibətlərin daha da soyuqlaşmasında öz rolunu oynamışdı.

**Heydər Əliyev və Azərbaycan-Fransa münasibətlərində yeni mərhələnin başlanması.** 1993-cü ilin ikinci yarısında Ulu Öndər Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışından sonrakı dövr Vətən tarixşünaslığında nəinki Azərbaycan-Fransa münasibətlərinin, ümumiyyətlə, Azərbaycan Respublikasının xarici siyasətində yeni mərhələnin başlanğıcı kimi xarakterizə

edilir. Çünki artıq 1993-cü ilin avqustun 13-də – hələ Ali Sovetin sədri olduğu dönəmdə Heydər Əliyev Fransanın Azərbaycandakı səfiri J.Perreni qəbul edərkən iki ölkə arasında dostluq və əməkdaşlıq münasibətlərinin daim möhkəmlənəcəyini söyləmiş, həmin ilin oktyabrında Heydər Əliyevin prezident seçilməsindən qısa müddət sonra – noyabrın 4-5-də Azərbaycan Respublikasının xarici işlər naziri Həsən Həsənov Fransaya səfər edərək ölkə prezidenti Fransua Mitteran ilə görüşmüşdü. Görüş zamanı AR XİN və Fransa XİN arasında əməkdaşlıq haqqında protokol imzalanmışdı. M.Qasımlı bu hadisəni "*Azərbaycan-Fransa qarşılıqlı dialoqunun təməlinin qoyulması*" kimi qiymətləndirir [27, 55].

1993-cü ilin 19-22 dekabrında Heydər Əliyev Parisə rəsmi səfər etdi ki, bununla da Fransa – Azərbaycan Respublikası Prezidentinin rəsmi səfər etdiyi ilk xarici ölkə kimi tarixə düşdü. Bu məsələ Vətən tarixşünaslığında bir çox tədqiqatçının diqqətini özünə cəlb etmiş və belə bir sual doğurmuşdur: niyə məhz Fransa? Ə.Həsənov bu suala belə cavab verir: "*Heydər Əliyev əvvəlki iqtidar rəhbərlərindən fərqli olaraq Fransanın dünyada və Avropada oynadığı rolu, malik olduğu nüfuzu yaxşı bildiyindən, həmin vaxta qədər Azərbaycanda yalnız "düşmən" kimi təlqin olunmuş Fransa ilə əlaqələri sahmana salmağı qərara aldı*" [22, 66]. Sözügedən sual ətrafında ətraflı müzakirələr aparmış M.Qasımlının qənaətinə görə, ölkəmiz öz müstəqilliyini bərpa etdikdən sonra bəziləri elə güman edirdi ki, erməni diasporunun güclü olduğu Fransanın Ermənistanla münasibətləri isti olduğu üçün Azərbaycan-Fransa münasibətləri yaxşı ola bilməz: "*Azərbaycan bu fikrin yanlış olduğunu sübut etməli idi. Prezident Heydər Əliyevin səfəri ilk növbədə iki ölkə arasında münasibətlərin yaxşılaşdırılmasına və Azərbaycanın Fransa üçün əhəmiyyətli bir ölkə olduğunu fransız rəsmi dairələrinə göstərməyə xidmət edirdi*" [27, 56]. T.Mustafazadə də məsələyə eynilə bu cür yanaşır [35, 360]. H.Babaoğlu qeyd edir ki, Ulu Öndər Heydər Əliyev Fransanın xarici siyasətində ermənipərəst xəttin mövcudluğunu diqqətə alaraq prezident kimi ilk rəsmi səfərini bu ölkəyə etdi. Ardınca müəllif fikrinə davam edərək: "*Bu, çox müdrik bir siyasi gediş idi*" – qənaətinə gəlir [8, 551]. Rəsmi səfəri müstəqil Azərbaycanın diplomatiya tarixinin ilk uğurlu səhifəsi adlandıran V.Abdullayevin fikrincə, Prezident Heydər Əliyevin səfəri xalqımızın ağrılı yeri olan Qarabağ probleminin həllində Fransa dövlətinin dəstəyini əldə etməyi nəzərdə tutmuşdu [3, 152-153]. M.Baxışov da məsələyə oxşar mövqedən yanaşaraq yazır ki, rəsmi səfər Ermənistan-Azərbaycan münaqişəsinə ermənilərin mövqeyindən yanaşan Fransa hökumətinin diqqətinin obyektiv səmtə yönəldilməsinə xidmət edirdi: "*1993-cü ilin dekabrında Fransaya rəsmi səfər edən Prezident Heydər Əliyevin məqsədi münaqişəyə münasibətdə Fransanın mövqeyinin dəyişilməsinə nail olmaq idi*" [9, 194]. A.Piriyev isə Azərbaycanın Fransa ilə yaxınlaşmasının 5 konkret səbəbini sadalamaq-

la, milli tarixşünaslıqda, xüsusilə diqqətimizi cəlb edir:

1) Fransada erməni təbliğatı nəticəsində yayılmış şayiələri aradan qaldırmaq;
2) güclü iqtisadi imkanlara sahib fransız şirkətlərini Azərbaycana cəlb etmək;
3) qarşılıqlı təhlükəsizliyi təmin etmək;
4) ikitərəfli və çoxtərəfli əlaqələr yaratmaq;
5) beynəlxalq təşkilatlarda Fransanın gücündən Azərbaycanın mənafeyi üçün istifadə etmək [36, s.259].

Azərbaycan tarixçilərinin mövqelərindən belə qənaətə gəlmək olar ki, Prezident Heydər Əliyevin Qərb dövlətləri arasında məhz Fransaya ilk olaraq rəsmi səfər etməsi heç bir halda təsadüfi olmayıb, tamamilə düşünülmüş və məntiqli bir diplomatik addım idi. Fikrimizcə, bu rəsmi səfər ermənipərəst meyillərin açıq şəkildə özünü büruzə verdiyi aparıcı Avropa ölkəsində yenicə müstəqilliyini bərpa etmiş Azərbaycana qarşı yönələn qüvvələrə həlledici bir zərbə vurmağa, Fransanı, eləcə də onunla oxşar mövqe tuta biləcək digər böyük gücləri Azərbaycanla bağlı məsələlərə həqiqət prizmasından yanaşmağa vadar etməyə yönəlmişdi.

Rəsmi səfərin gedişində iki ölkə liderlərinin Parisdə yerləşən prezident iqamətgahında, yəni Yelisey sarayındakı danışıqları öz əhəmiyyətinə görə Vətən tarixşünaslığında çox vaxt Azərbaycan-Fransa münasibətlərinin dönüş nöqtəsi kimi qiymətləndirilir. İki ölkə arasındakı münasibətlərin əsas istiqamət və perspektivlərinin, Cənubi Qafqazda cərəyan edən hadisələrin müzakirə edildiyi Yelisey görüşləri zamanı bir sıra mühüm sənədlər, o cümlədən 20 dekabr 1993-cü ildə "Fransa və Azərbaycan arasında dostluq, qarşılıqlı anlaşma və əməkdaşlıq haqqında müqavilə" imzalandı ki, bu da siyasi, iqtisadi, hərbi və təhlükəsizlik, elm və təhsil, mədəni sahələrdə qarşılıqlı əməkdaşlıq və tərəfdaşlığın prinsiplərini özündə ehtiva edirdi. 20 maddədən ibarət olan müqavilənin "dostluq" sözü ilə başlaması "Fransa Ermənistanla dost, Azərbaycanla düşməndir" formulunu puça çıxardı, ikitərəfli münasibətlərin normativ-hüquqi bazasının əsası qoyuldu. Azərbaycan, həmçinin "Paris xartiyası"na qoşulmaqla ümumavropa təhlükəsizlik sisteminə doğru ilk böyük addımını atdı. Prezident F.Mitteranın: "*Biz sərhədlərin silah gücünə dəyişdirilməsinə yol vermərik*" – deyə, bəyan etməsi göstərdi ki, Fransa dövləti Azərbaycanın ərazi bütövlüyünə hörmətlə yanaşır [20, 39].

Prezident Heydər Əliyevin Fransaya ilk rəsmi səfərinin mühüm tarixi hadisə kimi Azərbaycan tarixşünaslığında yüksək qiymətləndirilməsinin bir neçə konkret səbəbi var. ***Əvvəla***, bu rəsmi səfər bir çox tarixçilər (məsələn, Ə.Həsənov) tərəfindən Azərbaycan Respublikasının xarici siyasətində Avropa istiqaməti adlanan yeni strategiyanın başlanması kimi nəzərdən keçirilir [21, 82]. ***İkincisi***, M.Qasımlının qeyd etdiyi kimi, Azərbaycan-Fransa mü-

nasibətlərində şübhələrin, etimadsızlığın aradan qalxmağa başlaması baxımından səfərin böyük əhəmiyyəti oldu [27, 58]. ***Üçüncüsü***, sözügedən səfərin yekunlarını təhlil edən əksər tədqiqatçıların vurğuladığı kimi, məhz bu rəsmi səfər nəticəsində Fransa dövləti, fransız ictimaiyyəti ilk dəfə olaraq Azərbaycan haqqında dəqiq, səhih və obyektiv məlumat əldə etmiş oldu və X.Hacıyevanın yazdığı kimi: "*Azərbaycanlıların mədəni, sivil və sülhpərvər xalq olması sübuta yetirildi*" [17, 51]. Bu baxımdan, Vətən tarixşünaslığında V.Abdullayev, İ.Musa və Z.Adıgözəlov kimi tarixçilərin yanaşmaları, xüsusilə diqqəti cəlb edir. Professor V.Abdullayev belə bir haqlı qənaətə gəlir ki, Fransada çoxdan "kök salmış" erməni diasporu və lobbisinin fransız parlamentinin fəaliyyətinə təsirini nəzərə aldıqda, Prezident Heydər Əliyevin səfəri çox önəmli siyasi addım idi [3, 153]. Azərbaycan-Fransa münasibətlərinin inkişafı yolunun qarşısını kəsən erməni diasporu və lobbisini obrazlı şəkildə "erməni hasarı" adlandıran tarixçi İ.Musa məhz 1993-cü ilin dekabr səfəri nəticəsində tərəflərin bu hasarı aşmağa nail ola bildiyini yazır [33, 493]. Müəllif bunu tərəflərin strateji maraqların qarşılıqlı təminatına üstünlük verməsi kimi səciyyələndirir və beləcə, rəsmi səfərin böyük əhəmiyyət kəsb etdiyini diqqətə çatdırır. Z.Adıgözəlov isə Ulu Öndər Heydər Əliyevin ermənilərin üstün mövqelərə malik olduğu ölkələrdən biri olan Fransa ilə sıx siyasi və iqtisadi əlaqələrin qurulmasından çəkinməməsini, ilk xarici səfərini bu ölkəyə etməsini diplomatiya tarixindəki nadir hadisələrdən biri kimi qiymətləndirir [4, 52]. Beləliklə, müəllif rəsmi səfərin misilsiz əhəmiyyəti ilə bağlı Vətən tarixşünaslığındakı yanaşmaları bir daha təsdiq etmiş olur.

Rəsmi səfərdən sonra Azərbaycan-Fransa münasibətlərinin yeni mərhələyə qədəm qoyaraq dinamik tempdə inkişaf etməsi Vətən tarixşünaslığındakı mövqelərin haqlı olduğunu göstərir. Belə ki, səfərdən sonra Ermənistan-Azərbaycan münaqişəsi ilə yaxından maraqlanmağa başlayan Fransa tərəfi 1994-cü ilin yayında öz nümayəndəsi Rolan Blümü ölkəmizə göndərdi. Azərbaycan tərəfi də əlaqələrin genişləndirilməsi məqsədilə növbəti addımlarını atdı: 1994-cü ilin iyulunda Eleonora Hüseynova Azərbaycanın Fransadakı fövqəladə və səlahiyyətli səfiri təyin edildi, bir neçə ay sonra Parisdə Azərbaycan səfirliyi açıldı. Həmin ilin dekabrında ATƏT-in Budapeşt sammitində Dağlıq Qarabağ münaqişəsinə dair sənədlər qəbul edilərkən Fransa obyektiv mövqe tutdu. 1996-cı ilin oktyabrında Bakıya səfər edən Fransa xarici işlər naziri Erve de Şarettin: "*Avropa Atlantikdən başlayıb Xəzərdə qurtarır. Fransa üzünü ayrı-ayrı xalqların qüvvələri nisbətində xüsusi yer tutan strateji bir ölkə kimi Azərbaycana çevirir*" – deyə, bildirməsi isə Fransanın Azərbaycana olan marağının getdikcə artmasını aydın şəkildə təsdiq etdi. 1997-ci ilin 13-15 yanvarında Prezident Heydər Əliyev Parisə növbəti dəfə rəsmi səfər etdi və Fransanın yeni prezidenti Jak Şirak ilə danışıqlar

apardı. Rəsmi səfərin gedişində ölkələr arasında iqtisadi əməkdaşlığın genişlənməsinə zəmin yaradan bir sıra müqavilələr imzalandı. Nəinki Fransanın, eləcə də dünyanın ən böyük neft-qaz şirkətlərindən biri olan “Total” və “Elf Akiten” şirkəti ilə ARDNŞ arasında “Lənkəran dəniz” və “Talış dəniz” neft yataqlarının işlənilməsinə dair müqaviləni bu baxımdan xüsusi qeyd etmək lazımdır. Bu müqavilənin imzalanması hər iki tərəfin qarşılıqlı əlaqələri dərinləşdirmək səylərini göstərirdi. Çünki Azərbaycan hökuməti neft diplomatiyasına ölkəmizin qarşılaşdığı siyasi problemlərin həlli vasitələrindən biri kimi baxırdı. Fransa isə tarixçi İ.Musanın yazdığı kimi, Xəzərin Azərbaycan sektoruna məxsus neftin istismarı və nəqlində iştirak etmək baxımından ABŞ, Böyük Britaniya, Norveç kimi ölkələrdən geri qalmamağa çalışırdı [33, 495]. AR-in beynəlxalq neft müqaviləsinin ilk dəfə olaraq xaricdə, yəni Parisdə imzalanması da məhz qarşılıqlı səylərin nəticəsi idi. 1997-ci ilin yanvarında Fransa ATƏT-in Minsk qrupunun həmsədrlərindən biri oldu. Professor E.Əhmədovun fikrincə, Fransanın həmsədrliyə can atması onun Cənubi Qafqaz regionunda artan maraqlarının göstəricisi idi [11, 73]. 1998-ci ilin aprelində Fransa parlamentinin nümayəndə heyətinin Bakıya gəlişi, 1999-cu ilin aprelində Azərbaycan və Fransa prezidentlərinin Vaşinqtonda, noyabrda isə İstanbulda görüşləri siyasi dialoqu yeni yüzilliyin əvvəllərinə kimi canlı saxladı.

**XXI əsrin ilk rübündə Azərbaycan-Fransa münasibətləri.** XXI əsrin başlanğıcında – 2001-ci ilin 23-27 yanvarında Prezident Heydər Əliyev Fransaya üçüncü dəfə rəsmi səfər edərək Yelisey sarayında Prezident J.Şirakla görüşdü. Səfər zamanı Azərbaycanın Avropa Şurasına (AŞ) tamhüquqlu üzv seçilməsi münasibətilə tədbir keçirildi, AŞ-ın Strasburqdakı mənzil-qərargahı qarşısında üçrəngli bayrağımız qaldırıldı. Əsas məqsədi Avropanın demokratik və təhlükəsiz əraziyə çevrilməsinə kömək etmək, insan hüquqlarının müdafiəsi, üzv dövlətlərin iqtisadi və sosial tərəqqisinə yardım etmək olan AŞ-ın dünyada ən böyük və mötəbər təşkilatlardan biri olduğunu nəzərə alsaq, bu hadisə mühüm diplomatik uğur idi [39]. Rəsmi səfər zamanı Prezident Heydər Əliyev Fransa Senatının qondarma erməni soyqırımının tanınması barədə qərarına sərt tənqidi münasibət bildirdi ki, tarixçi Ə.Abdullayev bunu cəsarətli mövqe kimi qiymətləndirir [2, 88]. Tənqidlərə cavab olaraq Fransa Prezidenti J.Şirak bu məsələnin “*Azərbaycan və Fransa arasında dostluq münasibətlərinə əsla xələl gətirməyəcəyini*” bildirmişdi.

2003-cü ilin oktyabrında Azərbaycanın yeni prezidenti seçilən İlham Əliyev xaricə ilk rəsmi səfərini Parisə etdi. 2004-cü ilin yanvarında baş tutan rəsmi səfər zamanı Prezident İlham Əliyev ilə Fransa Prezidenti Jak Şirak enerji layihələri, Cənubi Qafqazdakı vəziyyət və başqa mühüm məsələlər ətrafında müzakirələr apardılar. Səfər çərçivəsində Prezident İlham Əliyev ölkəmizdə möhkəm siyasi və iqtisadi sabitliyin təmin edilməsindən, əl-

verişli biznes mühitindən bəhs edərək fransız iş adamlarını Azərbaycan iqtisadiyyatına sərmayə qoymağa dəvət etdi. Vətən tarixşünaslığında qeyd olunur ki, bu, tezliklə öz nəticəsini verdi. Professor İ.Vəliyevin qənaətinə görə, məhz rəsmi səfərdən sonra fransızların Azərbaycan iqtisadiyyatına olan marağı xeyli artmış, sənaye, kənd təsərrüfatı, nəqliyyat və digər sahələrdə əməkdaşlığa başlanılmışdı [40, 493]. Ulu Öndər Heydər Əliyev kimi Prezident İlham Əliyevin də xaricə ilk rəsmi səfərini məhz Fransaya etməsi təsadüfi deyildi. Fikrimizcə, bu ilk növbədə BMT TŞ-nin 5 daimi üzvündən biri və ATƏT-in Minsk qrupunun həmsədri olan Fransanın Ermənistan-Azərbaycan münaqişəsinin həlli istiqamətində obyektiv mövqe tutmasını təmin etməyə yönəlmişdi. Rəsmi səfərdən bir neçə ay sonra – 2004-cü ilin iyulunda Fransanın Azərbaycandakı yeni fövqəladə və səlahiyyətli səfiri R.Blatmanın qondarma "Dağlıq Qarabağ Respublikası"nın müstəqilliyinin Fransa Respublikası tərəfindən tanınmadığını bildirməsi və ölkəsinin Azərbaycanın ərazi bütövlüyünə hörmət etdiyini vurğulaması, 2005-ci ilin iyununda DQR-də "seçkilər" keçirməsindən dərhal sonra Fransa XİN-in bu "seçkiləri" qanunsuz hesab etməsi barədə bəyanat verməsi göstərdi ki, Azərbaycan diplomatiyası qarşıya qoyulan məqsədə nail ola bilib.

Azərbaycan Prezidentinin Fransaya müxtəlif səviyyəli səfərləri növbəti illərdə də müntəzəm surətdə davam etdi. Vətən tarixşünaslığındakı əsərlərin müqayisəli təhlili göstərir ki, XXI əsrin ilk onilliklərində Azərbaycan-Fransa dialoqunun ana xəttini Qarabağ münaqişəsinin sülh yolu ilə həlli problemi və iki ölkə arasında hərtərəfli əməkdaşlığa nail olunması təşkil etmişdir. 2007-ci ilin 29-31 yanvarında Parisə dövlət səfəri zamanı Prezident İlham Əliyev Fransa Prezidenti, fransız parlamentinin həm yuxarı (Senat), həm də aşağı palatasının (Milli Assembleya) sədrləri və başqa rəsmi şəxslərlə görüşdü, ikitərəfli əməkdaşlıq məsələləri müzakirə edildi. İki ölkə arasında müxtəlif sahələrdə əməkdaşlığa dair 8 sənəd imzalandı. Səfər zamanı Prezident İlham Əliyev Fransanın ali dövlət mükafatı olan "Fəxri legion" ordeni ilə, Prezident Jak Şirak isə müstəqil Azərbaycanın ən yüksək dövlət mükafatı olan "Heydər Əliyev" ordeni ilə təltif edildi. Bu baxımdan, 2007-ci il səfərinin tarixi əhəmiyyəti Vətən tarixşünaslığında yüksək qiymətləndirilir. Çoxsaylı tədqiqatçılar (Ə.Abdullayev, Ə.Əliyev, Z.Adıgözəlov, İ.Vəliyev) bu hadisəni XXI əsrin əvvəllərində Azərbaycan və Fransa arasında münasibətlərin ən yüksək səviyyədə olduğunu təsdiq edən fakt adlandırır, onu dostluq və əməkdaşlıq əlaqələrinin nümunəsi kimi xarakterizə edirlər [2, 112; 13, 248; 4, 142; 39, 493].

Jak Şirakın Fransaya rəhbərliyi dövründə Azərbaycanla münasibətlərin yüksək səviyyəyə qaldırılması sonrakı prezidentlərin dövründə də ikitərəfli münasibətlərə müsbət təsir göstərdi. Belə ki, Nikolya Sarkozinin prezidentliyi illərində (2007-2012) Senatda Fransa-Qafqaz, Milli Assembleyada

Fransa-Azərbaycan dostluq qrupları yaradıldı, Milli Məclisdə isə Azərbaycan-Fransa dostluq qrupu fəaliyyətə başladı. 2011-ci ilin oktyabrın 7-də Prezident N.Sarkozi Azərbaycana rəsmi səfər etdi və Bakıda Fransız liseyinin əsası qoyuldu. 2013-cü ildə fəaliyyətə başlamış bu liseyi fransalı diplomat P.Mönye iki ölkə arasında yaxın münasibətləri sübut edən nümunələrdən biri adlandırmışdır [16, 8]. Prezident Fransua Ollandın isə 2015-ci ilin aprelin 25-də ölkəmizə rəsmi səfəri zamanı Azərbaycan-Fransız Universitetinin (UFAZ) yaradılmasına dair təşəbbüs irəli sürüldü. Təşəbbüsü yüksək qiymətləndirən Prezident İlham Əliyevin sərəncamı ilə 2016-cı ildə fəaliyyətə başlayan bu ali təhsil müəssisəsi hazırda iki ölkə arasında elm və təhsil sferasında əməkdaşlığın parlaq nümunəsidir. Tarixşünaslıqda Azərbaycan ilə Fransa arasında elm və təhsil sahəsində sözügedən əlaqələr O.Nəsiblinin məqaləsində ayrıca tədqiqat obyektidir [41, 19-21].

Yuxarıda qeyd olunan faktlarla yanaşı, Fransanın xarici siyasətindəki ermənipərəst meyillər də heç bir zaman öz aktuallığını itirmir. Vətən tarixşünaslığında bunun əsas səbəbi erməni diasporu və lobbisi amili ilə izah edilir. Xüsusilə tədqiqatçı Ş.Mustafayevanın fikirləri bu baxımdan diqqəti cəlb edir: "*Fransadakı erməni diasporunun Fransanın siyasi strukturlarına təsiri mexanizmi olduqca mürəkkəb quruluşa malikdir. Fransada ermənilərin səs vermək hüququnun olması, erməni mediasının kifayət qədər geniş imkanları və ictimai fikrə təsir göstərmək iqtidarındadılar. Bunların içərisində ən çox təsir imkanına malik olanlardan biri də seçki kampaniyalarında iştirakdır. Eyni zamanda, prezidentin ətrafında mühüm vəzifələrə malik olan erməni əsilli dövlət qulluqçuları da Fransanın mühüm qərarlar qəbul etməsində yaxından iştirak edirlər*" [34, 18]. Bunu ən çox 44 günlük Vətən müharibəsi və postmüharibə dövründə Fransanın atdığı qeyri-konstruktiv addımlar təsdiq edir. Belə ki, müharibənin başlanmasından sonra açıq-aşkar Ermənistana tərəfkeşlik edən Fransa hökuməti bir neçə dəfə antiazərbaycan xarakterli müxtəlif əsassız iddialar irəli sürmüşdü. Məsələn, Fransa Prezidenti Emmanuel Makron 2020-ci ilin oktyabrın 1-də Brüsseldə belə bir iddia ilə çıxış etmişdi ki, guya Qarabağda gedən müharibədə Suriyadan Türkiyə vasitəsilə bölgəyə daxil olan muzdlular var və onlar Azərbaycan ordusu tərəfində vuruşurlar. Əslində isə Ermənistanın dezinformasiya məqsədilə tirajladığı saxta xəbərə (*fake news*) istinad edilirdi. Çünki Prezident İlham Əliyevin "France 24" telekanalına müsahibəsi zamanı söylədiyi kimi, Fransa Prezidentindən bu iddiaya dair dəlil təqdim etmək xahiş olunduqda, heç bir dəlil təqdim olunmamışdı [14, 332]. İkinci Qarabağ müharibəsinin bitməsindən az sonra – 25 noyabr 2020-ci ildə Fransa Senatında qondarma DQR-in müstəqilliyinin tanınması haqqında qətnamə qəbul edilməsi isə növbəti qərəzli addım oldu. Fransanın tutduğu ermənipərəst mövqeni Vətən tarixşünaslığında sərt tənqid edən tədqiqatçılar (R.Dadaşova, B.Sonam,

R.Sevdimalıyev, E.Sevdimalıyev, M.Baxışov və d.) haqlı olaraq bunu ATƏT-in Minsk qrupunun həmsədri olan bir dövlətin neytrallıq öhdəliyini kobudcasına pozması kimi xarakterizə edirlər [10, 195; 38, 162; 37, 114; 9, 238]. Bununla yanaşı, sonrakı illərdə Fransanın mövqeyində nisbi dəyişikliklər baş verməsi də Azərbaycan tarixşünaslığında qeyd olunur. Məsələn, tarixçi Ü.Məmmədzadə öz monoqrafiyasında yazır ki, 2022-ci ildən başlayaraq Fransa Cənubi Qafqaz regionunda əməkdaşlığın normal şəkildə həyata keçirilməsi üçün cəhdlər göstərməyə başlamış, Azərbaycan və Ermənistan arasında vasitəçilik rolu oynamağa, daha neytral mövqe tutmağa çalışmışdır [32, 193]. Eyni zamanda, postmüharibə dövründə Fransanın Ermənistanı aşkar şəkildə silahlandırması və bir növ revanşist müharibəyə təhrik etməsi də artıq sirr deyil. Bunu cənab Prezident İlham Əliyev 2025-ci ilin martın 13-də yeni dünya düzəninin müzakirə olunduğu XII Qlobal Bakı Forumunda belə ifadə etmişdir: "*Onların (ermənilərin – B.M.) silahlanması göstərir ki, onlar yeni müharibəyə hazırlaşırlar. Kim onları yenidən müharibəyə sürükləyir? Fransa və onun Prezidenti. Onların Ermənistanı təchiz etdiyi məhvedici silahlar bizə qarşı yönəlir. Bu gün başqa yerdə lazım ola biləcək "Sezar" haubitsaları Ermənistana göndərilir*" [43]. Belə bir vəziyyət isə çox təəssüflər olsun ki, Azərbaycan-Fransa münasibətlərinə ciddi zərbə vurur, regionda sabitliyə, sülh və təhlükəsizliyə ciddi təhdid yaratmaqda davam edir.

**Nəticə.** Beləliklə, SSRİ-nin dağılmasından sonra öz müstəqilliyini yenicə bərpa etmiş Azərbaycanın aparıcı dünya dövlətlərindən biri hesab edilən Fransa ilə münasibətləri müstəqilliyimizin ilk vaxtlarından mühüm əhəmiyyət kəsb etməyə başlamışdır. Lakin 1991-1993-cü illərdə iki ölkə arasında münasibətlər əsasən soyuq və passiv olmuş, Azərbaycan hökuməti böyük güc dövlətləri, o cümlədən Fransa ilə uğurlu əlaqələr qura bilməmişdir. Yalnız zəngin dövlətçilik təcrübəsi olan ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ölkəmizin Fransa ilə münasibətlərində qarşılıqlı əməkdaşlıq və tərəfdaşlığa istiqamətlənən əsaslı dönüş baş vermiş, münasibətlər yüksələn trayektoriya ilə inkişaf etməyə başlamışdır. Bu praqmatik xarici siyasət xətti 2003-cü ildən Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməkdədir. Apardığımız təhlillər göstərir ki, Fransanın Azərbaycana münasibəti digər Avropa dövlətlərindən fərqli olaraq qeyri-sabit və dəyişkən xarakterlidir. Bunun isə əsas səbəbi rəsmi Parisin çox vaxt erməni diasporu və lobbisinin təsiri altında xarici siyasət yürütməsi ilə bağlıdır. Azərbaycanın ərazi bütövlüyünü rəsmən dəstəklədiyini dəfələrlə bəyan etməsinə baxmayaraq, Fransanın uzun illər boyunca xalqımızın ağrılı yeri olmuş Qarabağ münaqişəsinə birtərəfli yanaşması Azərbaycan-Fransa münasibətlərinə tarixən mənfi təsir göstərmişdir. 1997-ci ildən ATƏT-in Minsk qrupunun həmsədri olan Fransa tutduğu qərəzli mövqe ilə münaqişənin həl-

linə deyil, sanki uzadılmasına xidmət etmişdir. İkinci Qarabağ müharibəsindən sonra Fransanın Cənubi Qafqaz siyasətindəki açıq ermənipərəst mövqe bunu təsdiq edir. Vətən tarixşünaslığında Azərbaycan-Fransa münasibətləri mühüm bir elmi problem kimi tədqiqat obyektidir və buna görə də çoxsaylı əsərlərdə (monoqrafiya, dərslik, elmi məqalələrdə və s.) öz əksini tapmışdır. Həmin tarixşünaslıq materiallarını birgə surətdə elmi dövriyyəyə cəlb edərək təhlillər aparmaq isə sözügedən problemin daha dərindən araşdırılması baxımından böyük elmi və siyasi əhəmiyyət kəsb edir.

**ƏDƏBİYYAT**


1. 30 tarixi səfər: Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin rəsmi və dövlət səfərləri (1993-2003). - Bakı: CBS, 2013, - 359 s.
2. Abdullayev Ə. Müstəqil Azərbaycan və Fransa. - Bakı: İqtisad Universiteti, 2007, - 209 s.
3. Abdullayev V. Azərbaycan Respublikasının dövlət suverenliyi və yeni diplomatiya məkanı / siyasi elmlər doktoru dis. / – Bakı, 2004. – 317 s.
4. Adıgözəlov Z. Azərbaycan Respublikasının Avropa İttifaqı ölkələri ilə siyasi əlaqələri (1991-2006). - Bakı: CBS PP, 2015, - 200 s.
5. Adıgözəlov Z. Azərbaycan və Fransa münasibətlərinin formalaşması tarixi: siyasi aspekt. Tarix və onun problemləri, №1, 2011, - s.138-145.
6. Arif, E. Geosiyasi maraqların toqquşması kontekstində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi. - Naxçıvan: Əcəmi NPB, 2018, - 384 s.
7. Azərbaycan-Fransa: əməkdaşlığın genişlənməsinə mühüm töhfə. - Bakı: Şərq-Qərb, 1997, - 116 s.
8. Babaoğlu H. Dünya siyasəti və beynəlxalq münasibətlər. - Bakı: Çinar-Çap, 2010, - 587 s.
9. Baxışov M. Fransa Respublikası. - Bakı: Füyuzat, 2024, - 248 s.
10. Dadaşova R. Azərbaycan Respublikasının BMT Təhlükəsizlik Şurasının daimi üzvləri ilə əməkdaşlığı. - Bakı: ADMİU, 2021, - 344 s.
11. Əhmədov E. Azərbaycanın xarici siyasəti: beynəlxalq təhlükəsizlik və əməkdaşlıq institutları ilə münasibətlər. - Bakı: Letterpress, 2013, - 412 s.
12. Əhmədov E. Ermənistanın Azərbaycan təcavüzü və beynəlxalq təşkilatlar. - Bakı: Tuna, 1998, - 138 s.
13. Əliyev Ə. Fransa və fransızlar. - Bakı: Elm və təhsil, 2010, - 339 s.
14. Əliyev İ. İnkişaf – məqsədimizdir. 106-cı kitab. - Bakı: Azərnəşr, 2021, - 392 s.
15. Əsədova N. XX əsrin 90-cı illərində Fransa-Azərbaycan siyasi əməkdaşlığı. Beynəlxalq münasibətlərin aktual problemləri, №1, 2013, - s.24-29.
16. France/Azerbaïdjan, un partenariat de haut niveau. - Paris: CNIM, 2014, - 112 f.
17. Hacıyeva X. Azərbaycan Respublikasının xarici siyasətində aparıcı Qərb dövlətləri və NATO (1991-1995). Tarix e.n. e. dər. al. üçün təq. ol. dis. - Bakı, 2001, - 168 s.
18. Hatamzad Z. Azərbaycan və Fransa dövlətləri arasında əlaqələr. Tarix və onun problemləri, №2, 2013, - s.401-406.
19. Hatamzad Z. Səfəvi-Fransa münasibətləri (XVI-XVIII əsrin əvvəllərində). Tarix üzrə fəls. d-ru e. dər. al. üçün təq. ol. dis. - Bakı, 2015, - 157 s.
20. Heydər Əliyev Azərbaycanı dünyaya tanıdır. Tərt: N.İbrahimov, İ.Şükürov. - Bakı, Azərbaycan, 1994, - 173 s.
21. Həsənov Ə. Azərbaycanın ABŞ və Avropa dövlətləri ilə münasibətləri (1991-1996). - Bakı: Elm, 2000, - 368 s.
22. Həsənov Ə. Azərbaycanın xarici siyasəti: Avropa dövlətləri və ABŞ (1991-1996). - Ba-

kı: Azərnəşr, 1998, - 315 s.
23. İbrahimov M. Sahilyanı dövlətlərin xarici siyasətində Xəzər problemi (XX əsrin sonu–XXI əsrin əvvəlləri). - Bakı: “Turxan” NPB, 2020, - 224 s.
24. İsmayılov İ. Azərbaycanın XX əsrdə Almaniya və Fransa ilə mədəni əlaqələri. - Bakı: Azərbaycan DNA-nın nəşri, 2006, - 79 s.
25. İsmayılov R. Dostluq telləri (Fransa-Azərbaycan ədəbi əlaqələri). - Bakı: Kommunist, 1982, - 67 s.
26. Qasımlı M. Azərbaycan beynəlxalq münasibətlər sistemində: 1991-1995-ci illər. - Bakı: Gənclik, 1996, - 135 s.
27. Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003): 2 hissədə. II hissə. - Bakı: Mütərcim, 2015, - 640 s.
28. Qasımov E. Azərbaycan Respublikasının Qərbi Avropa dövlətləri ilə əlaqələri (Elm, təhsil və mədəniyyət sahəsində, 1991-2005-ci illər). Tarix üzrə fəls. d-ru e. dər. al. üçün təq. ol. dis. - Bakı, 2013, - 197 s.
29. Quliyeva S. Azərbaycan-Fransa münasibətləri (1991-2003-cü illər). Tarix üzrə fəls. d-ru e. dər. al. üçün təq. ol. dis.-nın avtoreferatı. - Bakı, 2024, - 30 s.
30. Məmmədov Ç. Beynəlxalq münasibətlər tarixi. Müasir dövr: iki hissəli. İkinci hissə: Yeni dünya nizamı 1991-2021-ci illər. - Bakı: Elm və təhsil, 2021, - 656 s.
31. Məmmədova N. Azərbaycan-Fransa: mədəni əlaqələr tarixindən. Qobustan, №1, 2015, - s.59-60.
32. Məmmədzadə Ü. Qafqazda liderlik qərinəsi: Heydər Əliyev siyasətinin davamçısı İlham Əliyev. - Bakı: Zərdabi Nəşr, 2023, - 240 s.
33. Musa İ. Azərbaycanın xarici siyasəti. Üç hissədə. Üçüncü hissə. - Bakı: Bakı Universiteti, 2011, - 776 s.
34. Mustafayeva Ş. Fransanın Cənubi Qafqazda geosiyasi maraqları. Siyasi elmlər üzrə fəls. d-ru e. dər. al. üçün təq. ol. dis.-nın avtoreferatı. - Bakı, 2021, - 22 s.
35. Mustafazadə T. XVIII-XXI əsrin əvvəllərində Azərbaycanın beynəlxalq siyasi münasibətləri. - Bakı: Avropa, 2021, - 544 s.
36. Piriyev A. Siyasi strategiya və milli təhlükəsizlik. - Bakı: BDU, 2005, - 545 s.
37. Sevdimalıyev R., Sevdimalıyev E. İkinci Qarabağ müharibəsi və yeni geosiyasi reallıqlar. - Bakı: CBS, 2022, - 352 s.
38. Sonam B. Zəfər – 44 günlük Qarabağ müharibəsi. - Bakı: Adiloğlu, 2022, - 304 s.
39. Vəliyev A. Azərbaycan-Avropa Şurası: demokratiya və insan hüquqları sahəsində əməkdaşlıq. - Bakı: Elm, 2006, - 236 s.
40. Vəliyev İ. Sabitlik və rifah naminə siyasət. - Bakı: Təhsil, 2018, - 672 s.
41. Насибли, О.К. Развитие гуманитарного сотрудничества Азербайджанской и Французской Республик в новейшее время. Colloquium-journal, № 10 (34), 2019, - с.17-21.
42. Тимофеев П.П. Политика Франции на постсоветском пространстве. Современная Европа, № 2, 2013, - с. 86-100.
43. Bakıda “Dünya düzəninin yenidən düşünülməsi: Çağırışların fürsətə çevrilməsi” mövzusunda XII Qlobal Bakı Forumu işə başlayıb - https://president.az/az/articles/view/68323

## АЗЕРБАЙДЖАНО-ФРАНЦУЗСКИЕ ОТНОШЕНИЯ (1991-2025 гг.): АНАЛИЗ ЧЕРЕЗ ПРИЗМУ ОТЕЧЕСТВЕННОЙ ИСТОРИОГРАФИИ

**Баламирза А.МАМЕДЛИ**

### РЕЗЮМЕ

После восстановления государственной независимости одним из приоритетных направлений внешнеполитического курса Азербайджанской Республики стало установление взаимоотношений с передовыми странами Западной Европы, а также с Францией, занимающей важное место в системе международных отношений. Франция, имеющая богатую историю и развитую экономику, относится к числу великих мировых держав. Франция, являющаяся одним из 5 постоянных членов Совета Безопасности ООН, а также Евросоюза, «Большой семерки» и НАТО, является ядерной державой с сильным военным и политическим потенциалом. В современное время невозможно решить какую-либо важную политическую или геополитическую проблему в Европе без участия Франции. По этой причине установление успешных отношений с Францией в политической, экономической, культурной, гуманитарной и других сферах с самого начала являлось одним из приоритетов внешней политики Азербайджанской Республики. В отечественной историографии проблема азербайджано-французских отношений была предметом исследования в трудах многих авторов и рассматривалась в различных аспектах. Среди исследователей проблемы можно назвать имена таких историков и политологов, как М. Гасымлы, А. Абдуллаев, А.Гасанов, В. Абдуллаев, А. Алиев, Х. Гаджиева, З. Адигозалов, С. Гулиева, Ш. Мустафаева, И. Муса, Р. Дадашова и др.

В статье анализируются азербайджано-французские отношения через призму отечественной историографии в хронологических рамках 1991-2025 гг. Это имеет важное научное и политическое значение с точки зрения более точного отслеживания динамики исторического развития отношений двух стран, а также определения их дальнейших перспектив.

**Ключевые слова:** Азербайджанская Республика, Франция, внешняя политика, международные отношения, отечественная историография

## AZERBAIJAN-FRANCE RELATIONS (1991-2025): ANALYSIS THROUGH THE PRISM OF DOMESTIC HISTORIOGRAPHY

**Balamirza A.MAMMADLI**

### SUMMARY

After the restoration of its state independence, one of the priority directions of foreign policy course of Azerbaijan Republic was the establishment mutual relations with the advanced Western European countries, as well as with France, which occupies an important place in the system of international relations. France, which has a rich history and developed economy, is classified as one of the world’s great powers. France, which is one of the 5 permanent members of the UN Security Council, as well as European Union, G7 and NATO, is a nuclear state with a strong military and political potential. In modern times, it is impossible to solve any important political or geopolitical problem in Europe without the

participation of France. For this reason, the establishment of successful relations with France in the political, economic, cultural, humanitarian and other spheres has been one of the priorities of the foreign policy of the Republic of Azerbaijan from the very beginning. In domestic historiography, the problem of Azerbaijan-France relations has been the subject of research in the works of many authors and has been examined in various aspects. Among the researchers of the problem, the names of such historians and political scientists as M.Gasimly, A. Abdullayev, A. Hasanov, V. Abdullayev, A. Aliyev, H. Hajiyeva, Z. Adigozalov, S. Guliyeva, S. Mustafayeva, I. Musa, R. Dadashova and others can be mentioned. The article analyzes Azerbaijani-French relations through the prism of domestic historiography in the chronological framework of 1991-2025. This has important scientific and political significance from the point of view of more accurately tracking the dynamics of the historical development of relations between the two countries, as well as determining their future prospects.

**Keywords:** Azerbaijan Republic, France, foreign policy, international relations, domestic historiography

BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

№1 Humanitar elmlər seriyası 2025

UOT 94 (479.24)

# AZƏRBAYCANDA MEŞƏ, TİKİNTİ MATERİALLARI VƏ MEBEL SƏNAYE SAHƏLƏRİNİN İNKİŞAFI TARİXİNDƏN (2003-2018-Cİ İLLƏR)

**Aytən Ş.CƏFƏRLİ***

*Məqalə Azərbaycanın sənaye tarixinin çox mühüm bir hissəsinə həsr olunmuşdur.2003–2018-ci illəri əhatə edən bu müddət ərzində Azərbaycanda qeyri-neft sektorunun inkişafı istiqamətində həyata keçirilən dövlət siyasəti çərçivəsində mebel və tikinti sənayesi sahələrində mühüm irəliləyişlər müşahidə olunmuşdur. Xüsusilə mebel sənayesində «Saloğlu», «Embawood», «Gəmiqaya», «M-Line» kimi yerli brendlərin fəaliyyətə başlaması və xarici bazarlara çıxması, mebel sərgilərinin təşkili, dövlət dəstəyi və investisiyalar bu sahənin sürətli inkişafına zəmin yaratmışdır. Məqalənin ən mühüm yeniliklərindən biri Azərbaycanın qeyri-neft sektorunda meşə və tikinti sənayesinin xüsusi çəkisinin araşdırılması olmuşdur.*

*Mebellə yanaşı olaraq, tikinti sənaye sahəsində də «Qaradağ Sement», «Holcim–Azərbaycan», «Azbetonid» kimi nəhəng yerli kapitala əsaslanan müəssisələrin yaradılması, müasir texnologiyaların tətbiqi və daxili tələbatın ödənilməsi ilə yanaşı, regional iqtisadiyyatın inkişafına da ciddi töhfə vermişdir. Dövlətin yerli sahibkarlara verdiyi dəstək nəticəsində bu sahələrdə minlərlə insan daimi işlə təmin olunmuş, iqtisadiyyatın dayanıqlı və şaxələndirilmiş inkişafı təmin edilmişdir.*

*Bu dövr ərzində mebel və tikinti sənayeləri Azərbaycanın qeyri-neft iqtisadiyyatının dinamik aparıcı sahələrindən birinə çevrildi. Bu sahələrin inkişafı minlərlə yeni iş yeri yaratmaqla yanaşı, ölkənin ixrac potensialını gücləndirdi və regional inkişafın mühüm dayağı oldu.*

**Açar sözlər:** Azərbaycanın qeyri-neft sənayesi, regionların sosial-iqtisadi inkişafı, sənaye məhəlləsi, iqtisadiyyat

**Giriş.** Sənayenin qeyri-neft sahələri içərisində meşə sənayesi xammal təminatından asılı olan əsas sahələrdən biridir. Azərbaycanda sənayenin bəhs olunan bu sahəsi öz inkişafı, çoxçeşidli məhsul istehsalı üçün ağac ehtiyatlarının zəngliyi ilə seçilir. Təkcə Azərbaycanın deyil, Naxçıvan Muxtar Vilayətinin, Böyük və Kiçik Qafqazın ərazisi də meşə ehtiyatları ilə zəngindir. Ölkəmizdə meşə sənayesinin əsas inkişaf istiqamətləri kimi mebel və tikinti materiallarının istehsalı sahələri xüsusilə fərqlənir. Sənayenin bu sahə-

* Bakı Dövlət Universitetnin doktorantı; Aytenjafarli@bsu.edu.az; ORCİD:0009-0002-8122-6070

sinin inkişafı bir sıra əlverişli şərtlərin yerinə yetirilməsindən asılıdır: Birinci şərt odur ki, həmin bölgədə zəngin meşə ehtiyatları mövcud olmalıdır; meşə ağaclarının mebel və tikinti sənayesi üçün yararlı olub-olmaması müəyyənləşdirilməlidir; həmin ağacların sənayedə tətbiq edilməsi üçün modern texnikalar və maşınlar olmalıdır; istehsalın həyata keçirilməsi üçün mütəxəssis işçi qrupu və məhsulları satışa çıxarmaq üçün tələbata uyğun bazar olmalıdır [18, 4-5].

**Qeyri-neft sənayesinin inkişafında Dövlət proqramlarının tətbiqi.** Respublikanın Prezidenti cənab İlham Əliyev prezident seçildiyi ilk ildən başlayaraq qeyri-neft sənayesinin, xüsusilə də meşə sənayesinin inkişafına mühüm diqqət ayırmış və 2003-cü ildən başlayaraq meşə sənayesi sürətli bir şəkildə yeni inkişaf mərhələsinə keçmişdir. 2004-cü il fevral ayında respublika rəhbəri tərəfindən qəbul edilmiş və növbəti 4 ili əhatə edən "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası çərçivəsində Naxçıvan Muxtar vilayətində 2005-ci ildə "Naxçıvan mebel fabriki sənaye kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyəti yenidən təkmilləşdirilmiş şəkildə fəaliyyətə başladı. Bu MMC-nin müəssisəsində müxtəlif növ yumşaq və digər mebellər, taxtadan hazırlanmış qapılar Muxtar vilayətdə əhalinin qeyd olunan məhsullara tələbatını, demək olar ki, tamamilə ödəyirdi [4, 3].

Proqram çərçivəsində prezident İlham Əliyev Yevlax rayonunda yerləşən “Rövşən-Oğuz” şirkətlər qrupuna məxsus olan “Arfa” Mebel Fabriki ilə tanış olmuşdu. Həmin fabrik 2006-cı ildə fəaliyyətə başlasa da, respublikanın 20 regionunda 30-dan çox mağazaya malikdir. Mebel fabrikində istifadə olunan avadanlıqlar İtaliya və Almaniyadan gətirilmişdir. Buna görə də burada istehsal olunan mebellər öz keyfiyyətinə görə fərqlənir [10, 90]. Hətta mebellərin aksesuarları belə bir sıra Avropa ölkələrindən gətirilir. Əminliklə, demək olar ki, istehsal olunan məhsullar əhalinin mövcud tələbatını tamamilə ödəyir.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyev daima iqtisadiyyatın neftdən asılılığını minimuma endirməyə çalışırdı. Bu məqsədlə daima yerli sahibkarlarla görüşmüş, onlara lazım olan dəstəyi və qayğını hiss etdirmişdir. Belə görüşlərdən biri 2004-cü ildə Bakı Biznes Mərkəzində olmuşdur.

Bunun nəticəsi olaraq qeyd etmək istərdim ki, meşə sənayesinə aid olan müəssisələr bir-birinin ardınca fəaliyyət göstərməyə başlamışdılar. Belə müəssisələrdən biri "Saloğlu" mebel fabrikidir ki, bu müəssisə 2000-ci ildə fəaliyyətə başlamışdır. "Saloğlu" mebel fabrikinin istehsal etmiş olduğu mebellər "İSO-9001" dünya standartına malikdir. Fabrikdə istehsal edilən texnikalar və bəzi vacib xammal məhsulları qardaş ölkə Türkiyədən gətirilmişdi. Müxtəlif yararlı meşə ağaclarından hazırlanmış mebellər nəinki daxili tə-

ləbatı ödəyir, hətta bir sıra ölkələrə, xüsusilə Qazaxıstan, Rusiya və Gürcüstan bazarlarına da satışa çıxarılır [21,12]. “Saloğlu” mebel fabriki yaradıldıqdan bir müddət sonra onun nəzdində bir sıra daha kiçik mebel fabrikləri yaradıldı. Onlardan biri 2017-ci ildə “Modern” mebel fabriki olmuşdur. 2015-ci ildən əsası qoyulsa da 2017-ci ildə fabrikin açılışı olmuşdur. Fabrik laminatların kəsilməsi, mebellər üçün lazım olan zəruri hissələrin yaradılması, yumşaq mebellər üçün vacib olan konstruktorların qurulması, yataq, qonaq, dəhliz və s. mebellərinin hazırlanması üçün müasir avadanlıqlarla təchiz edilmişdir. Belə bir fabrikin Ağstafa bölgəsində açılması bölgədə 200-ə yaxın insanın daimi işlə təmin olunması üçün də mühüm rol oynamışdır. Bu fabrikin istifadəyə verilməsi ümumilikdə Qərb regionun iqtisadi inkişafında mühüm rol oynamışdır. Bundan başqa “Saloğlu” müəssisəsinin nəzdində 2017-ci ildə daha bir mebel fabriki açılmışdır. “Venzana” mebel fabriki adlanan bu müəssisə istehsal etmiş olduğu məhsulları daxili bazarı ödədikdən sonra, Avropanın bir sıra inkişaf etmiş ölkələrinə də ixrac etməyi nəzərdə tutmuşdur. Bu layihənin icra edilməsi nəticəsində 2500-ə yaxın insanın işlə təmin olunması nəzərdə tutulmuşdu [20, 12].

Ümummilli lider Heydər Əliyevin əsasını qoymuş olduğu bu strategiya respublika prezidenti İlham Əliyev tərəfindən də davam etdirilmişdir. Bunu hələ əsası 1996-cı ildən qoyulmuş “Embawood” şirkətinin timsalında da görmək olar. Azərbaycan Respublikasının prezidenti İlham Əliyev ölkəmizdə yerli sahibkarlığın inkişafına önəmli yer verirdi. Bunu prezidentin çıxışlarından birində dediyi fikirlər də bir daha təsdiqləmiş olur: *“... Azərbaycanda güclü biznes qurumları yaranır və mən də bunu çox alqışlayıram. İstəyirəm ki, ölkəmizdə bizneslə məşğul olan bir çox güclü şirkətlər olsun. Onlar həm ölkəmizin iqtisadi potensialına öz töhfəsini versinlər, həm də dünya bazarlarına çıxsınlar, başqa ölkələrdə layihələrdə iştirak etsinlər. Əlbəttə ki, biz dövlət tərəfindən gələcəkdə də bunu təşviq edəcəyik”* [3, 5]. Bu qayğıdan bəhrələnərək yeni inkişaf mərhələsinə başlamış müəssisə “Embavood” MMC-nin Masallı mebel fabrikidir ki, burada il ərzində 40 min dəst mebel istehsal edilir [25].

Əsası qoyulduqdan 2 il sonra “Embawood” şirkəti dünya mebel brendərinin Azərbaycandakı idxalçısına çevrildi. Yeni xarici investorları cəlb edərək bu sahədə fəaliyyətini daha da genişləndirdi. Buna misal olaraq 2010-cu ildə alman şirkəti birgə layihəsini misal göstərmək olar [7, 5].

Ümumiyyətlə, bu sənaye sahəsinin inkişaf etdirilməsi üçün, onu daha yaxşı bir inkişaf mərhələsinə çatdırmaq üçün mühüm tədbirlər görülmüşdür ki, onlardan ən vaciblərindən biri mebel sərgilərinin təşkil olunmasıdır. Belə sərgilərin təşkil olunmasının bir çox müsbət cəhətləri var. Belə ki, ilk olaraq xarici istehsalat malları ilə tanış olan digər müəssisələrdə rəqabət daha da artacaq bu da məhsulların keyfiyyətinin artmasına gətirib çıxardacaq. Daha

sonra xarici investorların bu sahəyə maraqlarını cəlb edərək, birgə əməkdaşlıqlar yaranacaq. Belə böyük sərgilərdən biri 2008-ci ilin fevral ayında Bakıda keçirildi. Sərgidə dünyanın 9 ölkəsindən iştirakçılar var idi və hər bir şirkət öz məhsullarını nümayiş etdiridilər. Azərbaycanın mebel şirkətləri də sərgidə iştirak edirdilər [5,6]. Bu da yuxarıda qeyd etdiyim kimi rəqabətin artmasına gətirən əsas nüanslardan biridir.

Ölkəmizdə mebel sahəsində yuxarıda sadaladığımız şirkətlərlə yanaşı daha böyük bir müəssisənin də adını çəkmək istərdim. Bu müəssisə Naxçıvan Muxtar Respublikasında yerləşən “Gəmiqaya Mebel Fabriki” Məhdud Məsuliyyətli Cəmiyyətinə məxsus olan elə eyni adlı mebel fabrikidir. Fabrik 2010-cu ildə fəaliyyətə başlasa da tez bir zamanda çoxçeşidli və keyfiyyətli məhsulların istehsalı ilə seçilirdi. Dünyanın bir sıra inkişaf etmiş ölkələrindən müasir avadanlıqlar alaraq fabrikdə istehsalata cəlb edən müəssisədə həm yumşaq mebellər, həm ofis, mətbəx, qonaq və s. mebellər istehsal olunur. Türkiyənin “Elektroteks” və “İMS Makina” şirkəti ilə bağlanmış müqaviləyə əsasən Yeni avadanlıqlar alınaraq və həmin şirkətin mütəxəssisləri tərəfindən də quraşdırılmışdı. Təzə qurulan bu istehsal sahəsinin gücü saatda yüz ədəd döşək və 100 ədəd yastıq istehsalına bərabər idi [26]. Hal-hazırda bu mebəl fabrikinin məhsulları təkcə Naxçıvanda deyil, bütün ölkə üzrə əhalinin tələbatını ödəməyə çatacaq səviyyədədir.

Azərbaycan dövlətinin sahibkarlara güzəştli kreditlər verməsi hesabına sonrakı illərdə bir sıra yeni mebel müəssisələri də fəaliyyətə başlamışdı. Belə dövlətin güzəştli krediti hesabına açılmış olan müəssisələrdən biri də Hökməlidə yerləşən "M-Line" şirkətinə aid olan mebel fabrikidir. Bu müəssisədə də yüksək keyfiyyətli ev, ofis, xəstəxana, muzey, otel və s. inzibati əhəmiyyətli binalar üçün istehsal olunan mebəllər həm yerli, həm də xarici bazar üçün nəzərdə tutulmuşdur. Bu şirkətin mebel fabirikində istehsal olunan mebeller xüsusi keyfiyyətliliyi ilə seçilirlər. Məhsullar daha uzunömrlü və davamlıdırlar. Fabrikdə təbii ağacla yanaşı, MDF-dən, laminə edilmiş MDF-dən, təbii və süni boyalı, laklı mebellər istehsal olunur. İstehsal olunan mebellərin xammala olan tələbatını ödəmək üçün məhsullar Almaniya, Kanada, Brazilya və başqa ölkələrdən respublikamıza gətirilir. Həmin gətiriən xammalın saxlanılması üçün fabrikin ərazisində 2 ədəd böyük anbar tikilmişdir [22, 1-2].

Respublika ərazisində 2003-cü ildən 2018-ci ilə qədər olan dövr ərzində mebel istehsal edən müəssisələrin sayını aşağıdakı statistik cədvəldən daha ətraflı şəkildə öyrənə bilərik [24].

Cədvəlin təhlilindən aydın olur ki, 2003-2018-ci illər ərzində 2009-cu ilə qədər artım müşahidə olunsa da, 2009-2015-ci illər ərzində istehsal müəssisələrinin sayında azalma müşahidə olunmuşdur. 2015-ci ildən isə bir neçə il ərzində müəssisələrin sayı stabil olaraq qalmışdır.

**Cədvəl 1**

| Mebel istehsal edən müəssisələrin sayı (illər üzrə) | |
|---|---|
| 2003-cü ildə | 62 |
| 2004-cü ildə | 70 |
| 2005-ci ildə | 87 |
| 2006-cı ildə | 90 |
| 2007-ci ildə | 95 |
| 2008-ci ildə | 97 |
| 2009-cu ildə | 94 |
| 2010-cu ildə | 85 |
| 2011-ci ildə | 77 |
| 2012-ci ildə | 72 |
| 2013-cü ildə | 84 |
| 2014-cü ildə | 94 |
| 2015-ci ildə | 97 |
| 2016-cı ildə | 97 |
| 2017-ci ildə | 97 |
| 2018-ci ildə | 92 |

Neft sənayesi ilə yanaşı, sənayenin-qeyri neft sahələri, xüsusilə də bizi maraqlandıran meşə sənayesinin inkişafında da digər dövlətlərlə əməkdaşlıq mühüm yer təşkil edir. Bu sahədə Prezident İlham Əliyevin 2014-cü ildə vermiş olduğu fərmanında bu məsələni daha da aydın görmək olar. "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Fransa Respublikasının Kənd Təsərrüfatı, Ərzaq Emalı Sənayesi və Meşəçilik Nazirliyi arasında əməkdaşlıq haqqında" Anlaşma Memorandumunun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Fransa Respublikasının Kənd Təsərrüfatı, Ərzaq Emalı Sənayesi və Meşəçilik Nazirliyi arasında əməkdaşlıq haqqında" 2014-cü ildə mayın 12-də Bakıda imzalanmış olan bu müqavilə təsdiq edilirdi ki, mebel sahəsində təcrübələrin qarşılıqlı şəkildə paylaşılması, xammal və hazır məhsulun dövriyyəsi üçün çox önəmlidir [1, 4].

**Yeni sənaye məhəllələrinin yaradılması.** Sənaye sahələrinin inkişafında sənaye məhəllələrinin yaradılması da mühüm əhəmiyyət kəsb edir. Amma mebel sənayesi haqqında danışarkən sənaye məhəllələrindən çox bəhs edə bilmirik. Çünki bu sahədə işlər daha ləng gedirdi. Ona görə də mebel sənayesində ilk sənaye məhəlləsi 2018-ci ildə Masallı rayonunda yaradılmışdı.

Bu cür sənaye məhəllələrinin olması regionlarda sahibkarlıq inkişafının genişləndirilməsi üçün, istehsalın həcminin artırılması və s. baxımından olduqca çox vacibdir. Bununla yanaşı, təkcə yuxarıda sadalananlar deyil, həmçinin sənaye məhəllələrinin olması sahibkarlar arasında olan kooperasiya əlaqələrinin də güclənməsinə şərait yaradır. Bu baxımdan respublika pre-

zidentinin bu sahəyə yönəlmiş sərəncamları ilə Neftçala, Masallı, Sabirabad və Hacıqabulda da yeni-yeni sənaye məhəllələri yaradılmışdı. 2016-cı ildə yaradılmış olan Masallı sənaye məhəlləsinin ümumi ərazisi 10 ha-dır. Burada dövlətin dəstəyi ilə müxtəlif mebel və onların hissələrinin istesalı üçün nəzərdə tutulan 5 müəssisə qurulmuşdur. Bütövlükdə bu layihələrin həyata keçirilməsi məqsədi ilə sahibkarlar tərəfindən 3.5 milyon manatdan artıq investisiya yatırılmışdı. Burada, həmçinin məhəlləyə daxil olan digər bir müəssiə olan «Perla» MMC döşək və metal yay istehsalı ilə fərqlənir. Bu fabrikin illik dövriyyəsi 3 milyon manat nəzərdə tutulmuşdur [15, 129-131].

Masallı sənaye məhəlləsinin digər bir müəssisəsi isə uşaq və mətbəx mebelinin istehsalı ilə məşğul olan və fiziki şəxs S.Qurbanov tərəfindən yaradılmış “Mikayıloğlu” brendidir. Müəssisə 2018-ci ilin avqust ayında fəaliyyətə başlamışdır və müəssisənin illik dövriyyəsi 180 min manatdır. Digər bir müəssisə isə “Birlik-3A” MMC sənaye məhəlləsində öz istehsal etdiyi məhsula görə digərlərindən kəskin şəkildə fərqlənirdi. Bu müəssisə xüsusi taxta evlər üzrə ixtisaslaşmışdır. Bir ay ərzində müəssisədə 3 taxta ev hazırlanır ki, bunun da ümumi investisiya məbləği beş yüz min manatdır [15, 132-133].

Prezident İlham Əliyev Masallı Sənaye Məhəlləsinin açılış mərasimində iştirak etmişdir və onun açılışdakı nitqindən bir daha sənayenin qeyri-neft sahələrinə, xüsusilə meşə sənayesinə vermiş olduğu önəmi aydın şəkildə görmək mümkündür: *“Biz indi sənaye məhəlləsinin birinci mərhələsini işə salırıq. Ərazi kifayət qədər genişdir və gələcəkdə burada əlavə korpuslar tikiləcək. Mən əminəm ki, burada minlərlə insan işlə təmin olunacaq və eyni zamanda, biz idxaldan asılılığı da azaldacağıq. Bölgələrdə sənaye məhəllələrinin yaradılması təşəbbüsü çox düzgün bir addım idi. Artıq həyat bunu göstərir. Bir neçə rayonda, o cümlədən Masallı rayonunda belə məhəllələr, sənaye parkları yaradılıb. Biz bundan əvvəl Sumqayıtda, Mingəçevirdə, Neftçalada belə mərkəzlərin açılışını qeyd etmişik, bu gün isə Masallıda qeyd edirik. Hacıqabul və Sabirabad rayonlarında sənaye zonalarının yaradılması prosesi gedir. Bu ilk növbədə, dövlətin siyasətini göstərir. Çünki dövlət buraya əsas vəsaiti qoyan tərəfdir. Bütövlükdə ölkəmizdə sənayeləşmə ilə bağlı siyasət uğurla davam etdirilir. Təkcə onu demək kifayətdir ki, bu ilin 8 ayında ölkəmizin qeyri-neft sənayesi təxminən 11 faiz artıb. Bu çox böyük göstəricidir və doğrudan da göstərir ki, bu sahədə nə qədər böyük işlər görülüb və görüləcəkdir”* [15, 132-133].

Çıxışdan aydın olur ki, Azərbaycanda sənayenin bu sahəsini inkişaf etdirmək üçün olduqca çox imkanlar var. Bunun üçün müəyyən həvəsləndirici, stimulverici tədbirlər görmək lazımdır. Ona görə də sahibkarlara müəyyən güzəştlər edilməlisi də bu baxımdan yaxşı addım hesab olunur.

İlham Əliyev siyasi kursu olan qeyri-neft sektorunun inkişafına yönəlmiş bu siyasət tikinti sahəsində də bir çox uğurların atılmasına səbəb olmuş-

dur. Bəhs olunan dövrdə Azərbaycanda tikinti sahəsində sürətli inkişaf nəzərdən qaçmır. Bu inkişaf xammal ehtiyatlarının əlçatan olmasının, yerli və xarici yatırımlar üçün əlverişli şəraitin qurulmasının nəticəsidir. Tikinti sənayesi ölkəmizdə hələ Sovet hakimiyyəti dövründən etibarən yaransa da, 1990-cı illərdə baş vermiş olan vəziyyətlə əlaqədar müəyyən tənəzzül dövrü keçirmişdir. Ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə təkrar yenidən tikinti sahəsində özünü büruzə verən bu inkişaf 2003-cü ildən prezident İlham Əliyevin hakimiyyəti dövründən isə yeni mərhələsinə qədəm qoymuşdur. Tikinti sənayesinin inkişafında aşağıdakı statistik cədvələ nəzər salsaq tikinti sektoruna yönəlmiş investisiyaları daha aydın şəkildə görə bilərik:

**Cədvəl 2**

| Azərbaycanda tikinti sektoruna yönəldilən investisiyaların həcmi (illər üzrə) | İnvestisiyaların həcmi (manatla) | tikinti işlərinin həcmi (manatla) |
|---|---|---|
| 2003-cü ildə | 1.7 milyard | 900 milyon |
| 2004-cü ildə | 2.5 milyard | 1.4 milyard |
| 2005-ci ildə | 3.1 milyard | 1.56 milyard |
| 2008-ci ildə | 6 milyard | 3.8 milyard |
| 2010-cu ildə | 6.6 milyard | 4.5 milyard |
| 2011-ci ildə | 7.8 milyard | 6.1 milyard |
| 2012-ci ildə | 15.3 milyard | 7.6 milyard |

Cədvəlin təhlilindən aydın olur ki, bəhs olunan illər ərzində respublikamızda tikinti işlərinin həcmi 8 dəfəyə qədər artmış və nəticədə iqtisadiyyatın bu sahəsi xüsusi inkişaf tempinə daxil olmuşdur [17,10].

**Tikinti sənayesinin yenidən bərpası.** Tikinti sanəyesində nəzərə çarpan bu inkişaf ilk olaraq tikinti məhsullarını istehsal edən sənayenin yaranması ilə bağlıdır. Bu illərdə ölkəmizdə təkcə tikinti sənayesi zavodları deyil, həm də müasir standartlara cavab verən tikinti materialları istehsal edən müəssisələrdə tikilib fəaliyyətə başlamışdır [17, 10]. Bu cür müəssisələrdən biri də məhz 2003-cü ildən istifadəyə verilən Kərpic zavodudur. Zavod Siyəzən rayonunda yerləşir və qeyd etmək istərdim ki, bu zavod istifadəyə verilən gündən etibarən tikilən evlərin əksəriyyətində məhz bu zavodun məhsullarından istifadə olunmuşdur. Zavodun istehsal gücü əhalinin daxili tələbatını ödəməyə, demək olar ki, tamamilə uyğundur [8, 281]. Bəhs olunan dövrün əvvəli ilə müqayisədə 2007 və 2008-ci illərdə artıq öz istehsal həcminə görə tikinti materilları istehsalı ən yüksək səviyyəsinə çatmışdır. Hətta 2009-cu ildə dünyanda baş verən iqtisadi böhran zamanı tikinti materialların istehsalının həcmində heç bir azalma hallarına rast gəlinməmiş, əksinə daha da artım müşahidə olunmuşdur. Hal-hazırda ölkəmizdə 2003-cü illə müqayisədə bu müəssisələrin sayında xeyli sayda artım vardır və onu da qeyd et-

mək istərdim ki, əgər 2003-cü ildə bu müəssisələr daha çox xarici şirkətlərin yatırımları və ya onlarla ortaqlıq şəraitində mövcud olurdusa, artıq bugün vəziyyət köklü şəkildə dəyişmiş və yerli şirkətlərin rolu ön plana çıxmışdır [17, 10]. Tikinti sənayesi üçün önəmli yerə sahib olan digər bir müəssisə isə "Azbetonid" zavodu olmuşdur. Zavod öz fəaliyyətinə 2004-cü ildə başlamışdır [9, 146]. Zavodda beton üçün lazım olan məmulatlar da istehsal olunur ki, bu da, demək olar ki, tikintinin əsas hissəsini təşkil edir.

Əsası 1951-ci ildə qoyulmuş olan "Qaradağ" sement zavodu, 1999-cu ildə özəlləşdirilərək 2009-cu ildə onun bazasında yeni, təkmilləşdirilmiş "Qaradağ sement"ASC -nin əsası qoyulmuşdur. Bu zavodda uzunömürlü, əla keyfiyyətli, istər yerli, istərsə də beynəlxalq standartlara cavab verən məhsullar istehsal olunmaqdadır. Zavod ildə 1.3 milyon tondan artıq sement istehsal edir [11, 275]. 2012-ci ildə isə Qaradağ rayonunda"Holcim–Azərbaycan" ASC-nin yeni sement zavodu fəaliyyətə başlamışdı. Bu zavod müasir avadanlıqlarla təchiz olunmuşdu. 2014-cü ildə daha bir sement zavodu fəaliyyətə başladı. Bu müəssisə təkcə Azərbaycanda deyil, Cənubi Qafqazda da sement istehsalı ilə məşğul olan müəssisədir. Zavodun istehsala başlaması ilə sement istehsalının həcmi 2 dəfəyə qədər artmışdı. Üç çeşiddə bu zavodda sement istehsal olunurdu [12, 52].

2016-cı ildə Qaradağ rayonunda daha yeni bir tikinti materialı istehsal edən şirkət fəaliyyətə başladı. «Mətanət-A» şirkətinə məxsus olan yeni Ağdağ Gips Zavodu fəaliyyət göstərməyə başladı. Bu şirkətin tərkibində 5 zavod – Quru inşaat qarışıqları zavodu (illik istehsal gücü 100 min ton), Boya zavodu (5 min ton), Beton qatqıları zavodu (5 min ton), Gips hörgü bloku zavodu (250 min kvadratmetr) və Ağdağ Gips Zavodu (250 min ton) fəaliyyət göstərir. Azərbaycan brendi adı altında satışa çıxarılan bu tikinti məhsuları yüksək standartlara cavab verir [13, 220].

Tikinti sənayesinin sahələri içərisində şüşə istehsalı ən az inkişaf etmiş sahələrdəndir. Sovet hakimiyyəti dövründə fəaliyyətə başlayan Naxçıvan Şüşə zavodu, 1990-cı illərdə fəaliyyət göstərən Sumqayıt Şüşə Zavodu da öz fəaliyyətini də dayandırdı [6, 6].

Tikinti sənayesinin hüquqi aspektdən tənzimlənməsi digər sahələrdə olduğu kimi mühüm əhəmiyyətə malikdir. Lakin digər sahələrlə müqayisədə bu sahədə normativ-hüquqi mexanizmlərin tətbiqi o qədər də intensiv deyil. Bu istiqamətdə əsas hüquqi sənədlərdən biri Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14 aprel 2014-cü il tarixli, 103 nömrəli qərarı ilə təsdiqlənmiş "Tikinti materialları və məmulatlarının sertifikatlaşdırılmasını həyata keçirən laboratoriyaların, eləcə də sınaq laboratoriyalarının akkreditasiyası Qaydaları" hesab olunur. Bu qərar əsasında tikinti materiallarının keyfiyyətli istehsalına nəzarət gücləndirilmiş və müəssisələr qarşısında konkret məsuliyyət qoyulmuşdur. Digər mühüm normativ sənəd isə Nazirlər Kabinetinin

3 fevral 2015-ci il tarixində qəbul etdiyi 27 nömrəli qərarla təsdiqlənmiş "Tikinti materialları və məmulatlarının standartlara uyğunluğunun yoxlanılması Qaydaları"dır. Bu sənəd, əvvəlki hüquqi aktın davamı olaraq normativ bazanı daha da möhkəmləndirmişdir. Müvafiq hüquqi akt üç istiqamətdə qanunvericiliklə tənzimlənir [2,2].

2014-cü ildən başlayaraq, Azərbaycan iqtisadiyyatının inkişafında qeyri-neft sektorunun, xüsusilə tikinti sənayesinin xüsusi çəkisi artmağa başlamışdır. Sürətli templərlə inkişaf edən müasir Azərbaycan bu gün bir çox sahələr üzrə dünya miqyasında nüfuzlu dövlətlər sırasında yer almaqdadır. İcrasına başlanılan layihələr və görülən işlər bu inkişafın canlı sübutudur. Prezident İlham Əliyevin məqsədyönlü və strateji xarici siyasəti nəticəsində ölkədə özəl sektor yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Prezident özəl sektorun əhəmiyyətini vurğulayaraq qeyd etmişdir: *"Ölkəmizin tərəqqisi üçün sahibkarlığın gücləndirilməsi mühüm əhəmiyyət daşıyır. Bu, sadəcə bir bəyanat deyil, biz hər gün bu istiqamətdə praktik addımlar atırıq. Mən sahibkarlarla həm paytaxtda, həm də regionlarda daimi təmasdayam. Dövlət, sahibkarlığın inkişafı üçün bütün imkanları səfərbər etmişdir. Normal biznes mühitində fəaliyyət göstərən sahibkarlıq subyektləri gələcək inkişafın əsas təməlidir. Hazırda iqtisadiyyatımızın 80 faizindən çoxu məhz özəl sektorun payına düşür ki, bu da böyük nailiyyətdir"* [16, 6].

2014-cü il ərzində ölkədə 230-dan çox sənaye müəssisəsi fəaliyyətə başlamışdır. Bu müəssisələr müasir texnologiya və avadanlıqlarla təchiz olunmuşdur. "Norm" sement zavodu, kağız və karton istehsalı müəssisəsi, kərpic, asfalt və metal konstruksiya zavodları bunlara misal ola bilər. Prezident İlham Əliyevin bu müəssisələrin təməlqoyma və açılış mərasimlərində iştirak etməsi, verdiyi tövsiyə və tapşırıqlar sənayenin inkişafına göstərilən ali səviyyəli diqqətin təzahürüdür [19, 2].

Kağız istehsalı və onun poliqrafiya sektoruna tətbiqi bu sahənin bir qolunu təşkil edir. Bu sahədə fəaliyyət göstərən müəssisələr həm tutum, həm əməkdaş sayı, həm də istehsal gücünə görə kiçik biznes kateqoriyasına aiddirlər. 2003–2018-ci illər ərzində kağız və karton istehsalı müəssisələrinin say göstəricilərinə baxdıqda artan və azalan dinamika müşahidə edilir. Məsələn, bu rəqəm 2003-cü ildə 13, 2006-cı ildə 17, 2008-ci ildə 23, 2015-ci ildə 23, 2018-ci ildə isə 28 olmuşdur. Poliqrafiya sahəsində də bənzər dinamika müşahidə olunur. 2003-cü ildə bu sahədə 139 müəssisə fəaliyyət göstərirdisə, 2006-cı ildə bu rəqəm 188, 2009-cu ildən 2011-ci ilə qədər isə sabit olaraq 200 təşkil etmişdir. 2018-ci ildə isə müəssisələrin sayı 150 olmuşdur. Bu göstəricilərdən də göründüyü kimi, müəssisələrin kiçik miqyasda olmasına baxmayaraq onların ümumi sayı kifayət qədər çoxdur [24].

Regionların sosial-iqtisadi inkişaf proqramına uyğun olaraq 2016-cı ilin 26 iyul tarixində İsmayıllı rayonunun Xanagah kəndi yaxınlığında "Ti-

kinti-27" ASC tərəfindən tikinti materialları kombinatı istifadəyə verilmişdir. Burada saatda 100 kubmetr beton, 120 ton qum və çınqıl istehsal edilir. Müəssisədə, həmçinin metal dam örtükləri və kirəmit formalı dəmir örtüklərin istehsalı həyata keçirilir [23, 1].

2016-cı il oktyabrın 19-da Ağstafa şəhərində yerləşən "Karvan-L EKO" Sənaye Parkında 11 müəssisə və 1 istixana kompleksi fəaliyyətə başlamışdır. Bu park çərçivəsində keramika dam örtükləri, şüşə qablar və müxtəlif növ inşaat materialları istehsal edilir. Tikinti sahəsinin digər mühüm istiqamətlərindən biri də ağac emalı və ağac konstruksiyaların istehsalıdır. 2003-cü ildə bu sahədə 71 müəssisə fəaliyyət göstərirdisə, bu rəqəm 2018-ci ildə 45 olmuşdur. 2013–2016-cı illərdə müəssisələrin sayında azalma müşahidə edilsə də, 2018-ci ildən sonra artım tendensiyası bərpa olunmuşdur. Sumqayıt Texnologiyalar Parkında, 2016-cı ildə inşasına başlanan və 2018-ci ildə tamamlanan iki zavodda alüminium və plastik profillərdən qapı və pəncərə istehsalı həyata keçirilir. Plastik konstruksiyaların istifadəsi tikinti sənayesində ağacdan daha sərfəli və dayanıqlı olduğu üçün geniş yayılmışdır [14, 282].

Ümumiyyətlə, 2003–2018-ci illər ərzində tikinti materialları istehsalı üzrə fəaliyyət göstərən müəssisələrin say göstəricilərinə nəzər saldıqda, 2003-cü ildə 191, 2008-ci ildə 298, 2011-ci ildə 244, 2015-ci ildə 239, 2018-ci ildə isə 236 müəssisənin mövcud olduğu məlum olur. Bu statistikaya əsasən, demək olar ki, tikinti sahəsində fəaliyyət göstərən müəssisələrin sayı illər üzrə dəyişkən dinamika nümayiş etdirir.

Hazırda ölkədə mürəkkəb nəqliyyat infrastrukturunun, müasir sənaye obyektlərinin və avanqard memarlıq üslubuna malik binaların inşası yerli şirkətlər tərəfindən həyata keçirilir. Bu da sübut edir ki, Azərbaycan artıq daxili resurslarına əsaslanaraq istənilən böyük miqyaslı tikinti layihələrini icra etmək gücünə malikdir. Bu uğurlar isə Prezident İlham Əliyevin sənayenin digər sahələri ilə yanaşı tikinti sektoruna da göstərdiyi diqqət və qayğının bariz nəticəsidir.

**Nəticə**. Beləliklə, 2003–2018-ci illər ərzində Azərbaycanda meşə və tikinti sənayesi yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Bu dövrdə ölkənin ümumi iqtisadi strategiyasına uyğun olaraq qeyri-neft sektorunun inkişafına xüsusi diqqət yetirilmişdir. Meşə ehtiyatlarının qorunması və bərpası istiqamətində dövlət proqramları hazırlanmışdır. Meşə fondunun inventarizasiyası aparılmış və meşə sahələrinin elektron bazası yaradılmışdır. Eyni zamanda, qeyri-qanuni ağac kəsilmələrinin qarşısının alınması məqsədilə nəzarət tədbirləri gücləndirilmişdir. Bu dövrdə ekoloji tarazlığın qorunması və biomüxtəlifliyin saxlanması prioritet məsələlərə çevrilmişdir. Əkinçilik üçün yararsız torpaqlarda meşə zolaqları salınaraq eroziya ilə mübarizə gücləndirilmişdir.

Tikinti sənayesində isə əsaslı canlanma müşahidə olunmuşdur. Bu sektor, neft gəlirlərinin iqtisadiyyata reinteqrasiyası ilə paralel olaraq genişlənmişdir. Bakı şəhərində və regionlarda çoxsaylı yaşayış və inzibati binalar inşa olunmuşdur. İnfrastruktur layihələri sürətlənmiş, yollar, körpülər və sosial obyektlər tikilmişdir. Tikinti sektoruna qoyulan investisiyalar artmış, həm yerli, həm də xarici şirkətlər bu bazarda fəaliyyət göstərməyə başlamışdır. Bu isə yeni iş yerlərinin açılmasına və əmək bazarının inkişafına səbəb olmuşdur.

Tikinti sahəsində tətbiq olunan müasir texnologiyalar və yeni tikinti materialları sənayenin rəqabət qabiliyyətini artırmışdır. Sement və digər inşaat materialları istehsalı müəssisələri modernləşdirilmişdir. Dövlət tərəfindən tikinti normaları və standartları yenilənmiş, texniki təhlükəsizlik məsələləri daha ciddi şəkildə nəzarətə götürülmüşdür. Eyni zamanda, sənayenin ekoloji aspektləri nəzərə alınmış, "yaşıl tikinti" prinsipləri təşviq edilmişdir.

Meşə və tikinti sənayesinin paralel inkişafı, ətraf mühitə təsirin balanslaşdırılması zərurətini gündəmə gətirmişdir. Meşə sahələrinin azalmasının qarşısının alınması üçün tikinti layihələrində ətraf mühit ekspertizasının aparılması vacib olmuşdur. Bu dövrdə meşə materiallarının qanunsuz istifadəsi halları ilə mübarizə tədbirləri gücləndirilmişdir. Yerli tikinti materiallarından istifadənin təşviqi ilə meşə ehtiyatlarına təzyiqin azalması təmin edilmişdir. Həm meşə, həm də tikinti sənayesi üzrə qəbul edilən dövlət proqramları bu sahələrin sistemli şəkildə inkişafını təmin etmişdir. Meşə və tikinti sektorunun inkişafı regional bərabərliyin təmin olunmasına da töhfə vermişdir. Bu sahələr üzrə peşə hazırlığı və ixtisasartırma kurslarının təşkili, insan resurslarının keyfiyyətini artırmışdır. 2003–2018-ci illərdə qəbul olunan qanunvericilik aktları və strateji sənədlər bu sahələrin normativ bazasını gücləndirmişdir.

Nəticə etibarilə, 2003–2018-ci illər dövründə Azərbaycanda meşə və tikinti sənayesi bir-biri ilə əlaqəli şəkildə inkişaf etmiş, iqtisadiyyatın şaxələndirilməsi və dayanıqlı inkişaf məqsədlərinə töhfə vermişdir. Gələcək dövrlərdə bu iki sektor arasında daha səmərəli əlaqələndirmə, ekoloji balansın qorunması və texnoloji yeniliklərin tətbiqi əsas prioritetlərdən biri olmalıdır.

**ƏDƏBİYYAT**


1. "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Fransa Respublikasının Kənd Təsərrüfatı, Ərzaq Emalı Sənayesi və Meşəçilik Nazirliyi arasında əməkdaşlıq haqqında" Anlaşma Memorandumunun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı // Azərbaycan. - 2014, 29 iyun. – s. 4
2. "Tikinti materiallarının və məmulatının standartlara uyğunluğunun yoxlanılması Qaydaları"nın təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərarı // Azərbaycan. - 2015, 12 fevral. – s. 2
3. Abbasov E. Ulu öndərimizin iqtisadi inkişaf strategiyası bu gün də uğurla həyata keçiri-

lir // Xalq qəzeti. - 2009, 9 may. – s. 5
4. Bakıda "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci illər)" icrasının yekunlarına həsr olunmuş konfrans keçirilmişdir // Azərbaycan. - 2009, 24 fevral. – s. 3
5. Bakıda xarici şirkətlərin istehsalı olan inşaat materialları və mebel sərgisi açılmışdır // Azərbaycan. - 2008, 12 fevral. – s. 6
6. Bayramov R. Şüşə sənayesinin inkişafına mane olan nədir // Azərbaycan. - 2011, 18 fevral. – s. 6
7. Bayramov V. "Embawood"un "Yenidən yeni" adlı təqdimat mərasimi // Xalq qəzeti. - 2011, 30 aprel. – s. 5
8. Əliyev İ. H. İnkişaf – məqsədimizdir/ İ. Əliyev. - Bakı: Azərnəşr, - c.1. – 2008.- 424 s.
9. Əliyev İ. H. İnkişaf – məqsədimizdir/ İ. Əliyev. - Bakı: Azərnəşr, - c.5. – 2010.- 392 s.
10. Əliyev İ. H. İnkişaf – məqsədimizdir/ İ. Əliyev. - Bakı: Azərnəşr, - c.26. – 2015.- 400 s.
11. Əliyev İ. H. İnkişaf – məqsədimizdir/ İ. Əliyev. - Bakı: Azərnəşr, - c.35. – 2016.- 396 s.
12. Əliyev İ. H. İnkişaf – məqsədimizdir/ İ. Əliyev. - Bakı: Azərnəşr, - c.64. – 2018.- 396 s.
13. Əliyev İ. H. İnkişaf – məqsədimizdir/ İ. Əliyev. - Bakı: Azərnəşr, - c.72. – 2018.- 400 s.
14. Əliyev İ. H. İnkişaf – məqsədimizdir/ İ. Əliyev. - Bakı: Azərnəşr, - c.76. – 2018.- 400 s.
15. Əliyev İ. H. İnkişaf – məqsədimizdir/ İ. Əliyev. - Bakı: Azərnəşr, -c.89.– 2019. - 392 s.
16. Əsgərov Ə. Məqsədimiz müştərilərin etimadını qazanmaqdır // Respublika. - 2014, 9 aprel. – s. 6.
17. Kamal R. Azərbaycan müasir tikinti sənaye kompleksinə malikdir // Azərbaycan. - 2014, 10 aprel. – s. 10.
18. Məmmədov Z. İ. Azərbaycanın ağac emalı - mebel istehsalı sənayesinin müasir vəziyyəti və perspektiv inkişaf istiqamətləri, Avtoreferat. - Gəncə, 2013, - s. 4-5.
19. Mustafayev Ş. Azərbaycan sənayesi: tarixi yolun uğurlu davamı edir // Azərbaycan. - 2015, 7 yanvar. – s. 2.
20. Mustafayev T. Azərbaycanda mebel sənayesinin inkişafı üçün böyük potensial var // Azərbaycan. - 2017, 7 may. – s. 12.
21. Mustafayev T. Özəl sektora dövlət qayğısı davam edir // Azərbaycan. - 2009, 25 dekabr. – s. 10.
22. Prezident İlham Əliyev Abşeron rayonunun Hökməli qəsəbəsində "M-Line" Məhdud Məsuliyyətli Cəmiyyətinin mebel fabrikinin açılışında iştirak etmişdir // Azərbaycan. - 2011, 21 fevral. – s. 1, 2.
23. Səlimov Ə. İsmayıllıda yeni tikinti materialları kombinatı istifadəyə verilib // Azərbaycan. - 2016, 27 iyul. – s. 1.

**İnternet resursları:**

24. Azərbaycan Respublikasının Statistika Komitəsi. Azərbaycanın sənayesi [Elektron resurs] / 27.10.2021. [12:35]URL: https://www.stat.gov.az/source/industry/
25. Azərbaycanın regionları son 10 ildə: dinamik inkişafın xronikası Masallı sürətlə inkişaf edir, gözəlləşir, abadlaşır [Elektron resurs] /04.02.2015 [12:34]. UREL: https://azertag.az/xeber/Azerbaycanin_regionlari_son_10_ilde_dinamik_inkisafin_xronikasiMasalli_suretle_inkisaf_edir_gozellesir_abadlasir-829633
26. Naxçıvanda dünyanın ən müasir mebelləri ilə rəqabətə girə biləcək keyfiyyətli məhsullar istehsal olunur /11.09.2017 [14:37]. URL: https://azertag.az/xeber/Naxchivanda_dunyanin_en_muasir_mebelleri_ile_reqabete_gire_bilecek_keyfiyyetli_mehsullar_istehsal_olunur-1092420

## ИЗ ИСТОРИИ РАЗВИТИЯ ЛЕСНОЙ ПРОМЫШЛЕННОСТИ, ПРОМЫШЛЕННОСТИ СТРОИТЕЛЬНЫХ МАТЕРИАЛОВ И МЕБЕЛЬНОГО ПРОИЗВОДСТВА В АЗЕРБАЙДЖАНЕ (2003–2018 ГГ.)

**Айтен Ш. ДЖАФАРЛИ**

### РЕЗЮМЕ

В статье рассматривается динамика развития лесной и строительной отраслей в Азербайджане в 2003–2018 годах. Основная цель исследования — выявить ключевые тенденции развития этих двух секторов в экономическом, экологическом и технологическом аспектах за указанный период, а также оценить характер их взаимного влияния.

В рамках исследования были использованы методы статистического анализа, изучение содержания государственных программ и нормативно-правовых актов, а также аналитические подходы, применяемые в смежных отраслях. Полученные результаты показали, что в рассматриваемые годы были достигнуты определённые успехи в области охраны и восстановления лесных ресурсов. Параллельно активно развивалась строительная отрасль, чему способствовали государственные инвестиции и внедрение технологических новшеств.

В заключение отмечается, что между развитием лесного и строительного секторов существует тесная взаимосвязь. Однако для предотвращения негативных экологических последствий необходимо проведение государством целенаправленной и сбалансированной политики, обеспечивающей устойчивое развитие обоих направлений.

**Ключевые слова:** ненефтяная промышленность Азербайджана, социально-экономическое развитие регионов, промышленный район, экономика

## FROM THE HISTORY OF THE DEVELOPMENT OF THE FORESTRY, CONSTRUCTION MATERIALS AND FURNITURE INDUSTRIES IN AZERBAIJAN (2003-2018)

**Aytan S. JAFARLİ**

### SUMMARY

This article examines the development dynamics of the forestry and construction industries in Azerbaijan during the period from 2003 to 2018. The primary objective of the study is to analyze the development trends of these two sectors from economic, environmental, and technological perspectives, and to assess the nature of their mutual influence.

The research methodology includes statistical data analysis, a review of state programs and legislative acts, as well as analytical approaches relevant to the field. The findings indicate that significant progress was made in the protection and restoration of forest resources during the specified period. Simultaneously, the construction sector experienced rapid growth, driven by state investments and the introduction of technological innovations.

The study concludes that there is a reciprocal relationship between the development of the forestry and construction sectors. However, in order to prevent this interaction from disrupting the ecological balance, it is essential for the state to pursue a well-planned and regulated policy framework.

**Keywords:** non-oil industry of Azerbaijan, socio-economic development of regions, industrial district, economy

## KİTABXANAŞÜNASLIQ

UOT 02 (091); 021

# AZƏRBAYCANDA KİTABXANA İŞİNİN TƏŞKİLİ VƏ İNKİŞAFINDA HEYDƏR ƏLİYEVİN ROLU

**Nigar N.İSMAYILOVA***

*Məqalədə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin istər sovet dövründə, istərsə də müstəqillik illərində Azərbaycana rəhbərliyi zamanı kitabxana işinin inkişafi üçün gördüyü işlərdən söz açılır. Onun kitaba və kitabxanalara qayğısı konkret faktların dili ilə diqqətə çatdırılır. Kitabxana işinin hüquqi bazasının formalaşmasında ümummilli liderin xidmətlərindən bəhs olunur.*

**Açar sözlər:** Azərbaycan, Heydər Əliyev, kitabxana işi, Azərbaycan Milli Kitabxanası

**Giriş**. Müasir Azərbaycan tarixinin, mədəniyyətinin bütöv bir qərinəsi, bir əsrlik tarixində xalqın ictimai-siyasi, iqtisadi və mədəni həyatının bütün sahələrində dirçəlişi Heydər Əliyevin adı ilə sıx bağlıdır. Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyev Azərbaycan tarixinin yetirdiyi ən böyük şəxsiyyətlərdən biridir.

Azərbaycan tarixinə "Heydər Əliyev dövrü" kimi əbədi həkk olunmuş zaman kəsimində ölkəmizin elmi, mədəniyyəti və incəsənəti böyük yüksəliş mərhələsini yaşamışdır. Mədəniyyəti xalqın böyük sərvəti hesab edən ulu öndər "*Xalq bir çox xüsusiyyətləri ilə tanınır, sayılır və dünya xalqları içərisində fərqlənir. Bu xüsusiyyətlərdən ən yüksəyi, ən böyüyü mədəniyyətdir*", - deyirdi [2, s. 213]. Buna görə də ulu öndər mədəni-mənəvi dəyərlərin qorunması, təbliği və yeni estetik düşüncəyə məxsus əsərlərin yaradılması üçün geniş perspektivləri olan bir sistem formalaşdırdı. XX əsrdə Azərbaycan mədəniyyətinin bütün sahələrinin, o cümlədən kitabxana işinin geniş

* *BDU-nun Elmi Kitabxanasının direktoru, Kitabxanaşünaslıq kafedrasının dosenti; nigarismilova@bsu.edu.az; ORCİD İD: 0009-0001-1713-4916*

vüsətli inkişafı və əldə etdiyi böyük nailiyyətlər Heydər Əliyevin müstəsna tarixi xidmətlərinin nəticəsində mümkün oldu.

Tarixə nəzər salarkən görmək olur ki, Azərbaycana rəhbərliyinin birinci dövründə Heydər Əliyev özünün qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində, uzaqgörən və məqsədyönlü qərarları ilə çox qısa müddətdə respublikamızda sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında böyük sıçrayışa nail olmuşdur. Bu mərhələdə milli mədəniyyətimizin ayrılmaz tərkib hissəsi olan kitabxana işinin inkişafı sahəsində də əldə edilmiş uğurlar önəmli olmuşdur. Kitab və kitabxana işinə yüksək qiymət verən, onu Azərbaycan mədəniyyətinin aparıcı sahəsi kimi dəyərləndirən ulu öndər rəhbərliyinin birinci dövründə kitabxana işinin inkişafına, xüsusilə kənd kitabxana şəbəkəsinin genişləndirilməsinə xüsusi diqqət yetirmişdir. 1960-cı illərdə ləğv edilmiş kənd kitabxanaları bərpa edilmiş, onların maddi-texniki bazası möhkəmləndirilmiş, kadr tərkibi yaxşılaşdırılmışdır. Həmçinin 1974-cü ildə ulu öndərin rəhbərliyi ilə qəbul edilən "Zəhmətkeşlərin tərbiyəsində və elmi-texniki tərəqqidə kitabxanaların rolu" qərarına əsasən yaradılan şəhər və rayon mərkəzləşdirilmiş kitabxana şəbəkələri o dövr üçün çox əhəmiyyətli idi və bu gün də əhalinin maariflənməsində xüsusi rol oynamaqdadır [1, s. 126]. Hazırda mövcud olan Mədəniyyət Nazirliyinin, Elm və Təhsil Nazirliyinin, AMEA-nın, həmkarlar ittifaqları təşkilatlarının kitabxana şəbəkələri məhz həmin dövrdə bitkin bir sistem kimi formalaşmışdır.

Respublikamız müstəqillik qazandıqdan sonra Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrində əsl dönüş yarandı, elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Ulu öndərin ikinci dəfə hakimiyyətə gəlişi kitabxana işinin, kitabxanaların qurtuluş illəri kimi xarakterizə edilə bilər. Məhz həmin dövrdə kitabxanaların kütləvi surətdə bağlanmasının, onların binalarının icarəyə verilməsi, digər məqsədlər üçün istifadə edilməsi, ümumiyyətlə, dövlət kitabxana şəbəkələrinin məhvi prosesinin qarşısı alındı.

1995-ci il sentyabr ayının 29-da Heydər Əliyev tərəfindən "Azərbaycan Respublikasında 1995-1998-ci illər dövlət mülkiyyətinin özəlləşdirilməsinin dövlət proqramının təsdiq edilməsi haqqında" fərman imzalandı [4]. Bu fərmanın birinci bölməsində özəlləşdirilməsi qadağan olunan müəssisə və obyektlərin siyahısı verilirdi. Siyahıya kitabxanaların daxil edilməsi onların özəlləşdirilməsinin və binalarının digər məqsədlər üçün istifadə edilməsinin qarşısını aldı. Bununla da keçid dövrünün çətinliklərinə baxmayaraq, bir sıra ictimai təşkilatların kitabxanaları istisna olmaqla, Azərbaycan keçmiş SSRİ məkanında dövlət kitabxanalarını bütövlükdə qoruyub saxlayan yeganə dövlət oldu.

Ümummilli liderin kitab və kitabxana işinə diqqət və qayğısının bariz nümunəsi 1995-1997-ci illərdə dörd dəfə Milli Kitabxanaya gəlişidir. O, fəlsəfi mahiyyətə malik geniş nitqində "*Kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir. Ona görə də kitabxanaya daimi hörmət xalqımızın mədəniyyətini nümayiş etdirən amillərdən biridir*" söyləmişdi [5, s. 160].

Öz şəxsi kitabxanasından 300 nüsxəyədək çox qiymətli kitabı, o cümlədən müqəddəs Həcc ziyarəti zamanı ona bağışlanan “Qurani Kərim”i Milli Kitabxanaya hədiyyə edən Heydər Əliyev bununla tanınmış ictimaiyyət nümayəndələrinə kitabxanaların fondunun zənginləşdirilməsi işində nümunə olmuşdu. Bundan başqa, Ulu Öndərin göstərişi ilə 1997-ci ildən başlayaraq Nazirlər Kabineti hər il Milli Kitabxanaya xarici ədəbiyyat və xarici dövri nəşrlər almaq üçün 5000 ABŞ dolları həcmində vəsait ayırmışdı. Bu gün bu məbləğ hamı üçün kiçik görünsə də, həmin dövrdə Milli Kitabxananın illik büdcəsinin bütövlükdə heç 5 min dollar olmadığını nəzərə alanda, bu zaman bu məbləğin kitabxananın fondunun xarici kitablar və dövri nəşrlərlə komplektləşdirilməsində böyük rol oynadığı daha aydın görünər. Elə bu qayğının nəticəsidir ki, artıq 2000-ci ildə Milli Kitabxanaya daxil olan yeni ədəbiyyatın miqdarı xeyli artaraq 14.780 nüsxəyə çatmış, bunların da 9584 nüsxəsi kitablar olmuşdu.

Keçid dövründə baş verən hadisələrdən daha çox zərər görən mədəniyyət və incəsənət sahələrində təcrübəli siyasətçinin rəhbərliyi ilə ardıcıl addımlar atıldı, kitabxana işinin də ahəngdar inkişafına zəmin yarandı. Mədəniyyət sisteminin möhkəm təməllər üzərində qurulan inkişafı keçid dövrünün çətin sınaqlarından qısa müddət ərzində üzüağ çıxmasını şərtləndirdi. Heydər Əliyevin rəhbərliyi altında dövlətin mədəniyyət siyasətinin hüquqi bazası – qanunvericilik təminatı yaradıldı. Qısa müddət ərzində mədəniyyət sahəsində 10-dan artıq - “Mədəniyyət haqqında” (1996), “Tarix və mədəniyyət abidələrinin qorunması haqqında” (1998), “Kitabxana işi haqqında (1998), “Kinematoqrafiya haqqında” (1998), “Memarlıq fəaliyyəti haqqında” (1998), “Milli Arxiv Fondu haqqında” (1999), “Muzeylər haqqında” (2000), “Nəşriyyat işi haqqında” (2000) və s. qanunlar qəbul edildi [3, s. 96]. Eyni zamanda ölkəmizdə mədəni irsin inkişafı, kulturoloji və turizm təhsili, teatr, kino, kitabxana və muzey işi və s. mədəniyyət sahəsinin inkişafını gücləndirən dövlət proqramları qəbul edildi.

“Kitabxana işi haqqında” Azərbaycan Respublikası Qanununda Milli Kitabxanaya ayrıca bir bölmə həsr olunmuş və ölkə ərazisində dərc olunan çap məhsullarından Milli Kitabxanaya pulsuz məcburi nüsxələrin verilməsi müddəası da məhz ilk dəfə bu qanunla təsbit olunmuşdur. Sovet rejiminin yeritdiyi siyasət nəticəsində müstəqilliyimizin bərpasından sonrakı ilk illərdə Milli Kitabxananın kitab fondunun 80 faizindən çoxu rus dilində ədəbiy-

yatdan ibarət idi. Ona görə də kitab fondunda milli dildə ədəbiyyatın xüsusi çəkisinin artırılması əsas vəzifə kimi qarşıda dururdu. Ulu Öndərin rəhbərliyi ilə XX əsrin 90-cı illərinin ortalarından bu istiqamətdə aparılan məqsədyönlü işlərin nəticəsində artıq 2000-ci ildə fonda daxil olan ədəbiyyatın 90 faizindən çoxu milli dildə olmuşdu. Təbii ki, XX əsrin 90-cı illərinin ortalarından kitab alınması üçün ayrılan vəsaitin getdikcə artması da bu işdə əhəmiyyətli rol oynamışdı.

**Nəticə**. Beləliklə, müstəqillik illərində "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununa və ulu öndərin Azərbaycançılıq fəlsəfi konsepsiyasına əsaslanan Azərbaycan dövlətinin kitabxana siyasəti formalaşdı, kitabxana işi mədəni quruculuğun tərkib hissəsi kimi dövlətin qayğısı nəticəsində uğurlu inkişaf yoluna qədəm qoydu. Həmçinin bu qanun dövlət kitabxana şəbəkəsinin formalaşdırılmasında, kitabxana sahəsinə dair normativ-hüquqi bazanın yaradılmasında, kitabxana işçilərinin sosial müdafiəsinin möhkəmləndirilməsində də mühüm rol oynadı.

Bu gün də xalqımızın milli-mənəvi dəyərlərinin qorunub saxlanması, mədəni irsinin yaşadılması və təbliği, eləcə də onun ümumi mədəni səviyyəsinin və dünyagörüşünün yüksəldilməsi ümdə bir məsələ olub, daim Azərbaycan dövlətinin diqqət mərkəzindədir. Heydər Əliyevin mədəniyyət siyasəti Azərbaycan Prezidenti cənab İlham Əliyevin tərəfindən uğurla davam etdirilir. 2003-cü ildən sonra Azərbaycanda Heydər Əliyevin mədəniyyətimizin inkişafı ilə bağlı ideyaları davamlı olaraq həyata keçirilir. Azərbaycanda mədəniyyətin müxtəlif sahələri – teatr, kino, kitabxana və muzey işinin inkişafı ilə bağlı imzalanan fərman və sərəncamlar, qəbul olunan dövlət proqramları ölkəmizdə mədəniyyətin tərəqqisinə yeni stimul yaratmışdır. Ədəbiyyat və incəsənət xadimlərinə keçirilən yubileylər, verilən dövlət mükafatları və adları, ölkəmizin hər yerində yenicə tikilən və əsaslı təmir edilən teatr, muzey, kitabxana binaları, mədəniyyət sarayları bu sahəyə olan diqqət və qayğının bariz təzahürüdür. Bütün bunlar isə əmin olmağa imkan verir ki, Azərbaycanda Heydər Əliyev irsi daim yaşadılacaq.

Azərbaycan xalqının taleyinə fenomen şəxsiyyət, uzaqgörən siyasətçi, böyük dövlət adamı kimi yazılan Ümummilli Lider Heydər Əliyev mənsub olduğu xalqın etibarlı gələcəyi naminə yorulmadan çalışmış, ölkəsinin tarixində dərin iz qoymuşdur. Bizim nəsil çox xoşbəxtdir ki, Heydər Əliyevlə bir epoxada yaşamaq nəsibimiz oldu və ulu öndərin mədəniyyətimizə, incəsənətimizə, kitabxana işinə göstərdiyi böyük qayğının şahidinə çevrildik.

**ƏDƏBİYYAT**

1. Əhmədov E.Y. Azərbaycanda kitabxana-informasiya işinin hüquqi bazası: Dərs vəsaiti.- Bakı: Bakı Universiteti nəşriyyatı, - 2012, - 216 s.
2. Xələfov A.A. Heydər Əliyev və Azərbaycanda kitabxana işi. – Bakı: Azərnəşr, - 2006.- 312 s.

3. Xələfov A.A. Azərbaycanda kitabxana işinə dair Heydər Əliyev doktrinası uğurla davam edir. - Bakı, 2009. - 185 s.
4. Xələfov A.A. Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin formalaşmasında Heydər Əliyev irsinin rolu // Azərbaycan . -2001. - 10 oktyabr.
5. Tahirov K.M. Dünya milli kitabxanaları. M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanası: Dərs vəsaiti. Bakı, Bakı Universiteti nəşriyyatı. - 2013. - 212 s.

## РОЛЬ ГЕЙДАРА АЛИЕВА В ОРГАНИЗАЦИИ И РАЗВИТИИ БИБЛИОТЕЧНОГО ДЕЛА В АЗЕРБАЙДЖАНЕ

**Нигяр Н.ИСМАИЛОВА**

### РЕЗЮМЕ

В статье рассматривается работа общенационального лидера азербайджанского народа Гейдара Алиева по развитию библиотечного дела в период его руководства Азербайджаном, как в советское время, так и в годы независимости. Его забота о книгах и библиотеках доносится посредством языка конкретных фактов. Отмечены заслуги национального лидера в формировании правовых основ библиотечной деятельности.

**Ключевые слова:** Азербайджан, Гейдар Алиев, библиотечное дело, Национальная библиотека Азербайджана.

## THE ROLE OF HEYDAR ALIYEV IN THE ORGANIZATION AND DEVELOPMENT OF LIBRARY SCIENCE IN AZERBAIJAN

**Nigar N.ISMAYILOVA**

### SUMMARY

The article examines the work of the national leader of the Azerbaijani people Heydar Aliyev on the development of library work during his leadership of Azerbaijan, both in Soviet times and in the years of independence. His concern for books and libraries is conveyed through the language of specific facts. The merits of the national leader in the formation of the legal basis for library activities are noted.

**Keywords:** Azerbaijan, Heydar Aliyev, library work, National Library of Azerbaijan.

# MÜNDƏRİCAT

## ƏDƏBİYYAT

**Xuraman A. QƏDİMOVA**
Türk ədəbiyyatında vəzn və yeni dil mübahisələri ............................................ 5
**Lalə S.ƏLİYEVA**
Türk xalqları ədəbiyyatında “Yusif və Züleyxa” mövzusu,
Məhəmməd Füzuli nəsrində onun yeri ............................................................. 13

## TARİX

**İbrahim X.ZEYNALOV**
XX əsrin 50-ci illərində Azərbaycanda dövlət dili məsələsi ............................... 22
**Yoşihiro NİŞİAKİ, Azad ZEYNALOV, Yaqub MƏMMƏDOV**
Orta Paleolit dövrünə aid Tağlar mağarasında qazıntıların bərpası..................... 33
**Xəyyam C.İSMAYILOV**
XX əsrin 30-cu illərində konstitusiya qanunvericiliyinin yenilənməsinin
xüsusiyyətləri.................................................................................................... 40
**Bəymirzə Ş.ŞABIYEV**
XV-XVIII əsrlərdə Üçkilsə katalikoslarının gəlir mənbələri
(vergi və ianələr)................................................................................................ 60
**Hüseyn A.HÜSEYNLİ**
Türkiyənin Cənubi Qafqaz siyasətində Gürcüstanla mədəni
və humanitar əlaqələr: 2002–2021-ci illər üzrə təhlil.......................................... 66
**Şamil N. NƏCƏFOV**
Yastıtəpə yaşayış məskəninin qədim sakinlərinin daş əmək alətləri ................... 75
**Günel Ə.RƏHİMLİ**
Qızılbaş türkmanların səfəviyyə təriqətindəki fəaliyyətləri ................................ 87
**Səadət C.ƏLƏKBƏROVA**
XII-XIII əsrlərdə Şirvanşahlar dövləti ərazisində elm, mədəniyyət
və incəsənət ...................................................................................................... 101
**Balamirzə A.MƏMMƏDLİ**
Azərbaycan-Fransa münasibətləri (1991-2025): Vətən tarixşünaslığı
prizmasından təhlil ........................................................................................... 111
**Aytən Ş.CƏFƏRLİ**
Azərbaycanda meşə, tikinti materialları və mebel sənaye sahələrinin
inkişafı tarixindən (2003-2018-ci illər) ............................................................... 126

## KİTABXANAŞÜNASLIQ

**Nigar N.İSMAYILOVA**
Azərbaycanda kitabxana işinin təşkili və inkişafında Heydər Əliyevin rolu....... 139

## СОДЕРЖАНИЕ

### ЯЗЫКОЗНАНИЕ

**Хураман А.ГАДИМОВА**
Метр в турецкой литературе и споры о новом языке....................................5
**Лала С.А.АЛИЕВА**
Тема «Юсуф и Зулейха» в литературе тюркских народов, его место
в прозе Махаммада Фузули .........................................................................13

### ИСТОРИЯ

**Ибрагим Х.ЗЕЙНАЛОВ**
Вопрос государственного языка в Азербайджане в 50-х годах XX века .....22
**Йошихиро НИШИАКИ, Азад ЗЕЙНАЛОВ, Ягуб МАМЕДОВ**
Возобновление раскопок среднепалеолитической пещеры Таглар.............33
**Хайям Дж.ИСМАЙЛОВ**
Особенности обновления конституционного законодательства
в 30-е годы XX века........................................................................................40
**Баймирза Ш.ШАБИЕВ**
Источники дохода каталикосов Учкилсы (налоги и пожертвование)..........60
**Гусейн А.ГУСЕЙНЛИ**
Культурные и гуманитарные отношения с Грузией в политике
Турции на Южном Кавказе: анализ за период 2002–2021 гг. .......................66
**Шамиль Н. НАДЖАФОВ**
Каменные орудия труда древних жителей поселения Ястытепе..................75
**Гюнел А.РАХИМЛИ**
Деятельность кизилбашских тюркмен в сефевидском ордене......................87
**Саадат Дж. АЛЕКПЕРОВА**
Наука, культура и искусство на территории государства Ширваншахов
в XII-XIII веках ................................................................................................101
**Баламирза А.МАМЕДЛИ**
Азербайджано-французские отношения (1991-2025 гг.):
анализ через призму отечественной историографии ....................................111
**Айтен Ш. ДЖАФАРЛИ**
Из истории развития лесной промышленности, промышленности
строительных материалов и мебели в Азербайджане (2003-2018 гг.)..........126

### БИБЛИОТЕКОВЕДЕНИЕ

**Нигяр Н.ИСМАИЛОВА**
Роль Гейдара Алиева в организации
и развитии библиотечного дела в Азербайджане..........................................139

## CONTENS

### LİNGUİSTİCS

**Khuraman A.GADİMOVA**
Meter and new language debates in turkish literature ........................................ 5
**Lala S.ALİYEVA**
The theme of "Yusuf and Zuleikha" in the literature of the turkic peoples, its place in the prose of Mahammad Fuzuli ........................................ 13

### HİSTORY

**Ibrahim KH.ZEYNALOV**
The issue of the state language in Azerbaijan in the 50$^{s}$ of the XX century ........ 22
**Yoshihiro NISHIAKI, Azad ZEYNALOV, Yagub MAMMADOV**
Resumption of the excavations of the Middle Paleolithic Taglar Cave ............ 33
**Khayyam J. ISMAYILOV**
Peculiarities of updating constitutional legislation in the 30$^{s}$ of the 20$^{th}$ century ........................................ 40
**Baymirza S. SHABIYEV**
Sources of income of Uchkilsa catholicos (taxets and donations) ....................... 60
**Huseyn A. HUSEYNLI**
Cultural and Humanitarian Relations with Georgia in Turkey's South Caucasus Policy: An Analysis for the Period 2002–2021 ......................... 66
**Shamil N.NAJAFOV**
Stone tools of the ancient inhabitants of Yastitepe settlement ............................ 75
**Gunel A. RAHIMLI**
The activities of Qizilbash Turkmens in the Safavid order ................................. 87
**Saadat J. ALAKBAROVA**
Science, culture and art in the territory of Shirvanshahs' state in the XII-XIII centuries ........................................ 101
**Balamirza A.MAMMADLI**
Azerbaijan-France relations (1991-2025): analysis through the prism of domestic historiography ........................................ 111
**Aytan S. JAFARLİ**
From the history of the development of the forestry, construction materials and furniture industries in Azerbaijan (2003-2018) ........................................... 126

### LIBRARY SCIENCE

**Nigar N.ISMAYILOVA**
The role of Heydar Aliyev in the organization and development of library science in Azerbaijan ............................................. 139

## MÜƏLLİFLƏRİN NƏZƏRİNƏ!

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının sədrinin 07.05.2021-ci il tarixli 48-01-947/16 saylı məktubunu əsas tutaraq «Bakı Universitetinin Xəbərləri» jurnalının redaksiya heyəti bildirir ki, nəşr etdirmək üçün təqdim edilən məqalələr aşağıdakı qaydalar əsasında tərtib edilməlidir:

1. Təqdim olunan məqalənin mətni – A4 formatında, sətirlərarası – 1 intervalla, yuxarıdan – 5 sm, aşağıdan – 3,75 sm, soldan – 4 sm, sağdan – 3,5 sm, Times New Roman – 12 (Azərbaycan dilində – latın əlifbası, rus dilində – kiril əlifbası, ingilis dilində – ingilis əlifbası ilə) şrifti ilə yığılmalıdır.

2. Hər bir məqalənin müəllifinin (müəlliflərinin) adı və soyadı tam şəkildə yazılmalı, elektron poçt ünvanı, çalışdığı müəssisənin (təşkilatın) adı göstərilməlidir.

3. Hər bir məqalədə UOT indekslər və ya PACS tipli kodlar və açar sözlər verilməlidir (açar sözlər məqalənin və xülasələrin yazıldığı dildə olmalıdır).

Məqalələr və xülasələr (üç dildə) kompüterdə çap olunmuş şəkildə disklə birlikdə təqdim olunur, disklər geri qaytarılmır!

Əlyazmalar kvartalın əvvəlindən bir ay keçməmiş verilməlidir.

4. Hər bir məqalənin sonunda verilmiş ədəbiyyat siyahısı Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının «Dissertasiyaların tərtibi qaydaları» barədə qüvvədə olan Təlimatının «İstifadə edilmiş ədəbiyyat» bölməsinin əlavə 4.1 tələbləri əsas götürülməlidir.

Kitabların (monoqrafiyaların, dərsliklərin və s.) biblioqrafik təsviri kitabın adı ilə tərtib edilir. Məs.: Qeybullayev Q.Ə. Azərbaycan türklərinin təşəkkülü tarixindən. - Bakı: Azərnəşr, - 1994. - 284 s.

Müəllifi göstərilməyən və ya dörddən çox müəllifi olan kitablar (kollektiv monoqrafiyalar və ya dərsliklər) kitabın adı ilə verilir. Məs.: Kriminalistika: Ali məktəblər üçün dərslik / K.Q.Sarıcalinskayanın redaktəsi ilə. - Bakı: Hüquq ədəbiyyatı, - 1999. - 715 s.

Çoxcildli nəşrə aşağıdakı kimi istinad edilir. Məs.: Azərbaycan tarixi: [7 cilddə], - Bakı: Elm, - 2000. IV c., - 456 s.

Məqalələrin təsviri aşağıdakı şəkildə olmalıdır. Məs.: Vəlixanlı N.M. X əsrin ikinci yarısı – XI əsrdə Azərbaycan feodal dövlətlərinin qarşılıqlı münasibətləri və bir daha «Naxçıvanşahlıq» haqqında // - Bakı: AMEA-nın Xəbərləri. Tarix, fəlsəfə, hüquq seriyası, - 2001. № 3. - s. 120-129.

Məqalələr toplusundakı və konfrans materiallarındakı mənbələr belə göstərilir. Məs.: Məmmədova G.H. Azərbaycan memarlığının inkişafında Heydər Əliyevin rolu / Azərbaycan Respublikasının Prezidenti H.Ə.Əliyevin 80 illik yubileyinə həsr olunmuş elmi-praktik konfransının materialları. - Bakı: Nurlan, - 2003. - s.3-10.

Dissertasiyaya istinad belə olmalıdır. Məs.: Süleymanov S.Y. Xlorofill-zülal kompleksləri, xlorplastların tilakoid membranında onların struktur-molekulyar təşkili və formalaşmasının tənzimlənməsi: Biol. elm. dok. dis. - Bakı, 2003. - 222 s.

Dissertasiyanın avtoreferatına da eyni qaydalarla istinad edilir, yalnız «avtoreferat» sözü əlavə olunur.

Qəzet materiallarına istinad belə olmalıdır. Məs.: Məmmədov M.A. Faciə janrının tədqiqi // «Ədəbiyyat və incəsənət» qəz., - Bakı, 1966, 14 may.

Arxiv materiallarına aşağıdakı kimi istinad edilir. Məs.: Azərbaycan Respublikası MDTA: f.44, siyahı №2, iş №26, vərəq.3-5.

İstifadə edilmiş ədəbiyyat siyahısında son 5-10 ilin ədəbiyyatına üstünlük verilməlidir.

Redaktoru: *Məryəm Qədimova*

Korrektoru: *Solmaz Babaşova*

Kompüter tərtibçisi: *Azadə İmanova*

Çapa imzalanmışdır: 07.05.2025
Formatı: 70x100 1/16. Həcmi 9,25 ç.v. Sayı 100.

---

BDU Nəşr Evində çap olunmuşdur.
AZ 1148, Bakı ş., ak. Z.Xəlilov küçəsi, 33.
Tel: (+99412) 538 87 39 / 538 50 16
e-mail: bdumetbee@gmail.com
www.bsu.edu.az